


**HELP**

Hüquqşünaslar üçün
İnsan Hüquqlarının Tədrisi üzrə
Avropa Proqramı

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

# Hüquqşünaslar üçün İnsan Hüquqları üzrə təlim metodologiyasına dair **HELP Bələdçi kitabı**

**Avropa Şurası**

*Bu sənəddə ifadə edilən fikirlərə görə müəlliflər məsuliyyət daşıyır və onlar Avropa Şurasının rəsmi siyasətini mütləq şəkildə əks etdirmir.*

Bu sənədin tam və ya bir hissəsinin yenidən nəşr edilməsi və ya tərcümə edilməsi ilə bağlı bütün müraciətlər Kommunikasiya Direktorluğuna ünvanlanmalıdır (F-67075 Strasburq Cedex və ya publishing@coe.int). Bu sənədlə bağlı bütün digər yazışmalar DGI-Help-Programme@coe.int ünvanlanmalıdır.

Üz qabığı və tərtibat: Sənədlərin və Nəşrlərin Hazırlanması Departamenti (SPDP), Avropa Şurası

Üz qabığının şəkli: DC Avropa Şurası

© Avropa Şurası, May 2016

# Mündəricat


NƏ ÜÇÜN BU BƏLƏDÇİ? ... 6

ÖN SÖZ ... 10

İXTİSARLARIN SİYAHISI ... 14

HİSSƏ 1: GİRİŞ ... 17

HÜQUQŞÜNASLAR ÜÇÜN İNSAN HÜQUQLARI TƏLİMİ ... 17

a) İnsan hüquqları təlimi və insan hüquqlarının müdafiəsinin artırılmasına potensial təsiri ... 17

b) Hüquqşünaslar üçün insan hüquqları tədrisinin müxtəlif səviyyələri ... 18

c) İnsan hüquqları təlimi üçün xüsusi hədəf auditoriyalar ... 20

d) İnsan Hüquqları təliminə xas çətinliklər ... 23

e) AİHM-ın presedent hüququna çatımla bağlı çətinliklər ... 29

HELP İNSAN HÜQUQLARI TƏLİMİ ÜÇÜN VASİTƏ KİMİ ... 33

a) HELP nədir? ... 33

b) HELP necə işləyir ... 36

HİSSƏ 2: HELP KURSU: TƏRTİBATDAN QİYMƏTLƏNDİRMƏYƏ QƏDƏR ... 43

MƏRHƏLƏ 1: NƏYİ BİLMƏLİSİNİZ ... 43

a) Ehtiyacların qiymətləndirilməsi ... 43

b) Ümumi Məqsədlərin müəyyən edilməsi ... 50

MƏRHƏLƏ 2: NƏ ETMƏLİSİNİZ - HELP YANAŞMASI ... 51

a) Kursun hazırlanması ... 51

b) Kursun adaptasiya edilməsi (məzmun və format) ... 102

MƏRHƏLƏ 3: KURSU NECƏ HƏYATA KEÇİRMƏLİ ... 112

a) Ən müvafiq təlim metodlarının seçilməsi ... 112

b) Seçilən tədris metodunun Öyrənmə Məqsədləri ilə uyğunlaşdırılması ... 114

c) Kursun başladılması ... 116

d) Təlimin keçirilməsi: necə və kim tərəfindən ... 120

MƏRHƏLƏ 4: KURSU NECƏ QİYMƏTLƏNDİRMƏLİ VƏ İZLƏMƏNİ NECƏ PLANLAMALI ... 131

a) Öyrənənlərdən təlimçilərə rəy bildirməsi istənilir: ... 132

b) Qiymətləndirmə: nəticələr ... 134

c) İnsan hüquqları təliminin qiymətləndirilməsi üzrə HELP yanaşması ... 136

d) HELP kurslarının qiymətləndirmə səviyyələri ........ 137
e) Sertifikatlaşdırma və debrifinq görüşü ........ 137
f) Kursun yoxlanılması ........ 138
g) Müstəqil öyrənmə materialı kimi kurrikulumun istifadəsi: Distant öyrənmədən müstəqil öyrənməyə ........ 139
HİSSƏ 3: YEKUN - HELP Şəbəkəsində necə fəal rol oynamaq olar ........ 141
HELP ŞƏBƏKƏSİNİN ƏHƏMİYYƏTİ: ONUN BİR HİSSƏSİ OLMAQ ........ 141
HELP PLATFORMASINDAN İSTİFADƏ ETMƏNİN FAYDALARI ........ 143
HELP SERTİFİKATI ........ 144
a) HELP sertifikatı almış təlimçilər ........ 144
b) Kurslar üçün HELP sertifikatları ........ 144
c) HELP "yarlığının" verilməsi ........ 145
HELP-in 5 ƏSAS ÜSTÜNLÜYÜ ........ 145
RESURSLAR VƏ ƏLAVƏLƏR ........ 147

# Nə üçün bu bələdçi?

Avropa Şurasının məqsədlərindən biri Avropa İnsan Hüquqları Konvensiyasının milli səviyyədə tətbiq edilməsini təmin etməkdir. Konvensiyada təsbit olunmuş hüquq və azadlıqların qorunması üçün ən yaxşı yol onları Avropa ölkələrinin yerli institutları və milli təfəkkürünə aşılamaqdır. Məhkəmə sistemi insan hüquqlarının qorunmasında əsas rol oynayır. Məhz buna görə də Hüquqşünaslar üçün İnsan Hüquqları Tədrisi (HELP) və ümumi təlim xüsusilə əhəmiyyətlidir.

Bu bələdçi kitab HELP metodologiyası və resurslarından istifadə edərək hüquq mütəxəssislərinə insan hüquqları sahəsində təlim keçmək üzrə məsul olan şəxslərə kömək etmək üçün işlənib-hazırlanmışdır. O, insan hüquqları və xüsusən Avropa insan hüquqları standartları üzərində cəmləşən təlim proqramını işləyib-hazırlayarkən diqqətə alınmalı aspektləri müzakirə edir.

Hədəf kütləyə Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) və onun Fakültativ Protokollarında nəzərdə tutulan insan hüquqları zəmanətlərinin "təmin edilməsi" üçün məsul olan hakimlər, prokurorlar və vəkillərin cəlb olunması ehtimal edilir. Bununla belə, materiallar polis və hüquq-mühafizə orqanlarının əməkdaşları, həbsxana və probasiya heyəti, tibbi və psixi sağlamlıq heyəti, sosial işçilər kimi ictimai xidmətlərin göstərilməsində Avropa standartları üzrə biliklərə malik olmaları gözlənilən bütün mütəxəsisslər qrupuna təlim keçirilməsi üçün müvafiqdir. "HELP" tədris proqramı bu cür hədəf qruplar üçün müəyyən adaptasiya tələb edə bilər, lakin onun metodologiyasını asanlıqla müxtəlif hədəf kütlələrə uyğunlaşdırmaq mümkündür. Universitetlər və hüquq fakültələri də bu bələdçidən müxtəlif kurslarda insan hüquqları üzrə maariflənmənin inteqrasiyasında faydalana bilər.

Təlimin məqsədi tədrisi yaxşılaşdırmaqdır. İnsan hüquqları təliminin məqsədi ədalət mühakiməsi həyata keçirilərkən insan hüquqlarının müdafiəsinin səmərəli şəkildə təşkilini təmin etməkdir. Hüquq mütəxəssisləri bu baxımdan ilk sırada yer alır və nəticədə, insan hüquqları sahəsində verilən təlim insanların effektiv və səmərəli müdafiəsinin təmin edilməsində həlledici əhəmiyyət daşıyır.

Diqqətli planlaşdırma və ön hazırlıq nəinki təlimi hədəf kütlə (bu bələdçi kitabında "öyrənənlər" adlandırılır) üçün müvafiq və mənalı etmək, eyni zamanda onun tədrisində məsul olanların nəyə nail olmaq istədiklərinə dair aydın və ümumi anlayışın olmasını təmin etmək üçün həlledici əhəmiyyət daşıyır. Məzmunun böyük hissəsi cari "təlimçilər üçün təlim" yanaşmalarına əsaslanır, yəni təlimin təşkili və çatdırılması üzrə (və əsasən mənfi təcrübəyə əsaslanan "qarşısı alınmalı məqamlar" üzrə) bələdçiliyi təmin edir. Beləliklə, bu bələdçi təlim nəzəriyyəsi və praktiki bələdçiliyin qarışığıdır.

Nəticədə təlimin təkcə Strasburq təminatları barədə məlumatlılığın artırılmasına deyil, eləcə də öyrənənlərin bu standartların milli səviyyədə təmin edilməsinin real mənasının nə olduğunu anlamalarına gətirib-çıxarması gözlənilir. Avropada yaşayan 850 milyon insana Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) və Avropa Şurasının digər monitorinq mexanizmləri ilə verilən müdafiə yalnız yerli müdafiə mümkün olmadıqda və ya gözləntiləri qarşılamadıqda təmin edilir. Strasburq mühafizə mexanizmi insan hüquqlarının ilkin qoruyucusu deyil: ilkin müdafiə yerli orqanlar (məhkəmələr, prokurorlar, vəkillər, polis əməkdaşları və həbsxana xidməti) tərəfindən təmin edilir.

Beləliklə, insan hüquqları sahəsində təlim sadəcə Avropa gözləntiləri üzrə maarifləndirməni və ya bilikləri əhatə edə bilməz. Təlim həmçinin diqqəti insan hüquqları məsələlərini müəyyən etmək və insan hüquqları standartlarını faktiki hallara tətbiq etmək kimi bacarıqlara yönəltməlidir. İnsan hüquqlarının müdafiəsi milli səviyyədə təşkil edildiyi üçün Avropa insan hüquqları standartları sahəsində təlim milli məsələlərin müzakirəsini əhatə etməlidir və praktiki tətbiq bu Bələdçidə irəli sürülən təlim təşkilinin güclü yönünü formalaşdırır.

İnsan hüquqları təlimi həmçinin yekun miqyası ehtiva etməlidir: tutulan mövqenin dəyişdirilməsinə kömək etməlidir. Hüquq mütəxəssisləri Strasburq Məhkəməsinin presedent hüququnun və AİHK-nın nə tələb etdiyini bilə bilər, lakin bu standartların milli məhkəmələrdə tətbiqi üzrə fərdi öhdəlik daşımazlarsa, bu təlim səmərəsiz olacaq. Bir sözlə, öyrənənlərə dövlət məmurları olaraq insan hüquqları təminatlarını qorumaq və tətbiq etmək məsuliyyətlərinin olduğunu anlamağa kömək etmək üçün addımlar atılmadan, bilik və bacarıqlar kafi deyil. Adətən daxili müdafiə insan hüquqları standartları barədə məlumatlılığın olmamasından (və ya onları tətbiq edə bilməməkdən) deyil, insan hüquqlarının fəal qoruyucusu kimi çıxış etməyə istəyin olmamasından uğursuz olur. Çox zaman bu maneə onu göstərir ki, Avropa İnsan Hüquqları Konvensiyasının tətbiqi üçün Strasburq Məhkəməsinin məsuliyyət daşıması kimi böyük bir yalnış anlayış hökm sürür. Avropada milli hüquq sistemlərindəki bütün hakimlər həmçinin həqiqi mənada Avropa hakimləridir: onlar müdafiənin ön xəttində yer alır. Təlimin bu aspekti əlbəttə ki, xüsusi səy tələb edir. Eyni məsələ AİHK-na əsaslanan vəkillər və Avropa Şurasının hüquqi vasitələrini tətbiq edən prokurorlara da şamil edilir. İnsan hüquqlarının həyata keçirilməsinə görə ölkənin məsuliyyət daşıdığı mesaj rəhbərlik tərəfindən möhkəmləndirilməlidir - yəni, rəhbərlik vəzifəsini həyata keçirənlər və sözügedən idarəetmə orqanının rəhbərliyi tərəfindən verilən aydın və birmənalı mesajlar vasitəsilə milli səviyyədə öhdəliyin olması aşılanmalıdır. Səmərəli, fərdi və müvafiq təlimin təmin edilməsi bu mesajın çatdırılması üçün mühüm addımdır.

Tutulan mövqenin dəyişdirilməsi müvafiq olmayan dəyərlərin nəzərdən keçirilməsi konsepsiyası ilə yaxından əlaqəlidir. Dəyərlərin dəyişdirilməsi konsepsiyaları (bilik) aydın şəkildə anlayan və bu biliyi tətbiq etmək üçün bacarıqlar qazanan öyrənənlər tərəfindən əldə edilən tapşırıqdır. Öyrənənləri AİHK-nın tətbiqinə inandırmaq o deməkdir ki, dəyərlərin nəzərdən keçirilməsi tələb edilir. Əgər hüquq mütəxəssisləri AİHK-nın tətbiqinin zəruri olduğuna inanarsa, tutduqları mövqe dəyişmiş olacaq.

Bu bələdçi HELP metodologiyasından istifadə edərək insan hüquqları təlimini təkmilləşdirmək üçün atılmalı addımları müəyyən edir. O, tədris proqramlarına insan hüquqları təlimini, istər ilkin, istərsə də davamlı təlim kimi inteqrasiya etmək və ya inkişaf etdirmək istəyən təlim təşkilatları üçün nəzərdə tutulmuşdur. O, həmçinin bir çox müxtəlif hallarda təlim üçün və ümumən bütün hüquq mütəxəssislərini HELP barədə və onun hüquq mütəxəssislərinin peşə həyatlarında aktiv ola biləcəyi barədə məlumatlandırmaq məqsədi üçün vasitə kimi istifadə edildikdə, hüquq mütəxəssisləri üçün insan hüquqları sahəsində təlimin inkişaf etdirilməsində təlimə cəlb olunanlara kömək edən bir bələdçi kimi hazırlanmışdır.

İnsan hüquqları sahəsində səmərəli təlim mühüm əhəmiyyət kəsb edir. Bu bələdçi insan hüquqları üzrə təlimin müxtəlif mərhələlərdə AİHK-nın milli səviyyədə daha yaxşı tətbiq edilməsinə səmərəli şəkildə necə töhfə verə biləcəyini göstərir.

**Nə üçün səmərəli təlim**

- Ədalətli məhkəmə qərarlarının verilməsi yaxşı və **səmərəli** təlimin nəticəsidir
- Hüquq təhsilinin tətbiqi ən müsbət nəticələr verməyə bilər. Bu, hüquq mütəxəssislərinin peşəkar təlimə yanaşma tərzinin dəyişməsinə səbəb ola bilər.
- Təlimçilər didaktik yönlü tədris və təlim ilə bağlı əsas təcrübəyə malik ola bilər. Nəticədə əksəriyyət "təlim"ə biliyin mühazirə yönümlü tədris vasitəsilə çatdırılmasının daxil olması anlayışı ilə özlərini daha rahat hiss edəcəklər; eyni zamanda mövzu üzrə dərin biliyin olmaması maneə kimi görülə bilər.
- Peşəkar təlim metodları ali təhsildəki inkişafdan (və əksinə) çox şey götürə bilər.
- Hakim, prokuror və vəkillərin birinci kurs hüquq tələbləri olmadığı aydındır, lakin onların öyrənmə üsulları hüquq təhsilinin başlanğıc mərhələsindəkindən çox da fərqlənmir. Onları (və digər peşəkarları) fərqləndirən şey təcrübələrinin olmasıdır. Tipik hüquq tələbəsindən fərqli olaraq, onların (hüquqi) dünya haqqında anlayışları çoxdur.

*"HELP bütün üzv Dövlətlərə Konvensiyanın daxili hüquq və məhkəmə sistemi üzrə təlimə* ***səmərəli inteqrasiyası istiqamətindəki fəaliyyətində kömək edən Ümum-Avropa təlim platformasıdır****."*

Bu bələdçi boyunca aşağıdakı işarələr istifadə olunacaq:


Sual


Yoxlama siyahısı / addım-ba-addım


Uğur hekayəsi


Qeyd etmək


Vacib ideya



Məqsəd



Nümunə


Vebsayta keçin


Sitat



# ÖN SÖZ

**Thorbjørn Jagland**
Avropa Şurasının Baş Katibi

HELP Şəbəkəsini xatırlamaqdan məmnunluq duyuram: bu, Avropada hüquq təhsili sahəsində milli təhsil institutlarını (MTİ-lər) və vəkillər assosiasiyalarını (VA-ları) bir araya gətirən yeganə Ümum-Avropa Proqramıdır.

Mən sizin işin böyük tərəfdarıyam.

Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş əsas azadlıqların müdafiəsinin ən yaxşı yolu onları üzv dövlətlərin daxili qanunvericiliyində, təcrübədə və mədəniyyətində tətbiq etməkdir.

Strasburq hər zaman qitədə insan hüquqları, demokratiya və qanunun aliliyinin inkişafına töhfə verən fəal tərəfdaş olacaq.

Lakin dövlətlər Konvensiyanın əsas təminatçısıdır: niyyət həmişə bu olub.

Həmçinin mən çox məmnun oldum ki, 2015-ci ildə Brüsseldə Avropa ölkələrinin Xarici İşlər Nazirləri görüşəndə, onlar HELP Proqramının gücləndirilməsinin zəruriliyini vurğuladılar.

Əlbəttə ki, HELP milli təhsil institutlarının səylərini əvəz etmək üçün nəzərdə tutulmayıb.

Milli hökumətlər Konvensiyanın sahibi olduğu kimi, siz insan hüquqları tədrisinin sahibisiniz.

Lakin vacibdir ki, biz Avropada hüquqşünaslara dəstək olmaq üçün əlimizdən gələni edək, çünki onlar beynəlxalq hüququn sürətli inkişafına uyğunlaşırlar.

Həmçinin onlar dəyişən və tez-tez təcili insan hüquqları problemləri ilə məşğul olurlar.

Beləliklə, mən Şəbəkəni yenidən təbrik edirəm. Sizə gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

## HELP Katibliyi bu bələdçinin hazırlanmasında əməyi keçən hər kəsə öz təşəkkürünü bildirir. Xüsusilə:

**Vinsent Berger** Parisdə vəkil kimi fəaliyyət göstərir və Avropa Kollecində professordur, burada Avropa insan hüquqları müdafiəsi dərsini tədris edir. O, yeddi il Avropa İnsan Hüquqları Məhkəməsində hüquq məsləhətçisi kimi çalışmışdır.

**Doktor Qreqorz Borkovski** Polşada Mili Məhkəmə Şurasının rəhbəri və hakimdir. HELP-in Məşvərət Şurasının üzvü və onun ilk koordinatorudur. 2015-ci ildən əvvəl Polşada Məhkəmə və Dövlət İttihamı üzrə Milli Məktəbə (KSSİP) ezam olunmuş, Beynəlxalq Əməkdaşlıq Şöbəsinin rəhbəri vəzifəsində insan hüquqlarının müdafiəsi sahəsində hakim və prokurorların beynəlxalq əməkdaşlığı və təlimi vəzifəsi üzrə məsul olmuşdur. 2011-ci ildən bəri Avropa Məhkəmə Sistemininin Təlim Şəbəkəsinin (EJTN) İşçi Qrupunun fəal üzv olmuş, həm ekspert, həm də sədr kimi çıxış edərək Avropa məhkəmə sisteminin üzvləri üçün təlimin təşkili üçün məsul olmuşdur. Hüquq elmləri doktoru kimi 2010-cu ildən bəri universitetlərdə mühazirələr vermiş, Şərqi və Qərbi Avropada məhkəmə sistemi sahəsində çoxsaylı təlimlərdə insan hüquqları ilə bağlı məsələlər üzrə seminarlarda mühazirəçi və rəhbər kimi iştirak etmişdir. 2013-ci ildən 2014-cü ilə kimi Strasburqda Avropa İnsan Hüquqları Məhkəməsində uzunmüddətli məhkəmə sistemi üzrə təlim proqramında iştirak etmişdir.

**Iain Kulkin** Birləşmiş Krallığın Təlim Texnoloqu və Tədris Prosesinin Tərtibatçısıdır. Böyük Britaniyanın Dövlət Qulluğunda 8 il elektron öyrənmə modelini işləyib-hazırladıqdan sonra lain öz elektron öyrənmə şirkətini qurmuşdur. Elektron öyrənmənin üstünlüklərindən yararlanaraq təşkilatları bu texnologiyadan istifadə etməyə ruhlandırmağı - eyni zamanda onları daxili istehsaldan asılılığa təşviq etməyi hədəfləyir. 2014-cü ilin fevral ayından bəri HELP proqramına elektron öyrənmə metodologiyası üzrə rəhbərlik etmiş və komandaya təsirli öyrənmə kataloqu hazırlamağa kömək etmişdir.

**Astrid Hopma** Hollandiyada Ədliyyə Sisteminin Təlim və Tədris Mərkəzində (SSR) rəqəmsal öyrənmə üzrə məsləhətçidir. Kurs meneceri və təlim təşkilatçısı kimi işlədikdən sonra o, son illərdə elektron öyrənmə sahəsinə daha maraqlı və fəal olmuşdur. Hazırda o, qarışıq öyrənmə üzrə tədris proqramının hazırlanması sahəsində məsləhətçi və təlimçi kimi fəaliyyət göstərir. Onun məqsədi rəqəmsal təcrübə yaratmaq və onu inkişaf etdirmək, tələbələrin gözləntilərini qarşılamaq və hüquq mütəxəssisləri üçün ən səmərəli nəticəyə nail olmaqdır.

**Dr. Artaşes Xurşudyan** Ədliyyə Akademiyasında distant təhsil şöbəsinin rəhbəri, İrəvan Dövlət Universitetinin sosiologiya kafedrasının distant təhsil laboratoriyasının direktorudur. Artaşes Xurşudyan distant təhsil və elektron öyrənmə sahəsində çoxsaylı məqalə və tədqiqat işlərinin müəllifidir. Onun peşəkar maraqları açıq və distant təhsilin nəzəriyyə və təcrübəsində, davamlı təhsil və ömür boyu öyrənmə, innovativ təhsil texnologiyaları, təhsil sosiologiyası və təhsil fəlsəfəsi sahəsində cəmləşir.

**Professor Martin Kuijer** Hollandiyanın Təhlükəsizlik və Ədliyyə Nazirliyi nəzdində İnsan Hüquqları şöbəsinin rəhbəri və VU Amsterdam Univerisitetində insan hüquqları qanunu professorudur. O, Avropa ölkələrində 15 ildən artıq insan hüquqları sahəsində təlimlər üzrə məsul olmuşdur. O, Hollandiyada Holland məhkəmə sisteminin üzvləri, vəkillər, dövlət məmurları (İmmiqrasiya və Təbəəliyə Keçmə

Xidmət məmurları daxil olmaqla) və hüquq fakultəsinin tələbələrinə Avropa İnsan Hüquqları Konvensiyası üzrə təlim keçir.

**Cim Merdok** vəkil kimi seçmələrdən keçdikdən sonra hüquq fakültəsinə qoşulmuşdur. O, hüquq sahəsində Qlazqoda bakalavr dərəcəsini və Berkeleydə Kaliforniya Universitetində magistr dərəcəsini əldə etmişdir. O, 1996-2000-ci illər arasında Hüquq Fakultəsinin rəhbəri olmuşdur. O, Mayns, Frayburq, Hamburq və Paris Ouest Universitetlərində dərs demiş və Fransada Avropa Şurasının İnsan Hüquqları Direktorluğunun professoru olmuşdur. O, müntəzəm olaraq Avropa Şurasının Mərkəzi və Şərqi Avropa ölkələrinə seminar proqramı səfərlərində iştirak etmiş və qeyri-məhkəmə insan hüquqlarını mühafizə mexanizmlərinə xüsusi maraq göstərmişdir.

***Onların töhfələrinin tam versiyaları vebsaytda mövcuddur***

Həmçinin:

**Dr Ceyn Makkenzi** Qlazqo Universitetinin Təlim və Tədris Xidmətinin Akademik İnkişaf Kafedrasının fənn rəhbəridir.

# İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| VA | Vəkillər Assosiasiyası |
| CCBE | Avropa Vəkillər Kollegiyaları və Hüquq Birlikləri Şurası |
| CDDH | İnsan Hüquqları üzrə Rəhbər Komitə |
| CEPEJ | Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası |
| NK | Nazirlər Komitəsi |
| CNUE | Avropa Birliyinin Notariatlar Şurası |
| AŞ | Avropa Şurası |
| CPD | Davamlı Peşəkar İnkişaf |
| AK | Avropa Kommissiyası |
| AİHK | Avropa İnsan Hüquqları Konvensiyası |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| EJTN | Avropa Məhkəmə Təlimi Şəbəkəsi |
| Aİ | Avropa İttifaqı |
| HELP | Hüquqşünaslar üçün İnsan Hüquqları Tədrisi |
| İHT | İnsan Hüquqları Təhsili |
| HRTF | İnsan Hüquqları Etimad Fondu |
| HUDOC | İnsan Hüquqları üzrə Sənədləşmə |
| İT | İnformasiya Texnologiyaları |
| LGBT | Lezbian, Gey, Biseksual və Transseksual |
| QHT-lər | Qeyri-Hökumət Təşkilatları |
| MTI | Milli Təlim İnstitutu |
| OB | Standart Büdcə |
| OHCHR | (Birləşmiş Millətlər Təşkilatının) İnsan Hüquqları üzrə Ali Komissarlığının Ofisi |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |

| | |
|---|---|
| AŞPA | Avropa Şurası Parlament Assambleyası |
| PİA | Performans və İnkişaf Araşdırması |
| SCORM | öyrənmə üzrə bütün idarəetmə sistemləri ilə uyğunluğu təmin edən elektron öyrənmə modelinin işlənib-hazırlanması üçün beynəlxalq səviyyədə tanınan standart |
| TOR | Tətbiq Olunma Şərtləri |
| ToT | Təlimçilər üçün Təlim |
| BMTQAK | BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı |
| UNICRI | BMT-nin Regionlararası Cinayətkarlıq və Ədalət Elmi-tədqiqat İnstitutu |
| UNODC | BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi |


COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
LAWYERS
PROSECUTORS
JUDGES
LEGAL
HELP
ROFESSIONALS
PROGRAM
EDUCATION
CAPACITY
PLATFORM
HUMAN RIGHTS
QUALITY

# HİSSƏ 1: GİRİŞ

## 1. Hüquqşünaslar üçün İnsan Hüquqları təlimi

Hüquqşünaslardan danışdığımız zaman biz "təlim" sözündən istifadə edirik. Bununla belə, daha geniş mənada "insan hüquqları tədrisi" (İHT) sözləri əsasən insan hüquqları üzrə peşəkar, eləcə də ilkin təlimi əhatə etmək üçün istifadə edilir. Bu bələdçi kitabda hər ikisindən istifadə edilir.

### a) İnsan hüquqları təlimi və insan hüquqlarının müdafiəsinin artırılmasına potensial təsiri

İnsan hüquqları təhsili insan hüquqları üzrə biliyi artıran, bacarıq və dəyər/davranışları inkişaf etdirən kursdur. O, həmçinin bütün ömür boyu davam edən səyahətdir - məktəblərdə başlamalı və fərdin bütün peşə həyatı boyunca davam etməlidir. O, fərdi yanaşma ilə başlayır, lakin proses sonra daha geniş peşə icmasını əhatə etməlidir.

Bu bələdçi xüsusilə spesifik hədəf qrupu, yəni Avropa Şurasının 47 üzv dövlətinin hüquq mütəxəssisləri (əsasən hakim, prokuror və vəkillər) üçün İHT-nə müraciət edəcək.

Məhkəmə zəncirinin bütün iştirakçılarının öz ölkələrində insan hüquqlarının qorunmasında rol və məsuliyyətinin olması kifayət qədər aydındır. Təbii ki, onlar insan hüquqlarının qorunma səviyyəsinə təsir edən yeganə şəxslər deyil. Buna baxmayaraq, hakim, prokuror və vəkillərin peşə həyatlarında Avropa və beynəlxalq insan hüquqlarının müdafiə mexanizmlərindən xəbərdar olmaları və onlara necə müraciət etməyi bilmələri vacibdir.

İnsan hüquqları sahəsində təlim bu cür iddialı məqsədə çatmağa kömək edəcək vasitələrdən biridir. Təkcə təlim insan hüquqlarının milli səviyyədə səmərəli şəkildə qorunacağına təminat verə bilməz. Buna baxmayaraq, İHT insan hüquqlarının pozulması və zorakı münaqişələrin uzunmüddətli perspektivdə qarşısını almağa, bərabərlik və davamlı inkişafın təşviqinə, demokratik sistem daxilində qərar qəbuletmə proseslərində iştirakın artırılmasına töhfə verir[1].

Ümumilikdə, təhsilin təsirini qiymətləndirmək çətindir. Amma insan hüquqları sahəsində təhsili onun **qeyri-maddi** xarakterini nəzərə alaraq, qiymətləndirmək daha çətindir. Həqiqətən, insan hüquqları üzrə təhsilin son məqsədi **sosial dəyişikliklərə** aparan insan hüquqlarına böyük hörmətdir və bu, mürəkkəb prosesdir. Sosial, siyasi və iqtisadi amillər nəzərə alınmadan məqsədin əldə edilib-edilmədiyini ölçmək çətindir.

---

[1] A/İHK/15/28, 1, 3 və 4-cü bəndlərindən götürülərək uyğunlaşdırılmışdır. Fəaliyyət planı 30 sentyabr 2010-cu il tarixində Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası tərəfindən qəbul edilmişdir (qətnamə 15/11).

## b) Hüquqşünaslar üçün insan hüquqları tədrisinin müxtəlif səviyyələri

**Sosial dəyişikliyin** məqsədi çox genişdir. Məhz buna görə təlim sahəsində məqsəd dəqiq müəyyən edilməlidir. Bunu etmək üçün effektiv yol müxtəlif səviyyələrdə gözlənilən dəyişiklikləri müəyyən etməkdir:

- **Fərd**: fərd hansı bilik, bacarıq, münasibət və davranışları əldə edə, gücləndirə və ya dəyişə bilər? məsələn: öyrənənlər öz insan hüquqları üzrə təlim sessiyalarında yeni texnologiyalardan istifadə etməkdə özlərini inamlı hiss edir
- **Təşkilat/qrup**: öyrənənlər öz öyrənmə təcrübəsini işlədikləri qrupa ötürdükləri zaman gözlədiyiniz dəyişikliklər (məs: biliyin başqa məhkəmənin hakimlərinə yayılması və s.)

- **Daha geniş icma/cəmiyyət**: təşkilat/müəssisə öz öyrənmə təcrübəsini daha geniş icmaya yaydığı zaman təxmin etdiyiniz dəyişikliklər. Yalnız Milli Təhsil Müəssisələrinin/Vəkil Assosiasiasiyalarının dəstəyi sayəsində bu səviyyəyə çatmaq və insan hüquqları təliminin səmərəli və davamlı olması mümkün olacaqdır. Bu, HELP-in mühüm rol oynayacağı məqamdır.

Səmərəli təlim həmçinin təlimin qiymətləndirilməsini nəzərdə tutur. Təlimi qiymətləndirmək **nə üçün** bu qədər vacibdir? Qiymətləndirmə həqiqətən insan hüquqları pedaqoqlarının ixtiyarında olan ən güclü vasitələrdən biridir. Bu, səmərəliliyi ölçməyə, izahatlar verməyə, nəticələr çıxarmağa, tövsiyələr hazırlamağa və təlimə müvafiq dəyişikliklər etməyə imkan verəcək.

Qiymətləndirmənin **2 əsas məqsədi var**: bir az əvvəl qeyd edildiyi kimi **öyrənmə və inkişaf** və həmçinin **hesabatlılıq.** Milli və beynəlxalq səviyyədə üzləşdiyimiz büdcə məhdudiyyətlərini nəzərə alaraq, insan hüquqları sahəsində təhsilin hüquq mütəxəssisləri və məhkəmə prosedurlarının son benefisiarı kimi cəmiyyət üçün konkret nəticələrə və əlavə dəyərə gətirib-çıxardığını sübut etmək vacibdir.

Yaxşı qiymətləndirmə[2]:

- **Məqsədyönlü** olmalıdır: aydın məqsəd və ölçülə bilən nəticə (SMART[3]) olmalıdır;
- **Fəaliyyət-yönümlü** olmalıdır: təlim qiymətləndirilməsi sizə müvafiq qərarlar qəbul etmək üçün istifadə edilə bilən məlumat verməlidir. Sonda iştirakçılardan suallar soruşmaq prosesini ehtiva etməsi də önəmlidir: təlimi inkişaf etdirmək üçün hansı dəyişiklikləri təklif edərdiniz? ;
- **Praktik olmalıdır**: o daha yaxşı nəticələr əldə etmək üçün innovativ yolları nəzərdən keçirməli və diqqəti iştirakçıların bacarıqları üzərində cəmləməlidir;
- **İştirakı təşviq etməlidir:** iştirakı təşviq edən yanaşma peşəkar təcrübə mübadiləsinə təşviq edir və fərdi inanclar və dəyərlərə tənqidi yanaşmağa həvəsləndirir. Bu, qarşılıqlı hörmət və qarşılıqlı öyrənməyə əsaslanır. İşlədiyimiz hədəf auditoriyaların nəzərə alınması vacibdir. İştirakçıların

---

[2] Ətraflı məlumat üçün http://www.ohchr.org/Documents/Publications/EvaluationHandbookPT18.pdf səh.20 ünvanına baxın

[3] Bu konsepsiya daha sonra 65-66-cı səhifələrdə izah ediləcək

təcrübələrindən başlamaq yaxşı əsasdır. Hakimlər, prokurorlar və vəkillər adətən gündəlik fəaliyyətlərində insan hüquqlarının həyata keçirilməsi baxımından öz təcrübələrini bölüşmək niyyətindədir.

- **Özünü-tənqidə** açıq olmalıdır: bəzi təlimçilər üçün çətindir: təlimin keçirilmə şəkli və ya təlimin hər hansı aspekti üzrə kollektiv rəyləri qəbul etmək. Konstruktiv tənqidə açıq olmaq vacibdir.

HELP-in təlimi qiymətləndirmə üsulu insan hüquqları təhsili sahəsində qiymətləndirilmə üçün geniş şəkildə istifadə olunan Kirkpatrik modelinə[4] əsaslanır. O, öyrənməni dörd səviyyədə qiymətləndirir və aşağıdakıları ölçür:

**Reaksiya**: iştirakçılar öz öyrənmə üsulları haqqında **nə düşünür və nə hiss edir.** Bu mərhələdə biz iştirakçıların öz öyrənmə təcrübələri haqqında hisslərini və fərdi reaksiyalarını, məzmun və prosesə qarşı münasibətlərini; faydalılıq barədə dərhal nə düşündüklərini; faktiki olaraq öyrəndiklərini qavramalarını; öz ideya və ya anlayışlarını dəyişib-dəyişmədikləri haqqında fikirlərini; təlimçi və təlim materiallarından məmnuniyyəti; təlim materiallarının maddi-texniki aspektlərindən məmnuniyyəti qiymətləndiririk.

İştirakçıların təlimdən ümumi olaraq razı qaldıqlarını bilmək vacibdir, çünki bu məlumatlar gələcək kurslarda iştirak etmək istəyənlərə ötürülə bilər. Bu, onları sonrakı qiymətləndirmə səylərinə cavab verməyə hazırlamaq üçün də mühüm addımdır.

**Öyrənmə**: **Təlimin nəticəsində biliyin və məhsuldarlığın** artması. Bu səviyyədə biz proqramın nəticəsində öyrənənlərin bilik və bacarıqlarının nə dərəcədə gücləndiyini və ya münasibət və davranışlarında dəyişikliyin olub-olmadığını qiymətləndiririk.

**Davranış**: burada biz iştirakçıların kursdan sonra öyrəndikləri ilə nə etdiyini qiymətləndiririk. Bu, fəaliyyət göstəricilərini müəyyən etməklə qismən qiymətləndirilə bilər. Hüquq mütəxəssislərinə gəldikdə isə, davranış dəyişikliyinin/peşəkar təcrübədə dəyişikliyin sistematik və institusional qiymətləndirilməsinin təşkilində MTİ/VA-larına etibar etmək önəmlidir. Bu, yalnız milli səviyyədə və iştirakçıların (məsələn, kursun iştirakçıları arasından əvvəlcədən məlumatlandırılan fokus qrup) **qiymətləndirmə sorğusuna** təlim bitdikdən **6 ay, 1 il və ya 2 il sonra cavab verməyə istəkli olduğu halda aparıla bilər**.

Davranışda və biliyin ötürülməsində (yəni öyrəndiklərinin işdə tətbiqi və praktiki şəkildə başqaları ilə paylaşılması) dəyişikliklərin ölçülməsi daha çətindir və başlanğıcdan yaxşı hazırlanmış qiymətləndirmə sistemi tələb edir. Çətin olmasına baxmayaraq, bu səviyyədə qiymətləndirmə təlimdən mənimsənilən biliklərin tətbiqi və icrasını araşdırdığı üçün olduqca əhəmiyyətlidir. Yaxşı reaksiya (səviyyə 1) və daha yaxşı fəaliyyət qabiliyyəti (səviyyə 2) öyrənənlərin işi və/və ya icması kontekstində heç bir dəyişiklik baş vermirsə, öz dəyərini itirir.

**Təsir:** İştirakçıların fəaliyyətlərinin cəmiyyətə təsirləri. 4-cü səviyyədə biz öyrənənlərin proqramda iştirakının təşkilata və ya daha geniş icmaya təsirini qiymətləndiririk. Bu, həmçinin təsir analizi və izlənilməsi kimi tanınır və uzunmüddətli nəticələrin ölçülməsinə yönəlir. Təsir səviyyəsində öyrənmənin

[4] http://www.kirkpatrickpartners.com/OurPhLOsophy/TheKirkpatrickModel

qiymətləndirilməsi proqram qiymətləndirməsi ilə oxşardır. Hər ikisində məqsəd başdan sona kimi bütün öyrənmə prosesini nəzərdən keçirməkdir.

Bu, fərdi öyənənlər səviyyəsində daha asan, lakin geniş icma arasında daha çətindir. Cəmiyyət və qlobal insan hüquqları kontekstində xarici amillər təşkilat və icmaların insan hüquqları və təlim/təhsil sahəsindəki işini yerinə yetirmək qabiliyyətinə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Bu, təşkilatların fəaliyyəti və daha geniş icmada və ya cəmiyyətdə baş verən dəyişikliklər arasında əlaqələrin qurulmasını daha da çətinləşdirir.

AİHK üzrə HELP təlim resurslarına gəldikdə, onların MTİ və/və ya VA-ları tərəfindən milli təlim proqramlarına inteqrasiyası öyrənmənin davamlılığını və "qartopu" effektini təmin etmək üçün ən yaxşı zəmanətdir.

### c) İnsan hüquqları təlimi üçün xüsusi hədəf auditoriyalar

Bu bölmədə xüsusi hədəf auditoriya, yəni Milli İnsan Hüquqları İnstitutları, İnsan Hüquqları üzrə Ombudsman Aparatı və ya qeyri-hökumət hüquq-müdafiə təşkilatlarında fəaliyyət göstərən mütəxəssislər, hakimlər, prokurorlar, vəkillər, hökumət rəsmiləri üçün müəyyən xüsusi ehtiyaclar nəzərdən keçirilir.

***Hakimlər***

Məhkəmə üzvləri bəzi konkret məsələlərdə xüsusilə maraqlı ola bilər. Onlar Avropa/beynəlxalq insan hüquqları standartlarının milli məhkəmələrdə necə tətbiq edilə biləcəyini, AİHM tərəfindən verilən Konvensiya hüququnun şərhinə hansı hüquqi qüvvənin verilməli olduğunu (potensial olaraq başqa bir Dövlətə qarşı verilən qərarda), müəyyən Konvensiya hüquqlarının *səlahiyyətli* hakim tərəfindən tətbiq edilməli olub-olmadığını, milli qanunvericiliyin tətbiqinin Konvensiya standartlarına zidd olduğu aşkarlandıqda hansı addımın atıla biləcəyini (yəni ziddiyyətli milli qanunun tətbiq edilməməsi, milli hüququn Sazişə uyğun şərhinin və ya digər nəticəninin tətbiq edilməsi) öyrənmək istəyəcəklər. Nə Konvensiya, nə də Məhkəmənin presedent hüququ mütləq şəkildə bu suallara cavab vermir. Buna görə də, insan hüquqları təliminin bu aspekti əsasən mövcud daxili (yəni konstitusional) hüquqdan asılı olacaq.

***Prokurorlar***

Prokurorlar "açıq-aşkar" təqsirkar sayılanlara hökm oxunmasını təmin etmək baxımından insan hüquqlarını öz işlərini icra etmək yolunda maneə kimi görə bilər. Buna görə də, prokurorlar üçün insan hüquqları təlimi cinayət təqibi prosesinin başlıca məqsədinin ədalətli məhkəmə araşdırmasını - təqsirləndirilən, eləcə də prokurorların təmsil etdiyi icma üçün ədaləti təmin etmək olduğunu vurğulamalıdır. Prokurorlara xüsusən onlar hüquq-mühafizə orqanları üzərində müəyyən nəzarəti həyata keçirdikləri üçün (məsələn, qanunsuz və ya müvafiq olmayan şəkildə əldə edilən sübutun istifadəsinə

göstərdikləri münasibət ilə əlaqəli) insan hüquqlarının müdafiəsində tutduqları güclü mövqeləri xatırladılmalıdır.[5]




Bu mövzularda kurslara baxın: Həbsə alternativ tədbirlər və Cinayət məsələlərində Beynəlxalq Əməkdaşlıq

***Vəkillər***

Yuxarıda qeyd edilənlərə əlavə olaraq, vəkillər üçün insan hüquqları təlimi daxili məhkəmə proseslərində və AİHM-nə müraciətlərdə insan hüquqları standartlarına əsaslanan prosessual aspektlərə xüsusi diqqət yetirməlidir. Daxili məhkəmə proseslərində insan hüquqları üzrə qaldırılan iddia maddi və əsaslandırılmış olmalıdır. Əks halda, yerli məhkəmə sadəcə olaraq öz məhkəmə qərarına qarşı qaldırılan arqumenti rədd edə bilər. Eynilə, vəkillər AİHM-nə şikayət verilməsi üzrə prosessual tələblərdən xəbərdar edilməlidir. Məhkəməyə edilmiş müraciətlərin 90% -dən çoxu əsassız və ya qeyri-məqbul elan olunur. Strasburq proseduru üzrə tələblərin daha yaxşı anlaşılması bu faiz nisbətinin azalmasına gətirib-çıxara bilər ki, bu da təkcə Məhkəmənin bu müraciətlərə baxmaq üçün məhdud resurslardan istifadəsi üçün deyil, eyni zamanda ərizəçilər tərəfindən dərin məyusluğun aradan qaldırılması üçün faydalı olacaq.[6]




Bu mövzular üzrə kursa baxın: AİHM-nə təqdim edilən müraciətlər üçün qəbul edilmə meyarları

***Hökumət rəsmiləri***

[5] Təlimçilərə *digərləri ilə birlikdə* 2000-ci ildə Keyptaunda Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) insan hüquqları və prokurorlar mövzusunda keçirilən illik konfransından sonra nəşr olunan Prokurorlar üçün İnsan Hüquqları üzrə Təlimat Kitabçasına müraciət etmək tövsiyə olunur. 2008-ci ildə ikinci nəşr buraxılmış (E. Myjer, B. Hancock və N. Cowdery (editorlar), *Prokurorlar üçün İnsan Hüquqları üzrə Təlimat* Kitabçası, Wolf Legal Publishers, 2008) və Fransız, İspan, Türk və Rus dilli də daxil olmaqla, müxtəlif dillərə tərcümə edilmişdir.

[6] Bu baxımdan təlimçilərin Qəbul Edilmə Meyarları üzrə Praktiki Bələdçi (xüsusilə Prosedur Qaydalarının yeni 47-ci Qaydası vurğulanmalıdır), Praktika İstiqamətləri, qəbuledilənlik şərtləri üzrə video,"necə etibarlı ərizə vermək olar" başlıqlı video və Məhkəmənin vebsaytında mövcud olan digər praktiki məlumatlara ("Müraciətlər" başlığı altında) istinad etmələri tövsiyə edilir. "AİHM-nə təqdim edilən müraciətlər üçün qəbul edilmə meyarları" başlıqlı HELP onlayn kursu HELP elektron öyrənmə platformasında bir çox dildə mövcuddur (bax: İngilis dili versiyası).

Nazirliklərdə işləyən dövlət qulluqçuları və ya qanun layihələrini hazırlayanlar qanun layihələrinin və siyasətlərin insan hüquqları standartları ilə uyğunluğunun təmin edilməsi üçün məsuliyyət daşıyır. Çox zaman qanun layihəsi və yeni siyasətlər insan hüquqları məsələlərinə toxunur. Dövlət qulluqçuları insan hüquqları sahəsindəki problemləri müəyyən edə bilməli və qeyri-mütləq insan hüquqlarına (şəxsi həyatın toxunulmazlığı hüququ və mülkiyyət hüququ kimi) edilən müəyyən müdaxilərin zəruri hesab edilməsinin səbəblərini əsaslandırmağın mühüm olduğundan xəbərdar edilməlidir. Dövlət orqanları mübahisəli tədbirin həqiqətən müəyyən edilmiş siyasi məqsədin (qanuni sayıla bilən) həyata keçirilməsi üçün səmərəli olduğunu, mövcud mexanizmlər olmasına baxmayaraq mübahisəli tədbirin nə üçün zəruri olduğunu, əlaqədar azadlıq üzrə birləşən bütün hüquqi qaydaların kumulyativ effektinin nə olduğunu və əlaqədar tədbirin təsirləri ilə təsir görən azadlıq arasında proporsional əlaqənin olub-olmadığını göstərə bilməlidir. Bundan əlavə, mərkəzi hökumətdə xidmət göstərən dövlət qulluqçuları ayrı-seçkilik siyasətləri ilə (bilavasitə) əlaqəli problemlərin həllindən təsir görənlərin hüquqi müdafiəsinin təmin edilməsinin zəruriliyindən və müəyyən hallarda təsir görən vətəndaşlara öz davranışlarını uyğunlaşdırmağa imkan vermək məqsədilə keçid qanununun təmin edilməsinin (mülkiyyət hüquqlarına təsir edən siyasətlərə münasibətdə xüsusi əhəmiyyət kəsb edir) məqsədəuyğun olduğundan xəbərdar olmalıdır.

Bəzi dövlət məmurları ən problemli sahədə fəaliyyət göstərir: polis, həbsxana əməkdaşları, immiqrasiya işçiləri və psixiatriya müəssisələri və ya həssas şəxslərə qayğı göstərən digər müəssisələrdə çalışan işçilər. Burada çox müxtəlif təlim ehtiyacları ortaya çıxacaq. [7]

Baxın: *Dövlət məmurlarını Avropa İnsan Hüquqları Konvensiyası çərçivəsində Dövlətin öhdəlikləri ilə bağlı məlumatlandırmaq üçün Alətlər Dəsti*

***Vətəndaş cəmiyyəti, milli insan hüquqları institutları və İnsan Hüquqları üzrə Müvəkkil idarələri***

Milli insan hüquqları institutları, milli ombusman idarələrində və vətəndaş cəmiyyəti üçün çalışan hüquq mütəxəssisləri yalnız biliklər deyil, eyni zamanda məhkəmə işlərinin idarə edilməsi və kommunikasiya bacarıqları (və hətta media əlaqələri üzrə lobbiçilik xüsusi əhəmiyyətə malik ola bilər) kimi xüsusi bacarıqlara diqqəti yönəldən təlimlə təmin ediləcək.

[7] Bu yaxınlarda *dövlət məmurlarını Avropa İnsan Hüquqları Konvensiyası çərçivəsində Dövlətin öhdəlikləri ilə bağlı məlumatlandırmaq üçün Alətlər Dəsti* işlənib-hazırlanmışdır. Bu Alətlər Dəsti ilə http://echr-toolkit.coe.int saytında tanış olmaq olar. Alətlər Dəsti dövlət məmurlarına üzləşə biləcəyi müxtəlif gündəlik hallarda bələdçilik etmək üçün nəzərdə tutulmuş praktiki məlumatları təmin edir. O, ilkin hüquqi bilik tələb etmir.

### d) İnsan Hüquqları təliminə xas çətinliklər

#### *i. Standartlar və praktika arasında təzad*

Hüquq mütəxəssisləri tərəfindən insan hüquqları standartlarına tam riayət olunması və onların gündəlik təcrübədə üzləşdikləri çətinliklər arasında məxsusi təzad var. Bu çətinliklərdən bəziləri hüquq mütəxəssisinin fəaliyyət göstərməli olduğu hüquqi baza, büdcə məhdudiyyətləri və ya məhdud işçi qüvvəsi səbəbindən yarana bilər və ya təşkilat daxilində baş idarə tərəfindən müəyyən edilən dominant "mədəniyyət" ilə izah oluna bilər. İnsan hüquqları təlimi zamanı həmin məsələlərə açıq şəkildə müraciət etmək faydalı ola bilər. Təlimçi yalnız öyrənənlər praktikada üzləşdikləri (və güman ki, bu problemlər insan hüquqları nöqteyi-nəzərindən baxıldıqda ideal olmayan şəkildə həllini tapan) problemləri sərbəst şəkildə qaldırdıqları halda əməli göstəriş və ya məsləhət təklif edə bilər. İnsan hüquqları üzrə təlimçilər ittihamedici olmamağa diqqət yetirməlidir. Bunun əvəzinə təlimçinin vəzifəsi standartın insan hüquqları sahəsində fəaliyyət göstərən orqanlar tərəfindən işlənib-hazırlanma səbəbini izah edərək və bu standartın təcrübədə reallaşdırılmasının necə (tədricən) təmin ediləcəyinə dair kömək təklif edərək mövcud standart barədə məlumatlılığı artırmaqdır.

Bu məqamı səmərəli təlimə qarşı üç mümkün maneə perspektivindən nəzərdən keçirək, bu maneələrin hər biri üçün öyrənənlərin öz rol və məsuliyyətlərini necə dərk etməsini müəyyən ediləcək və aydınlıq gətiriləcəkdir:

##### Təşkilati dəyərlərə təhlükə kimi görünmə

Təlimin öyrənənlərin nöqtəyi nəzərindən təşkilatın məqsədinə ziddiyyət təşkil etdiyi görülə bilər. Təşkilati idarəetmə və rəhbərliyin təlimin məzmununu dəstəkləməsi mühüm əhəmiyyət kəsb edir.  Polis üçün insan hüquqları təliminin konteksti çərçivəsində, məsələn, kök salmış "mədəniyyət" və ya əsas dəyərlərdə insan hüquqlarına hörmətin mütəşəkkil cinayətkarlığa (xüsusən terror xarakterli cinayətlər) qarşı "mübarizə"yə ziddiyyət təşkil etdiyi hesab edilə bilər. Yəni cinayətkarlıqla "mübarizə" aparmaq üçün fiziki bütövlük və ya ədalətli məhkəmə araşdırması təminatlarının müəyyən dərəcədə pozulması təşkilat daxilində labüd hesab edilə bilər. Buna baxmayaraq, insan hüquqları təlimi keçmiş təcrübələrin mütəşəkkil cinayətkarlıq və ya terrorizm ilə mübarizədə qısa və ya asan yol olmadığını göstərdiyini və ya insan hüquqlarının cinayət prosesində həqiqəti əldə etmək üçün vasitə olduğunu (sadəcə "şübhəlinin" hüquqları deyil) vurğulasa, insan hüquqlarını öhdəliklərin səmərəli şəkildə yerinə yetirilməsində maneə kimi görmək tendensiyaları insan hüquqlarının dövlət məmurları üçün səmərəli vasitə olması anlayışı ilə balanslaşdırıla bilər. İnsan hüquqları çox zaman siyasi cəhətdən həssas siyasət sahələrinə (məsələn, terror fəaliyyətində şübhəli bilinən şəxsin ölkədən çıxarılması) tətbiq edilir.

##### Fərdi "peşəkarlıq" üçün problem kimi görünməsi

Təlim (xüsusən "kənar şəxslər" tərəfindən təmin edilirsə) məmurun (qəbul edilən) "peşəkarlığına" (və məhkəmə sistemi daxilində "məhkəməninin müstəqilliyi" anlayışına) maneə kimi görünə bilər. Burada problem "peşəkarlıq" termininin səhv şərhi və ya yalnış şəkildə anlaşılmasıdır. Təlimçilər insan hüquqlarına hörmətin peşəkarlığın mühüm göstəricisi olduğunu vurğulamalıdır (davamlı peşəkar inkişafın zərurililiyinin qəbul edilməsi kimi). Qanunun aliliyini təmin etməyə çalışanların özlərinin də qanunun aliliyinə hörmət etməli olduğunu qəbul etmək tələbi açıq şəkildə qeyd edilməlidir (İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi və Avropa İnsan Hüquqları Konvensiyasının ilkin

müddəalarında aydın şəkildə göstərildiyi kimi). Təlimçilər yadda saxlamalıdırlar ki, insan hüquqları ilə bağlı təlimin bir cəhəti də odur ki, bu təlim təkcə bilik və bacarıqların qazanılmasına deyil, eyni zamanda müvafiq münasibət və dəyərlərin gücləndirilməsinə çalışır.

### İnsan hüquqlarının öyrənənlərin gündəlik işi üçün cüzi praktiki əhəmiyyətə malik olması yönündə fikirlər

Təlimdə iştirak etməyə istəksizlik təlimdə toxunulan məsələlərin öyrənənlərin vəzifələrini yerinə yetirməsinə heç bir adiyyəti olmaması kimi başa düşülməsindən irəli gələ bilər. Məsələn, hakimlər insan hüquqları sahəsində məhkəmə təcrübəsinin məhkəmə fəaliyyəti ilə hər hansı birbaşa əlaqəsinin olmasını anlamaya bilər (məsələn, zorakı davranışla bağlı səmərəli araşdırmanın aparılması hakimin deyil, prokurorun vəzifəsi kimi görünür və ya məhkəmə probleminin "həll yolunun" Strasburq Məhkəməsinin məhkəmə təcrübəsinə müraciət tələb etməyən başqa vasitələrlə həll edilə biləcəyi hesab edilir). Bununla belə, təlimin auditoriyanın ehtiyaclarına uyğun hazırlandığı görünərsə (auditoriyadan hansı aspektləri gələcəkdə tətbiq edəcəyinə dair öz nəticələrini çıxarmasını gözləmək əvəzinə), təlimə vaxt ayırmağın faydalı olacağı hesab ediləcək. Ümumi tətbiqi nəzərdə tutan, iştirakçıya spesifik autidoriyanın uzaqlaşma risklərini nəzərə almayan təlim öyərənənlərin mövcud bilik və bacarıq səviyyəsi baxımından müvafiq olmayan qaydada məsləhətlər verən təlim ilə eyni mənanını daşıyır.

### *ii. Mənbələrin mürəkkəbliyi*

Hüququn digər sahələrində olduğu kimi mövcud insan hüquqları standartlarına gəldikdə, hüquq mütəxəssisləri geniş çeşiddə mənbələr ilə qarşılaşacaq. İnsan hüquqları təlimi öyrənənlərə hüquq mənbələrinin bu müxtəlifliyi ilə başa çıxmağa kömək etməlidir. İnsan hüquqları standartları yerli səviyyədə (məsələn, konstitusiya müddəaları, məxfilik haqqında qanun, bərabər rəftar haqqında qanun və s.), Avropa səviyyəsində (məsələn, Avropa Şurasının müxtəlif sənədləri və müvafiq Aİ sənədləri) və beynəlxalq səviyyədə (BMT-nin çoxsaylı insan hüquqları sazişləri kimi) kodlaşdırılır. Buna görə də, müxtəlif sənədlərin tətbiq dairəsi, bir sənədin digər sənəd üzərində əlavə dəyəri və beynəlxalq standartların yerli hüquq sisteminə daxil edilməsi məsələlərini nəzərdən keçirmək vacibdir.

Xüsusilə, AİHK və Avropa İttifaqının Fundamental Hüquqlar Nizamnaməsinin tətbiq dairəsini araşdırmaq faydalı ola bilər. Avropada hüquq mütəxəssisi hər iki insan hüquqları ilə bağlı sənədlə qarşılaşacaq və baxılan işə hansı sənədin hansı hallarda tətbiq olunduğunu bilməli olacaqdır.

AİHK çərçivəsində **dövlətin öhdəliyi** konsepsiyası (Konvensiyanın 1-ci Maddəsi) həlledici əhəmiyyətə malikdir. Dövlət qanunvericiliyin (və ya digər qanunların) tətbiq edilməsi, icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən tədbirlər, fərdi dövlət qulluqçularının və dövlətin məsuliyyət daşıdığı digər vəzifəli şəxslərin hərəkətləri (yəni polis, həbsxana heyəti, immiqrasiya işçiləri və s.) və ya xüsusi məhkəmə qərarı üçün məsuliyyət daşıya bilər.

Bir qayda olaraq, Konvensiyaya əsasən Dövlət qanuna zidd hərəkət etdikdə məsuliyyət daşıyır. Lakin, Məhkəmənin presedent hüququnda daha çox **"müsbət öhdəliklərdən"** bəhs olunur, yəni dövlət müəyyən insan hüquqlarının tam səmərəli şəkildə həyata keçirilməsi məqsədilə addımlar atmalıdır (məs., qanunu və ya inzibati təcrübəni dəyişmək və ya yeni qanunvericilik hazırlamaq öhdəliyi, maliyyə yardımı təmin etmək öhdəliyi, məlumat təmin etmək və ya iddia edilən insan hüquq pozuntusunu dərhal, səmərəli və müstəqil şəkildə araşdırmaq öhdəliyi).

Xüsusi bir müsbət öhdəlik **insan hüquqlarının "fərdi şəkildə" pozulmasının** qarşısını almaq məqsədilə fiziki şəxslər arasındakı əlaqələrə müdaxilə etmək öhdəliyi, yəni insan hüquqlarının dolayı "horizontal təsiri" ilə əlaqəlidir. Fiziki şəxslərin və korporasiyaların insan hüquqlarını pozmasının qarşısını alan qanunların qəbul edilməsi milli hakimiyyət orqanlarının öhdəliyidir. Fiziki şəxslər və korporasiyalar insan hüquqlarını pozarlarsa, məsələnin həlli üçün mümkün qədər tez hüquqi tədbir görülməldir.

**Dövlətin öhdəliyi**



AİHK-nın 1-ci Maddəsi dövlətin "səmərəli yurisdiksiyanın" həyata keçirilməsi üçün məsuliyyət daşıması ilə əlaqəlidir. **"Yurisdiksiya" anlayışı ilk növbədə ərazi ilə bağlıdır.** Öhdəlik adətən İştirakçı Dövlətin "yurisdiksiyası altında", yəni həmin dövlətin ərazisində fiziki olaraq yaşayan şəxslə əlaqəli olaraq yaranır. Lakin, Dövlətin ərazisindən kənarda icra edilən hərəkətlər və ya hərəkətlərin nəticələri müstəsna hallarda yurisdiksiyanın həyata keçirilməsinu tələb edə bilər. Məhkəmənin presedent hüququ göstərir ki, bu cür hallar **Dövlət nümayəndələrinin onun ərazisindən kənarda fiziki şəxs üzərində səlahiyyət və nəzarəti həyata keçirdiyi halda** mövcud ola bilər. Bu kateqoriyaya diplomatik və konsulluq nümayəndələrinin hərəkətləri, xarici hökumətin razılığı, dəvəti və ya formal cəhətdən razılığı ilə dövlətin ərazisindən kənarda dövlət səlahiyyətlərinin həyata keçirilməsi və ən nəhayət Dövlət nümayəndələri tərəfindən dövlətin ərazisindən kənarda fiziki şəxsi nəzarət altına almaq üçün güc tətbiq etməsi daxildir. Müstəsna hallar qanuni və ya qanunsuz hərbi fəaliyyət nəticəsində, Saziş İmzalamış Dövlət tərəfindən **öz ərazisindən kənarda** birbaşa, silahlı qüvvələri və ya tabeliyində olan yerli idarəetmə vasitəsilə **səmərəli nəzarət** həyata keçirdiyi halda yarana bilər.

Konvensiyaya əsasən Dövlət zərərçəkənin milliyyətindən asılı olmayaraq məsuliyyət daşıya bilər. O, Saziş İmzalamış Dövlətlərin yurisdiksiyası daxilindəki "hər kəsə" şamil olunur.

Konvensiya üzrə dövlətin öhdəliyinə Konvensiya çərçivəsində Avropa İttifaqı kimi beynəlxalq təşkilatın üzvlüyü nəticəsində atılan addımlar üçün məsuliyyət daşımaq daxil ola bilər. Avropa İttifaqı AİHK-na qoşulmadığı üçün AİHM qarşısında Aİ intstitutları tərəfindən insan hüquqlarının pozulmasına dair iddia irəli sürmək mümkün deyil. Aİ-nin Konvensiyanın tərəfi olmaması faktı nəzərə alınaraq, şikayət *mövcud səbəbə görə* qeyi-məqbul elan olunacaq. Hökümətin Aİ qanunvericiliyini icra etməsi nəticəsində yaranan insan hüquqları pozuntuları ilə əlaqədar olaraq, Strasburq Məhkəməsi Bosfor məhkəmə işində qərar çıxarmışdır ki, Üzv Dövlət, beynəlxalq təşkilatın özünün insan hüquqlarının adekvat müdafiəsini təmin etməsi şərti ilə (Aİ ilə əlaqədar qəbul edildiyi kimi), prinsipcə beynəlxalq öhdəliklərini yerinə yetirməklə AİHK-nı pozmadığını fərz edə bilər. Yalnız müdafiənin açıq-aşkar qeyri-kafi olduğu müstəsna hallarda, bu prezumpsiya təkzib edilə bilər.

**Avropa İttifaqının Fundamental Hüquqlar Nizamnaməsi**

Avropa İttifaqının Fundamental Hüquqlar Nizamnaməsi üçün ümumi anlaşılmazlıq ondan ibarətdir ki, Nizamnamə Avropa İttifaqı (Aİ) və onun üzv dövlətlərində bütün hallara tətbiq olunan Avropa "İnsan haqları haqqında qanun layihəsi"dir. Lakin, Nizamnamənin 51-ci Maddəsində qeyd edilir ki,

Nizamnamənin müddəaları Aİ institut və qurumlarına və üzv dövlətlərə **Aİ qanunvericiliyini icra etdikləri** zaman şamil edilir. Nizamnaməyə əlavə edilmiş Rəsmi İzahatlar nisbətən çaşdırıcı anlayış verir: "Aİ kontekstində müəyyən edilən fundamental hüquqlara hörmət tələbi yalnız Üzv Dövlətlər **Aİ-nin qanunvericiliyinin tətbiq dairəsində hərəkət etdikləri** zaman məcburi xarakter daşıyır". Sonuncu anlayışın qeyd edilən müddəanın mətnində təklif ediləndən daha geniş olması aydın görünür. 2013-cü ilin may ayında Avropa İttifaqı Ədalət Məhkəməsi (AİƏM) **Akerberg işində** buna geniş şəkildə aydınlıq gətirmişdir. Məhkəmə qeyd etmişdir ki, "Aİ kontekstində müəyyən edilən fundamental hüquqlara hörmət tələbi yalnız Üzv Dövlətlər Aİ-nin qanunvericiliyinin tətbiq dairəsində hərəkət etdikləri zaman məcburi xarakter daşıyır" (bənd 21). Məhkəməyə görə Aİ qanunvericiliyinin icra edilməsi üçün milli qanunvericiliyin qəbul edilmiş olması o qədər də əhəmiyyətli deyil. Bu halın Aİ qanunvericiliyinin tətbiq dairəsinə düşməsi yetərli olmuşdur. Bu, insan hüquqları məsələlərində AİƏM tərəfindən məhkəmə nəzarətini böyük ölçüdə artırır.

Nizamnamə tətbiq olunduğu halda, onun insan hüquqları standartı müqayisəli konstitusiya müddəası (hətta sonuncu insan hüquqlarının yüksək səviyyədə müdafiəsini təklif etsə belə) üzərində üstünlük təşkil edir. Nizamnamə Aİ sənədinin legitimliyinə etiraz etmək üçün istifadə edilə bilər (və sadəcə verilən işdə tətbiqinə deyil). Ən nəhayət, Nizamnamənin horizontal təsiri AİƏM tərəfindən onun presedent hüququnda qəbul edilmişdir.

(Aİ tərəfindən maliyyələşdirilən) "28 ölkədə HELP" [8] çərçivəsində yaradılan kurslarda Aİ və AİHK müdafiə sistemləri ilə bağlı çətinliklər nəzərə alınır. Onlar AİHK artikulyasiyası, Avropa Sosial Nizamnaməsi, Avropa İttifaqının Fundamental Hüquqlar Nizamnaməsi və digər Aİ sənədlərinə diqqət yetirir.

### *iii. Siyasi aspekt*

Təlim çox zaman "siyasi" aspekt daşıyır və təlimçilər bundan xəbərdar olmalıdır. İlk növbədə, insan hüquqları standartları tez-tez siyasi cəhətdən həssas sahələrə tətbiq olunur (terror fəaliyyətində şübhəli bilinən şəxsin ölkədən çıxarılması). Təlimçi öyrənənlərdən bəzilərinin müəyyən insan hüquqları qaydalarını "siyasi" kimi qəbul etməsinə təəccüblənməməlidir. Buna görə də, a) insan hüquqlarının siyasi konkestdə həyata keçirildiyi və böyük sosial təsirə malik ola bilməsi faktı və b) insan hüquqları standartlarını "solçuluq" siyasi gündəliyinin hüquqi tərcüməsi kimi qavramaq arasında fərqə diqqət çəkmək mühümdür.

İkincisi, unutmaq lazım deyil ki, Avropa İnsan Hüquqları Məhkəməsi beynəlxalq siyasi mühitdə fəaliyyət göstərir, yəni beynəlxalq təşkilat (yəni AİHM) prinsipcə yerli səviyyədə edilən siyasi seçimlərə ehtiram göstərəcək və Konvensiyada təsbit olunan minimum standart pozulmadığı müddətcə onlara qiymətləndirmə sərbəstliyi verəcək. Bu mənada AİHM fundamental olaraq Avropa Şurası tərəfindən

[8] "28 ölkədə HELP" 28 Aİ ölkəsində insan hüquqları təlimini təkmilləşdirmək məqsədini reallaşdıran layihədir. Daha ətraflı məlumat üçün **www.coe.int/en/web/help/help-in-the-28** daxil olun.

tutulan fövqəlmilli yanaşmadan fərqlənir. Konvensiya mexanizminin məqsədi uyğunlaşdırmaq deyil, minimum standartları təmin etməkdir (buna baxmayaraq, təcrübədə müəyyən Strasburq qərarının təsirinin uyğunlaşdırma təmin etdiyi qəbul edilir).

Nəhayət, **qiymətləndirmə sərbəstliyi doktrinası** Avropa Məhkəməsi və milli hakimiyyət orqanları arasındakı əlaqələrdə subsidiarlıq prinsipinə əsaslanma vasitəsi kimi Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən hazırlanmışdır. Təcrübədə bəzi yerli hakimlər qiymətləndirmə sərbəstliyi doktrinasını yerli presedent hüququna daxil etmişdir. Yerli doktrinaların mahiyyət etibarilə eyni qüvvəyə malik ola bilməsinə baxmayaraq (məsələn, inzibati qərarlara "yüngül toxunuş" məhkəmə baxışı), Strasburq qiymətləndirmə sərbəstliyi doktrinası tamamən daxili şərtlərdə tətbiq üçün müvafiq deyil.

### *iv. Öyrənənlərin motivasiya edilməsi*

Qeyd edilmişdir ki, öyrənənlər müxtəlif yollar ilə öyrənir. Digər bir məsələ öyrənənlərin *motivasiya* olunmasıdır. Bir çox nəzəriyyə mövcuddur. Bütün öyrənmə vəziyyətlərini əhatə edəcək universal bir motivasiya nəzəriyyəsi yoxdur və müxtəlif öyrənmə vəziyyətlərində müxtəlif nəzəriyyələr tətbiq oluna bilər. Distant tədris üçün təlim paketlərini hazırlayarkən, bu nəzəriyyələrdən bəziləri xüsusi aktuallıq kəsb edir.

#### Sərbəst qərarlaşdırma nəzəriyyəsi

Bu nəzəriyyənin mərkəzində "Sərbəst Öyrənmə Motivasiyası" konsepsiyası dayanır - bir sözlə, **öyrənən öyrənmə yolunu seçməkdə sərbəstdir.** Bu, son tarixlər, nəzarət və s. kimi öyrənmə prinsiplərinə ziddir. (Maraqlıdır ki, Böyük Britaniyanın Açıq Universitetinin təcrübəsi göstərir ki, tapşırıqları təhvil vermə tarixləri baxımından tələbələrə sərbəstlik verən kurslarda tələbələrin kursu davam etdirmə dərəcəsi maksimumdur.) Onlayn təlim sərbəst öyrənmə resursları, lakin müəyyən dərəcədə də distant təhsil kursları üçün sərbəst qərarlaşdırmanı təmin edir.

#### Özünü İdrak Nəzəriyyəsi

Burada məqsəd bütün öyrənmə prosesi boyunca öyrənənin "bu xüsusi öyrənmə üsulu mənim üçün tamamilə doğrudur" deyə bilməsidir. Başqa sözlə, **öyrənənin motivasiyası** o, **məzmun, səviyyə və nəticələr baxımından doğru kursda olduğunu hiss etdikləri zaman maksimuma çatır**. Məhz buna görə də, HELP kurslarının modelinin milli səviyyədə adaptasiyası və hədəf auditoriya üçün uyğunlaşdırılması olduqca önəmlidir.

#### Öz səriştəsini qiymətləndirmə nəzəriyyəsi

Öyrənənlər hər zaman öz səriştələri haqqında real baxışa sahib olmaya bilər ki, bu da onların uğurlu öyrənmə prosesinə mane yarada bilər və müvafiq olaraq bu nəzəriyyə tələbələrin motivasiyasını artırmaq məqsədilə onlara öz **bacarıqlarına rasional baxış**ı inkişaf etdirmək üçün kömək göstərməyin vacibliyini vurğulayır.

#### Müsbət Psixologiya - "Güclü Tərəflər Yanaşması"

Burada vacib məqam insanları nəyin xoşbəxt etdiyini anlamaqdır. Tələbəyə dəstək üçün "Güclü tərəflər" yanaşması müsbət psixologiyadakı tapıntılardan qaynaqlanır və qismən Amerika Birləşmiş Ştatlarında Anderson və Kliftonun tədqiqatlarına əsaslanır. O, özünə inamı öyrənmə prosesində mühüm amil olaraq vurğulamaqla öyrənənlərin motivasiyasının yüksəldilməsinə

yönəlmişdir. Proaktiv motivasiya dəstəyinə daxil olmalıdır: müsbət tərəfləri vurğulamaq; mövcud aktivlərə və səriştələrə xüsusi diqqət yetirmək; keçmiş uğurları və yüksək nəticələri önə çıxarmaq; "müsbət təsiri" təşviq etmək (ümid və müsbət fikirlər); əsas dəyər, məqsəd və motivasiyanı müəyyən etmək; və nailiyyəti deyil, səyi qiymətləndirmək (və yalnız bütün bunlardan sonra, qeyri-müəyyənliklər, qorxular və ya çatışmayan bacarıqlardan danışmaq).

**Praktiki nümunələr[9]:**

- **Kiçik uğurlar** yaradın. Yəni çətin tapşırıqlara keçməzdən öncə ilk növbədə öyrənənlərin asan tapşırıqlarda müvəffəqiyyətli olmasını təmin edin. Çətinliyi tədricən artırın.
- Öyrənənləri sadəcə uğurlu cəhdləri üçün deyil, **səy** göstərdikləri üçün də **tərifləyin**. Bu, onlayn təlim zamanı avtomatik rəy ilə edilə bilər.
- Nəticə qənaətbəxş olmasa belə, **cəhdlər üçün xal verən** "oyun" qurun.
- **Təkmilləşmə** mühiti yaradın. Öyrənənləri bacarıqlarını təkmilləşdirmək və hər zaman başqaları ilə müqayisə edərək və rəqabət apararaq deyil, onları öz əvvəlki göstəricilərinə nisbətən yaxşılaşdırmaları üçün həvəsləndirin və ya tədbirlər görün.
- **İnformativ və konstruktiv** rəy təmin etmək. Məsələn, öyrənənlərdən "daha çox çalışmalarını" istəmək əvəzinə, onların qeyri-qənaətbəxş nəticəsinin əsas səbəbini tapın və onların bacarıqlarını yönləndirin, məsələn, "AİHK-nın x maddəsinin işığında düşünməyə çalışın".

*"Fəaliyyət mühitinə nəzarət edərkən özünü səriştəli və bacarıqlı biri kimi tanıtmaq. Səriştə tələbi* (Deci & Ryan, 1985; Elliot & Thrash, 2002; Koestner & McClelland, 1990) *öz bacarıqlarını tətbiq edərkən və genişləndirərkən məmnuniyyəti təmin etməkdir. Təbii ki, insanların öz inkişaf səviyyəsi üçün optimal olan problemləri axtardığı aşkar görünür"* (Harter, 1978; White, 1959).

---

[9] MERL: nəzəriyyəni təcrübəyə çevirmək. Şərtinin qəbul edilməsinin və daxili motivasiyanın əhəmiyyəti **http://merl.nie.edu.sg**

### e) AİHM-ın presedent hüququna çatımla bağlı çətinliklər

Mövcud bilik, təkmilləşmə və Strasburq Məhkəməsinin məhkəmə təcrübəsi ilə də bağlı problemlər var.

#### i. *Texniki maneələr*

Hüquq mütəxəssisləri iki əsas maneə ilə üzləşir: dil və presedent hüququn həcmi.

##### Qərar və qərardadların dili

Təlimi hazırlayarkən, əksər orijinal insan hüquqları materialları (Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları kimi) öyrənənlərin əksəriyyəti üçün xarici dildə (İngilis və ya Fransız) olacaq. Təcrübə göstərir ki, bir çox hüquq mütəxəssislərinin (az və ya çox dərəcədə) bu materialları anlamaqla bağlı çətinlikləri var. Təcrübədə bu, insan hüquqları standartlarının daxili hüquq sistemində qəbul edilməsinə əhəmiyyətli təsir göstərir. Buna görə də, materialların seçilməsi mühüm əhəmiyyət kəsb edir. HELP metodologiyası bu problemləri diqqətə alır və yalnız təlim materiallarının və kursların tərcüməsini deyil, eyni zamanda əlaqədar dövlətlərin milli hüquq sistemlərinə uyğunlaşmanı nəzərə alır (2-ci Hissədə uyğunlaşma prosesi haqqında daha ətraflı məlumatlara baxın.) Oxşar olaraq, AİHM-nin müxtəlif əsas qərarları tərcümə edilmişdir və bunlardan bəziləri Məhkəmənin veb saytında HUDOC axtarış sistemində mövcuddur. Eyni zamanda, Hökumətlər Məhkəmənin qərarlarının tərcümə edilməsində mühüm rol oynayır. Yeni təlim proqramlarını hazırlayarkən hər hansı əlavə tərcümə olunmalı material üçün ehtiyat büdcənin saxlanılması tövsiyə edilir.

##### Presedent hüququnun həcmi

Məhkəmə təcrübəsi on minlərlə məhkəmə qərarlarından və qərardadlarından ibarət geniş həcmdə presedent hüququnu ehtiva edir. Təbii ki, 14 saylı Protokolun qüvvəyə minməsindən əvvəl mövcud olan komitənin qərarları, eləcə də tək hakimlərin qərarları bu cəmdən çıxarılmalıdır. HUDOC verilənlər bazasında göstərilən əhəmiyyətlilik meyarlarını nəzərə almaq lazımdır. Buna baxmayaraq, məhkəmə təcrübəsi xüsusən təsirli bir vəsait təşkil edir və çətinliklə idarə oluna bilir. Xüsusilə, verilən məsələ ilə bağlı ən uyğun presedenti tapmaq hələ də çətindir.

#### *ii.* **Milli xüsusiyyətlər**

Bu xüsusiyyətlərin iki əsas növü var. Bunlar, hüquq sistemlərinin müxtəlifliyi, milli institut və prosedurların xüsusiyyətləri ilə əlaqədardır.

##### Hüquq sistemlərinin müxtəlifliyi

Kontinental və ya Roman-German hüquq sistemləri və Ümumi Hüquq Sistemləri arasındakı ənənəvi və yaxşı tanınan fərqliliklərdən əlavə, Avropada yaxşı uyğunlaşma və birləşmə imkanına malik çox müxtəlif hüquq sistemləri var. Məhkəmənin təcrübəsi bu faktı müəyyən bir şəkildə əks etdirir, bu da hüquq mütəxəssislərindən təhlil və anlama üçün səylərini artırmağı tələb edir.

Bundan əlavə, məhkəmə təcrübəsinin yeri və əhəmiyyəti daxili hüquq sistemində xüsusilə ali yurisdiksiyalar daxilində ölkədən-ölkəyə fərqlənir. Parlament tərəfindən irəli sürülən qanun hakimlərin

nöqteyi-nəzərindən mühüm yer tutur. Avropada tam milli çərçivədə işləyən hüquq mütəxəssislərinin beynəlxalq məhkəmə təcrübəsinə tam diqqət göstərməsi real olaraq qəbul edilə bilməz. Buna görə də, onlar Konvensiyanın müddəalarına uyğun olmaq üçün adaptasiya olmalıdır.

#### İnstitut və prosedurların xüsusiyyətləri

Oxşar olaraq, Avropa müxtəlif prosedur və institutlar təklif edir. Onlar çox zaman köhnə ənənələrin və bəzən kəskin münaqişələrin nəticəsidir. Çox zaman kompleks orqanların hissəsi olan bu prosedur və institutların balansı və ardıcıllığı dəyişikliklər və ya daha da *əsası*, onların mövcudluğu ilə təsirə məruz qala bilər. Burada da məhkəmə təcrübəsi müəyyən dərəcədə, Konvensiyanın uyğunlaşdırılmış şərhinə güzəştə getmədən uyğunlaşdırılmalıdır. Bəzən milli sistemin spesifik konsepsiyasını başqa biri ilə dəyişdirmək hüquq mütəxəssisləri üçün çətin ola bilər.

### *iii. Məhkəmə qərarlarının əsaslandırılması*

Bu ola bilsin ki, ən çətin məsələdir. İkimənalılıq və fikir ayrılılıqları mövcud olduğu halda məhkəmə təcrübəsindən necə yararlanmaq olar?

#### İkimənalılıq

Qəsdən və ya deyil, Məhkəmə bəzən müxtəlif şəkildə şərh edilə bilən cümlə, ifadə və ya sözlərdən istifadə edir. Bu, yeni və çətin problem yarandıqda baş verir və dərhal mütləq cavabı təmin etmək əvəzinə, gələcək həll yolu üçün əsas məqamları ehtiva edə bilər. Bu cür yanaşma diqqətli və mütərəqqi yanaşma tələb edir; sürət, eləcə də nəticə məlum deyil. Burada bəzən hüquq mütəxəssislərini çaşdıran dəyişiklik və peşmanlıqlar olur.

Böyük Palatanın kifayət qədər əsaslandırılmamış və ya olduqca yenilikçi hesab edilən baxışın qəbul edilməsinə görə Palataya töhmət verdiyi hallar az deyil. Əksinə, Palataların müəyyən qərarları Böyük Palatanın təcrübəsini izləyir və şübhə altına alınmır.

Bundan əlavə, Məhkəmənin davamlı olaraq Konvensiyanın bir sıra şərtinə müstəqil məna, yəni Avropa mənası verməyə meylliliyi xatırlanmalıdır. Bu, öz milli hüququnun konsepsiya və kateqoriyalarına öyrəşmiş hüquq mütəxəssisləri arasında çaşqınlığa və ya səhv anlaşılmaya, hətta ziddiyyətə gətirib-çıxara bilər.

#### Fikir ayrılıqları

Məhkəmə Dövlətlər və fiziki şəxslər arasında öz təcrübəsinin ardıcıllığını, onun bərabərlik və hüquqi təhlükəsizliyinin sübutunu təmin etmək üçün səylə çalışır. Buna baxmayaraq, bəzən fikir ayrılıqları çox kiçik səbəblərdən yarana bilir: eyni məsələlər ilə müxtəlif palatalar məşğul olur və sabit bazanın olmasına baxmayaraq, Böyük Palatanın tərkibi hər məhkəmə işi üzrə dəyişir. Həmçinin müvəqqəti, yəni Palatalar və Böyük Palata işi həll edənə kimi ziddiyyətlər də olur.

Bu cür müstəsna hallarda hüquq mütəxəssislərindən bu şəkildə reaksiya vermələri tələb edilir: mövcud olduqda, Böyük Palatanın ən son və ən aydın qərarını və ya qərardadını və mövcud olmadıqda,

palataların ən son və aydın qərarını və ya qərardadını nəzərə almaq. Bu, verilən məsələ ilə bağlı məhkəmə təcrübəsinin qeyri-müəyyənliyini sadəcə bildirməyi və xəbərdar etməyi istisna etmir.

### *iv. Bu çətinlikləri necə aradan qaldırmaq olar?*

Təlimçilərə praktik məsləhət üzrə üç məqam (eyni zamanda suallara cavabdır).

Məhkəmə təcrübəsi necə **oxunmalıdır**?

Nadir hallarda Məhkəmə Konvensiyanın müddəasının ümumi şərhini verir. Bundan əlavə, məhkəmənin prinsip qərarlarının və qərardadlarının sayı çox deyil. Zahiri cəhətdən oxşar görünən qərar və qərardadlarda çox zaman sadəcə bir bənd və ya yarım bölmə, hətta bir cümlə diqqətə layiqdir, çünki o, ümumi tətbiq dairəsi və ya Avropa tətbiq dairəsi üçün əlavə dəyəri ifadə edir. Məhz bu element sonradan və bəzən çox tez-tez Məhkəmə tərəfindən istifadə ediləcək.

Məhkəmə təcübəsini necə **seçmək** olar?

Seçim hər şeydən əvvəl dərc olunmaq üçün seçilən məhkəmə qərarlarına və daha sonra məhkəmə təcrübəsi üzrə illik hesabatın fəslinə və ən nəhayət, İnformasiya Qeydlərinə əsaslanmalıdır, sonuncunun analitik indeks üstünlüyü var. Bundan əlavə, Böyük Palatanın qərarlarına xüsusi diqqət yetirilməldir, çünki onlar ümumi tətbiq prinsiplərinin xatırladılmasını ehtiva edir.

Məhkəmə təcrübəsinə əsaslanaraq məhkəmə işləri üzrə kazusları necə **hazırlamaq** olar?

Ən sadə yol müstəsna aspektləri aradan qaldıraraq, əlaqədar ölkənin hüquq mütəxəssislərinə tanış olan milli hallardan başlamaqdır. Bunun ardınca daha ümumi və daha sıx rastlanan həll yollarını nəzərə alaraq, məhkəmə təcrübəsi bazasını hallara tətbiq etməkdir. Nəticə etibarilə, bu təlim hakim və vəkillərin gündəlik fəaliyyətlərində əsasən diqqət etməli olduğu məsələlərə yer verir.

### v. Konkret hədəfə yanaşma və uzunmüddətli öhdəlik

Struktur baxımından insan hüquqları standartlarına dair məlumatlılığı artırmaq çox zaman hədəfə yanaşma və uzunmüddətli öhdəlik tələb edir. İnsan hüquqları təlimi çox zaman peşə daxilində mentalitetdə dəyişiklik tələb edir, eyni zamanda böyük bir peşənin bütün üzvlərinə bərabər səviyyədə çatmaq uzunmüddətli öhdəlik tələb edir (eləcə də davamlı təlim). Bu, müxtəlif təlim tədbirləri arasında

koordinasiyanı və işlərin təkrarlamasının aradan qaldırılmasını tələb edir. HELP proqramı bu baxımdan təlim sahəsində fəal olan yerli iştirakçılara kömək edə bilər.

Buna görə də, hakim və prokurorlar üçün milli təlim institutları, eləcə də vəkillər assosiasiyalarının HELP-in xüsusi hazırlanmış kurslarını hüquq mütəxəssisləri üçün öz milli təhsil proqramlarına tam inteqrasiya etməsini təmin etmək vacibdir.

### *vi.* Çoxsahəli və çoxistiqamətli yanaşma

Hüquq mütəxəssisləri çoxsahəli iş mühitində fəaliyyət göstərir. Hüquqi standartları tətbiq edərkən (insan hüquqları standartları daxil olmaqla) hüquq mütəxəssisi bunu sosial, iqtisadi, siyasi, elmi, dini və əxlaqi aspektlər fonunda edəcək. Buna görə də, bu çoxsahəli mülahizələrə diqqət yetirmək insan hüquqları təlimində faydalı ola bilər. Dini etiqad azadlığı ilə bağlı işi araşdırmaq həmin dinin adət və praktikalarını yaxşı analamağı tələb edə bilər. Bioetikanın insan hüquqları aspektlərini araşdırmaq ümumi elmi vəziyyətlə bağlı əsas anlayışa malik olmağı tələb edə bilər. Sosial hüquqlarla bağlı işi araşdırmaq iqtisadi təsirlər üzrə əsas anlayışa malik olmağı tələb edir.

Çox istiqamətli yanaşma (həm hakim, həm də prokurorlar üçün təlim daxildir) özlüyündə məqsəd ola bilməz, lakin insan hüquqları ilə bağlı bəzi problemlər çox istiqamətli yanaşmanı tələb edə bilər (məsələn, cəzasızlığa qarşı mübarizə, əqli cəhətdən qüsurlu insanlar və ya həbs şəraiti ilə bağlı insan hüquqları narahatlıqları). Belə olduğu halda təlimçi müxtəlif peşələrin (məsələn, sosial işçilər və ya həkimlər) müxtəlif terminologiyadan istifadə edəcəyi faktını nəzərə almalıdır.

2015-ci ildə HELP-in illik Konfrans iştirakçılarının 93%-i çoxistiqamətli təlimdə iştirak etməkdə maraqlı olduğunu bildirmişdir.

**Prioritetlər:**

Hər hansı bir təşkilat məhdud resursları nəzərə alaraq öz təlimini prioritetləşdirməlidir. İnsan hüquqları sahəsində problemlər çox və müxtəlifdir. Bütün problemləri eyni zamanda və eyni intensivliklə nəzərədə keçirmək sadəcə mümkün deyil. İnsan hüquqları təlimində bəzi problemləri vurğulamaq faydalı ola bilər.

- İnsan hüquqları ilə bağlı problemlərin təhlili
  - müxtəlif beynəlxalq insan hüquqları orqanları tərəfindən araşdırmaya dair tövsiyələr: AİHM qərarlarında, Avropa Şurasının monitorinq orqanları, Universal Dövri İcmal prosesində, BMT-nin müxtəlif müqavilə qurumlarının müşahidələrində, ABŞ-ın Dövlət Departamentinin insan hüquqları təcrübələri üzrə illik ölkə hesabatında, BMT QAK-ın hesabatında və s. hansı məsələlər qaldırılıb?
  - yerli mənbələrin araşdırılması, yəni yerli məhkəmə təcrübəsi, akademik yazı, siyasi müzakirələrdə və milli insan hüquqları təşkilatı tərəfindən hansı məsələlər qaldırılıb?
  - hökumət rəsmiləri, məhkəmə nümayəndələri, hüquq-mühafizə əməkdaşları, sosial tərəfdaşlar, alimlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri, siyasətçilər kimi maraqlı tərəflərlə müsahibələr?
  - son media hesabatlarının təhlili.
- Bu təhlil əsasında məsələlərin siyahısı ortaya çıxacaq. Daha sonra əhatə ediləcək məsələləri seçmək lazımdır. Bəzi mümkün meyarlar aşağıdakılardır:
  - məsələ bir və ya daha çox insan hüquqları standartları ilə əhatə olunub;
  - digər maraqlı tərəflər ilə yanaşı iştirakın əlavə dəyəri nədir.
  - məsələnin ciddiliyi;
  - məsələni həll etmək üçün cəmiyyətdə dəstək varmı;
  - bu məsələ ətrafında bütün faktları müəyyən etmək mümkündürmü;
  - nəticələri əldə etmək mümkündürmü (siyasi gündəmdə məsələ qoyulması və ya strateji məhkəmə prosesinin başlanılması ola bilər).

## HELP insan hüquqları təlimi üçün vasitə kimi

### a) HELP nədir?

Hüquqşünaslar üçün İnsan Hüquqlarının Tədrisinə dair Avropa Proqramı (HELP) Avropa Şurasına üzv dövlətləri Nazirlər Komitəsinin Avropa İnsan Hüquqları Konvensiyası üzrə ali təhsil və peşə hazırlığına dair (2004) 4 saylı Tövsiyəsinə uyğun olaraq, **milli səviyyədə AİHK-nı həyata keçirməkdə** dəstəkləyir.

HELP Avropa Şurasının apardığı bütün hüquqi təlim fəaliyyəti üçün əsas vasitə olmağa çalışır. Onun siyasi aktuallığı ilk dəfə 2012-ci ildə Brayton Bəyannaməsində vurğulanmış və 2015-ci ildə Brüsseldə

Bəyannaməsində AİHK-nı yerli səviyyədə gündəlik fəaliyyətə tətbiqini təmin etmək üçün xüsusilə dövlət və təlim təşkilatları arasında ortaq məsuliyyət qeyd edilərək bu məsələyə toxunulmuşdur.

HELP-in məqsədi gündəlik fəaliyyətlərində AİHK-nı tətbiq etmək üçün bütün 47 üzv dövlətin hakim, vəkil və prokurorlarının bacarıqlarını artırmaqdır. Həqiqətən, insan hüquqlarının müdafiəsində ön planda olan **hüquqi mütəxəssisləri yüksək keyfiyyətli təlimdən faydalanmalıdır**. Yəni onlar Avropa İnsan Hüquqları Məhkəməsinin davamlı inkişaf edən standartları və presedent hüququndan hər zaman məlumatlı olmaları təmin edilməlidir.

**Bir sözlə, HELP**

1. 47 üzv dövlətdə hakim, prokuror və vəkillər üçün milli təlim institutlarının yeganə **ümum**-**Avropa Şəbəkəsidir**;
2. insan hüquqları sahəsində **elektron öyrənmə platformasıdır**; və
3. hüquq mütəxəssisləri üçün insan hüquqları üzrə tədris **metodologiyasıdır**.

### *i. Məqsəd*

Buna görə də, HELP-in məqsədi milli təhsil institutlarını bütün kateqoriyalardan olan hüquq mütəxəssisərinə - vəkil, hakim və ya prokurorlara təlim keçmə prosesində dəstəkləməkdir. "Dəstək" sözü yerində seçilib. Yəni məqsəd milli təhsil institutlarını AİHK-nın həyata keçirilməsində **dəstəkləməkdir,** onların bu istiqamətdəki səylərini əvəz etmək deyil. HELP 2012-ci ildə yaradılmış və Avropa Şurasının təxminən 12 pilot üzv dövlətində hakimlər üçün nəzərdə tutulmuşdur. Proqram ilk dəfə 2015-ci il dekabr ayına kimi İnsan Hüquqları Etimad Fondu (İHEF) tərəfindən maliyyələşdirilmişdir. 2013-cü ildə proqram prokuror və vəkilləri, eləcə də Avropa Şurasının 47 üzv dövlətini əhatə edəcək dərəcədə genişləndirilmişdir.




### *ii. İnkişaf*

Bütün Avropa Şurasına üzv dövlətlərdə AİHK ilə bağlı bütün mövzularda təlimə ehtiyac olduğunu nəzərə alaraq, Proqram qısa zamanda hüquq mütəxəssislərinin digər kateqoriyalarını və başqa mövzuları əhatə etmək üçün genişləndirildi. Hazırda mövcud mövzulara daxildir:

- Qəbuledilənlik meyarları
- Sübutların qəbuledilənliyi
- Ayrı-seçkilik əleyhinə məsələlər
- Sığınacaq və AİHK

- Biznes və İnsan Hüquqları
- Kimyəvi Maddələr və Qanunsuz Narkotik İstehsalına və Dövriyyəsinə qarşı Mübarizə üçün Beynəlxalq Əməkdaşlıq
- Uşaqlar üçün Ədalət Mühakiməsi
- İctimai Sanksiyalar və Həbsə Alternativ Tədbirlər
- Tibbi Məhsulların Saxtalaşdırılması və Sağlamlıq əleyhinə Cinayətlər
- AİHK işığında qəsdən pis rəftar
- Ailə Hüququ və Uşaq Hüquqları
- İfadə azadlığı
- Nifrət Cinayəti və Nifrət Nitqi
- Cinayət Məsələlərində Beynəlxalq Əməkdaşlıq
- Avropa İnsan Hüquqları Konvensiyasına və Avropa İnsan Hüquqları Məhkəməsinə Giriş
- Qərarların əsaslandırılması
- AİHK İşığında Məhkəməyədək İstintaq
- Mülkiyyət hüququ
- Keçid Dövrün Ədalət Mühakiməsi və İnsan Hüquqları

Bu günə kimi HELP 2100 hüquqşünasın peşə hazırlığına kömək etmiş və həbsxana heyəti kimi mütəxəssislərin digər kateqoriyalarını da əhatə edir. Mövcud kurslar 30 iştirakçı qrupu üçün təşkil olunmuş və insan hüquqları ilə əlaqəli müxtəlif mövzular üzrə təxminən 400 hakim və 1650 vəkilə təlim keçilmişdir. 2014-2015-ci illər ərzində uğurlu iştirakçılara təxminin 500 sertifikat paylanılmışdır.

HELP indi Avropa Şurasının əsas işinin bir hissəsidir və Avropa Şurasının imkanların yaradılması istiqamətindəki bütün tədbirlərində həyata keçirilir.

Onun artan əhəmiyyəti müxtəlif layihələr üçün müxtəlif mənbələrdən maliyyə vəsaiti almağa kömək etmişdir. Bu gün, HELP həm qismən Avropa Şurasının adi büdcəsindən maliyyələşdirilir, həm də Avropa Şurasının HELP-in 28 AŞ-a üzv dövlətində aşağıdakı 4 əsas mövzu üzrə möhkəmələndirilməsi üçün nəzərdə tutulan resurslardan faydalanır:

- Verilənlərin qorunması
- Əmək haqları
- Şəxsin uyğunluğu (bioetika)
- İrqçilik, ksenofobiya, homofobiya/ transfobiyaya qarşı mübarizə

Rusiyada HELP cinayət prosesində sübutların qiymətləndirilməsi və qəbul edilənliyi üzrə xüsusi modulların inkişafı üçün İHEF-dən faydalanır. Bu məsələlər "təxribatçılar" (polis təxribatı), qanunsuz yollarla əldə edilən sübut, vəkildən istifadə, məhkəmədə şahidlərin olmaması, məhkəmədən əvvəl həbsdə saxlanılma ilə bağlı müxtəlif məsələlər daxil olmaqla, Rusiya hakim, prokuror və müstəntiqlərin gündəlik fəaliyyətlərində yarana bilər.

2016-ci ilin aprel ayından etibarən mövcud HELP kurslarından istifadə edərək regionda HELP proqramını həyata keçirmək üçün İHEF tərəfindən maliyyələşdirilən "Balkanlarda HELP" layihəsinə start verilmişdir.

## b) HELP necə işləyir

HELP Milli Təhsil İnstitutları və Vəkillər Assosiasiyalarının şəbəkəsidir və öz fəaliyyətini təşkil etmək üçün müxtəlif qurumlar tərəfindən dəstəklənir.

### *i. Şəbəkə*

HELP Şəbəkəsi Avropa Şurasına (AŞ) üzv olan 47 dövlətin hakim və prokurorlara təlim keçən Milli Təhsil İnstitutları və Vəkillər Assosiasiasının nümayəndələrindən təşkil olunan yeganə **"həmkardan həmkara" yanaşmasını dəstəkləyən İnsan Hüquqları üzrə ümum-Avropa Tədris Şəbəkəsidir**.

HELP Şəbəkəsinə 2012-ci il tarixli Brayton Bəyannaməsinin 9.vi saylı bəndini həyata keçirmək həvalə edilir və bu təmin edir ki, HELP:

- AİHM-nin presedent hüququnda şərh edildiyi kimi, hüquq mütəxəssislərinin AİHK standartları üzrə ilkin və davamlı təliminin inkişafı və təbliğini dəstəkləməlidir;
- ən yaxşı təcrübələri bölüşməli və gələcək təlim fəaliyyəti üçün prioritet mövzuları müəyyən edərək hüquqi mütəxəssislər üçün tədris proqramı, təlim materialları və təlim metodologiyaları üzrə məsləhətlər verməlidir;
- AİHK və müvafiq mövzular üzrə müvafiq təlim ərzində, AİHK-nın milli səviyyədə, gündəlik fəaliyyətdə tətbiqi üçün hakimlər, prokurorlar və vəkillər potensialının artırılmasında üzv dövlətləri necə dəstəkləmək istiqamətində tövsiyələr verməlidir;
- AİHM-nə təqdim edilən əsaslı müraciətlərin keyfiyyətini artırmaqla, vəkillərin AİHM-nə təqdim edilən müraciətlərin qəbuledilənlik meyarlarına uyğunluq baxımından potensialının necə artırılmasına dair tövsiyələr verməlidir;
- hüquq mütəxəssisləri arasında geniş yayılmış bilik və HELP tədris resurslarından istifadəni təmin etməlidir;
- hüquq mütəxəssislərinin insan hüquqları üzrə tədris təşəbbüsləri üçün beynəlxalq və milli təşkilatlar arasında təkmilləşdirilmiş koordinasiyaya təşviq etməlidir.

2015-ci ilin may ayında "Avropa İnsan Hüquqları Konvensiyasının implementasiyası, Bizim Ortaq Məsuliyyətimiz" mövzusunda keçirilən Yüksək Səviyyəli Konfrans çərçivəsində Üzv Dövlətlər Fəaliyyət Planı barədə razılığa gəlib, qarşıya qoyulan məqsədlərdən biri "parlament üzvləri arasında məlumatlılığı artırmaq və Konvensiya və onun implementasiyası, o cümlədən məhkəmə qərarlarının icrası ilə bağlı hakim, prokuror və milli məmurlar üçün tədrisi onların peşə və xidmət hazırlığının ayrılmaz tərkib hissəsi olmasını təmin etməklə, müvafiq olduqda, Avropa Şurasının HELP proqramına, eləcə də Məhkəmənin tədris proqramlarına və nəşrlərinə müraciət etməklə təkmilləşdirmək üçün milli müstəvidə səyləri artırmaq"dır.

Şəbəkəsin üzvləri AİHK üzrə təlim ehtiyaclarını müzakirə etmək və gələcək fəaliyyət üçün yol xəritəsi işləyib-hazırlamaq üçün ildə bir dəfə Strasburqda HELP-in illik konfransında görüşür. Bu müzakirələr və yol xəritəsi əsasında HELP kursları işlənib-hazırlanır və HELP təşəbbüslərinə start verilir.

**İş metodları**

HELP Şəbəkəsi öz fəaliyyətini HELP Katibliyi ilə koordinasiya edir.

Görüşlər adətən ildə bir dəfə Strasburqda Avropa Şurasının binasında çağırılır. Şəbəkə görüşləri aşağıdakı kimi təşkil olunur:

Plenar İclas: 94 üzv (tərəfdaş və müşahidəçilər də daxil olmaqla 150), hər il iki günlük 1 görüş. HELP Şəbəkəsinin İllik Konfransı imkan yaradır:

- 47 üzv dövlətdə hüquq mütəxəssisləri üçün insan hüquqları tədrisi sahəsində; eləcə təlim metodologiyası üzrə (təlimin təsirini və nəticələrini qiymətləndirmək üçün yeni alətlərin işlənib-hazırlanması daxil olmaqla) ən yaxşı təcrübələri mübadilə etməyə;
- 47 üzv dövlətdə hüquq mütəxəssisləri üçün geniş miqyaslı təlim ehtiyaclarının qiymətləndirilməsinə;
- növbəti il üçün yol xəritəsini və prioritetlər yaratmağa (prioritet mövzuların, çoxmillətli və çoxistiqamətli tədris təşəbbüslərinin müəyyən edilməsi və s.).

**HELP Tərəfdaşları**

- Avropa İttifaqı (Ədalət Mühakiməsi və İstehlakçılar üzrə Baş Direktoratlıq)
- İnsan Hüquqları Etimad Fondu (HRTF)
- Avropa Məhkəmə Təlimi Şəbəkəsi (EJTN)
- Beynəlxalq hakimlər assosiasiyaları
- Avropa Vəkillər Kollegiyası və Hüquq Cəmiyyətləri Şurası (CCBE)
- Avropa Vəkillər Kollegiyası Federasiyası (FBE)
- Avropa İnsan Haqları Məhkəməsi
- Hakim və prokurorların milli assosiasiyaları
- Vəkillərin peşəkar assosiasiyaları
- İnsan hüquqları sahəsində ixtisaslaşmış hüquqi yardım şəbəkələri və "hüquq klinikaları"
- Mémoire Albert Cohen Fondu

HELP Katibliyi Şəbəkə ilə Ümumi və Məlumat koordinatorları vasitəsilə əlaqə saxlayır. Onlar HELP Katibliyi və milli təhsil institutları arasında əlaqəni təmin edir. Onlar insan hüquqları üzrə tədrislə bağlı hakimlər və prokurorlar (Ümumi Koordinator) və vəkillər (Məlumat Koordinatoru) üçün əlaqələndirici şəxslər kimi çıxış edir.

Buna görə də, bu əlaqələndirici şəxslər hakim və prokurorların insan hüquqları üzrə tədris ehtiyaclarını qiymətləndirməyə kömək etmək məqsədilə müvafiq milli təhsil institutları ilə müntəzəm görüşlər keçirir. Onlar proqramı həmkarlarına təqdim etmək üçün HELP təqdimatları təşkil edir, HELP-lə əlaqəli məlumatları və təlim materialları öz ana dilində yükləyir və HELP-in illik konfrasında iştirak edirlər.

HELP-in əlaqələndirici şəxsləri (Focal və İnfo Points) daima HELP Katibliyi ilə əlaqədədir və ona illik hesabatlar təqdim edirlər.

Vebsaytımıza daxil olaraq HELP-in əlaqələndirici şəxslərinin siyahısını tapa bilərsiniz.

### Məşvərət Şurası

HELP-in Məşvərət Şurası HELP Katibliyini müntəzəm olaraq konsultativ dəstək ilə təmin etmək üçün HELP Şəbəkəsi tərəfindən təyin edilən orqandır.

Onun tərkibi HELP Şəbəkəsinin nümayəndlərindən təyin olunan 6 üzvdən ibarətdir və HELP Proqramında iştirak edən hüquq mütəxəssislərinin hər kateqoriyası üzrə (hakimlər, prokurorlar, vəkillər) təhsil institutlarının ən azı bir nümayəndəsi Məşvərət Şurasının üzvü kimi fəaliyyət göstərir.

Məşvərət Şurasının tərkibi HELP Şəbəkəsinin illik Konfransında gizli səsvermə yolu ilə təyin edilir. Ən yüksək səs sayı ilə ilk altı namizəd seçilir.

Məşvərət Şurasının üzvlərinin səlahiyyət müddəti iki ildir və bir dəfə uzadıla bilər.

Məşvərət Şurasının üzvləri xüsusi mövzular üçün Məruzəçilər təyin edə bilər. Məşvərət Şurası HELP Şəbəkəsinin illik Konfransında öz fəaliyyəti haqqında hesabat verir.

HELP-in Məşvərət Şurasının faktiki üzvləri haqqında daha ətraflı məlumat almaq üçün veb saytımıza müraciət edin.

Bu baxımdan Məşvərət Şurası:

- HELP Proqramı tərəfindən işlənib-hazırlanmış standart tədris proqramı və təlim materiallarını qiymətləndirir;
- HELP Şəbəkəsinə gələcək təlim fəaliyyəti üçün prioritet mövzular təklif edir;
- regional təşəbbüslərin işlənib-hazırlanması da daxil olmaqla, müvafiq beynəlxalq və milli iştirakçılar arasında insan hüquqları üzrə tədrisin koordinasiyası üçün ümumi strategiya müəyyən edir;
- hüquqi mütəxəssislər üçün təlim metodologiyaları üzrə məsləhətlər verir;
- HELP-in Redaksiya Heyəti ilə əməkdaşlıq edir (HELP-in Redaksiya Heyətinə AİHM presedent hüququ, AİHK-nın tədrisi üzrə ekspertlər, İT və veb-kommunikasiya eksperti daxildir. O, HELP Katibliyi tərəfindən təyin edilir və HELP Proqramı üçün kommunikasiya strategiyasının planlaşdırılması və həyata keçirilməsi, eləcə də HELP-in saytında xəbərlərin və təlim materiallarının nəzərdən keçirilməsi və yerləşdirilməsi üçün məsuldur);
- HELP Şəbəkəsi və onun Katibliyi tərəfindən müəyyən edilən başqa spesifik məsələlər üzrə məsləhətlər verir; və
- HELP Şəbəkəsi üçün illik hesabat hazırlayır.

### Redaksiya Şurası

HELP Redaksiya Şurasının tərkibi AİHM presedent hüququ, AİHK-nın tədrisi, İT və veb-kommunikasiyalar üzrə ekspertlərdən təşkil olunur. O, HELP Katibliyi tərəfindən təyin edilir və HELP Proqramı üçün kommunikasiya strategiyasının planlaşdırılması və həyata keçirilməsi, eləcə də HELP-in saytında xəbərlərin və təlim materiallarının nəzərdən keçirilməsi və yerləşdirilməsi üçün məsuldur. O, HELP tədbirlərinin və təşəbbüslərinin işlənib-hazırlanması üzrə məsləhətlər verir.

## HELP Katibliyi

Katiblik HELP təlim metodologiyası və resurslardan istifadə olunan bütün tədbirlərdə metodologiyanın uyğunlaşdırılması üçün məsuliyyət daşıyır. O, həmçinin HELP kurslarının inkişafına yönəlmiş müxtəlif İşçi Qruplarının təşkil olunması vəzifəsini yerinə yetirir. HELP-in illik konfransı və HELP təlimçilər üçün təlim proqramı həmçinin Katiblik tərəfindən təşkil edilir, eləcə də o, təlimçilərin qiymətləndirilməsi və sertifikatlaşdırmasına nəzarəti həyata keçirir. Bütün sertifikatlar HELP Katibliyi tərəfindən çap edilir və paylanır.

HELP Katibliyininin digər əsas vəzifələrinə HELP resurslarının keyfiyyətli şəkildə yenilənməsi, eləcə də digər beynəlxalq təşkilatlar, EJTN və ya CCBE kimi HELP tərəfdaşları, digər beynəlxalq təlim təminatçıları, Avropa Şurasının monitorinq və standart təyin edən orqanları ilə koordinasiyanın yaradılması daxildir.

HELP Katibliyi həmçinin tərəfdaş institutlarda HELP-in koordinatorları ilə daima əlaqədə olaraq HELP Şəbəkəsinin fəaliyyətini təmin edir, distant təhsil kurslarının yaradılmasını və başladılmasını dəstəkləyir, elektron platformada dəstək göstərir və HELP platformasında mövcud olan materialları müntəzəm şəkildə yeniləyir.

### *ii. Elektron öyrənmə platforması*

Texnologiyanın sürətlə inkişaf etdiyi və insanların hər zaman məlumatlara sürətli və asan çıxış yolunu axtardığı bir dünyada elektron öyrənmə tədris yanaşması üçün ideal həll yolu kimi görünür. Əlbəttə ki, bu, bütün hallarda ənənəvi üz-üzə tədrisi əvəz edə bilməz, lakin onun tamamlayıcısı ola bilər. Elektron öyrənmə bəzi hallarda tək başına tətbiq edilə, lakin həmçinin tədrisdə qarışıq öyrənmə yanaşması üçün vasitə kimi istifadə edilə bilər.

**Texnologiya:**

- ✓ təlimə çıxışı genişləndirir;
- ✓ öyrənənləri iştiraka təşviq edir;
- ✓ ömür boyu davam edən, sərbəst öyrənməni dəstəkləyir;
- ✓ tələbinin öyrənmə prosesini təkmilləşdirmək üçün müxtəlif resurslardan istifadə edir;
- ✓ texnologiyanın təhsil və tədrisi təkmilləşdirə biləcəyi sahələri tanıyır.

#### Elektron öyrənmə - nə üçün?

HELP metodologiyası və onun elektron öyrənmə yanaşmasından istifadə etməsi hüquq mütəxəssislərinin gündəlik fəaliyyətlərində **üzləşdikləri vaxt məhdudiyyətini** nəzərə alır. Onun əlavə dəyəri ondan ibarətdir ki, tədris proqramı öyrənənlərin spesifik təlim ehtiyaclarını və fərdi öyrənmə üsulunu qarşılayacaq şəkildə tərtib olunur. Bir sözlə, bu asan uyğunlaşmağa imkan verir.

Elektron öyrənmə üsulundan istifadə mümkün qədər çox ölkədə **mümkün qədər çox hüquq mütəxəssisinə** çatmaq üçün **iqtisadi cəhətdən münasib** yolu təmin edir.

HELP milli təlim müəssisələri tərəfindən sahibliyi artırmaq məqsədi ilə "təlimçilərin təlimini" təşkil edir. (Bax: hissə 2, mərhələ 2, bölmə b) HELP Katibliyinin təşkil etdiyi "təlimçilər üçün təlim" sessiyaları, metodologiya və

məzmun üzrə hazırlıq işi üçün elektron öyrənmədən istifadə edən, 2-3 günlük üzbəüz təlim və elektron platformadan istifadə etməklə qiymətləndirmə və rəy ilə davam etdirilən qarışıq öyrənmənin yaxşı nümunələridir. Beləliklə, təlim elektron tədris resurslarının istifadəsi vasitəsilə optimallaşdırılır.

### Elektron öyrənmə - necə?

HELP Proqramı çərçivəsində işlənib-hazırlanan və toplanan **AİHK üzrə geniş çeşiddə təlim resursları** onlayn şəkildə mövcuddur, benefisiar ölkələrin milli dillərinə tərcümə olunmuşdur. Onun əhatə dairəsi və həcmi sürətlə artır, hüquq mütəxəssisləri üçün real problem həcmi sürətlə artan Strasburq Məhkəməsinin presedent-hüququnu izləməkdir. HELP proqramı həmçinin onların asan yeniləmələr sayəsində Strasburq Məhkəməsinin presedent hüququndakı irəliləyişlərdən xəbərdar ola biləcəkləri bir platformadır.

HELP tədris resurslarının **iki əsas növü var**:

- Sertifikatlaşdırılmış milli tyutorların moderatorluğu ilə aparılan pilot kurslarda iştirak edən hüquq mütəxəssislərinin seçilmiş qrupları üçün **distant təhsil kursları** mövcuddur (saytda siyahıya baxın). Mövcud kursların siyahısı (təsviri daxil olmaqla) **kursların kataloqunda** mövcuddur.
- **Sərbəst öyrənmə üçün resurslar** yalnız platformada hesabı olan istifadəçilər üçün əlçatandır. Onlara AİHK Metodologiyası və Əsas Anlayışları üzrə təlim vəsaitləri, o cümlədən Əl kitabçaları, standart kurikulum, kurs icmalları, təqdimatlar, nümunə işlər və AİHK-nın müxtəlif Maddələri və mövzuları üzrə elektron öyrənmə kursları daxildir.

**Uğur hekayəsi**



Siyasi sığınacaq ilə bağlı HELP kursu İspaniya VA tərəfindən təşkil edilən böyük tədbir çərçivəsində başladılmışdı. "Qaçqın böhranına" cavab olaraq İspaniya VA Madriddə 100 vəkil üçün seminar keçirmişdi. Əlavə 800 vəkil tədbiri onlayn izləmişdir. Tyutorun moderatorluğu ilə aparılan HELP kursu yalnız 25 ispan vəkilə təklif ediləcəyi üçün kurs vəsaitlərində sərbəst öyrənmə materialları formasında hər hansı maraqlı ispan vəkilinin çıxışını təmin etmək nəzərdə tutulur.

### *iii. HELP metodologiyası*

HELP 47 üzv dövlətin məhkəmə sistemi üzrə təhsil institutları və vəkillər assosiasiyalarının ümum-Avropa Şəbəkəsidir. HELP Şəbəkəsinin üzvləri təlim ehtiyaclarını qiymətləndirmək və müvafiq təlim materialları hazırlamaq üçün birlikdə işləyir.

HELP tədris kurslarını milli tədris sistemlərinin ehtiyaclarına uyğunlaşdırmaq üçün "à la carte" yanaşmasından istifadə edir. Kurslar ilk öncə adətən ingilis dilində hazırlanır ("Model kurs"). HELP illik konfransı zamanı həm milli, həm Avropa səviyyəsində təlim ehtiyaclarının qiymətləndirilməsinə əsasən, kurs milli hüquq sisteminin və həmin ölkənin hədəf adutoriyasının ehtiyaclarına uyğunlaşdırılır.

Bu uyğunlaşmanı reallaşdırmaq üçün, HELP milli müstəvidə güclü təşəbbüskarlıq yaratmaq üçün "təlimçilər üçün təlim" sessiyası vasitəsilə milli təlimçilərə təlim keçir. Bu, HELP-nin milli təlim institutlarının səylərini əvəz etmədiyini, onları dəstəklədiyi faktını gücləndirir.

HELP-in yeni keyfiyyətli təlim modulları AİHK-nı milli hüquq ilə birləşdirir. Hər milli kurs fərqlidir və ehtiyaclara uyğun hazırlanıb, müvafiq presedent-hüququna və digər milli təlim resurslarına istinadlar daxildir.

HELP interaktiv distant təhsil kimi müasir texnologiyalardan istifadə edir. Bu, mövcud məhdud resurslar ilə daha geniş auditoriyaya çatmağa, daha çox hüquq mütəxəssisinə təlim keçməyə imkan veir.

**Uğur hekayəsi**



Parisdə Frans VA vəkillər üçün ilkin tədris proqramının bir hissəsi kimi HELP Giriş kursunun qarışıq öyrənmə versiyasında istifadə edir. Bu günədək təxminən 2000 vəkil bu kurs üzrə tədris almışdır. Hər semestr təxminən əlavə 200 vəkilin kursda iştirak etməsi planlaşdırılır.

## ƏSAS MƏQAM

Daha çox öyrən: HELP vebsaytında mövcud olan HELP videosunu izlə:

http://helpcoe.org/




ALTERNATIVE MEASURES TO DETENTION
ASYLUM
HATE CRIME/SPEECH
BUSINESS & HUMAN RIGHTS
MEDICRIME
DATA PROTECTION
FAMILY LAW
LABOUR RIGHTS
ILL TREATMENT
INTRODUCTION TO ECHR
HELP
CHEMICAL PRECURSORS
ANTI-DISCRIMINATION
INTERNATIONAL COOPERATION
ADMISSIBILITY
CHALLENGES

# HİSSƏ 2: HELP KURSU: TƏRTİBATDAN QİYMƏTLƏNDİRMƏYƏ QƏDƏR

## Mərhələ 1: Nəyi bilməlisiniz

Təlimin hazırlanması zamanı onun səmərəliliyini təmin etmək üçün nəzərə alınmalı bir neçə məqam var. Birinci mərhələ təlimin müvafiq olub-olmadığını bilməkdir. Bu, təlim ehtiyaclarını qiymətləndirməklə yerinə yetirilir ki, bu da öz növbəsində təlim üzrə öyrənmə məqsədlərini (ümumi və xüsusi) müəyyən etməyə kömək edir.

### a) Ehtiyacların qiymətləndirilməsi

Təşkilatın ehtiyacları, eləcə də "öyrənənlərin" ehtiyacları nəzərə alınmalıdır. Bu dərslikdə biz "Ümumi Məqsədlərə" (bəzən "məqsədlər" kimi tanınır) və "Öyrənmə Məqsədləri"nə (bəzən "nəzərdə tutulan öyrənmə nəticələri " və ya "xüsusi öyrənmə məqsədləri" kimi tanınır) müraciət edəcəyik.

#### *i. Təşkilatın və onun üzvlərinin təlim ehtiyaclarını müəyyən etmək*

Ümumi məqsəd və ya hədəflərin təyin edilməsi təlimin hazırlanmasında mühüm ilk mərhələdir. Bu, planlaşdırma mərhələsinin ümumi məqsədinin müəyyən etməyə kömək edir.

Təlimin ümumi məqsədləri *institusional* müəyyənləşmədən əldə edilir (məsələn, yeni qanunvericilik və ya mənfi qərar və ya müəyyən edilmiş çatışmayan bacarıqlar).  Bu halda təşkilat gələcək hüquqi dəyişikliklər və ya xaricdən çatışmazlıqların müəyyən edilməsi əsasında ümumi və ya xüsusi təlim ehtiyaclarını müəyyən edə bilir.

Bununla belə, ümumi məqsədlərin müəyyən edilməsi zamanı təlimə ehtiyac duyulan hədəf auditoriyanın üzvlərindən soruşmaqla "öyrənənlər"in təlim ehtiyacları barədə müəyyən fikir əldə etməyə çalışmaq faydalı ola bilər.

Bu, faydalı olmaqla yanaşı (təlimin müvafiq olması üçün nəzərdə tutulması yönündə qavrayışı gücləndirir), müəyyən risk də daşıyır. Təlimçilər və öyrənənlərin fərqli istəkləri ola bilər; onların istəkləri təşkilatın ehtiyaclarına uyğun gələ və ya gəlməyə bilər. Keçmişdə daha çox diqqət öyrənənlərin təlim ehtiyaclarını müəyyən etməyə verilirdi və bunların təşkilatların faktiki ehtiyacları ilə uzlaşıb-uzlaşmaması aydın deyildi. Təşkilatlar təşkilati ehtiyacların fərdlərin müəyyən edilmiş ehtiyacları ilə daha sıx əlaqəsinin olmasını təmin etməyə diqqət göstərməyə başladıqları üçün təşkilatların və fərdi öyrənənlərin ehtiyacları arasında "uyğunluğu" təmin etmək zərurətinin olması daha dərindən anlaşıldı.



> Birinci mərhələ təlimin hansı məqsədlə hazırlanması üzərində işləməkdir. Ümumi Məqsədləri müəyyən edərkən, təmin edilən təlimin müvafiq olmasını və təlimçilər və öyrənənlər tərəfindən müvafiq görülməsini təmin etməyə kömək etmək üçün təşkilatın ehtiyac və ya istəkləri ilə hər potensial təlim alanın ehtiyac və ya istəkləri arasında lazimi dərəcədə uyğunluq olmalıdır.

Başqa sözlə, *həm* hədəf auditoriyanın, *həm də* təşkilatın ehtiyaclarının nəzərə alınması faydalıdır. Müəyyən təşkilatın "ətraf mühitinin nəzərdən keçirilməsi və araşdırılması" potensial təlim ehtiyaclarının müəyyən edilməsi ilə nəticələnəcək və bu, təliminin keçirilməsində məsul olan şəxslər tərəfindən daha asanlıqla icra edilə bilər. Bu təklif edir ki, təşkilat bu cür ehtiyacları müəyyən etmək və onları təlim üzrə məsul şəxslərə çatdırmaq üçün metodlar işləyib-hazırlamağa başlamalıdır.

### Təşkilatın ehtiyaclarının müəyyən edilməsi - birinci dərəcəli təlim ehtiyaclarının qiymətləndirilməsi

Təlim ehtiyaclarının müəyyən edilməsi üçün ən bariz qayda təlimçilərin təşkilati və (müvafiq) öyrənənlərin ehtiyaclarının qiymətləndirilməsin əsas rol daşımasıdır. Bu iki elementi ehtiva edir:

- Təşkilatın öz funksiyalarını daha səmərəli şəkildə həyata keçirmək potensialının qarşısını alan məsələlərin müəyyən edilməsi (hazırki kontekstdə insan hüquqları standartlarını müvafiq qaydada tətbiq etmək)





  - Təlimi zəruri edən inzibati dəyişikliklər - məsələn, həbsxanalar üçün mövcud monitorinq vəzifələrinin yenidən təşkili həyata keçirilibmi?
  - Təlimin keçirilməsini tələb edən qanunvericilikdə ən son və ya gözlənilən dəyişiklik mövcuddurmu?
  - Yerli ali məhkəmə və ya Strasburq Məhkəməsi tərəfindən insan hüquqları üzrə məhkəmə təcrübəsinin anlaşılmasında çatışmazlığı göstərən mənfi qərar çıxarılıbmı?
  - Təşkilatın öz prosedurları ilə bağlı sistematik problem varmı - məsələn "ağlabatan müddət" ərzində məhkəmə qərarının çıxarılması?

- Bu prosesdə planlaşdırmaya cəlb edəcəyiniz və ya onunla bağlı məsləhət alacağınız əsas maraqlı tərəfləri müəyyən edin. Təklif etdiyiniz və ya təkmilləşdirdiyiniz kurs və ya proqramları çatdıracaq təşkilat üzvlərini cəlb etmək və ya onlarla məsləhətləşmək onlara təlimdə təşəbbüsü ələ almağa kömək üçün vacibdir.




HELP Katibliyi iyun ayında Strasburqda keçirilən HELP Şəbəkəsinin illik konfransı çərçivəsində illik olaraq təlim ehtiyacları üzrə geniş miqyasda qiymətləndirmə aparır. Bu, Avropa Şurasına üzv olan 47 dövlətin bütün hakim və prokurorlar üçün milli təhsil institutları və vəkillər kollegiyalarına HELP platformasında onlayn sorğular vasitəsilə prioritet məsələləri müəyyən etmək imkanı verir.

HELP Katibliyi həmçinin AİHM-nin genişlənən presedent hüququ və AİHM-nin Qərarlarının İcrası üzrə məsul Şöbə tərəfindən edilən tövsiyələr əsasında yeni mövzular təklif edir.

### Hədəf audioriyanının müəyyən edilməsi - ikinci dərəcəli təlim ehtiyaclarının qiymətləndirilməsi

İkinci dərəcəli təlim ehtiyaclarının qiymətləndirilməsi milli təhsil institutları və vəkillər kollegiyası tərəfindən idarə olunan HELP kursunun ilkin planlaşdırılma görüşündə aparılır. Bu, öyrənənlərin spesifik qrupunun təlim ehtiyaclarını müəyyən etmək imkanı verir. Bu, HELP tədris proqramını milli hüquq sisteminin ehtiyaclarını uyğunlaşdırmaq üçün məsul olan milli təlimçinin vəzifəsidir.

Gələcək öyrənənlərin kimlər ola biləcəyini və onların hansı profilə malik ola biləcəklərini müəyyən edin. Bu həmçinin təlim üçün məsul olanlara xüsusi təlim ehtiyaclarını müəyyən etməyə kömək edəcək.



- Onlar hansı peşədən və ya vəzifədən gələ bilər?
- Onlar hansı istiqamətdə ixtisaslaşmış ola bilər?
- Hansı növ təcrübəyə və staja malik ola bilərlər?
- Təlimdə iştirak etmək və ya ondan faydalanmaq üçün hansı ilkin bilik/bacarıqlara malik olmalıdırlar?

Girişdə qeyd edildiyi kimi xüsusi hədəf qruplar, yəni hakim, prokuror, hökümət rəsmiləri və milli insan hüquqları, ombudsman idarələrində və ya qeyri-hökümət insan hüquqlarını müdafiə təşkilatlarından çalışan mütəxəsislər üçün xüsusi ehtiyacları müəyyən etmək əhəmiyyətli ola bilər.

### *ii. Fəaliyyətin qiymətləndirilməsi vasitəsilə təlim ehtiyaclarının müəyyən edilməsi*

Ümumi məqsədlərin yazılmasında məqsəd təşkilatın hansı ehtiyac və istəklərinin fərdlərin təlim ehtiyaclarının müəyyən edilməsində əks edildiyini təmin etməkdir. Təlim müvafiq görünür: buna görə də, səmərəli olması gözlənilir.

Bunu etməyin ən sadə yolu müəyyən potensial hədəf auditoriyanı təlimin ilk mərhələsində cəlb etməkdir. Təlim keçməli olanları bir yolla, əvvəlki öyrənənlərdən mövcud təminat sistemi ilə bağlı rəy toplamaq və ya potensial öyrənənlər ilə təklifləri müzakirə etmək, yaxud onların öz proqram və kurslarının hazırlanması prosesinə daha kollektiv yollarla iştirakını təmin etməklə cəlb edin. Bu yanaşma təşkilata öyrənənlərə öz təşkilati məqsədləri ilə uzlaşan təlim ehtiyaclarını müəyyən etməyə kömək

etməyin əhəmiyyəti ilə bağlı məlumatlılığı əldə etməyə kömək edən qaydaya müraciət edir. Burada təlim xidmət göstərilməsini yaxşılaşdırmaq üçün vasitədir - istər hakim, prokuror, istərsə də vəkillər kimi. O, həmçinin təlim ehtiyaclarının araşdırılması üçün tamamlayıcı (yəni əlavə olaraq) kimi qəbul edilməlidir.

Bu, həmçinin HELP Katibliyinin hüquq mütəxəssislərinin müxtəlif kateqoriyalardan olan nümayəndələrini HELP model tədris proqramının işlənib-hazırlanması üçün məsul olan işço qruplarına cəlb etməsinin səbəbidir.

Fəaliyyət həmçinin dərc edilən meyarın (gözlənilən səriştələrin bəyannaməsi kimi) fonunda qiymətləndirilə bilər, bu, hər iki tərəfə təlim vasitəsilə dəstək də daxil olmaqla, dəstəyin zəruri olduğu əlavə sahələri müəyyən etməyə kömək edir. Bütün bunlar təşkilati və fərdi ehtiyaclar arasındakı uyğunluğu təmin etməyə kömək edir: gözlənilən səriştələrin bəyannaməsi öz və həmkarının fəaliyyətini izləməklə davamlı götür-qoy etməyə imkan verir.

Bu cari bilik, bacarıq və münasibətlərin səriştələrin bəyannaməsi ilə müqayisə edilməsi prosesi adətən "qiymətləndirmə" və ya "fəaliyyət göstəricilərinə və inkişafa baxış" adlandırılır. Onun məqsədi fəaliyyət göstəricilərini maksimallaşdırmaq, iş məmnuniyyətini təmin etmək və karyerada yüksəliş üçün potensial və imkanlar yaratmaqdır. Bu da öz növbəsində təşkilatın strateji məqsədlərini dəstəkləyən və onunla əlaqəli olan fərdi inkişafın planlaşdırılması vasitəsilə təşkilat daxilində potensialı yüksəltməyə gətirib-çıxarmalıdır. Bu təşkilatın rəhbərliyinin təlimə daha maraqlı olmasını təmin edir: beləliklə, məhkəmə sistemi üzrə təhsil institutları faydalı, lakin əhəmiyyətli olmayan əlavə tərəf kimi deyil, səmərəli və effektiv ədalət mühakiməsinin həyata keçirilməsinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilir.

---

"Səriştələr" fərdlərin və təşkilatın uğuruna töhfə verən amillərə diqqət yetirir. Onlar təşkilat və fərdlərə öz öyrənmə və inkişaf ehtiyaclarını prioritetləşdirmək üçün sahələri müəyyən etməyə kömək etmək yolu ilə, təlimi müəyyən etmək və nailiyyətləri göstərmək üçün istifadə edilə bilən bəyanatlar toplusunu təmin edir. Onlar həmçinin hər mərhələdə hansı bacarıq, bilik və davranışların zəruri olmasına dair aydın gözləntiləri təmin etmək və fərdlərə cari bacarıqlarını inkişaf etdirərək karyerlarında necə yüksələ biləcəklərini göstərmək baxımından fərdlərin karyera yüksəlişi üçün faydalıdır. Beləliklə, fərdlər tutduqları vəzifədə onlardan nə gözlənildiyini bilir və cari vəzifəsini necə inkişaf etdirə biləcəklərini və ya başqa vəzifələrə keçmək üçün şanslarını necə artıracağlarını müzakirə etmək üçün vasitəyə malik olur. Fərdləri idarə etmək üzrə məsul olanlar fəaliyyət göstəricilərini müzakirə edərkən aydın, ədalətli və qərəsiz bəyanatlardan istifadə edir, bu həmçinin onların işçi heyəti üçün vəzifə məqsədlərinin müəyyən edilməsinə kömək edir, işçilərinə fəaliyyət göstəriciləri ilə bağlı rəy bildirərkən ümumi dildən istifadə

edir; və fərdi öyrənmə və ya inkişaf ehtiyaclarını, eləcə də resursları müəyyən edə bilirsə, bu onların işçilərin inkişaf və təlimini daha yaxşı strukturlaşdıra bildiyini göstərir.[10]

___________________________________________________________________________

HELP-in öz fəaliyyət qiymətləndirməsi, HELP-in sertifikataşdırılmış təlimçisi tərəfindən öyrənənin performans göstəricisinin və iştirakının qiymətləndirilməsi də daxil olmaqla müxtəlif amillərə əsaslanır. Təlim kursları hazırlanarkən onlar iştirakçının bilik və bacarıqlarında inkişafı qiymətləndirmək üçün ilkin və yekun qiymətləndirmə daxil edir.

Milli təhsil institutları bu cür sistemləşdirmə etmək istəyirlərsə, bunun üçün üç mərhələ var:

1. Birinci tapşırıq fərdlərə təşkilatın ehtiyacları fonunda gözlənilən performans dərəcələrini anlamağa imkan verən sxem qurmaqdır. Gözlənilən performans (və ya "səriştələr") bəyannaməsinin tərtib və dərc edilməsi vasitəsilə təşkilati "missiyanı" çatdırmaqdır. Bir çox nümunə var.
2. İkincisi, faktiki performans dərəcəsini gözlənilən performans bəyannatları ilə müqayisə etmək üçün vasitələr təqdim etmək lazım gələcək. Bu, özünü qiymətləndirmə yolu ilə və ya qiymətləndirmə/ "fəaliyyət göstəriciləri və inkişafa baxış" vasitəsilə performansı ölçmək və çatışmazlıqları müəyyən etmək üçün cihazlar vasitəsilə edilə bilər. Bu, adətən vəzifəlilərə aşağıdakı imkan verməklə müxtəlif məqsədlərə nail olmaq üçün tərtib edilir:
   - Performans və inkişaf üzərində düşünmək və keçən il ərzində əldə edilən uğuru müəyyən etmək.
   - Təşkilatın müəyyən edilmiş planı ilə uyğunlaşdırılmış fərdi məqsədlər/performans standartlarını müəyyən etmək və razılaşdırmaq - buna bu məqsədlərə nail olmaq üçün aradan qaldırıla bilən çətinliklərin müəyyən edilməsi daxil ola bilər.
   - Öyrənmə sahələrini və/və ya qarşıdakı ildə istənilən/tələb edilən və planlaşdırılan irəliləyişi müəyyən etmək;
   - Təşkilatın strateji məqsəd və hədəflərinin kontekstində cari vəzifə və öhdəlikləri müvafiq qaydada nəzərdən keçirmək.
3. Son mərhələ fərdlərin bu müəyyən edilən təlim ehtiyaclarını təşkilata daima təlim ehtiyaclarını müəyyən etməyə imkan verən sistemə salmaqdır. Bunlara individual və ya kollektiv təlim ehtiyacları daxil ola bilər: məsələn, hakimlər Strasburq Məhkəməsinin presedent hüququdan istifadə etməklə bağlı problem müəyyən edə bilər ki, bu da bütün hakimlər üçün bacarıqlara əsaslanan təlimə ehtiyac olduğunu təklif edir; alternativ olaraq, ailə hüququ üzrə ixtisaslaşan hakim gənclərin evlilik mübahisələrinə cəlb olunması ilə bağlı Avropa standartlarını anlamaq üçün təlimə və bunu asanlaşdırmaq üçün vasitələrə ehtiyac olduğunu ifadə edə bilər.

Beləliklə, fəaliyyət göstəricilərinin və inkişafa baxış prosesinin əsas nəticəsi fərd və təşkilatın məqsəd və hədəfləri ilə uyğunlaşan inkişaf planı olacaq. O, mövcud bilik və bacarıqları, rol və gələcək ehtiyacları nəzərə alacaq. Plana inkişaf sahələri və onların necə əldə ediləcəyi (məsələn, dəstək; seminarlar; vəzifə təlimi; məşqçilik; mentorluq) daxil ola bilər.

---

[10] *Əsas Səriştələr Çərçivəsi*, Rəhbər Kitabçasından (Ədliyyə Nazirliyi) götürülüb https://www.justice.gov.uk/downloads/jobs/competency-framework/core-competence-guidance-booklet.pdf 25 may 2016-cı ildə əldə edilmişdir.

Hakimlər üçün:

Səriştə: fəaliyyət göstərdikləri məhkəmənin yurisdiksiyasını və prosedurlarını, hüquqi bazanı anlamaq.

Performans göstəricisi ilə uyğunlaşdırmaq: dəqiq şəkildə məhkəmənin yurisdiksiyasını və prosedurlarını, hüquqi bazasını təsvir və izah edə (ümumi şəkildə) bilir; Məhkəmənin mədəniyyəti daxilində üzvlərin və işçi heyətin kollektiv və müvafiq rollarını təsvir edə bilir.

Beləliklə, bu nəticəyə gəlmək olar:



Təlim sadə addımla başlayır: təlim vasitəsilə əldə ediləcək Ümumi Məqsədin müəyyən edilməsi. Öyrənmə məqsədlərinin müəyyən edilməsi təşkilatın və onun vəzifələrini yerinə yetirilənlərin ehtiyaclarının araşdırılması - qiymətləndirilməsi və bundan sonra bu ehtiyacların prioritetləşdirilməsidir.



HELP Şəbəkəsi daxilində təhsil institutlarına öz ehtiyacların qiymətləndirilməsi metodologiyası üzrə aşağıdakı məlumatlar verilir

**Aşağıdakı aspektlərdən hansı Sizin institutun işləyib hazırladığı öyrənmə məqsədləri ilə əhatə olunur? (birdən artıq cavab mümkündür)**




(Mənbə: HELP-in 2015-ci il tarixli illik Konfransının hesabatı)

### b) Ümumi Məqsədlərinin müəyyən edilməsi

İlk sual məlumdur: təlimin *nə üçün* zəruri olduğunu düşünürsünüz? Bu sual başqa cür də qoyula bilər: Təlimin ümumi şərtlər daxilində *nə* etməsini gözləyirsiniz? Ehtiyacların müəyyən edilməsi ümumi təlim məqsədlərinin müəyyən edilməsinə imkan verir; öz növbəsində bu da daha spesifik təlim məqsədlərinin müəyyənləşdirilməsinə imkan verir.

Ümumi məqsəd kurs/proqramın geniş mənada məramıdır. Bunlar adətən kurs/proqramın öyrənənlərə təqdim edəcəyi imkanlarda ifadə edilir. Təlimin ümumi məqsədinin nə olduğunun müəyyən edilməsi təlim və hədəf auditoriya üçün cəlb olunduqları təlimin ümumi məqsədinin nə olduğunun aydınlaşdırılmasında ilk mərhələdir.

*Nümunə A*

Bu proqramın ümumi məqsədi öyrənənlərə Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnu araşdırmaq üçün inam və bacarıqlarını inkişaf etdirmək imkanı verməkdir.

*Nümunə B*

Bu kursun ümumi məqsədi hakimlərin cinayət əməli törətməkdə şübhəli bilinən şəxsin məhkəməyə qədərki mərhələdə müdafiəsi ilə bağlı Avropa İnsan Hüquqları Konvensiyasının tələblərinin anlamasını təmin etməkdir.

Təlimin ümumi məqsədi müəyyən edildikdən sonra tərtibat mərhələsi başlaya bilər və tərtibat mərhələsi daxilində öyrənmə məqsədləri (və ya "nəzərdə tutulan öyrənmə nəticələri") müəyyən edilə bilər (aşağıdakı mərhələ 2aiii, səh. 60 baxın).

## Mərhələ 2: Nə etməlisiniz -HELP yanaşması

### a) Kursun hazırlanması

HELP model kursu beynəlxalq məsləhətçilər qrupu tərəfindən hazırlanmış model tədris kurikulumudur. Hazırlanma prosesi tamamlandıqdan sonra faktiki kursa - ya qarışıq, ya da distant kurs kimi - start verilmədən öncə adaptasiya mərhələsi başlayır.

Kursun Avropa Şurasına üzv olan istənilən ölkədə və hüquq mütəxəssislərinin istənilən kateqoriyası üçün keçirilə bilməsi baxımından, müxtəlif hüquq sistemlərinə, eləcə də müxtəlif hədəf qrupların ehtiyaclarına uyğunlaşdırma məzmunun işlənib-hazırlanması prosesində nəzərə alınmalıdır.

Bələdçi kitabının bu bölməsinin məqsədi başlanğıcdan sona kimi model kursun necə yaradılması üzrə bələdçiliyi təmin etməkdir. O, milli tyutorun seçilməsi və milli dillərə tərcümə, kursun başladılması üçün hazırlıq və başladılmanın özünün təşkilindən bəhs edir. İcradan sonra qiymətləndirmə, sertifikatlaşdırma və təftiş mərhələləri tələb edilir, bu, təlim materiallarının HELP Moodle platformasının sərbəst öyrənmə bölməsinə köçürülməsinə və strukturlaşdırılmış kursun xaricində istənilən istifadəçinin istifadəsinə verməyə imkan verir.

Təklif edilən vaxt cədvəli aşağıdakı kimidir:

<table>
<tr><th colspan="2">Fəaliyyət</th><th>Müddət</th></tr>
<tr><td colspan="2">Təlim Ehtiyaclarının Qiymətləndirilməsi (TEQ) - Şəbəkə tərəfindən prioritet mövzuların müəyyən edilməsi (Strasburq (və ya Lüksemburq) Məhkəməsinin insan hüquqları sahəsində ən son presedent hüququ əsasında) və milli institutların TEQ-i.<br><br>Məsləhətçilər və Avropa Şurası tərəfdaşları/ekpertlərinin seçilməsi</td><td></td></tr>
<tr><td rowspan="3">Kurrikulumun Hazırlanması (xüsusi öyrənmə məqsədlərinin tərtib olunması, kursun təfərrüatlı planı, nümunə işlər, praktiki tapşırıqlar, qiymətləndirmə vasitələri, əlavə material və istinadların siyahısı)</td><td>İşçi Qrupun I görüşü</td><td>Ay 1-2</td></tr>
<tr><td>İşçi Qrupun II görüşü</td><td>Ay 3-4</td></tr>
<tr><td>İşçi Qrupun III görüşü</td><td>Ay 5</td></tr>
</table>

| | | |
|---|---|---|
| **İnteraktiv məhsulun hazırlanması** | Eskiz işi üçün görüş[11] | Ay 6 |
| **Milli dilə tərcümə** | | Ay 7-8 |
| **Milli hüquq sisteminə uyğunlaşdırma** *(Təlimçilər üçün Təlim - milli və beynəlxalq müstəvidə istifadə edilən sertifikatlaşdırılmış təlimçilər qrupu)* | | Ay 8-9 |
| **Milli səviyyədə kursun həyata keçirilməsi və təsdiqlənmə** | Öyrənənlərin seçilməsi | Ay 9 |
| | Buraxılış tədbiri kimi üzbəüz görüş | Ay 10 |
| | İcra | Ay 10-14 |
| | Sertifikatlaşdırma/Qiymətləndirmə | Ay 15 |

### i. *Ehtiyacların qiymətləndirilməsi əsasına mövzunun seçilməsi*

HELP yol xəritəsi

HELP-in illik konfransı zamanı, Şəbəkə insan hüquqları baxımından öz institutları və hüquq mütəxəssislərinin ehtiyaclarını müzakirə edir. Şəbəkə üzvlərindən məlumat toplamaq üçün sorğu anketləri hazırlanır və bu məlumat konfrans zamanı müzakirə üçün əsas kimi istifadə edilir. Daha ətraflı məlumat üçün zəhmət olmasa, şəbəkə üzvləri tərəfindən ehtiyacların qiymətləndirməsi üçün istifadə edilən metodologiyaların təhlilini nəzərdən keçirin[12].

Həmçinin Şəbəkə üzvlərinin öz prioritetlərini və başlatmaq istədikləri kursları və bunun milli səviyyədə və ya çoxmillətli təşəbbüslər kimi yerinə yetirilmə olduğunu bildirmək imkanı var.

Bu məlumata əsaslanaraq, HELP Katibliyi növbəti il üçün, növbəti illik konfransa kimi mövcud kursun başladılması və ya mövcud kursların inkişafı üzrə prioritetlə göstərməklə yol xəritəsi tərtib edir.

---

[11] Eskiz interaktiv proqram təminatında qurulacaq kursun şablonudur. Eskiz bütün zəruri məzmun və struktur ilə birlikdə PowerPoint formatda təqdim olunur və yekun məhsulun nə olacacağı üzrə dəqiq bələdçiliyi təmin edəcək.
[12] https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=09000016806544fe

Şəbəkə üzvləri həmçinin insan hüquqları üzrə tədrisə gəldikdə isə, hüquq mütəxəssisləri üçün tədris metodologiyasını müzakirə edir və üzləşdikləri institutional, texniki və ya münasibət problemlərinə müraciət edir.

Ehtiyacların qiymətləndirilməsi həmçinin Şəbəkənin institut üzvləri tərəfindən milli müstəvidə aparılan qiymətləndirməyə əsaslanır. (yuxarıdakı bölməyə baxın) Zəhmət olmasa, ən yaxşı təcrübələr üzrə məlumat almaq üçün 2014 HELP illik hesabatını[13] nəzərdən keçirin.

#### Eyni sahəyə cəlb olunan digər beynəlxalq təşkilatlar ilə koordinasiya

HELP Şəbəkə üzvləri, həmçinin digər beynəlxalq təşkilatlar, HELP tərəşdaşları və Avropa Şurası daxilində başqa qurumlar ilə daima əlaqədədir. Təlim zərurətini müəyyən edərkən və mövzu üzrə təlimi hazırlamaq üçün zərurətə qərar verməzdən öncə səylərin bütün cəlb olunan tərəflər arasında koordinasiya edilməsi, beləliklə artıq mövcud təlim və ya materialların eynisinin çıxarılmaması/təkrarlanmamasından əmin olmaq üçün qiymətləndirmə aparılır. Hazırlanan təlim "öyrənən" üçün səmərəli və müvafiq olmaq üçün əlavə dəyərə malik olmalıdır.

### *ii. HELP İşçi Qrupları (İQ)*

#### Məsləhətçilərin seçilməsi

Məsləhətçilər ingilis dilində model kursun işlənib-hazırlanması üçün məsul olan İQ üzvü kimi təyin edilir. İQ azı 4 xarici məsləhətçidən təşkil olunur, onların birindən koordinator vəzifəsini icra etmək istənilir. Say mövzudan, eləcə də HELP Katibliyi və digər bir Avropa Şurası qurumu və/və ya digər beynəlxalq təşkilatlar arasında koordinasiyanın qurulmasından asılı olaraq dəyişə bilər. Təkrarən qeyd etmək vacibdir ki, **hüquq mütəxəssislərin hər qrupundan** bir nümayəndənin iştirak etməsinə üstünlük verilir. İdeal şəkildə İQ bir hakim, bir prokuror, bir vəkil və vətəndaş cəmiyyətinin nümayəndəsi və ya akademikdən təşkil oluna bilər.

Qeyd etmək vacibdir ki, hər İşçi Qrupunun Layihə Rəhbəri tərəfindən nəzərə alınmalı olan öz xüsusiyyətləri var ki, o, HELP metodologiyasını tətbiq etməklə bu xüsusiyyətlərə müvafiq olaraq onu nizamlamalıdır.

Yuxarıda qeyd edildiyi kimi, məzmunun tərtib olunma mərhələsi başlamadan öncə HELP Katibliyi tərəfindən məsləhətçilər təyin edilir. Tətbiq olunan satınalma prosedurundan asılı olaraq, məsləhətçilər beynəlxalq tender, məhdud-konsultasiya və ya birbaşa danışıqlar proseduru vasitəsilə seçilir.

Avropa Şurasının satınalma prosedurları bir hüquqi cəhətdən məcburi xarakter daşıyan sənəddə - Avropa Şurasının satınalma prosedurları üzrə 1333 saylı 29 iyun 2011-ci il tarixli Qaydada (bundan sonra "Qayda") birləşdirilir. Qaydanın 2-ci Maddəsində əsasən **seçmə obyektivlik, şəffaflıq, qeyri-imtiyazlı, bərabər münasibət və ayrı-seçkiliyin yol verilməməsi prinsiplərinə əsaslanmalıdır.**

[13] https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=09000016805c460d

Təşkilat üçün malların, xidmətlərin və ya işlərin təchizi üzrə müqavilələr, çərçivə müqavilələri və tərəfdaşlıq müqavilələri aşağıdakı prosedurlardan birinə tabe olmalıdır (Qaydanın 4-cü Maddəsi):

Beynəlxalq tenderin elan edilməsi və ya məhdud-konsultasiya prosedurunun məqsədi çoxlu sayda potensial təkliflərə çatmaqdır. Bu, inzibati alıcı quruma müvafiq sayda müraciət edənlər arasından ən yaxşı namizədləri seçmək imkanı verir. Bu səbəbdən, bildirişlər Avropa Şurasının veb saytında (məsələn, tenderə dəvət üçün ayrılan bölmədə) və iş axtaranlara Avropa İttifaqı qurumlarında olan işlərin siyahısını tapmağa kömək edən xidmətlər təmin edən vebsaytlarda (məsələn, EuroBrussels) dərc edilməlidir. Bundan əlavə, tender HELP Şəbəkəsində, eləcə də Məhkəmə Sistemi üzrə Avropa Tədris Şəbəkəsi kimi HELP Tərəfdaşlarının əlaqələri arasında yayılmalıdır.

Tətbiq olunan satınalma prosedurdan asılı olmayaraq, məsləhətçilərin vəzifələri **yerinə yetirilməli** şərtlər kimi formalaşdırılmalı və tender bildirişinə (tendərə dəvət halında) və ya müqaviləyə (məhdud-konsultasiya və ya birbaşa danışıq prosedurları halında) daxil edilməlidir.

### Məsləhətçilərin rolu

Hər məsləhətçidən İQ üzvləri arasında tapşırıqların paylaşılmasına görə son tarixlər təyin etməklə ingilis dildində **model kursun** layihəsinin tərtib edilməsində iştirak etmək gözlənilir. Kursun məzmunundan əlavə, hər məsləhətçidən seçilmiş əlavə resursların siyahısını, suallar siyahısını (məsələn, səhv və ya düz, çox seçimli və s.), hər modul üçün öyrənmə məqsədləri və xarici vebsaytlarına keçidlər, mövzuya uyğun multimedia vasitələri təqdim etmək gözlənilir. Son olaraq, müzakirə üçün müəyyən mövzu təklif edilə bilər və sonra icra mərhələsində milli təlimçi tərəfindən istifadə oluna bilər.

**İşçi Qrupun koordinatoru** təyin edilən İQ üzvü yuxarıda qeyd edilən xidmətlərdən əlavə, məzmun hazırlama mərhələsinə nəzarəti həyata keçirir. Başqa sözlə, o, digər üzvlərin işlərini alır, onların məzmun, eləcə də üslub və format baxımından əlaqəli olmasını təmin etmək üçün oxuyur və şərh bildirir. Bundan əlavə, o, məzmunun hazırlanma mərhələsinin sonunda kursun ifadəli versiyasının yaradılmasını asanlaşdırmaq üçün elektron öyrənmə tərtibatçısı ilə əməkdaşlıq edir. HELP Katibliyinə tərtibat prosesinin gedişatı barədə daima hesabat verilməlidir.

Bundan əlavə, hər məsləhətçidən bir-biri ilə əlaqə saxlamaq və tədris materiallarını mübadilə etmək məqsədilə digər İQ üzvləri ilə sıx iş əlaqəsi qurmaq və saxlamaq gözlənilir.

### İQ görüşləri

Məsləhətçilərin ən azı iki ay aralıqla keçirilən ən azı üç **İQ görüşündə** iştirak etmək istənilir. Görüşlərin sayı daha sonra əlavə görüşə ehtiyac yarandığı halda tənzimlənə bilməsinə baxmayaraq, görüşlər arasındakı aralıq öncədən kursun həcminə görə planlaşdırılır. İQ görüşləri məzmun hazırlama mərhələsində əsas hesab edilməsinə baxmayaraq, məsləhətçilərdən layihələmə üzrə öhdəliyini əsasən görüşlər arasındakı müddətlər ərzində tamamlamaqları gözlənilir. Orta hesabla, HELP model kursu 9 ay ərzində hazırlanır.

Məsləhətçilər şeçildikdən və tender iştirakçıları nəticələr ilə tanış edildikdən sonra, ilk İQ görüşü planlaşdırıla bilər. Növbəti görüşlərin vaxtı, eləcə də tapşırıqları təqdim etmək üçün son tarixlər görüş zamanı təyin edilir. İdeal şəkildə vaxt cədvəli bütün İQ üzvlərinin bütün görüşlərdə iştirak edə biləcəyi şəkildə təyin edilir. Bu mümkün olmadıqda və məsləhətçilərdən birinin iştirak edə bilməməsi prosesin təxirə salınması ilə nəticələnə bildiyi halda, əvəzində vebkonfrans təşkil edilə bilər.

Birinci İQ görüşünə əlavə olaraq, koordinatordan həmçinin məzmun hazırlama mərhələsi başa çatdıqdan sonra elektron öyrənmə tərtibatçısı ilə birlikdə **eskiz ilə bağlı görüşdə** iştirak etmək istənilir.

Mövzu digər Avropa Şurası qurumlarının mandatı ilə əlaqəli olduqda, müxtəlif şöbələrin nümayəndələri məzmun hazırlama mərhələsində iştirak etmək üçün dəvət edilə bilər. Onların cəlb edilməsi İQ görüşdə iştirakdan bir modulun layihəsinin hazırlanması və ya tədris materiallarının nəzərdən keçirilməsinə kimi tutduğu mövqedən asılıdır.

### *Birinci İQ görüşündən öncə*

İşçi Qrupun ilk görüşü keçirilmədən öncə onun məhsuldar olmasını və anında nəticələrin əldə edilməsini təmin etmək üçün inzibati tənzimləmələr ilə yanaşı, bir sıra tədbirlər həyata keçirilməlidir. İlk öncə məsləhətçilər onların birinci İQ görüşündə iştirak edə biləcəklərini öyrənmək üçün əlaqə saxlamalıdır.

Bundan əlavə, onlara həvalə edilən tapşırıqlar, eləcə də HELP Proqramı barədə məlumat təqdim edilməlidir. Görüş zamanı HELP Proqramı ilə bağlı ümumi təqdimat edilməsinə baxmayaraq, əvvəlcədən HELP veb saytına[14] keçidin məsləhətçilərə göndərilməsi və elektron tədris platformasında hesab açılmasını təşviq etmək yaxşı təcrübədir. Bu, onlara proqram və onun alətləri ilə tanış olmaq imkanı verəcək."

Məsləhətçilər həmçinin kurs, onun məqsədləri və gözlənilən nəticələr haqqında ətraflı məlumat ilə təmin edilməlidir. Bu məqsədlə, görüşdən əvvəl müəyyən hazırlıq materialları toplanıla və/vəya tərtib oluna və bölüşülə bilər. Materialların seçilməsinə xüsusi diqqət edilməlidir, belə ki, görüşün məqsədi beyin hücumuna təşviq etməkdir.

Sənədlərin elektron tədris platformasına, İşçı Qrupuna həsr edilmiş səhifəyə yüklənməsi yaxşı təcrübədir. Sənədləri və ideyaları yükləmək və paylaşmaq məqsədilə platformadan istifadə etmək üçün məsləhətçilərə addım-ba-addım təlimat göndərilə bilər. Bu səhifədən həmçinin kursun inkişafının gedişatını izləmək üçün istifadə edilir. Bu səhifəyə yalnız İQ üzvləri, HELP Katibliyi və kursun məzmununun hazırlanması mərhələsinə cəlb oluna bilən hər kəs daxil ola bilər.

### *Birinci İQ görüşü*

İşçi Qrupun birinci görüşünün məqsədi məsləhətçiləri bir-biri ilə tanış etmək, onlara HELP Proqramını və onun tədris metodologiyasını təqdim etməkdir. Görüşün sonuna kimi **məsləhətçilər kurrikulum planının**

[14] http://www.coe.int/help

**ilkin versiyası, kursun formatı, aralarında tapşırıqların bölüşdürülməsi və vaxt cədvəlinin təyin edilməsi ilə bağlı razılığa gəlməlidir**. Gündəlikdə qoyulan mövzulara daxildir:

- HELP Proqramına giriş;
- *Tour de table* (dəyirmi masa);
- Mövcud təşəbbüslər və təlim materialları;
- Təlim ehtiyaclarının qiymətləndirilməsi;
- Öyrənmə məqsədləri;
- Kurrikulum planı;
- Format;
- Tapşırıqların bölüşdürülməsi;

İlkin *dəyirmi masa* adətən məsləhətçilərin hazırlığını və gözləntilərini paylaşmaq məqsədilə gündəliyə daxil edilir. Tapşırıqları bölüşdürərkən yüksək keyfiyyətli nəticə təmin etmək üçün hər məsləhətçiyə özünü daha əmin hiss etdiyi modulu hazırlamağın tapşırılması nəzərə alınmalıdır.

Mövcud təşəbbüslərin və təlim materiallarının təkrarlanmasından yayınmaq üçün məsləhətçilər təlimin mövzusu baxımında Avropa Şurası və ya digər beynəlxalq təşkilatlar tərəfindən indiyədək nələrin işlənib-hazırlanmasına dair **ümumi icmal** ilə təmin edilir. O, HELP Katibliyindən ilkin araşdırma tələb etməsinə baxmayaraq, mövcud materialların onların sahibinin razılığı ilə kursa inteqrasiya edilə bilməsini nəzərə almaq faydalı ola bilər.

Hüquq mütəxəssislərinin hədəf qrup olduğunu və kurs başlamadan öncə MTİ və ya VA tərəfindən daha təfərrüatlı qiymətləndirmənin aparıldığını nəzərə alaraq, **təlim ehtiyacları** birinci İQ görüşü zamanı qiymətləndirilə bilər. Müzakirənin ardından İQ model kursunun məzmunun həmin kateqoriyalar üçün eyni olub-olmadığını və ya hədəf qrupa görə müəyyən dəyişklərin zəruri olduğunu müəyyən edir.

Ümumi məqsədlər birinci İQ görüşü zamanı hazırlana bilər. Öyrənmə məqsədləri, yəni kursun sonunda öyrənənləri əldə etməsi nəzərdə tutulan bilik, bacarıq və dəyərlər yekun görüş zamanı nəzərdən keçirilir. Hər modulun öyrənmə məqsədləri görüş zamanı və ya ayrı şəkildə hər məsləhətçi tərəfindən ona həvalə edilən modulun layihəsini tərtib edərkən sıralana bilər.

Kurrikulum planı görüş zamanı yerinə yetirilməsi ən çox tələb edilən tapşırıqdır. İlk öncə, əsas **struktur** tərtib edilir və məsləhətçilərə müzakirənin gedişatını izləməyə imkan verən ekrandan istifadə etmək tövsiyə edilir. Məsləhətçilər kursun sxemi ilə bağlı razılıq əldə etdikdən sonra daha geniş müzakirə aparıla, plana işarələnmiş siyahı daxil edilə bilər. Məsləhətçilər yadda saxlamalıdırlar ki, yekun versiyanı təqdim etmədən əvvəl istənilən vaxt dəyişikliklər edilə bilər, yəni qrup onu pedaqoji məqsədlər üçün əlverişli hesab etdiyi zaman planda dəyişikliklər edilə bilər.

Kursun **formatı** üzrə müzakirə mühüm əhəmiyyət kəsb edir, çünki o, məsləhətçilərin məzmun hazırlama mərhələsinə olan münasibətini müəyyən edir. Birinci İQ görüşü zamanı məsləhətçilər kursun bütövlükdə interaktiv olub-olmayacağına və ya *Articulate (elektron öyrənmə proqram təminatı)* və mətn təqdimatları (Word və Power Point versiyası) ilə kombinasiya şəkildə təqdim edilib-edilməyəcəyinə dair qərar verir. Qərar kursun qarışıq və ya distant təhsil kimi keçiriləcəyindən asılı olmayaraq alınır.

Hər model tapşırığının ilkin versiyalarının təqdim edilməsi üçün **son tarixlər** qrup tərəfindən təyin edilməlidir. Məsləhətçilərdən öz tapşırıqlarını koordinatora ikinci İQ görüşündən ən azı iki həftə və üçüncü İQ görüşündən azı üç həftə əvvəl təqdim etmələrini istəmək yaxşı təcrübədir.

Tapşırıqların bölüşdürülməsi həmçinin **rolların aydın şəkildə müəyyən edilməsini** tələb edir. İşçi qrupun üzvlərinin layihə koordinatorunun rolu, inzibati səviyyədə işçi qrupun fəaliyyətini kimin koordinasiya etdiyini, məsləhətçinin koordinator kimi çıxış etdiyi zaman materialların məzmununun koordinasiya edilməsi üçün məsul olduğu ilə bağlı aydın anlayış ilə təmin etmək əhəmiyyətlidir. Hər üzv cəlb edilən digər şəxslərdən nəyin gözlənildiyini bilməklə yanaşı, ondan nəyin gözlənildiyi barədə aydın fikirə malik olmalıdır.

Görüşdən sonra təlim materialları HELP Katibliyi tərəfindən təmin edilən **şablonlardan** istifadə edilərək tərtib edilir. Onlar rəy və şərhlərin mübadiləsinə təşviq etmək üçün İQ üzvləri arasında dövr edir. İQ tərəfindən razılaşdırılan plana əsasən, hər məsləhətçidən bütün tapşırıqlara dəyişikliklərin izlənilməsi aləti vasitəsilə şərh bildirmək və koordinatora məlumat vermək gözlənilir. Bundan başqa, məsləhətçilərdən digər məsləhətçilərin iradlarına əsasən məzmuna uyğun hesab etdiyi təqdirdə öz töhfəsinin məzmununu dəyişdirmək istənir.

*İkinci İQ görüşü*

İkinci İQ görüşünün məqsədi hər məsləhətçinin yerinə yetirdiyi tapşırığı müzakirə etmək və onları müvafiq qaydada redaktə etməkdir. Məsləhətçilərdən digər üzvlərin materialları nəzərdən keçirməyə imkana malik olmaya biləcəyini nəzərə alaraq, müvafiq tapşırıq haqqında **qısa təqdimat** etmək istənilir.

Elektron öyrənmə tərtibatçısı və kommunikasiya eksperti elektron öyrənmə üsullarından istifadə və müvafiq olaraq səmərəli yazma üzrə təqdimat etmələri üçün görüşə dəvət oluna bilər. Həmin təqdimatlar hazırlıq fazasının ilk mərhələsində təqdim edilərsə, məsləhətçilər interaktiv etmək məqsədilə Articulate və təlim materiallarının layihəsi ilə tanış olduqları üçün aydın şəkildə töhfə verir.

**İnteraktiv format** ilə bağlı müzakirə adətən kurs planının müəyyən edildiyi ikinci İQ görüşündə keçirilir. İnteraktivlik kursda istifadə ediləcək multimedia vasitələrinin təklif edilməsi ilə əldə edilir. Məsləhətçilər salamlama videoları əlavə etmək və/və ya müəyyən təqdimatı video mühazirələr ilə əvəz etmək imkanlarını aşkar edir. Sahələrində ekspertlər kimi məsləhətçilərdən adətən Avropa Şurasının binalarında çəkilən videonun ssenarisini hazırlamaqda HELP Katibliyini dəstəkləmələri istənilə bilər. Seçilən mövzuya və hədəf auditoriyaya uyğun olaraq interaktivliyin düzgün səviyyəsinin seçilməsi önəmlidir.

Salamlama videoları əlavə edilərsə, Avropa Şurasının səlahiyyətli qurumu və kursun hazırlanması məqsədilə əməkdaşlıq qurulduğu zaman beynəlxalq təşkilatın partnyoru çıxış təqdim edə bilər. Salamlama videosunun əsas məqsədi öyrənənləri distant/qarışıq kursda sona kimi iştirak etməyə motivasiya etməkdir. Bu səbəbdən, salamlamla videolarını təqdim edən şəxslərin seçimi vacibdir və natiqi hədəf auditoriyadakı nüfuzu nəzərə alınır.

Mətn məzmununu əvəz etmək üçün çəkilən videolarla əlaqədar məsləhətçilər daha çox cəlb edilə bilər, çünki onlardan ssenarini hazırlamaq və istəkli olduqları halda, mühazirə demək istənilə bilər. İstənilən

halda, videonun transkripsiyası hazırlanmalıdır ki, gələcəkdə alt yazılar üçün istifadə edilə, bundan sonra müxtəlif mill dillərə tərcümə edilə bilsin.

### *Üçüncü İQ görüşü və keyfiyyət yoxlaması*

Üçüncü və son işçi qrupu görüşünün məqsədi tədris materialının **yekun versiyasını** müzakirə etmək və təsdiq etməkdir. Məsləhətçilər təklif edilən bütün dəyişiklərin edilməsindən əmin olur, öyrənmə məqsədlərini onların kursla əlaqəli olub-olmadığını yoxlamaq üçün nəzərdən keçirir və formatı müzakirə edir. Müzakirə əsnasında məsləhətçilərdən görüşdən bir neçə həftə sonra öz tapşırıqlarının yekun versiyasını təqdim etmələri gözlənilir.

Yekun versiya HELP Katibliyinə təqdim edildikdən sonra xüsusilə, müxtəlif dillərə tərcümə baxımından yüksək keyfiyyətli tədris materialları təqdim etmək üçün **dilin keyfiyyət yoxlamasının** aparılması tələb edilə bilər.

Kursun hazırlanması və işçi qrupun hər görüşü zamanı və arasında nəyin edildiyi aşağıdakı kimi təsvir edilir:


Modulun birinci versiyası koordinatora göndərilir
Koordinar + digər üzvlərə modulun ikinci versiyası göndərilir
Eskizin təsdiq olunması
İnteraktiv məhsulun hazırlanması
HELP model kursunun hazırlan-ması
İQ görüşü I: Kurrikulum planı hazırlanır İş məsləhətçilər arasında bölüşdürülür
İQ görüşü II: İlk layihə müzakirə olunur
İQ görüşü III: Kursun məzmunu yekunlaşır
Eskiz işi üçün görüş İnteraktiv məhsulun hazırlanması

### *iii. Öyrənmə məqsədlərinin müəyyən edilməsi*

Ümumi məqsədlərin təyin edilməsi təlim proqramı üçün xüsusi öyrənmə məqsədlərinin yazılmasına imkan veir. Bu da öz növbəsində, kursun ümumi məqsədinə və xüsusi öyrənmə məqsədlərinə uyğun olaraq, qiymətləndirmə və rəy strategiyasının yaradılmasına və öyrənənlərə müəyyən edilmiş ümumi məqsədi və öyrənmə məqsədlərini əldə etməyə kömək edən ən uyğun təlim metodlarının və öyrənmə tədbirlərinin müəyyən edilməsinə kömək edəcək (təlim ehtiyaclarının və ümumi məqsədlərin qiymətləndirilməsinə yuxarıdakı bölmədə baxın).

Xüsusi öyrənmə məqsədlərinin müəyyən edilməsi və yazılması uğurlu təlimin mühüm göstəricisidir. Bir sözlə, öyrənmə məqsədlərinin təyin edilməsi hədəflərə və öyrənmə məqsədlərinə çatmaq üçün gedişatı dəstəkləyən əlaqəli təlim və ya kurs formalaşdırmaq üçün təlimçiyə təlimin müxtəlif elementlərinin birlikdə necə inteqrasiya edilməsi üzərində işləməyə kömək edəcək.

Aydın öyrənmə məqsədlərinin formalaşdırmasının planlaşdırma mərhələsində nə mühüm olduğunun bir neçə səbəbi var.

- Öyrənmə məqsədləri kurs/proqramın sonuna kimi öyrənənin nə nümayiş etdirə bilməli olduğunu təsvir edir. Öyrənmə məqsədləri təlimçi və öyrənən üçün hədəfləri aydınlaşdırır. Hər kəs təlimin hansı mövzuya yönəldiyini başa düşür, beləliklə, mümkün yalnış anlaşılmalar aradan qaldırılır.
- Öyrənmə məqsədlərinin formalaşdırılması təlimin öyrənənlərin ehtiyaclarına müvafiq olması və zaman ərzində nəticənin əldə edilməsinin mümkün olmasından əminliyi təmin edir. Öyrənmə məqsədləri olmasa, təlimin sadəcə məqsədi olmaz və ya çox ambisialı məqsədi ola bilər.
- Öyrənmə məqsədlərinin qiymətləndiriləcəyi üçün təlimçi və öyrənənin təlimin uğurlu olduğu dərəcəsini qiymətləndirmək imkanı var. Bundan əlavə, öyrənənlər təlimə qarşı "Mən edə bilərəm" münasibətini qazanır, bu da təşkilat və ya dövlət qulluğu daxilində *səriştələr əsaslanan* təlim anlayışını gücləndirir.

Öyrənmə məqsədləri öyrənənlərin insan hüquqlarını praktikada tətbiq etmək üçün inkişaf etdirilən bilik və bacarıqları göstərə bilər. Giriş təlim (məsələn, cinayət proseduru və İnsan Hüquqları üzrə Avropa Konvensiyasının tələbləri üzrə) və daha təkmilləşdirilmiş təlim (məsələn, hüquq nümayəndəsinə çatım və zaminlik hüququ) arasında fərqləndirmə aparıla bilər. Öyrənmə məqsədləri hər zaman əldə edilə bilən olmalıdır, lakin maarifləndirmə səviyyəsi və təlim təcrübəsi artdığı kimi bilik və bacarıqların səviyyəsini artmasını tələb edir.

Öyrənmə məqsədlərinin müəyyən edilməsi təlimçilərə təlim üsulunu seçməkdə kömək edir.

Bütün bunlar dildə dəqiqliyin olmasını təklif edir. İfadə aydınlığı sonraki mərhələlərdə düşüncənin aydın şəkildə çatdırılmasına kömək edəcək. Bu o qədər də çətin tapşırıq deyil. İki faydalı məsləhət vermək olar: öyrənmə məqsədləri "SMART" olmalıdır, onlar qiymətləndirilmə təklif edən dildə yazılmalıdır.

İlk növbədə öyrənmə məqsədlərini yazmaq üçün *dəqiq* dildən istifadə edilməlidir. Bu, indi universal şəkildə ifadə edilir ki (ən azı ingilis dilində!) öyrənmə məqsədləri **"SMART"** olmalıdır:  yəni,

**Konkret** (**S**pecific) - Hər hansı məqsəd konkret, aydın və birmənalı olmalıdır. O, konkret bir şeyi hədəfləmədir - məsələn, mövzunun aydın şəkildə anlaşılmasını.

**Ölçülə bilən** (**M**easurable) - Məqsədə öyrənən tərəqqisinin necə ölçüləcəyinə dair müəyyən göstərici daxil olmalıdır.

**Əldə edilə bilən** (**A**ttainable) - Məqsədə nail olmaq mümkün olmalıdır.

**Uyğun** (**R**elevant) -Məqsəd kursda iştirak edənlərə uyğun olmalıdır.

**Vaxt məhdudiyyəti** (**T**ime specific) - Məqsəd tapşırığın tamamlanmalı olduğu müddətləri müəyyən etməlidir.

İkincisi, hər öyrənmə məqsədinin ehtiva etdiyi uğur səviyyəsini ölçmək mümkün olmalıdır. Bunu etmək görünüdüyündən daha asandır.

Öyrənmə məqsədləri əsas hissə (vaxt məhdudiyyətini verir), **hərəkət feli** ilə başlayan bəyanat (öyrənənlərin nə göstərəcəklərini vurğulayan) + **obyekt** (nə öyrənilməlidir) + **qiymətləndirmə mərhələsi** (konteksti və gözlənilən mənimsəmə dərəcəsini təmin edir) ilə ifadə edilir.  Məsələn (ilkin səviyyədə insan hüquqları cəlb olunmadan *bilik* əsaslı öyrənmə məqsədləri ilə əlaqəli olaraq):

Öyrənmə məqsədlərində *başa düş, qiymətləndir, tanış ol* və *bil* kimi fellərdən istifadə etməyin, çünki bu fellər öyrənənin



## Öyrənmə məqsədlərini yazarkən nəzərə alınmalı məqamlar

İştirakçılar kursda qeydiyyatdan keçərkən artıq hansı bilik, bacarıq, münasibət və dəyərlərə malikdir?

Onlarda hansı bilik, bacarıq, münasibət və dəyərləri inkişaf etdirmək istəyirsən?

Öyrənənlər öyrənmə məqsədlərinə nail olduqlarını göstərmək üçün nə etməlidir?

Öyrənənlərin nəyə nail olmasını istədiyini ifadə edərkən öyrənmə məqsədlərin eyni felin birdən çox dəfə istifadə edilməsi faydalıdır. Hədəflər və öyrənmə məqsədləri həm təlimçilər, həm də öyrənənlər tərəfindən istifadə ediləcək və kurs/proqramın məqsədi və öyrənmə məqsədlərinin aydın olmasını təmin etməyə kömək etməlidir. Öz öyrənmə məqsədlərini məhdudlaşdırmağa çalış: Bir günlük seminar üçün 2 və ya 3 lazım olandan çoxdur.

qiymətləndirmədə hansı qavrama və bilik səviyyəsini nümayiş etdirməli olduğunu aydın şəkildə göstərmir.

Məqsədlərin ifadə etmək üçün çox müxtəlif yolların olduğunu anlamaq da mühümdür. Lakin hamı sadə formuldan istifadə edir:

**hərəkət feli** (öyrənənlərin nə göstərəcəklərini vurğulayan) + **obyekt** (nə öyrənilməlidir) + **qiymətləndirmə mərhələsi**

Bəzi felləri işlətmək, məsələn, digərlərindən daha çətin olacaq. "Yenidən məlumat ver" xatırlama və təkrardan bir az çoxunu təklif edir; "izah et" isə daha çox düşünmə və anlama tələb edir.

Bəzi nümunələrə baxın. Onlar öyrənmə məqsədlərinin yazılmasının əsaslarını izah etməyə kömək edir. Əksər öyrənmə məqsədləri sonraki öyrənmə üçün əsas formalaşdıran mövcud bilik (bacarıqlar) səviyyəsini öncədən müəyyən edir. Bəzi öyrənmə məqsədləri öyrənənlərə, digərlərinə dərin deyil, daha geniş bilik təklif edən öyrənmə məqsədlərinə ("müxtəlif ev və ferma heyvanlarında əsas orqan sistemlərinin funksional hesabatını ver") nisbətən daha çətin tapşırıq ("yazılı və şifahi formada davamlı arqumentlər yarat") təklif edə bilər.

*Nümunə*

Bu fəslin sonunda başa düşəcəksiniz:

- AİHK-nın 3-cü Maddəsi ilə təmin edilən müdafiə ilə 1951-ci il Konvensiyasına və Aİ qanunvericiliyinə əsasən beynəlxalq müdafiə arasındakı əlaqəni və onları fərqləndirməyi.
- Sığınacaq axtaranlara AİHK-nın 3-cü Maddəsi ilə təmin edilən müdafiənin verilmə şərtlərini.
- İnzibati və məhkəmə hakimiyyət orqanların AİHK-nın 3-cü Maddəsinə əsasən iddialara yaxından və ciddi nəzarət etmək öhdəliyini.

*Nümunə*

Bu kursun sonunda iştirakçılar aşağıdakı bilikləri nümayiş etdirə biləcək:

- Nifrət cinayət və nifrət nitqi arasında anlayışlar, fərqlilik və əlaqələr və onun tarixi konteksti
- Nifrət cinayətlərinin və nifrət nitqinin təsiri
- Nifrət cinayətləri və nifrət nitqinə reaksiyalar

*Nümunə*

Bu kursun sonunda öyrənənlər:

- Qəbuledilənlik prinpsiplərini milli müstəvidə məhkəmə işinə tətbiq edə biləcək.
- AİHM-ə uğurlu müraciət təqdim etmək üçün onları düzgün şəkildə istifadə edəcək.

"Öyrənənlər"ə ilk dəfə mövzunu təqdim edən bir günlük təlim seminar/distant təhsil modulu ilə əlaqədar olaraq, çox güman ki, öyrənmə məqsədləri başqa bir üslubda yazılmalıdır (lakin nəzərə alın ki, 4-cü öyrənmə məqsədi yeni məlumatları nümunə işə tətbiq etməklə emalını tələb edir):

*Məsələn*

Bu seminar/modulun sonunda siz:

- ✓ insan həyatını qorumaq və pis rəftarın qarşısını almaq öhdəliyinin səbəblərini və tətbiq dairəsini izah edə biləcəksiniz
- ✓ 2 və 3-cü Maddələrin "prossesual aspektinin" məzmununu təsvir edə biləcəksiniz
- ✓ Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə təcrübəsi əsasında bir işin öyrənilməsi zamanı cinayət mühakiməsini həyata keçirən orqanlar (məhkəmələr, prokurorlar, polis və məhkəmə tibbi-ekspertizasının əməkdaşları) tərəfindən yol verilən çatışmazlıqları müəyyən edə biləcəksiniz

Bilik və dərketmədə müxtəlif sofistika səviyyələri ideyası Blum Taksonomiyasından istifadə edilərək təsvir edilə bilər

Nəzərə alın ki, öyrənmə məqsədlərinin "yüksək" səviyyələrdə əldə edilməsi öncə "daha aşağı" məqsədlərə çatmaqdan asılıdır. Belə ki, bilik baxımından öyrənmə məqsədlərini fərqləndirən aydın piramida məlumdur:




(Bloom və digərləri, 1956)

"Aşağı" (və ya daha ilkin) və "yüksək" (daha təkmil) öyrənmə məqsədlərinin fərqləndirən "hərəkət fellərinin" cədvəlini hazırlamaq mümkündür. Belə ki, biliyin əldə edilməsi baxımından aşağıdakı cədvəl faydalıdır:

| Bilik | Anlama | Tətbiq | Təhlil | Sintez | Qiymətləndirmə |
|---|---|---|---|---|---|
| müəyyən et | tərcümə et<br>yenidən bildir<br>müzakirə et<br>təsvir et | şərh et<br>tətbiq et<br>istismar et<br>istifadə et | fərqləndir<br>təhlil et<br>ayırd et<br>qiymətləndir | tərtib et<br>planlaşdır<br>təklif et<br>layihələşdir | qiymətləndir<br>mühakimə et |
| təkrarla | tanı<br>izah et | nümayiş etdir | hesabla<br>eksperiment apar | formalaşdır<br>təşkil et | qiymətləndir |
| qeydə al | ifadə et | dramatikləşdir | test et<br>müqayisə et | quraşdır<br>topla | |
| siyahıya al | müəyyən et | təcrübədən keçir | qarşılaşdır<br>tənqid et | qur<br>yarat | qiymət qoy |
| xatırla | yerləşdir | təsvir et | diaqram qur<br>təftiş et | quraşdır | müqayisə et |
| adlandır | hesabat ver | işə sal | debat keçir<br>sorğu-sual et | təşkil et | yoxla |
| əlaqələndir | nəzərdən keçir | vaxtı təyin et | əlaqələndir<br>həll et | idarə et | qiymətləndir |
| vurğula | bildir | eskizini çak | araşdır<br>təsnifləşdir | hazırla | hesabla |

Blum Taksonomiyasından hazırda geniş istifadə olunur. Başqa bir şərh aşağıdakı kimi təsvir olunur [15]

# Blum Taksonomiyası




[15] Blum taksonomiyası, Patricia Armstrong, Direktor Assistenti, Tədris Mərkəzi https://cft.vanderbilt.edu/guides-sub-pages/blooms-taxonomy/

### Öyrənmə məqsədləri nəyi əhatə etməlidir?

İnsan hüquqlarının tədrisində əksər öyrənmə məqsədləri istər-istəməz bilik və dərketməni əhatə etməyə çalışacaq. Bununla belə, peşəkar səriştələr bəyannamələri (xüsusilə hakimlərlə bağlı) indi getdikcə daha çox bacarıqların əhəmiyyətini əks etdirir (məsələn, hüquqi araşdırma, problemin həlli və AİHK gözlənlətilərinin əks etdirən yazılı qərarlar).

Bir sözlə, təlim öyrənənləri bilik və bacarıqlarla təmin edir. Yəni təlimçilər əsas bilikləri aşılamağa və həmin bilikləri necə istifadə etmək üçün konkret addımlar atmağı öyrətməyə çalışır. Beləliklə, məsələn AİHK üzrə akademik kurs tələbələrə AİHK-nin mahiyyəti üzrə təhsil verir, AİHK üzrə təlimə isə mahiyyət VƏ strateji çəkişmənin necə inkişaf etdirilməsi (və ya AİHK-yə əsasən fərdlərə hüquqları ilə bağlı necə məsləhət vermək və AİHK-yə əsasən hüquq tələbələrinə işlərə baxmaq üçün necə təlim keçmək və nəzarət etmək) üzrə təlim daxil olacaq.

> Bu maarifləndirmə üçün təməl amerikalı Benjamin Blumun işidir (1956). Təlimçilərə və pedaqoqlara planlaşdırma və çatdırmada kömək etmək məqsədilə, o, təlim və ya təhsil məqsədlərini üç spesifik sahəyə bölmüşdür: idraki, emosional və psixomotor (yəni bilmək, hiss etmək və etmək).

Bu, insan hüquqları tədrisində aşkar görünə bilər: hakimlərdən onlayn verilənlər bazaları ilə (və insan hüquqları sahəsinə düşən məhkəmə işləri ilə bağlı HUDOC ilə) tanış olmaq tələb edilə bilər; onlar Avropa standartlarını daxili məhkəmə işlərinə tətbiq edə bilməlidir; və onlar Konvensiyanın tətbiqi zəruri olan hüquqi testləri konkret vəziyyətə tətbiq edildiyi göstərən qərar yaza bilməlidir.

Bunula belə, öyrənmə məqsədlərində daxil etməyə dəyən başqa amil var. Mövcud insan hüquqları üzrə biliyi artırmaq üçün konkret insan hüququ standartının əsas məntiqini izah etmək tələb olunur. Bacarıqları inkişaf etdirmək üçün baza biliklər tələb olunur. Həmin insan hüquqları standartlarını praktikada gündəlik hallara tətbiq etmək üçün müəyyən bacarıqlar tələb olunur. Bu üç aspektdən hər hansı biri çatmadıqda, təlim böyük ehtimalla daha az səmərəli olacaq.

İnsan hüquqları tədrisinin çox hissəsi yalnız bilik və bacarıqların qazanılmasını deyil, *münasibət* dəyişikliyi yaratmağa çalışır. Məsələn, hakimlər təkcə şübhəlinin girovla zaminə buraxılıb-buraxılmamasını hansı prinsiplərin müəyyən etməli olduğunu bilməli deyil, onlar həmçinin düzgün nəticəyə gəlmək üçün düzgün suallar soruşa bilməlidir. Lakin bundan əvvəl onlar həmçinin insan hüquqları yanaşmasını öz işlərində tətbiq etməyi *istəməlidir*. Təlimin "internalizasiyası" münasibət dəyişikliyini əhatə edir.

Bütün bunlar insan hüquqları üzrə tədrisin uğurlu olması üçün ona "sadəcə" bilik və bacarıqlardan belə daha çox şeyin cəlb olunmasını təklif edir. İnsan hüquqları standartlarını tətbiqi insan hüquqlarının normativ dəyərinə inamı özündə əks etdirir. Bu, müəyyən mənada çətin görünə bilər - lakin pedaqoqlar

(bu kontekstdə hüquq mütəxəssisləri ilə işləyən təlimçilər) artıq çoxdan təlimin özündə həmçinin transformasiya ünsürünü əks etdirməli olduğunu qəbul etmişlər.

| |
|---|
| "Münasibət dəyişikliyi"ni əks etdirən öyrənmə məqsədləri üzrə əlavə təlimat aşağıdakı fəsillərdə verilir. |

Belə ki, insan hüquqları üzrə tədrisin bilik və bacarıqların mənimsənilməsindən əlavə aspekti var. Yəni, biz əsas biliklərin mənimsənilməsini və həmin bilikləri istifadə etmək üçün bacarıqları inkişaf etdirməklə yanaşı, biz həmçinin həmin biliyin *xüsusi istifadəsinə* və ya bacarığının *xüsusi şəkildə* təcrübədən keçirməyə təşviq edirik. Məsələn, AİHK üzrə təlimdə biz pozulan insan hüquqlarını müdafiəsinin əksinə olaraq, insan hüquqlarını təbliğ edən vəkillərə təlim keçməyə çalışırıq. Yaxud hüquqi imkanların genişləndirilməsi kontekstində biz hüquq məsələləri üzrə assistentlərə ictimaiyyəti öz hüquqları barədə onlara sadəcə hüquqi probleminin olduğunu demək və onu həll etmək üçün vəkil tutmağa yönləndirməyin əksinə olaraq, həmin hüquqları qanuni cəhətdən həyat keçirməyə imkan verəcək şəkildə elmləndirmək üçün təlim keçməyə çalışırıq. Bu mənada hüquq mütəxəssisləri üçün insan hüquqları tədrisinin üç komponenti olduğu deyilə bilər - bilik, bacarıqlar və insan hüquqlarını tətbiqi üzrə öhdəlik, insan hüquqlarının "affektiv" hissəsi.

İnsan hüquqları təhsilində "affektiv" (və ya "emosional") faydalı şəkildə münasibət dəyişikliyi və - hamısından çətini - fərdi inanc və ya dəyərlərdə dəyişikliyə bölünə bilər. (Yuxarıda qeyd edildiyi kimi, Bluma görə[16], dəyərlərə fərdi öhdəlik münasibətlərin qəbul edilməsindən inkişaf etməyə başlayır; insan hüquqları kontekstində münasibətlər və dəyərlər arasında fərqləndirməni faydalı hesab etmək müvafiqdir, çünki o, təlimçilərin diqqətini öyrənənlərin inancları ilə məşğul olmağın əhəmiyyətinə yönəldir ki, bu da dövlət təşkilatının bəyan edilən dəyərləri ilə uyğunluğu təmin etmək üçün tələb edilə bilər). Bu həmçinin HELP kursunun zərərçəkənlərin ifadələrinin video müsahibələr vasitəsilə inteqrasiya etməsinin səbəbidir (nümunə kimi AİHK və sığınacaq axtaranlar üzrə kursda Cənab Gebremedhinin hekayəsənin nəzərdən keçirin).

Biz indi müvafiq qaydada ifadə edilən öyrənmə məqsədləri ilə əhatə olunmalı məsələləri müəyyən edə bilərik:

| Bilik | Bacarıqlar | Münasibətlər və Dəyərlər |
|---|---|---|
| insan hüquqları üzrə sənədlər / daxili məhkəmələrin və Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedent-hüququ haqqında. | insan hüquqları probleminin müəyyən edilməsində və verilən vəziyyətə qanunu tətbiqi etmək üçün müvafiq hüquq qaydalarının araşdırılmasında. | insan hüquqlarına hörmət etmək və onları təbliğ etmək üçün peşə məsuliyyətini vurğulayan müvafiq münasibətləri gücləndirmək. |

[16] http://teaching.uncc.edu/sites/teaching.uncc.edu/files/media/files/file/GoalsAndObjectives/Bloom.pdf

### Ümumi məqsədlər və öyrənmə məqsədləri arasında əlaqə.

Öyrənmə məqsədləri təbii olaraq təlim təşəbbüsünün ümumi məqsədinin müəyyən edilməsindən sonra ona uyğun olaraq hazırlanır.

İndi hüquq mütəxəssislərinin təlimdə öyrənmə məqsədlərinə dair nümunələri nəzərdən keçirək. Bu nümunələr öyrənmə məqsədinin yazılması üçün ən mükəmməl nümunələr olmasa da, onlar izah etməyə kömək edir: (a) təlim diqqəti nəyə yönəldəcək - bilik, bacarıq və ya münasibətlər, yaxud dəyərlərə; (b) təlim başlamadan öncə səriştənin ilkin səviyyəsinin necə olması istənilir; (c) "yüksək səviyyəli" problem qabaqcadan nə dərəcədə nəzərdən keçirilib [xüsusi məsələlər mötərizədə əlavə edilmiş və qalın şriftlə qeyd edilmişdir].

Təlimçi həmçinin bu öyrənmə məqsədlərinin təşkilatın və ya onun üzvlərinin müəyyən edilimiş təlim ehtiyaclarını qarşılamağa kömək etmək məqsədilə hazırlanıb-hazırlanmadığını nəzərdən keçirməlidir:

*Nümunə 1: "Təlimçilər üçün Təlim"- hakimlər üçün hüquqi təlim seminarı (2 gün)*

Bu sessiyanın *ümumi məqsədləri* hakimlər üçün insan hüquqları təliminin metodları ilə tanış etmək və öyrənənlərə AİHK-da nəzərdə tutulan ədalətli məhkəmə araşdırması ilə bağlı bir sıra məsələləri təqdim etməkdir (6-ci Maddəyə xüsusi istinad ilə).

Öyrənmə məqsədləri bu cür ifadə edilə bilər:

Bu sessiyanın sonunda öyrənənlər:

- müvafiq öyrənmə məqsədləri yaza biləcək; [**bilik]**
- bilik; bacarıqlar; münasibətlər; və dəyərlər baxımından öyrənənlərin ehtiyaclarını müəyyən edə biləcək; **[ehtiyacların təhlili]**
- (a)mühazirə tipli təqdimatların və (b) kiçik qruplarda işləməyin mənfi və müsbət cəhətlərini təsvir edə biləcək **[dərketmə]**
- Müvafiq öyrənmə mühiti yaradarkən yaxşı təcrübə üzrə təlimatlar hazırlaya biləcək **[tətbiq]**
- AİHK-na əsasən ədalətli məhkəmə araşdırmasının tələbləri əsasında ümumi "dərs planı" işləyib hazırlayacaq **[tətbiq]**

*Nümunə 2: jurnalistlər üçün ifadə azadlığı və media mövzusunda seminar sessiyası (2 saatlıq)*

Bu sessiyanının *ümumi məqsədi* jurnalistləri və praktik hüquqşünasları Avropa İnsan Hüquqları Məhkəməsinin 10-ci Maddəsi ilə bağlı presedent hüququ ilə tanış etməkdir.

*Öyrənmə məqsədləri* bu cür ifadə edilə bilər:

Bu sessiyanın sonunda öyrənənlər:

- Media azadlığı ilə bağlı AİHK-ın 10-ci Maddəsinin şərhinin əsas prinsiplərini yenidən diqqətə çatdıra biləcək **[bilik]**
- Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən medianın demokratiyada vəzifələri ilə bağlı işlərdə qəbul edilən yanaşmanı tənqidi cəhətdən qiymətləndirə biləcək **[təhlil; sintez]**
- Avropa İnsan Hüquqları Məhkəməsinin məlumata çatım hüququnu təmin etdiyi dərəcəni qiymətləndirə biləcək. **[qiymətləndirmə]**

### Ümumi məqsədlərin və öyrənmə məqsədlərinin çatdırılması

Təlimin tərtibat və hazırlıq mərhələsinin bu aspekti yəqin ki, ən sadə olanıdır.

Təklif edilmişdir ki, təlimin hazırlanması və çatdırılması üzrə məsul olanlar təşkilatın və hədəf auditoriyanın ehtiyaclarının xüsusi diqqəti ilə nəzərə alınmasını təmin etməlidir. Bura həmçinin təlimin nəzərdə tutulan hədəf qrupu ilə konsultasiya da daxil ola bilər.

Ümumi məqsədləri və öyrənmə məqsədlərini müəyyən edərkən "öyrənənlər" ilə müəyyən ilkin əlaqənin yaradılması faydalı ola bilər. Biz müxtəlif bilik, bacarıq və təcrübə səviyyələrinə malik yetkin şəxslərə təcrübə keçdiyimiz üçün təlim proqramını hazırlayarkən onların bazasını və maraqlarını nəzərə almaq mühüm əhəmiyyət kəsb edir. Bunu müəyyən etməyin bir yolu təlimdən əvvəl onun ümumi məqsədlərini və öyrənmə məqsədləri əks etdirən, eyni zamanda bunların öyrənənlərin ehtiyac və maraqlarını qarşılayıb-qarşılamadığını qiymətləndirməyə çalışab anketlər və ya sorğular keçirməkdir.

Öyrənmə məqsədlərinin seçilməsi və yazılması ilkin planlaşdırma mərhələsinin ən vacib aspektlərindən biridir. Ümumi məqsəd qarşıya qoyulan niyyətin ümumiləşdirilmiş bəyanatlarıdır; Öyrənmə məqsədləri daha konkret və ölçülə biləndir.

*Ümumi məqsədlər və öyrənmə məqsədləri arasında fərqlilik*

Ümumi məqsədlər və öyrənmə məqsədlərinin yekun versiyasını təlimə təlimçilər kimi cəlb olunan digər şəxslər, eləcə də nəzərdə tutulan auditoriya ilə müzakirə etməyin xüsusi üstünlükləri var:

- ✓ Hər iki "tərəfdə" gözləntilər aydın şəkildə anlaşılır - təlimçilər və öyrənənlər təlimin nəyi əldə etmək üçün hazırlandığından (və beləliklə, dolayısı ilə nəyin əhatə olunmadığından) xəbərdar olur.
- ✓ aydın şəkildə ifadə edilən öyrənmə məqsədləri təlimin hansı səviyyəni nəzərdə tutduğunu anlamağa kömək edir: ilkin və ya təkmil?
- ✓ hədəf auditoriyaya iştirak etmək və ya etməmək seçimi verilərsə, "öyrənənlər" təklif edilən təlimin müvafiq olmaması və ya çox təkmil olması, yaxud çox sadə olması əsasında seçim edə bilər
- ✓ ən önəmlisi "öyrənənlər" özləri təlimin sonunda öyrənmə məqsədlərinin qarşılayıb-qarşılamadığını əks etdirə bilər. Qarşılamadıqları halda, onlar atılmalı addımları müəyyən edə bilər (məsələn, təqdim edilən materialın daha sonra fərdi şəkildə öyrənilməsi, qiymətləndirmədə davamlı təlim ehtiyacının müəyyən edilməsi və s.).

Ümumi və nəzərdə tutulan öyrənmə məqsədlərinə qərar verilməsi, onların yazılması və bildirilməsi təlimin tərtib olunması mərhələsində həlledici addımdır. Aydın fikrin olması kifayət deyil- təlimçilər və öyrənənlərin təlimin nə məqsədlə hazırlandığına dair aydın və birmənalı fikiri olmalıdır.

## *Ümumi məqsədlər və öyrənmə məqsədlərinin yazılması*

Cari və təxmin edilən davranışlardan istifadə öyrənmə məqsələrinin hazırlanması üçün vacibdir. Auditoriyanın davranışından və nəyin dəyişilməli olduğundan xəbərdar olmaq bu cür davranışın necə dəyişə biləcəyinə dair suallar yaradacaq.

### *iv. Təlim materiallarının və elektron öyrənmə üçün əməli tapşırıqların hazırlanması*

#### Modulun uzunluğu

Ümumi sual təlimin uzunluğu ilə əlaqəlidir. Orta hesabla, HELP hesab edir ki, öyrənənlər **hər modula üç saat** sərf edəcək və bir modulun nəzərdən keçirilməsi üçün iki həftə müddət verilir. Bura əlavə oxu materialları daxil deyil, yalnız bütün məcburi materillar və tapşırıqlar daxildir.

HELP kursunun ümumi orta uzunluğu kursun əhatə etdiyi modulun sayından asılıdır, lakin hüquq mütəxəssislərinin üzləşdiyi vaxt məhdudiyyətləri və kursun uzun müddət davam etməsi halından öyrənlərin çox zaman motivasiyasının aşağı düşməsi faktına görə, ümumilikdə kursu maksimum **üç ay** davam etdirmək tövsiyə edilir.

Elektron öyrənmənin təqdim edilməsi ilə əlaqədar olaraq, bu, öz növbəsində belə hesablana bilər: kurs materialının neçə səhifəsi elektron öyrənmənin bir saatını təşkil edir? Öyrənmə şirkət tərəfindən təqdim edildiyi halda, məzmun adətən öyrənmə saatı və ya səhifənin uzunluğuna görə hesablanır, beləliklə, bu sual müvafiq hesab edilə bilər. Bununla belə, akademik cəhətdən baxsaq, bunun həlli çətin görünə bilər.

Ən sadə cavab odur ki, səhifə sayının hesablanması üçün heç bir dəqiq üsul yoxdur və heç vaxt olmayacaq. Bunun bir neçə səbəbi var.

- Fərdlərin bir səhifəni oxumağa ayırdıqları müddət fərqlidir.
- Bəzi səhifələr digərlərinə nisbətən daha çox məlumat və ya qarşılıqlı əlaqə ehtiva edir.
- Bəzi səhifələr uzun video və təqdimatlar ehtiva edir.
- Bəzi insanlar eyni səhifəni təkrar oxumağa ehtiyac duya bilər.

Bununla belə, öyrənənə başlamadan öncə öyrənmənin nə qədər müddət sürəcəyinə dair göstərici vermək faydalı ola bilər. Bu halda, hər elektron öyrənmə saatına təxminən 50 slaydın düşdüyünə dair qeyri-rəsmi standart var. Kurslarınız üçün bunu istifadə etmək sizə ən yaxşı göstəricini verəcək.

#### Məlumatların həcminin azaldılması

SCORM[17] əsaslı elekton öyrənmə kursu qısadır və yalnız sizin bu kursa daxil etməyi tələb etdiyiniz məlumatları ehtiva etməlidir. Bu tərtibatçı üçün bir sıra çətinliklər yaradır. Bu çətinliklərdən bəziləri və məlumatla bağlı suallar eskizlə bağlı görüşdə müzakirə edilir, lakin tərtibatçı üçün faydalı məlumat aşağıdakıdır:

<u>Malik olmalıdır</u> - MUST modulu bu məlumatı ehtiva edir. Bu, kursun və ya öyrənmə məqsədinin əsas elementidir. Məlumatlar stenoqrafik olmalı və ya məlumatın itirilməməsi üçün mümkün qədər dəqiqliklə parafreyz edilməlidir. Bu, VACİB məlumatdır.

---

[17] SCORM bütün təlim idarəetmə sistemləri ilə uyğunluğu təmin edən elektron təhsilin inkişafı üçün beynəlxalq səviyyədə tanınan standartdır.

Öyrənmək faydalıdır - Bu məlumatı öyrənmək faydalıdır. Bu, öyrənmə məqsədinin uğuru üçün vacib deyil, lakin istifadəçi öyrənmək istəyərsə, əlavə məlumatlar və ya kontekst təmin edə bilər. Əgər məlumatı modulun mətninə daxil edə bilmirsinizsə, istifadəçini istədiyi zaman oxuması üçün, onu keçid kimi yerləşdirmək və ya kursda çap edilən resurslara daxil etmək faydalı ola bilər.

Tam müvafiq deyil - Mövzu üzrə ekspert kimi məlumatları qısaltmaq çətindir, lakin tərtibatçı məlumatın öyrənmə məqsədinə töhfə verib-vermədiyini nəzərə almalıdır. Öyrənmə məqsədinə töhfə vermirsə, o, kursa daxil edilməməlidir.

## İnteraktiv öyrənmədə suallardan istifadə

Məlumatların müəyyən edilməsi əsas bacarıqdır və faydalı, səmərələi və sərfəli kursun yaradılması ilk növbədə vaxt və təcrübə tələb edir. İlk SCORM əsaslı kursunuzu yaratdığınız zaman ilk növbədə tərtibatçıya etibar etmək faydalı ola bilər.

Bu səbəbdən, həmçinin mövzu üzrə ekspertin kursun müəllifi olmaması tövsiyə edilir. Məlumatları obyektiv şəkildə nəzərdən keçirmək mühüm əhəmiyyət daşıyır. Bilik toplamağa vaxt və araşdırma sərf edildiyi zaman obyektiv olmaq həmişə asan olmur. Bu halda, mövzunun mahiyyəti üzrə ekspert, onu özü yazmaq əvəzinə kurs müəllifini yönləndirə bilər.

HELP proqramının tərtibatçı resursları və mümkün olduqda ilkin fəaliyyətlərində kömək etmək üçün kurs yaradıcılarına çıxışı var.

Öyrənmə mühitində suallar adətən biliyi yoxlamaq üçün istifadə edilir. Bununla belə, sualları istifadə etməyin bir çox fərqli yolları var, siz onları öyrənmə yanaşmanıza uyğunlaşdıra bilərsiniz:

1. Biliyin yoxlanılması. Bu öyrənmə forması istifadəçininin kursa daxil olduğu zaman bilik səviyyəsini müəyyən etmək üçün modulun əvvəlində istifadə edilə bilər. Eyni öyrənmə üslunu kursun sonunda istifadəçinin tələb olunan standarta çatdığından əmin olmaq üçün istifadə edilə bilər.

2. Bilik həmçinin öyrənmə məqamlarını möhkəmləndirmək və onların anlaşıldığından əmin olmaq üçün kurs ərzində yoxlanıla bilər.

3. Suallar real dünya hallarını göstərmək üçün istifadə edilə bilər. Məsələn, ssenari və ya hadisənin öyrənilməsi zamanı sual real həyatda alınmalı olan qərarı göstərmək üçün istifadə edilə bilər. SCORM əsaslı öyrənmədə bu qərarın nəticələri də göstərilə bilər. Yadda saxlayın ki, səhvlər etmək üçün etibarlı mühitdir.

4. İstifadəçini öz komfort zonasından çıxarmaq üçün hipotetik vəziyyətdən istifadə edin. İstifadəçidən qarşı perspektivdən düşünməsini istəyin. Onlardan başqa birinin ayaqqablarını geyinməyi, onların nöqteyi-nəzərindən baxmağı istəyin.

5. Suallar məlumatın çatdırılması üçün istifadə edilə bilər. Sualın yalnış anlaşılması öyrənmə vasitəsi ola bilər. Bilərəkdən ikimənalı sualların verilməsi, istifadəçinin səhv cavabı seçməsi vacib öyrənmə məqamı ola bilər.

### *v. Öyrənmə məqsədlərinin qiymətləndirilməsi üçün yekun tapşırığın hazırlanması*

Biliyin əldə edilib-edilmədiyini öyrənməyin bir yolu qiymətləndirmə aparmaqdır. Bilik kurs başlamadan əvvəl və kursun sonunda qiymətləndirilə bilər, bu yolla nəticələri müqayisə etmək və kursda öyrənənlərin nə dərəcədə öyrəndiklərini qiymətləndirmək mümkündür.

Qiymətləndirmə öyrənənlər üçün iki funksiya daşıyır - öyrənməyə dəstəyi və öyrənmə akkreditasiyanı təmin edir. O, həmçinin təlimçilər üçün üç funksiyanı icra edir - təlimçilərə təlimin uğurunu qiymətləndirməyə kömək edir.

Bu məqsədlər üçün qiymətlədirmə tapşırıqlarının planlaşdırılması təlimin dizaynında vacib elementdir. Bu, təlimin ilk hazırlanma mərhələlərində edilməlidir. Öyrənmə məqsədləri təyin edildikdən sonra, nəticələr baxımından onların necə ölçülə biləcəyi üzərində düşünün. Bu, həmçinin təlimçilərə öyrənmə məqsədlərinin qarşılanıb-qarşılanmadığını qiymətləndirmək üçün bu metodların təlim hazırlanma prosesinə daxil edilə biləcəyinə dair düşünməyə başlamağa imkan verir.

Yalnız bundan sonra diqqət təlim metodlarının seçilməsinə yönəldilə bilər.



Təlimçilər təlimi onlara performans üzrə rəy bildirmək, eləcə də öyrənənlərə öyrənmə məqsədlərini qarşılayıb-qarşılamadıqlarını müəyyən etməyə kömək edəcək şəkildə strukturlaşdırmalıdır.

*Qiymətləndirmənin təlimin bir hissəsi kimi tərtib edilməsi*

Nümunə üzərində düşünəndə bu, əhəmiyyət kəsb edir.




Birincisi, fərz edin ki, öyrənmə məqsədləri şübhəli şəxsin girov verməklə zaminə buraxılmağa çalışdığı məhkəmə işlərində hakimlər tərəfindən nəzərdən keçirilməsi tələb olunan testlərin tətbiqi ilə əlaqələdir.

(Öyrənmə məqsədi bu şəkildə ifadə edilə bilər: "Təlim sonuna kimi hakim AİHK-nın 5-maddəsinin tələblərini əks etdirəcək şəkildə şübhəli şəxsi məhkəməyə kimi azadlığa buraxılmasından imtina edilməsinin səbəblərini izah edən qısa yazılı qərarı hazırlaya bilməlidir").

Bu öyrənmə məqsədi Strasburq məhkəmə təcrübəsinin anlaşılması ilə əlaqəli "daha yüksək dərəcəli" (yəni faktiki vəziyyətin xatırlanmasından daha çox) tapşırığı əks etdirir. Bu cür anlama 5-ci maddənin 3-cü bəndi baxımından girov qoymaqla azadlığa buraxılma ilə bağlı əsas işlər üzrə biliyə əsaslanacaq.

Burada, qiymətləndirmənin dizaynı nisbətən sadədir: o, əsas testlərin uydurma vəziyyətə tətbiqi əsasında problemin həllini əks etdirəcək. Bu da öz növbəsində *bu öyrənmə məqsədinin əldə edilməsinə ən uyğun metodun seçilməsi vasitəsilə* təlimin aparılması üçün bir sıra mümkün yollar təklif edir (məsələn, 15 dəqiqəlik qısa danışıq, ardından fərdi şəkildə işin hazırlanması, sonra qrup müzakirəsi, sonra qrup müzakirələri zamanı aşkarlanan anlaşılma ilə bağlı çətinlikləri qeyd etmək üçün ümumi geriyə hesabat).

Bu yanaşma qiymətləndirməyə öyrənmə prosesinin tərkib hissəsi kimi yanaşır.

### Qiymətləndirmə nə edir

Qiymətləndirmə 3 məqsəd daşıya bilər:

- Öyrənmə üçün qiymətləndirmə öyrənənləri **formativ rəy** ilə təmin edən və öyrənənləri öz-özlüyündə öyrənmə fəaliyyəti olan fəaliyyətlərə cəlb edən vasitələr kimi qiymətləndirmə tapşırıqlarından istifadə edir.
- Öyrənmə üçün qiymətləndimə performansı ölçmək və öyrənənlərin kursda əldə etdikləri nailiyyət dərəcəsi üçün **sertifiikatın və ya müəyyən başqa mükafatın** verilməsini təmin edən qiymətləndirmə tapşırıqlarından istifadə edir.
- Bu, təlimçiyə **təlimin səmərəliliyini qiymətləndirmək** imkanı verir.

Təlimçilər təlim iştirakçılarının öyrənmə məqsədlərinə nail olmaq üçün ən uyğun qiymətləndirmə tapşırıqlarını və bu cür tapşırıqların ardıcıllığını nəzərə almalıdır.

### *Qiymətləndirmənin təlimə daxil edilməsi və tərtibi*

Qiymətləndirmə bir neçə fərqli məqsədə xidmət edir. Buna görə də, aşağıdakı əsas prinsip aydın olduğu müddətcə, qiymətləndirmə bir çox formada *hazırlana bilər*: qiymətləndirmə prosesləri əldə edilən bilik, inkişaf etdirilən qavrama, qazanılan bacarıqlar və (müvafiq olduqda) baş verən münasibət dəyişikliyi

baxımından müəyən edildiyi kimi təlimin nəticələrini ölçməlidir. Peşə təhsili kontekstində, qiymətləndirmə öyrənənlərə öyrənmə və performans ilə bağlı rəy almaq imkanı verir. Hüquq peşəsinin tədrisi konteksintdə qiymətləndirmə öyrənənlərə fərdi şəkildə öyrənmə məqsədinin nə dərəcədə əldə olunduğunu qiymətləndirməyə kömək edən rəyin təmin edilməsi metodlarını ehtiva edir.

Uzunmüddətli perspektivdə, bu, "öyrənmə dövrəsi"ndə mühüm element ola bilər (aşağıya baxın): fəaliyyət göstəricilərinin qiymətləndirilməsində iştirak edir və təşkilatlara peşəkarlıq baxımından ictimaiyyətə onların gözləntilərini qarşılayan xidməti təmin etməyə kömək edir.

Aşağıdakı mühüm meyarlar[18] peşə təlimi üçün səmərəli qiymətləndirmə strategiyası hazırlayarkən kömək edə bilər:

- Qiymətləndirməni sonda yerinə yetirilən əlavə tapşırıq kimi görmək əvəzinə, onu bütün kursa inteqrasiya edin
- Öyrənməni təşviq edən qiymətləndirmə tapşırıqları hazırlayın
- Sadəcə xatırlama əvəzinə, qavramanı və dərindən öyrənməni (təhlil, sintez və qiymətləndirmə kimi) qiymətləndirin
- Hər birinin çatışmazlıqlarını minimallaşdırmaq və öyrənənləri (müxətlif güclü cəhətlərə v öyrənmə yanaşmalarına malik olacaq) öz nailiyyətlərini göstərmək üçün çoxlu imkanlar ilə təmin etmək üçün müxtəlif qiymətləndirmə metodlarından istifadə edin.
- Kurs ərzində yüksələn mürəkkəblik və tələblər yaradın
- Vaxtaşırı və davamlı rəyi təmin edən aşağı çətinlikli kiçik miqyaslı tapşırıqlar ilə başlayın
- Uğursuzluğu deyil, irəliləyişi və nailiyyəti vurğulamaqla motivasiya edin
- Özünü və yoldaşlarını qiymətləndirmə üçün imkanlar yaradın
- Rəy üçün rast gəlinən imkanlar daxil edin. Rəyin həssas və konstruktiv olmasını və nəyin, nə üçün yaxşı olduğunu, nəyin nə üçün səhv/yalnış olduğunu, işin necə inkişaf etdirilə biləcəyini göstərməsini təmin edin.

### Öyrənmə məqsədlərindən qiymətləndirmə tapşırıqlarının hazırlanması

Qiymətəndirmə tapşırıqlarının öyrənmə məqsədləri ilə birləşdirilməsi təlimin modelləşdirilməsində üçüncü mərhələdir.

Öyrənmə məqsədlərinin qiymətləndirilməsi ilə əlaqədar olaraq, bu nəticə yönümlü yanaşma öyrənənlərə kömək edə bilər:

- Onların nəyin əldə edilməsini nəzərdə tutduğunu müəyyən etməyə;
- Hədəfləri ilə müqayisədə öz irəliləyişlərini izləməyə;
- Öz öyrənmə prosesləri üzərində nəzarəti ələ almağa;
- Öyrənənlər kimi daha özünü istiqamətləndirici olmağa.

---

[18] Ali Təhsilin "Səmərəli Qiymətləndirmənin Əsas Prinsiplərini" Araşdırma Mərkəzindən götürülmüşdür, www.cshe.unimelb.edu.au/assessinglearning Avstraliya Universitetləri Tədris Komitəsi və Qiymətləndirmə üzrə İslahat Qrupu (2002) Öyrənmə üçün qiymətləndirilmə - 10 Prinsip, Nuffield Fondu, http://arrts.gtcni.org.uk/gtcni/bitstream/2428/4623/1/Assessment%20for%20Learning%20-%2010%20principles.pdf

Öyrənmə məqsədlərinin qiymətləndirmə və tədris/təlim fəaliyyətləri ilə bu cür uyğunluğuna nümunə aşağıda verilib:

| **Öyrənmə məqsədi** | **Qiymətləndirmə tapşırıqları** | **Tədris/öyrənmə tapşırıqları** |
|---|---|---|
| Bu kursun sonunda siz öyrənəcəksiniz: | | |
| yetkin şəxslərin təhsil təcrübəsində problemlərin praktik həll yollarını qiymətləndirməyi | Öyrənənin həll yolları təklif etməli olduğu praktikada problemlə bağlı **hadisənin öyrənilməsi**<br><br>Öyrənənin məsələlər və təklif edilən həll yolları baxımından öz təcrübəsini tənqidi cəhətdən təhlil etdiyi **portfoliya** | Praktiki kazusların müzakirəsi<br><br>Nəzarət altında staj keçmə |
| | | |
| doğru tarixi sübut əsasında Avropanın müxtəlif yerləri və müxtəlif tarixi dövrlər arasında doğru müqayisələr aparmaq | İki öyrənənin yer aldığı və öz arqumentlərini seminar həmkarlarına sübut etdiyi, səsə qoyduğu və öz arqumetlərini səsvermənin nəticəsi ilə və diskusiyadan öyrəndikləri əlavə şeyləri bildirməklə yazılı şəkildə təqdim etdikləri **diskusiya işi.** | Mövzuları/dövrü əhatə edən bir sıra mühazirələr<br><br>İlkin mənbələrdən istifadə etməklə müzakirə seminarı və icmalı təsvir edən ümumi ikinci dərəcəli mətn<br><br>Tövsiyə edilən oxu |

Buna görə də, proqram və ya kursun öyrənmə məqsədlərinin aydın və onların qiymətləndirilə biləcəyi şəkildə ifadə olunması mühüm əhəmiyyət kəsb edir. Bu, həmçinin qiymətləndirmə strategiya və tapşırıqlarının *bütün* tələblələrin öyrənmə məqsədlərinə nail olmaqla öz qabiliyyətlərinin ən yaxşı şəkildə göstərməyə açıq şəkildə imkan verməsi deməkdir.

### *Refleksiya* səmərəli təlimin - "öyrənmə dövrə"sinin mühüm elementi kimi

Əlavə refleksiya öyrənənlərə yuxarıda müəyyən edilən qiymətləndirməsinin birinci funksiyasını öyrənmətə kömək etmək üçün tələb edilir.

**Təlim üçün qiymətləndirmə öyrənənləri formativ rəy ilə təmin etmək və öyrənənləri özlüyündə öyrənmə fəaliyyəti olan fəaliyyətlərə cəlb etmək vasitəsi kimi qiymətləndirmə tapşırıqlarından istifadə edir.**[19]

"Öyrənmə dövrəsi" refleksiya və təkmil öyrənmə arasında əlaqəni təsvir edən sadə vasitə kimi Kolb (1984) tərəfindən hazırlanmışdır. Peşə təlimində təlimçilər öyrənənlərə insan hüquqlarını öz işlərinə daxil etmələri barədə düşünməyə kömək etməklə ilkin biliyi kapitallaşdırmaq üçün real imkanlara malikdir. Öyrənmə dövrəsi refleksiyanın hazırda öyrənin əsas aspekti olduğunu vurğulayır - istər öyrənən birinci kurs hüquq tələbəsi olsun, istərsə də Ali Məhkəmə olsun. Hüquq mütəxəssiləri üçün təlimdə bunu istifadə etmək, məzmunlar üçün giriş kursuna nəzərən daha asandır.




[19] Kolb D A (1984) Təcrübi Öyrənmə: təcrübə öyrənmənin və inkişafın mənbəyi kimi (Nyu-Cersi: Prentice-Hall)

Öyrənmə dövrəsi öyrənmə prosesinin tədrici xarakterini izah etmək üçün istifadə edilə bilər. Peşəkar və peşə təhsilində refleksiya [təlim alanlara] öz öyrənmə prosesi üçün məsuliyyət götürməyə və öz təcrübəsini və peşəkar davranışı təkmilləşdrimək üçün yollar müəyyən etməyə kömək etmək üçün istifadə edilə bilər. … İnsanlar müxtəlif məqsədlər üçün müxtəlif kontekstlərdə düşünür, lakin məqsəd eynidir: hiss ediləni və təcrübədən qarşılananı daha yaxşı anlamaq.
Webb iddia edir:

> *Öyrənmə prosesi yaşadığınız hadisə ilə başlayır. Təcrübədən öyrənmək həmin təcrübə üzərində düşünmək və təcrübələri mücərrədləşdirmək və daxil etmək və yeni vəziyyətlərdə sınaqdan keçirilə bilən nəzəriyyə formasında əks etdirməyi tələb edir.*[20]

İstinad edilən təcrübə müxtəlif formaları ala bilər. … [R]efleksiya akademik və ya peşə mühitində öyrənməni dəstəkləmək üçün istfifadə edildikdə özündə adətən planlaşdırılmış fəaliyyət və ya öyrənmə təcrübələri seriyasını birləşdirir.
Ola bilsin ki, *bütün* tələblər öz öyrənmə proseslərini araşdırmalı və öz işlərinin keyfiyyətini qiymətləndirməlidir. Bununla belə, Boon iddia edir ki, bu bacarıqlar xüsusilə hüquq tələbələri üçün müvafiqdir:

> *Tələbələr sadəcə "yerinə yetirməli" deyil, həmçinin verilən xüsusi hallarda hüquqşünasların nə üçün bu yolla etdiyini soruşmağa imkan verən perspektiv inkişaf etdirməlidir. Bu, özündə təkcə performans üzərində deyil, hərəkətin əsas məntiqi üzərində düşünmək qabiliyyətinin təməlini qoymaqla hərəkət, motivasiya və etika üzrə elmi araşdırmanı birləşdirməlidir.*[21]

ÇIXARIŞ: Hinett, K, Hüquq Təhsilində Reflektiv Təcrübənin İnkişaf Etdirilməsi (BB Hüquq Təhsili Mərkəzi, 2002-ci il)

### Öyrənənlərə rəy verilməsi

Qiymətləndirmənin ikinci funksiyası təlimçinin ənənəvi tapşırığını əhatə edir - öyrənənə müəyyən formada qiymətləndirmə vermək. Bu, şübhəsiz öyrənənin fikrində "sertifikat" və ya "akkreditasiya" ilə bağlıdır. Lakin təlimdə bu, bu cür *olmaya bilər* (və təlimi müəyyən formada imtahan kimi təqdim etməməyin məcburedici səbəbləri ola bilər).

Rəy bildirmək təlimçinin əsas vəzifəsidir. Rəy vermək bir çox vəziyyətlərdə müvafiq ola bilər:

- *Bilik*: qrup məsələn, hadisənin öyrənilməsi və ya problem üzrə və ya "mübahisəli məhkəmə" də arqumentlərdən sonra ümumi sessiyada hesabat verdikdən sonra təlimçi öyrənənlərin nə dərəcədə anladığını və öz biliklərini harada tətbiq edəcəklərini müzakirə etməlidir.

---

[20] Webb J (1995) "Tədbir hüquq təhsilində olduqda" *Hüquq Peşəsinin Beynəlxalq Jurnalı* 2 (2/3) 187-216
[21] Boon A (1996) 'Hüquq təhsilinin ilkin mərhələsində bacarıqlar: keçid üçün nəzəriyyə və təcrübə' J Webb və C Maughan *Hüquqşünas bacarıqlarının tədrisi* (London: Butterworths)

- *Bacarıqlar*: yeni bacarıqların qiymətləndirilməsi üçün tapşırıq hazırlandıqdan sonra (məsələn, polis məmurları tərəfindən insan hüquqlarına əməl edən sorğu üsullarından istifadə) - təlimçi əsasən performansa təlimin təsiri ilə bağlı rəy verir.

Bütün bunlarda **əsas məqsəd öyrənənlərə öz performanslarını inkişaf etdirməyə kömək etməkdir.**

- Öyrənənə ilk olaraq öz performansını qiymətləndirmək imkanı verilməlidir.
- Rəy spesifik olmalı, ümumi olmamalıdır - öyrənənin performansından spesifik nümunələrdən istifadə etməyə çalışın.
- Rəy öyrəninin xarakteri ilə deyil, performansı ilə əlaqəli olmalıdır - yəni, o, neytral və obyektiv şəkildə verilməlidir.
- Rəyin həcmi idarə olunan olmalıdır - maksimum üç və ya dörd məqam.
- Müsbət şərh və konstruktiv tənqid arasında balans olmalıdır.

Rəy vermək davamlı proses olmalıdır. Təlimçilərin təlimin müxtəlif mərhələlərində rəy verməsi üçün geniş imkan var (məsələn, qrup geri-hesabat verdikdən sonra; mübahisəli tapşırığın sonunda; ümumi sessiyada auditoriya ilə qarşılıqlı əlaqənin bir hissəsi kimi). Mümkün olduqca rəyi xüsusi öyrənmə məqsədləri ilə əlaqələndirməyə çalışın.

### *vi. Elektron öyrənmə paketinin hazırlanması*

Elektron öyrənmə paketi tək və ya qarışıq yönümlü öyrənmə kursunun bir hissəsi kimi istifadə olunmasına baxmayaraq, aşağıdakı addımlara əməl olunmalıdır:

#### Eskiz işi üçün görüş

Kursun tərtibatı mərhələsi yekunlaşdıqdan və məzmun hazırlama mərhələsi başladıqda, eskiz ilə bağlı görüş təşkil olunur. İşçi Qrupun məzmun hazırlayan ekspertlərinin koordinatoru və tərtibatçı qeyri-interaktiv skripti hazırlamaq üçün görüşür, bu, daha sonra kursun ‘Articulate’ versiyanın yaradılması üçün elektron öyrənmə yaradıcısı tərəfindən istifadə edilir. ‘Articulate’ interaktiv elektron öyrənmə modulunun yaradılması üçün istifadə edilən proqram təminatıdır.

İşçi qrupun koordinatorunun hazırlama prosesinin nəzarətçisi və bu sahədə ekspert kimi iştirakı iki səbəbdən vacibdir. Birincisi, əsas öyrənmə məqamlarını və potensial öyrənmə məqsədlərini göstərmək və ikincisi, hədəf auditoriyanı və təlim xüsusiyyətlərini müəyyən etmək üçün.

İQ digər üzvləri ilə format ilə bağlı müzakirələr əsasında videolar yekun interaktiv məhsula daxil etmək üçün inteqrasiya olunur.

Görüşün ardından eskizin ilkin versiyası yekun təsdiq üçün koordinator və HELP Katibliyinə təqdim edilir. Eskiz ilə bağlı görüş öyrənmənin dizayn prosesi ilə başlayır və interaktiv elektron öyrənmənin yaradılmasının ən mühüm məqamlarından biridir.

Bu mərhələdə dizayner öyrənmənin əlaqələndirilməsini tamamlamağa kömək edəcək auditoriya və mövzu haqqında məlumat toplamağa başlayır. Bu mərhələdə, tərtibatçı auditoriya və mövzu haqqında məlumatlar toplamağa başladığı zaman bu, onlara öyrənmə müdaxiləsini tamamlamağa kömək etməyə imkan verəcək. Bu görüşdə məlumatlar prosesin bir hissəsi kimi cavablandırılmalı əsas suallardan xəbər verir. Bu bölmədə bu sualların bəzilərini ümumiləşdirmişik. Bununla belə, siz resurs bölməsində eskiz ilə bağlı görüşdə müəyyən etməli olduğunuz məlumatları sıralayan şablon sənəd tapa bilərsiniz.

Modulun məzmununu müəyyən edərkən eskiz ilə bağlı görüşdə digər məsələlərə toxunulacaq, məsələn, modul necə görünəcək, modulun uzunluğu nə qədərdir və öyrənmə prosesinin bir hissəsi kimi hansı məlumat elementləri istifadə edilə bilər.

"Eskiz əsasında görüş" üçün əsas məsələlər aşağıdakılardır:

| **Layihənin idarə edilməsi** | |
|---|---|
| **Tələb olunan Məlumatlar** | **Məqsəd** |
| Layihənin İdarə Edilməsi ilə bağlı məsələlər | Modulun hazırlanmasına başlayarkən layihə idarəetməsinin nəticələrini nəzərə almaq faydalıdır. "Eskiz əsasında görüş"ü layihə komandası daxilində rolların, gələcək tarixlərin və iştirakçılara uyğunluğu və əlaqə məlumatlarını müəyyən etməklə başlayın. |
| Proqramın Xarakteristikaları | |
| Kursun müddəti | İnteraktiv öyrənmənin nə qədər davam etməli olduğunu bilmək tərtibatçı təyin etdiyi öyrənmə məzmunun səhifələrin sayını müəyyən edəcək. Bu, səhifə başına xərc əsasında xidmət göstərən elektron öyrənmə üzrə İstehsalçı şirkət ilə işləyərkən mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, öz məzmunu hazırlayarkən müəyyən dərəcədə uyğunlaşma potensialı var. Bununla belə, ilk dəfə öz məzmunun hazırlamağa başladığın zaman özün üçün vaxt məhdudiyyəti təyin etmək faydalı öyrənmə təcrübəsidir. |
| İnteraktivliyin məqsədi | Yerinə yetirmək üçün hansı interaktiv öyrənmə nəzərdə tutulub? O, uzun tədris kursuna girişdirmi. O, xüsusi bir mövzu üzrə tam təlimdirmi. O, özünü təhsildir və ya sinif mühitində istifadə edilir? Daxil və ya xaric etməli məlumatları müəyyən edərkən kursunun hansı rol oynayacağını bilmək faydalıdır. Məsələn, əgər kurs geniş öyrənmə təşəbbüsünün bir hissəsidirsə, siz başqa yerdən götürülə bilən məlumatları çıxara bilərsiniz. |
| O, cari məzmunu dəstəkləyəcək və ya əvəz edəcək? | Əgər kurs digər mövcud məzmunu dəstəkləyirsə, sizə lazım ola biləcək öyrənmə sahəsindən istifadə etmədən kursda başqa öyrənmə mənbələrini yerləşdirə bilərsiniz. |
| Kurs müvafiq qaydada tamamlanmalıdır? | İcbari təlim keçirsinizsə, çox güman ki, öyrənəndən bütün səhifələri nəzərdən keçirməyi tələb edəcəksiniz və bu halda, təlimi müvafiq qaydada tamamlamalısınız. Bunula belə, elektron öyrənmənin müəyyən hissələri istinad təlimatları kimi xidmət edə bilər - bu, istifadəçiyə məlumatları istədiyi zaman nəzərdən keçirməyə imkan verəcək. Bu halda, kursu müvafiq qaydada bitirməyə çalışmaq qarşıqlıq yaradacaq. |

| | |
|---|---|
| Kurs icbari proqramın bir hissəsidirmi? | İcbari elektron öyrənmə kursu bitirməni və ya öyrənmə məqsədinin qarşılandığını təsdiq edən sənəd tələb edə bilər. Buna iştirak haqqında sertifikat və ya formal test daxil ola bilər. |
| Kurs əlavə resurslar tələb edəcəkmi? | Bəzən elektron öyrənmə əlavə çap edilən resurslarla dəstəklənə bilər. Bura istinad təlimatları və ya yaddaş kitabçaları daxil ola bilər. Bunların əvvəlcədən hazırlanmalı olduğunu bilmək mühümdür. |
| Biliyin Qiymətləndirilməsi | Kursun tərkib hissəsi kimi bilik necə qiymətləndiriləcək? İstifadəçilər modulu öyrənmə başlamadan öncə baza bilik səviyyəsi yaratmalısınız? Belədirsə, siz kursdan əvvəl qiymətləndirmə aparmalısınız ki, bu da istifadəçilərə ən çox nəzərdən keçirməli olduqları məlumatları tapmağa kömək edəcək. Bilik kurs ərzində davamlı qiymətləndiriləcək, yaxud kursun sonunda qiymətləndiriləcək? |
| Rəy | Biliyi yoxlayarkən rəy dərhal veriləcək və ya kurs tamamlandıqdan sonra veriləcək? |
| Audio materiallar | Kursa audio və ya səsli materiallar daxil olacaqmı? Belədirsə, tərtibatçı həmçinin audio ssenari yazmalıdır. |
| İnteraktivlik | Kursun neçə faizi interaktiv elementlərdən ibarət olmalıdır? Mövzu üzrə ekspert təqdim edilən auditoriyanın kim olduğunu bilirsə, bununla bağlı müəyyən fikirləri olmalıdır. İnteraktivliyin dərəcəsini bilmək tərtibatçıya kursu hazırlayarkən kömək edəcək. |
| Mobil Öyrənmə | Kurs mobil öyrənmə üçün istifadə ediləcək? Belədirsə, müəyyən dizayn elementləri mobil platformalar üçün uyğun olmaya bilər. |
| **Auditoriya** | |
| Kimlərin öyrənməsi nəzərdə tutulur? | Kursdan kimlərin istifadə edəcəyini bilməyiniz mühümdür. Bunu bilməyiniz müəyyən öyrənmə qərarlarını verərkən əsas rol oynaya bilər. Hədəf auditoriyanı təyin etdiyinizdən əmin olun və daha sonra demoqrafik xüsusiyyətləri nəzərə alın. Kursu tərtib etdiyiniz auditoriya tonu da tənzimləyə bilər. Məsələn, müəyyən şəxslər danışıq üslublu öyrənmədən narahat ola və ya ona qarşı ola bilər. Digərləri formal öyrənmə tonuna daha az həssas ola bilər. |
| Öyrənmə Təcrübəsi | Auditoriyanın öyrənmə təcrübəsi varmı? Sonuncu dəfə onlar nə vaxt təhsil və ya təlim proqramında iştirak ediblər? Bunun müəyyən edilməsi öyrənmə yanaşmanız üçün əsasdır. Yaxın keçmişdə təlimlə məşğul olan şəxslərlə işləmək daha asan ola bilər. Siz sinif mühitində daha az iştirak edənlər üçün alternativ yanaşma müəyyən edə bilərsiniz. |
| Öyrənməyə münasibət | Nəzərdə tutulan auditoriya öyrənməyə necə reaksiya verir? Bu, onların ümumilikdə qavradıqları bir şeydir və ya müəyyən narahatlıqlar var? |
| Öyrənmə imkanının olması | Auditoriyanın məlumatı öyrənmək üçün nə qədər vaxtı var? Onların buna sərf edəcəkləri vaxtları var? Təlimi məşğul iş günlərinə sıxışdırırlar? Onların öyrənməni tamamlamağa vaxtları var və ya təzyiq altındadırlar? |
| Texniki imkanlar | Nəzərdə tutulan audioriya əvvələr hansı texnologiyadan istifadə edib? Onlar daha öncə elektron öyrənmədən istifadə ediblərmi? Bu, onların təhsildə istifadə etdikləri bir şeydir? Auditoriyanın texniki bacarıqlarına nə dərəcədə təkan verə bilərsiniz? Bu sual nəzərə ala biləcəyiniz interaktivlik növlərini tənzimləyə bilər. |
| Demoqrafik xüsusiyyətlər | Auditoriyanın yaşını, genderini və mənşəyini nəzərə alın. İstifadə edilən təsvir və ya nümunələrdə demoqrafik qrupu nəzərə almamaq qrupların mövzudan |

| | |
|---|---|
| | uzaqlaşmasına gətirib çıxara bilər. Nümunəyə baxaq - gender baxımından 50/50 bölünmüş, mütəxəssislərə keçirilən kursda bu kursdakı bütün mütəxəssislərin kişilər kimi təsvir edilməsi kursda iştirak edən qadınlara mənfi təsir göstərə bilər. |
| Ərazi cəhətdən həssaslıq | Nəzərdən keçirdiyiniz mövzunun mahiyyətini diqqətə alın. Ərazi cəhətdən həssaslıq yaradan hər hansı məsələlər varmı? Məsələn, Romada romalıların köhnəlmiş və ya stereotip təsvirlərindən istifadə edilən kurs təqdim edirsiniz, bu, xoşagəlməz olmazmı? |
| Öyrənməyə dair diqqətə alınanlar | |
| Mövcud bilik | Auditoriyanın bilik səviyyəsi necə qiymətləndirilə bilər? Onlar daha öncə mövzu ilə tanış olublar və belədirsə, siz keçmiş məlumatları yenidən təqdim etməlisiniz? |
| Cari davranış | Öyrənmə materialı hazırlayarkən auditoriyanın cari davranışlarını nəzərə alın. Mövzu ilə əlaqədar olaraq, onlar hazırda öyrənmənin müraciət etməli olduğu hansı davranış sərgiləyir. |
| Gözlənilən Davranış | Təlimdən sonra öyrənənlər necə davranış sərgiləyir? Təlimin uğurlu olduğunu necə müəyyən edəcəksiniz? |

### Məzmunun eskizlərə çevrilməsi

Elektron öyrənmə eskizi tərtibatçı tərəfindən yazılmış skriptdir. Bu skript texniki ekspert tərəfindən işlək SCORM və ya Flash əsaslı fayıla çevrilir. Hər skript kursu tamamlamaq üçün tərtibatçı üçün tələb olunan bütün sözləri, şəkilləri və qeydləri ehtiva edir.

Elektron öyrənmə eskizi kursun funksional olmayan versiyasıdır. O, heç bir işlək düymə ehtiva etmir. Siz cavabları göndərə bilmirsiniz. Siz ekranda olan hər hansı məlumatı sürükləyə bilmərsiniz.

Siz ekranın necə göründüyünə baxa bilərsiniz. Ekranda görünəcək dəqiq mətn eskizə yazılır. Sizin tərtibatçının istifadə etməsi üçün qrafik dizayn və ya təsvirə dair nümunəniz ola bilər. Burada məlumatlar çevrildikdən sonra onların hansı formada görünəcəyinə dair bir çox qeyd olacaq.

Hərəkət və interaktivlik olmadığı üçün əksər ekranlar hərəkəti sadəcə bir slaydda təsvir edə bilər. Aşağıdakı nümunədə biz sadə dörd düyməlik interaktivlik üçün eskiz təsvir etmişik.

Aşağıdakı şəkil istifadəçinin ilk dəfə qarşılaşacağı ekranı göstərir. Ekranın yuxarısında ekran istinadı üçün yer var. Bu, üç hissədən ibarətdir.

**Modul nömrəsi_fəsil nömrəsi_səhifə nömrəsi ( 01_01_04 Modul 1, Fəsil 1, səhifə 4 olacaq)**

Səhifənin əsas hissəsi tamamlanmış modulun təxminən necə görünəcəyini göstərir. O, səhifədə görünəcək bütün mətni, eləcədə dizaynerin tərtibatçının səhifəyə daxil etməsini istədiyi şəkili ehtiva edir.

Sağda SME-nin (Mövzu üzrə ekspert) diqqətinə çatdırılacaq qeydlər yazılıb. Bu, səhifənin necə işləyəcəyini göstərir. Bu halda bu sətirlərdə müəyyən məlumatlar verilir:

"dörd düymə var. İstifadəçi düyməyə basarkən düymənin sağında əlavə məlumatlar olan yeni pəncərə açılır".




Eskiz lövhəsinin növbəti səhifəsi istifadəçi üçün səhifənin birinci düyməyə (1. Lorem Ipsum Dolor Sit Amet) basdıqdan sonra necə görünəcəyini təsvir edir. Səhifə necə dəyişir, səhifədə nə çıxır, mətn nə deyir. Hər hansı tamamlayıcı şəkil varmı və s.

Ekran istinadı dəyişir - bu halda səhifənin ikinci vəziyyətini əks etdirmək üçün dördüncü dəyişən əlavə edilir.

**Modul nömrəsi_fəsil nömrəsi_səhifə nömrəsi_səhifənin vəziyyəti ( 01_01_04_Modul 1, Fəsil 1, səhifə 4, səhifənin vəziyyəti)**




Yuxarıda göstərildiyi kimi, birinci düymə basıldıqda düymənin rəngi göydən çəhrayıya dəyişir. İlk səhifədəki şəkil itir və mavi kənarları olan ağ mətn qutusu ilə əvəz olunur.

### Eskiz nəyi əks etdirməlidir?

Siz modulda hər dəyişən vəziyyət üçün 1 eskiz daxil etməlisiniz. Eskiz lövhəsinə daxil olmalıdır:

1. Düyməyə basıldıqda ekrana çıxan mətn
2. Sualları hazırlayarkən siz suala cavab verilmədən öncə səhifənin görünüşünü təsvir etməlisiniz. Daha sonra sualın cavablandırılmasından sonra görünən rəyi təsvir edən əlavə iki səhifəni daxil etməlisiniz. Siz düzgün və ya yalnış rəyi göstərməlisiniz.
3. Üzərinə basdıqda interaktiv element necə görünəcək? Məsələn, düyməyə basarkən onun rəngi dəyişəcəkmi?
4. Ekrana yeni şəkil çıxırsa, yeni şəkil təsvir edilməlidir. "Tərtibata dair Qeydlər"də şəklin yerləşdiyi yerin istinad linkini daxil etmək faydalıdır - şəkil fondu halında istinad nömrəsi və veb sayt - və ya şəkli veb saytdan götürmüsünüzsə, vebsaytın ünvanı. Yaxud şəkil daxili şəbəkədədirsə, siz şəklin yerləşdiyi yerin qovluq yolunu daxil etməlisiniz.
5. Əgər tələb olunan şəkil tapılmırsa, bu, alternativ şəkillərin və ya obyektlərin siyahısına daxil etmək faydalı ola bilər.

### Şəkillərdən istifadə

Kursu daha interaktiv və ya maraqlı etmək üçün şəkillərdən istifadə etmək olar. Şəkillərdən istifadə etməyi nəzərə alarkən, onları diqqətlə tətbiq etməlisiniz. Onlar kursa əlavə edilməlidir? Onlara ciddi şəkildə ehtiyac duyulur - və ya onlar yayındırıcı ola bilər?

1. Şəkillər öyrənmə nöqtəsini təsvir etməli və ya mövzunun kontekstinə uyğun olmalıdır.

2. Şəkillərdən həddindən çox istifadə olunmamalıdır.
3. Şəkillər mətni üstələməməlidir.
4. Qrupların vizual təmsilçiliklərinə - xüsusilə azlıqlara diqqətlə yanaşılmalı və faydasız stereotipləri gücləndirməməlidir.

## İnteraktivlikdən istifadə

Şəkillərdən istifadəyə oxşar olaraq, interaktivlik öyrənmə məqamlarına təkan verməlidir. Qarşılıqlı fəaliyyət kursu daha təsirli etmək üçün deyil, öyrənənləri "oyandırmaq" üçün istifadə edilməlidir. Kursun hazırlanması zamanı ən çox təkrarlanan səhv interaktivliyin sadəcə istifadəçinin üzərinə basmağa düyməsi olmayan bir neçə səhifənin olmaması üçün yerləşdirilməsidir. İnteraktivlik:

1. İstifadəçi üçün prosesi göstərməlidir
2. Prosesi təsvir və ya nümayiş etdirməlidir
3. Öyrənmə nöqtəsini göstərməlidir

Onlar həmçinin sematik uyğunluğu təmin etmək məqsədilə səhifədə məlumatı yaymaq üçün istifadə edilə bilər. Əgər bir məqamla bağlı informasiyanı əhatə etmək üçün bir slayd çox azdırsa, növbəti slaydda davam etmək yerinə, informasiyanı aşağıya başlıqlara və ya düymələrə bölməyi nəzərdə keçirin.


Praktikada buna dair nümunələr üçün "AİHK-ya Giriş"[22] adlı HELP proqram kursunu nəzərdən keçirin.

## Videodan istifadə[23]

Müasir istifadəçinin (interaktiv) video materiallarına asan və idarə olunan çıxışı var. Veb-əsaslı media internetdə videoalara baxmaq və paylaşmaq üçün video yayımlamağı mümkün edir.

Video çox zaman digər tədris və təlim fəaliyyətləri ilə birləşdirilir. Blackboard və Moodle kimi virtual öyrənmə mühitləri öyrənmə resurslarını, o cümlədən veb-əsaslı təqdimatları, multi-media resurslarını çatdırmaq üçün nisbətən daha sadə onlayn çərçivə təqdim edən əsas trendə çevrilmişdir. Video artıq sadəcə TV istehsalı demək deyil: o, indi asanlıqla əldə edilən, asanlıqla paylaşılan və çox zaman tədris proqramında dəstəklənən və ya tam şəkildə inteqrasiya olunan tədris (daha və daha çox interaktiv) vasitəsidir. Gənclər artıq videodan istifadəyə öyrəşib. Nəticədə isə, onlar getdikcə daha çox vizual və

[22] http://help.ppa.coe.int/course/view.php?id=866
[23] *Təhsildə Rəqəmsal Video və Audio üzrə Məlumat Kitabçasından* götürülüb (VideoAktiv Layihəsi) https://moodle.technion.ac.il/pluginfile.php/344724/mod_resource/content/0/Ulpan/VideoAktiv_Handbook_fin.pdf 24 may 2016-cı ildə əldə edilmişdir.

audio əsasında öyrənənlərə çevrilir. Videonun hazırlanması və təhsildə ondan istifadə üsulu pedaqoqlar üçün böyük çətinlik yaradır; eyni şey hüquq və insan hüquqları təhsilində təlimçilər üçün də keçərlidir.

### *Videodan niyə istifadə edək?*[24]

Qədim bir deyimdə qeyd edildiyi kimi: "bir dəfə görmək min dəfə eşitməkdən yaxşıdır". Bunu HELP Proqramının video çarxına baxaraq təcrübədən keçirək (Avropa Şurası).



*[Video çarx: HELP nə üçün əhəmiyyətlidir; vasitə: windows media player]*

Video/səs ilə birləşən animasiya izləyiciyə çox böyük töhfə verir. O, emosional cəhətdən beyinə təsir edir və anlaşmanı və mövzunun vizuallaşdırılmasına motivasiyanı stimullaşdırır. Bunu sadəcə mövzu ilə bağlı mətni oxumaqla müqayisə edin və siz şəkil və səsin verdiyi töhfə ilə bağlı fikrə sahib olacaqsınız. Buna ən yaxşı nümunə "Avropa düşüncəsi" videosudur ki, daha sonra daha çox nümunə ilə paylaşılacaq

Tez-tez videonun istənilən vaxt və istənilən yerdə çıxışı təmin etməklə, uyğunlaşan təhsil tələblərinin qarşıladığını eşidirsiniz. Lakin bu, həmçinin kitaba da aid edilə bilər. Bundan əlavə, kitabın üstünlüyü heç bir texniki şərait tələb etməməsidir. Bəs videoni belə cəlbedici edən nədir? Aumontun[25] qeyd etdiyi kimi kimi, şəkillər yazılmış söz qədər güclü olan bilik, əminlik və zövq mənbəyidir.

Moss[26] qeyd edir ki, video görmə duyğusundan istifadəni təmin etdiyi üçün digər öyrənmə texnologiyalarından fərqlidir. Hərəkətli şəkil tələbəyə prosesi vizuallaşdırmağa və ya bir şeyin necə işlədiyini, hərəkət etdiyini, fəaliyyət göstərdiyini görməyə kömək edir. Dale[27] inanırdı ki, hərəkətli şəkil onun təhsildə endemik kimi gördüyü "həddən artıq verbalizasiyanı" balanslaşdıra bilər.

---

[24] *Təhsildə Rəqəmsal Video və Audio üzrə Məlumat Kitabçasından* götürülüb (VideoAktiv Layihəsi) https://moodle.technion.ac.il/pluginfile.php/344724/mod_resource/content/0/Ulpan/VideoAktiv_Handbook_fin.pdf 24 may 2016-cı ildə əldə edilmişdir.
[25] Aumont J (1997) *Təsvir* (london: British Film İnstitute)
[26] Moss R (1983) *Video: Təhsil Problemi* (London: Croom Helm Ltd)
[27] Dale E (1962) *Tədrisdə Audio və Video Metodlar* (Nyu-York: Holt, Rihehars and Winston)

Lakin bu, hərəkətli şəklin yeganə görünən mühüm aspekti deyil. Akademik tərtibatçılar çox zaman videonun təşviqedici aspektlərinə və emosional təsirinə müraciət edirlər. Şəkillər hər zaman fikir, emosiya, güc, orijinallıq və simvolizm kimi (yarı) gizli mesajlar daşıyır.

Digər öyrənmə fəaliyyətləri ilə müqayisədə videonun (animasiya daxil olmaqla) gücü:

- Video yüksək səviyyədə vizuallığı təmin edir
- Hərəkətli şəkillər kursun məzmununu "canlandırır"
- Hərəkətli şəkillər öyrənmə kontekstinə orijinallıq və reallıq qatır
- Video güclü şəkildə refleksiya, atmosfer və emosiya yaradır
- Səslə birləşən şəkillər beyin tərəfindən, yazılı mətnə nisbətən daha yaxşı mənimsənilir
- Videonun hərəkətli şəkilləri başlatmaq, saxlamaq və başa yığmaq imkanı var (təhlil və refleksiya üçün)
- Video arzu edilən kimi nəzərdən keçirilə bilər, öyrənənlər videonu (fraqmentləri) tam başa düşmək üçün lazım olduğu dəfə təkrar işə sala bilər.
- Mürəkkəb hekayələrin izah edilməsini dəstəkləyə bilər (animasiya)

Mürəkkəb hekayəni asanlaşdıran animasiya nümunəsi:




*[SSR animasiyası, Hollandiya Məhkəmə Sistemi üzrə Təlim İnstitutu, strateji məqsədlərin izah olunması*

*Təxminən 3 dəqiqə, karikatura və səs ötürülməsi- Dil: Ingilis dili]*

Videonun və şəkillərdən istifadənin gücünü təsəvvür etmək üçün, sadəcə növbəti bölmədə 114-cü səhifədə qrafikə baxın (Dale). Təcrübə konusunda göstərilir ki, səs və təsvirin kombinasiyası mətn və ya kitabdan daha çox, öyrənməni təmin edir. (*Dale Təcrübə konusu (Dale, 1969)* həmçinin 1-ci hissədə göstərilir).

AİHK ilə əlaqədar olaraq, siz tez-tez eşidirsiniz ki, üzv dövlətlərdə məhkəmə sistemi mütəxəssisləri AİHK-nı tətbiq etməyə hazır deyil, çünki onların ilk növbədə milli qanunvericliyi anlamaq və istifadə etməklə bağlı çətinliyi var. Video yüksək səviyyə emosionallıq ötürdüyü üçün, bu maneəni aradan qaldırmaq üçün çox yaxşı vasitədir. O, öyrənənləri və öyrənmə kontekstini stimullaşdıra, AİHK-nı canlandıra bilər. Məsələn, Avropa Şurası tərəfindən hazırlanan olunan və paylanılan Avropa Düşüncəsi filminə baxın: http://youtu.be/lJdoe02cY0U

*[Avropa Düşüncəsi ümumi ictimaiyyət üçün nəzərdə tutulmuş filmdir. O, Avropa İnsan Hüquqları Konvensiyasını və onun iş təcrübələrini və fəalliyətini əks etdirir. Sənədli film təxminən 15 dəqiqə davam edir və buna görə də, məktəbin tədris proqramı kontekstində məsələn, vətəndaşlıqla bağlı dərslərin bir hissəsi kimi və ya ötən 50 il ərzində Avropada insan hüquqları standartlarına uyğunluğa nəzarət etmiş Məhkəmə haqqında daha ətraflı məlumat almaq istəyənlər tərəfindən izlənilə bilər. Xüsusilə, film Məhkəmə tərəfində araşdırılan işlərə dair spesifik nümunələr təqdim edir və onun gələcək perspektivlərini və üzləşdiyi çətinlikləri nəzərdən keçirir].*

Videonun maarifləndirici potensialını nəzərə alaraq, bu gün bir çox təhsil müəssisələrinin multimedianı dəstəkləyən xidmətlər yaratması və hətta media əsaslı təlim və tədris fəaliyyətlərini dəstəkləmək üçün istehsal studiyası yaratması təəccüblü deyil. Bununla belə, innovativ məhsul kimi videoların istehsalından qaynaqlanan təşkilati problemlərdən xəbərdar olmaq lazımdır. Müəllimlər və kurs tərtibatçısı/menecerləri medianın və zəruri avadanlığın istifadəsi üçün yeni bacarığlara yiyələnməlidir. Bundan əlavə, media məzmunu pedoqoji cəhətdən kursa uyğunlaşdırmaq ilə bağlı çətinliklət var (plan). Nəhayət, təşkilat daxilində videoları istehsal edilməsi, saxlanılması, yerləşdirilməsi və paylanılması zamanı əldə edilən texniki şərtlər və material hüquqları ilə bağlı çətinliklərdən xəbərdar olmaq lazımdır. Bu mövzu ilə bağlı daha ətraflı məlumat bu fəsildə daha sonra verilir.

**Pedoqoji hazırlıq**

Üç 'I' Çərçivəsi[28] tyutor və kurs tərtibatçılarını video əsaslı öyrənmə fəaliyyətləri hazırlayarkən faydalı metodologiya və praktiki icmal ilə təmin edir.

Film və video çox zaman klassik tədris və transmissiya pedoqoji yanaşma ilə əlaqələndilir, tyutor resurslar, öyrənmənin həyata keçiriləcəyi yer və tarixə nəzarət edir və seçir.

Buna baxmayaraq, konstruktivist yanaşma iddia edir ki, insanlar təcrübə vasitəsilə öz fərdi psixi modellərini yaratmaqla dünya haqqında öz anlayışlarını yaradır. Konstruktivizmdə interaktivlik əsas elementdir, öyrənmə resursları və təcrübələrə nəzarət etmək, onları seçmək və əldə etmək öyrənənlərə aktiv şəkildə öz biliklərini inkişaf etdirməyə kömək edir.

Pedaqoqlar üçün cari pedaqoloji çətinlik tədris/transmissiya modelini, hətta ümumi olaraq yaxşı dəstəklənən konstruktivizm baxışını belə arxa planda qoymaqla, kollektiv, situasiyalı və danışıq rejimlərini əhatə edir.

[28] Young C, Asensio M (2002) *Üç "İ" nəzərdən keçirilməsi: axın videosundan pedaqoji istifadə*, Şəbəkəli Tədrisin Materialları, Sheffield

Rəqəmsal videonu internetdə vahid şəkildə digər vasitələrlə birləşdirmək imkanı videonu sırf təqdimat və təlimat (təcrid olunmuş) vasitəsi kimi görən konsepsiyadan uzaqlaşdıraraq, tələbələr üçün fəallıq, əməkdaşlıq və kommunikasiya vasitəsinə çevirir. Biz bu pedaqoji keçidləri aşağıdakı cədvəldə verilən '3 'I' Çərçivəsində ümumiləşdirə bilərik.

| Dəyər | Texnologiya | Nəzarət | Pedaqoji Perspektivlik |
|---|---|---|---|
| Təsvir | Film, televiziya, videoyazma | Müəllim | Transmissiya modeli |
| Təsvir + interaktivlik | Video disk, stolüstü video, multimedia, CD_ROM | Tələbə | Konstruktivizm modeli |
| Təsvir + interaktivlik + inteqrasiya | Veb və axın mediası | Paylanıb | Əməkdaşlıq, kontekstualizasiya, ictimaiyyət |

*Üç 'I' Çərçivəsi və əsas pedaqoji perspektivlər*[29]

### *Təlimdə* videodan istifadə

Bu bölmənin məqsədi videonun müvafiq pedaqoji dəyərinə istinad etməklə onun təhsildə istifadə spektrini vurğulayır.

**"Danışan baş" mühazirələri və praktiki məşğələlər**

Əksər təcrübəçülər üçün sərbəst şəkildə maarifləndici videonun yaradılması üçün başlanğıc nöqtə müəyyən "danışan baş" formasındadır, yəni mərkəzi nöqtəsi birbaşa canlı auditoriya və ya kameraya danışan tyutor olan mühazirə, praktiki məşğələ və ya laboratoriyanın qeydə alınmasıdır. Rəqəmsal video formatına çevrildiyi zaman nəticələr öyrənənlərin cəlb olunması baxımından məyusluq yarada bilər. Şəkil kompozisiyası çox zaman problem ola bilər, çünki tyutorlar çox zaman canlı tədbirlərdə hərəkət edirlər ki, bu da diqqəti yayındıra bilər, səs və təsvirin keyfiyyəti tədbir canlı keçirilərsə, optimaldan daha az ola bilər.  Bundan əlavə, tyutor yaxşı "icraçı"dırsa, onun entuziazmi və yanaşması mövzunu humanistəşdirə və tələbəni cəlb edə bilər.

[29] *Təhsildə Rəqəmsal Video və Audio üzrə Məlumat Kitabçasından* götürülüb (VideoAktiv Layihəsi) https://moodle.technion.ac.il/pluginfile.php/344724/mod_resource/content/0/Ulpan/VideoAktiv_Handbook_fin.pdf, səh 11, 24 may 2016-cı ildə əldə edilmişdir.

**Autentik arxiv video materialından istifadə**

Müəllimlər üçün maarifləndirici videodan istifadə üzrə ikinci ümumi yol mövcud video və audio arxiv resurslarından istifadə etməkdir. Son illərdə təhsil sahəsi üçün müəllif hüquqları qorunan rəqəmsal media resursları təklif edən rəqəmsal arxivlərin beynəlxalq şəkildə yayılması müşahidə edilmişdir. Sayı artan milli portallardan materiallar axtarıla, seçilə, redaktə oluna və məsələn, virtual öyrənmə mühitinə daxil edilə bilər.

**Praktiki fəaliyyətlə bağlı təlimat xarakterli "necə etməli videoları"**

Video konkret bir şeyin icra prosesini, prosedurlarını və müxtəlif mərhələlərini göstərmək üçün istifadə edilir. O, həmçinin təcrübədə ekspert və köməkçiləri göstərmək üçün nümayiş metodu kimi istifadə edilə bilər. Təlimat xarakterli video təhsildə uzun zamandır istifadə edilir, lakin rəqəmsal formatın əsas üstünlüyü xətti təhkiyəyə artıq ehtiyac duyulmur və istifadəçilər səviyyə və ehtiyaclarından asılı olaraq ardıcıllıqlar menyusundan seçim edə bilər. Ən yaxşı nümunələr öyrənən üçün cəlbedici, maraqlı və müvafiq olaraq interaktiv təcrübə yaradan animasiyalı ekran görüntülərini, danışan başları və arxiv materialı (nümunə hadisələrin öyrənilməsi) birləşdirir. Əlverişsiz tərəfi avtonom şəkildə onlayn öyrənmə paketlərinin hazırlanması çətin, vaxt aparandır və eyni zamanda bahalı ola bilər.

**Ekspert ilə müsahibə və ya ekspert təqdimatı**

Texniki perspektivdən, sinfə qonaq kimi natiqin çağırılması "danışan başın" qeydə alınması ilə oxşar ola bilər, lakin pedaqoji məqsəd adətən təcrübəçi və ya ekspertin bilik və görüşləri və ya alternativ nöqtəyi-nəzərin təqdim edilməsi yolu ilə öyrənməni kontekstləşdirməkdir. Bu cür tədbirlər öyrənənlər üçün istinad mənbəyi olan video məzmunlar ilə əlavə müzakirəyə təkan vermək üçün istifadə edilir.

**"Səsli düşün" video bloqları**

Maarifləndirici bloqlar sürətlə yayılmışdır və burada subyekt (tələbə və ya tyutor) öz fikirlərini və hərəkətlərini qeydə alır. Bloqların uğuru qeyri-formal xarakterli şəxsi düşüncələr və yuxarıdakı video və audiodan da gördüyümüz kimi musiqi, yumor və kortəbiilik ehtiva etməsi ilə bağlıdır. Subyekt özü video-gündəlik hazırlaya və ya bu, kamera arxasında olan şəxs tərəfindən edilə bilər.

**Video əsasında hadisələrin öyrənilməsi/simulyasiyalar/rol oyunları**

Burada niyyət tələbələrin müxtəlif reaksiya və davranışları təcrübədən keçirə biləcəyi təhlükəsizliyin potensial olaraq risk altında ola bildiyi laboratoriya təcrübəsi kimi hadisəni simulyasiya etmək və ya hadisənin öyrənilməsi formasında rol oynama stiuasiyasına cəlb etməkdir. Bu davranışları təhlil etməklə tələbələr qoyulan məsələlər ilə bağlı daha dərin fikrə sahib ola bilər. Bu halda video "real həyat" kontekstini və/və ya emosional təsiri təmin edir.

**Real tədbir və ya situasiyalarda video**

Burada məqsəd fiziki cəhətdən sinfə gətirilməsi mümkün olmayan hərəkətin çəkilməsidir. Bu, hər hansı açıq hava tədbiri və ya situasiyasına, adətən sahə gəzintilərinə tətbiq oluna bilər. Oxşar olaraq, video kliniki hadisələr və ya sənayə mühitləri kimi böyük tələb qruplarının iştirakı çətin olan tədbirlərə çıxışı təmin edir. Real həyat hadisələri müşahidə edilə, şərh və müzakirə oluna bilər. Xarici təcrübələrə çıxış kontekstləşdirmə və biliyin ötürülməsi üçün imkanlar təmin edə bilər.

**Təqdimat/performans bacarıqları və rəy**

Reflektiv video fərdi modelləşdirmə tələblərinin praktiki bacarıqlarını inkişaf etdirmək üçün uzun illər ərzində istifadə olunmuşdur. Məqsəd refleksiya və müzakirə vasitəsilə fərd və qrupların performansını çəkmək, nəzərdən keçirmək və inkişaf etdirməkdir. Bu yanaşma fərdi şəkildə yönləndirilən öyrənməni təbliğ edir, motivasiyanı artırır və öyrənənləri aktiv şəkildə öz həll yollarını tapmağa təşviq edir, beləliklə özünə inamı artırır. İdarə olunmasına baxmayaraq, öyrənən bu prosesdə bərabər səlahiyyət malik partnyordur. Qeydə alınan performanslar daha sonra tələblərin elektron portfelinin bir hissəsi kimi istifadə edilə bilər.

**Didaktik yanaşmanızı müəyyən edin**

Aşağıdakı xülasə didaktik yanaşmanızı müəyyən etməyə kömək edəcək təklif və nümunələr təmin edir.

| Nə etmək istəyirsən? | Üsul/metod | Təsvir |
|---|---|---|
| Sinfə fiziki cəhətdən gətirilməsi mümkün olmayan hərəkəti, situasiyanı göstərin | Realizm | Açıq hava tədbiri, performansı, AİHM-nin dinləməsi, tarixi hadisələri göstərən səhnə və s. Bu videolar tələbələriniz tərəfindən müşahidə edilə, təhlil oluna, şərh edilə və müzakirə edilə bilər.<br><br>Məsələn:<br><br>AİHM haqqında video: "Avropa düşüncəsi".<br>Səs ötürülməsi, yüksək emosionallıq ifadə edən sənədli film üslubu. |

| | | |
|---|---|---|
| | | (təxminən 15 dəqiqə); AİHK-nın missiyasına və tarixinə nəzər salır.<br>http://youtu.be/lJdoe02cY0U |
| Fiziki cəhətdən müşahidə edilməsi mümkün olmayan hərəkəti göstərin | Simulyasiya | Situasiya faktiki hadisəyə oxşar şəkildə səhnələşdirilir. Real həyatın qeydə alınmasını deyil, simulyasiyanın seçilməsi üçün səbəblər: 1. Təhlükəsizlik 2. Keçmişdə baş verən hadisə 3. Nadir situasiyalar (real həyatda lentə almaq çətin və ya bahalıdır) 4. Alternativ versiyalar göstərmək istəyirsiniz: yaxşı və pis nümunə.<br><br>Məsələn: Məhkəmə iclasını/məhkəmə sessiyasını qeydə almaq; onu şagirdlərə göstərmək; işi təhlil etmələrinə imkan yaratmaq; işin onlar tərəfindən öz qərarları ilə yekunlaşdırılması; qərarı nəzərdən keçirmək və qərar üzərində düşünmək.<br><br>https://www.youtube.com/watch?v=HwB8PtH6XKw |
| Konkret proseduru göstərin | Təlimat xarakterli | Video xronoloji ardıcıllıqla hazırlanır və prosesdə müxtəlif mərhələləri əks etdirir.<br><br>Nümunələr:<br><br>Video: "Məhkəməyə müraciət etmək üçün düzgün yol"<br><br>Qrafiklər və səs ötürülməsi ilə animasiya (təxminən 4 dəqiqə)<br><br>Prosedur, təlimat məqsədinə diqqət yetirir.<br><br>http://youtu.be/mA_iGhvxYFM<br><br>Video AİHM "Qəbuledilənlik meyarları"<br>Qrafiklər və səs ötürülməsi ilə animasiya (təxminən 3,40 dəqiqə)<br>Prosedur, təlimat məqsədinə diqqət yetirir<br>http://youtu.be/mcbDDhs5ZVA?list=PLT-6qb4oU5fhzKQdkQk6O7UPNhSuAWsB9<br><br>Video məhkəmələrin presedent-hüquqlarını HUDOC verilənlər bazasında axtarmaq.<br>Səs ötürülməsi ilə ssenari; təlimat məqsədi (təxminən 3 dəqiqə)<br>https://www.youtube.com/watch?v=reO12mvvlYE<br><br>Ekologiya hüquq sisteminin qrafik təsviri üzrə görüntüləri göstərən mühaziraçi və yaşıl ekran (studio) ilə video (holland dili, təxminən 2 dəqiqə).<br>http://youtu.be/GQcUELyWV_o |

| | | |
|---|---|---|
| | | |
| Mövzunun mahiyyətinə dair nümunələr verin | İllüstrasiya Animasiyalar | Mövzunun mahiyyətini təsvir edən konkret vəziyyətlər tələbələr üçün qavramanı və xatırlamağı asanlaşdırır.<br><br>Konvensiyada əsas hüquq və azadlıqları təqdim edən AİHK videosu.<br><br>Məsələn:<br>Şəkillər və audio (musiqi) ilə animasiya, səs ötürülməsi yoxdur. Məlumat təmin etmək və motivasiyanı artırmaqla, konvensiyanın maddələrinin mənasını nəzərdən keçirir (təxminən 3 dəqiqə).<br>http://youtu.be/MOcmUQTgjCw<br><br>Nümunə:<br>Şəkil və səs ötürülməsi ilə animasiya (BK) ad: Bu necə işləyir: BK institutunda AİHK (təxminən 7 dəqiqə).<br>http://youtu.be/N-y75YQXQAo |
| Mühazirə və ya təqdimatı qeydə alın (veb-yayımın veb-seminarı) | Danışan baş | Tyutor/təqdimatçı birbaşa kameraya danışır. Baxış bucağı auditoriyanın baxış bucağıdır. Lentə baxarkən, sanki danışanın izləyiciyə müraciət etdiyini hiss edirsən.<br><br>http://era-comm.eu/stream/Rostant_114DV25/index.html<br><br>http://media.ssr.nl/Mediasite/Play/b0a4f985f16c4cc19096b4ef4e965fd71d |
| Bir kəsin reflekslərini/ reaksiyalarını/ reflekslərini təsvir etməsini qeyd edin | Səsli düşün Video gündəlik / Müsahibə | Video gündəlik: subyekt kamera qarşında tək danışır Müsahibə: başqa şəxs tərəfindən təkan verilən refleksiyalar<br><br>Məsələn: Cinayətin onun həyatına təsiri və cinayətə qarşı hislərindən bəhs edən cinayət qurbanı ilə müsahibənin qeydə alınması; məqsəd: cinayətin şəxsi həyata təsiri ilə bağlı hakimlər arasında məlumatlılıq yaratmaq.<br><br>Nümunə: AİHM, hollandiyalı hakim Jos Silvis ilə müsahibə; yeni hakimlərin təlimində istifadə edilir; Ad: Avropa Hüququ; səs |

| | | |
|---|---|---|
| | | ötürülməsi ilə giriş, məkanla bağlı görüntülər, arxa fon kimi layihələndirilən şəkillər ilə yaşıl ekran (təxminən 25 dəqiqə):<br><br>https://media.ssr.nl/Mediasite/Play/03b6d5c9b11c41a2a8b906114542b9d91d |
| Daha sonra müşahidə və təhlil etmək üçün hadisəni qeydə alın | Gizli şəkildə müşahidə edin və eşidin | Kamera bir nöqtədə qurulur və qeydə alır. Siz bu üsulu heç bir hazırlanmış skript olmadıqda istifadə edə bilərsiniz. Subyekt yerini çox dəyişmir və müxtəlif fokus mərkəzlərinə ehtiyac duymur. Bundan sonra siz işə sala və müzakirə edə biləcəksiniz.<br><br>Məsələn:<br><br>http://echr.coe.int/Pages/home.aspx?p=hearings&c=#n1357300199863_pointer |
| Daha sonra arxivləşdirmək və məsləhətləşmək üçün hadisəni qeydə alın | Arxiv | İmkanlarınızdan asılı olaraq, əldə etmək istədiyiniz keyfiyyət və seminar/iş sərgisi/konfransınız nə dərəcədə mürəkkəbdir.<br><br>Məsələn:<br><br>Bu, AİHK üzrə məhkəmə iclaslarının bütün veb-yayımları ilə vebsayta keçid linkidir. Bu veb saytda siz tarixinə, ölkəyə görə, o cümlədən çox sayda dillərə görə təsnifləndirilən məhkəmə iclaslarının veb-yayımlarına, qərar və press-relizlərə baxa bilərsiniz.<br><br>http://www.echr.coe.int/Pages/home.aspx?p=hearings&w=4604314_07012015&language=en |
| Tələbələrin öz davranışlarını müşahidə etməsini təmin edin | Rol oyunu | Video burada tələbələrin özlərini peşəkar situasiyada izləməsi üçün güzgüdür. İş mühitinin simulyasiyası sayəsində tələbələr müxtəlif rol və davranışları təcrübədən keçirə bilər. Qeydə alın və oxutdurun. İndi tələblər qrup yoldaşları ilə nəyin daha yaxşı ola biləcəyini təhlili və müzakirə edə bilər. Mümkün olduqda, bu həmçinin real həyat situasiyasında qeydə alına bilər.<br><br>Məsələn: rəmzi məhkəmə sessiyasının qeydə alınması |

**Yuxarıdakı sxemdə göstərilən bəzi video nümunələri pulsuz olaraq istifadə olunan mövcud video materialdır. Bütün videolar YouTube serverindən yayımlanır, maarifləndirici məqsədlə AİHK-nın mətbuat departamenti tərəfindən istehsal olunur və dərc edilir.*

**Videonu səmərəli edin**

Videodan istifadəyə qərar verdiyiniz zaman siz onun təlim dəyəri baxımından səmərəli olmasını istəyirsiniz. Yaxşı video pedaqoji tələbləri qarşılamalıdır. Tələbələrin motivasiyası və onlarla bağlı materialın təsiri mövzunun seçilməsi və doğru materialın tapılması və ya yaradılmasından asılıdır. Material tələbələrin mövcud bilik səviyyəsi ilə əlaqəli olarsa və o, mövzunun mahiyyətinə qarşı güclü emosiyalar oyadarsa, video güclü media vasitəsidir.

Siz həmçinin paylanılma metodundan xəbərdar olmalısınız: Material hansı mühitdə göstəriləcək? O, sinifdə ənənəvi mühazirə zamanı göstəriləcək və ya tələbələr ona evdə öz kompüterində baxa biləcəkmi? Onlar videoyaya fərdi və ya qrup şəklində baxacaq? İzləmə konkret zaman və məkanla bağlı olacaq və ya onlar onu istənilən vaxt, istənilən yerdə izləyə biləcəklər? O, böyük ekranda və ya kiçik sahədə kompüterdə göstəriləcək? Videonun nümayiş etdirildiyi məkanın onun müddətinə təsiri var və müddət müəyyən edilərkən nəzərə alınmalıdır.

*Mövcud video materialdan və ya öz istehsalından istifadə*

Daha əvvəl qeyd edilmiş didaktik yanaşmadan asılı olaraq, videonun nə zaman istifadə edəcəyiniz ilə bağlı seçim etmək üçün müxtəlif variantlarınız var. Siz mövcud video materiallardan istifadə edə, öz veb-seminarını yarada və sizə uyğun şəkildə video yarada bilərsiniz. Xərclərin az olması baxımından, öz materialınızı yaratmadan öncə istifadə etmək üçün video materiallar axtarmağınız tövsiyə edilir.

Bununla belə, mövcud materialların axtarmaq və öz materiallarını yaratmaq seçiminin hər birinin öz üstün və zəif tərəfləri var. Öz məzmununu yaratdığın zaman təyin etdiyiniz tədris və təlim məqsədləri üçün optimal şəkildə istifadə oluna biləcək. Siz sadəcə zəruri olduğunu düşündüyünz məzmunu hazırlayın. Lakin bu, çoxlu səy və texniki bacarıqlar tələb edə bilər və hər kurs meneceri və ya tyutor yaxşı video hazırlaya bilmir. Mövcud materiallardan istifadənin böyük üstünlüyü ondadır ki, bütün yaradıcı iş yerinə yetirilib (və üstəlik yaxış video hazırlamağı bilən mütəxəssislər tərəfindən yerinə yetirilib). Bununla belə, siz hələ də xüsusi kursunuz ilə əlaqələndirmək üçün materialı seçməli və redaktə etməlisiniz.

Aşağıdakı sxemdə, doğru seçim etməyinizə kömək etmək üçün üstünlüklər və zəif cəhətlər göstəriləcək.

| **Pulsuzdur** | **“Danışan başın” istehsalı** | **Fərdi Video (zərurət olarsa, kənardan istehsal)** |
|---|---|---|
| Youtube/Vimeo | Sinif mühazirəsinin qeydə alınması | Rol oyununun qeydə alınması |
| Coursera | Vebseminar və ya veb-yayım | Dinləmənin qeydə alınması |
| AİHM press videolar | Veb-yayım | Animasiyanın hazırlanması |
| Televiziya | | Sənədli film üslubunda video |
| Sənədli filmlər | | İntervyunun qeydə alınması |
| Video arxivlər | | |

| Üstünlüklər: | Üstünlüklər: | Üstünlüklər: |
|---|---|---|
| Asan çatım | Aşağı istehsal ehtiyacları | Çatdırılmanın təhlükəsizliyi |
| Az büdcə | Proqram təminatından istifadənin asanlığı | Keyfiyyət təhlükəsizliyi |
| | Şəxsi ödəniş məsələlərinin müəyyən edilməsi | Yüksək nəzarət |
| | | Şəxsi ödəniş məsələlərinin müəyyən edilməsi |
| **Çatışmazlıqlar:** | **Çatışmazlıqlar:** | **Çatışmazlıqlar:** |
| Bəzi vaxtlarda mənbə barədə qeyri-müəyyənlik | (Redaktə üçün) proqram təminatının əldə edilməsi | Yüksək istehsal ehtiyacları (avadanlıq və proqram təminatı) |
| Narahat edən elanlar | Kamera və səs aparatı olan studiyaya ehtiyac | Multimedia/redaktə bacarıqlarını tələb edir |
| URL ünvanın dəyişməsi riski | Multimedia biliklərini tələb edir | Saxlama və sənədləşməni təşkil edir |
| Müəlliflik hüquqları məsələləri | Multimedia bacarıqlarını tələb edir | Vaxt alıcıdır; yüksək xərclər |
| **Axın serveri** | **Axın serveri** | **Axın serveri** |
| xarici | xarici | xarici |
| | daxili | daxili |
| € | → | € |

**Müəllif hüquqları**

Mövcud materialdan istifadə ilə bağlı çox zaman gözdən yayınan bir əhəmiyyətli məsələ müəllif hüququdur. Hər video və medianı həmin medianın müəllifindən icazə almadan ictimai şəkildə (hətta sinfə belə) yayımlamaq olmaz. Milli qanunvericiliyi çox zaman başa düşmək çətin olmasına baxmayaraq, Əqli Mülkiyyət Hüquqları qanunvericiliyin mənasına əsasən hər yerdə eynidir. Hər bir bədii istehsal, kitab, fotoşəkil, rəsm, video, audio istehsalı və ya başqalarına yaradıldığı zaman avtomatik olaraq müəlliflik hüququ verilir.

Bununla belə, Creative Commons (CC) təşkilatı müəllif və pedaqoqlara öz yaradıcılıq işini istədikləri dərəcədə məhdudiyyət azadlığı ilə asanlıqla qeyd etməyə imkan verir. Creative Commons vebsaytları, akademik nəşrləri, musiq, video, film və tədris kursları və daha çoxunu əhatə edir. CC vebsaytında daha çox məlumat əldə edə bilərsiniz: https://creativecommons.org/

Əgər siz başqası tərəfindən yaradılan mövcud materiallardan istifadə etmək istəyirsinizsə, əksi açıq şəkildə qeyd edilmədiyi müddətcə, bunu etmək üçün (yazılı) icazə almalısınız.

Öz video materialını istehsal edərkəndə müəllif hüquqi həmçinin əsas məsələdir. Videoda görünən insanların hüquqları barədə düşünün, tyutor (təqdimatçı) və ya tələbə kimi. İstehsal başa çatdığı zaman kimin hüquqları var? Tədris müəssisəsi kimi hüquqlarınız var? Müəllimin də həmçinin hüquqları varmı? Bəzi tyutorlar görünməyə görə ödəniş edilməsi üçün razılaşma istəyə bilər. Videonu dərc etmədən öncə cəlb olunan insanların müəlliflik hüquqlarını araşdırmaq, müəyyən və müzakirə etmək tövsiyə olunur.

*Video təqdimat metodu kimi*

**Veb-mühazirələr**

PowerPoint kimi təqdimat üzrə proqram təminatından istifadə etməklə, tyutorlar səs, şəkillər və video çarxların slayd nümayişində birləşdirildiyi sadə multimedia məhsulu yarada bilər. Bir çox tədris institutları bu yolla multi-mediadan istifadə edərək sinif mühazirələrini asanlaşdırır.

Lakin bu gün veb-seminarların istehsalında böyük inkişaf var. Veb-seminar qısa **veb-əsaslı seminardır**. O, ixtisaslaşmış video konfrans proqram təminatından istifadə etməklə, internet üzərindən ötürülən təqdimat, mühazirə, seminardır. Veb-seminarın əsas xüsusiyyəti onun interaktiv elementləri - məlumat vermək, almaq və müzakirə etmək imkanıdır. Veb-seminar bir yolla məlumat ötürən və təqdimatçı və auditoriya arasından (canlı) qarşılıqlı əlaqəyə imkan verməyən **Veb-translyasiya** ilə qarışıdırılmamalıdır.




*Veb- translyasiyanın ekran[30] görüntüsü [Alət: Mediasite].*

---

[30] https://media.ssr.nl/Mediasite/Play/67776117d1cc4ede96edc2efe387eadd1d

Rəqəmsal texnologiya veb mühazirələrdə (və ya onlayn/rəqəmsal təqdimatlar) naviqasiya və axtarış etməyi nisbətən asanlaşdırır, lentə alınan çox zaman kiçik mövzu ilə əlaqəli ardıcıllıqlara bölünür (həmçinin "kliplər" adlandırılır) və təqdimatın slaydları video və audio ilə sinxronlaşdırıla bilər.

Veb-seminar və veb- translyasiyaların güclü cəhəti məkandan (məsafədən) asılı olmayaraq, tələbələrin böyük qrupuna çatmaq üçün istifadə edilə bilməsidir. O, həmçinin cəlbetməni artıran tyutorun mimikasını və bədən dilini əlavə edir.

Aşağıdakı sxem təqdimatların yayılma üsulundakı fərqlilikləri göstərir.

| Təqdimat üsulu | Çatdırılma | Təsvir |
|---|---|---|
| "Avtonom" **<u>veb-translyasiya təqdim edin</u>**<br>Mühazirə/sinif görüşünün təqdimat ilə dəstəklənməsi (sinif konsepsiyasının çevrilməsi) | Danışan baş<br>Yayımlanma (internet) | Sifarişlə baxılan<br>Müstəqil məkan<br>İstənilən vaxt, istənilən yerdə<br>Asinxron giriş<br>Fərdi istifadə<br>Canlı qarşılıqlı əlaqə yoxdur |
| "Canlı" veb-seminar təqdim edin | Danışan baş<br>Yayımlanma (internet) | Konkret tarix və vaxtda baxılan<br>Müstəqil məkan<br>Sinxron giriş<br>Kollektiv istifadə<br>Canlı qarşılıqlı əlaqə |
| Veb-translyasiya/veb-seminarı digər öyrənmə metodları ilə inteqrasiya edin | Danışan baş<br>Yayımlanır<br>Elektron öyrənmə/multimedia | Mühazirə rəqəmsal öyrənmə mühiti və bir (və ya daha çox) kurs planları ilə birləşdirilir.<br>Sifarişlə baxılan<br>Müstəqil məkan<br>İstənilən vaxt, istənilən yerdə və ya konkret vaxtda<br>Sinxron girişin asinxronu<br>Fərdi və kollektiv istifadə<br>Canlı və canlı qarşılıq əlaqə olmayan |

**Veb mühazirələr hazırlayarkən nəzərə alınmalı məsləhətlər**

Təşkilatınızda veb mühazirələr yaratmağa başlamaq istəyirsinizsə, buradakı bəzi qlobal məsləhətlər faydalı ola bilər. Veb-seminar və veb-translyasiyanın yaradılması və qeydə alınması sinifdə təqdimat etməkdən daha çətindir. Bu, kameranı tyutorun qarşısına qoymaq kimi asan deyil. Siz aşağıdakılardan xəbərdar olmalısınız:

- texniki şərtlər (yayımlama üçün kifayət qədər ötürmə qabiliyyəti)
- düzgün proqram təminatı seçmək (texniki və kommunikasiya aspektlərini gözdən keçirin)
- avadanlıqla qeydə almanı kamera və audio və s. ilə asanlaşdırın (satın alın və ya studiya icarələyin)

- cəlbedici və səmərəli onlayn mühazirə hazırlamaq üzrə tyutora təlim keçin
- moderatoru təlimləndirmək və təyin etmək (canlı yazma zamanı tyutora kömək etmək)
- test və (canlı) qeydə alma zamanı texniki dəstəyin təmin edildiyindən əmin olun (daxilolma problemləri və s.)
- marketinq kommunikasiya aspektlərinin idarə edilməsi: dəvət, təyin etməl/qeydiyyata almaq və s.

**Veb-seminarın formatını müəyyən edin**

Veb-seminar müxtəlif məqsədlərə uyğunlaşmaq üçün müxtəlif formatlarda strukturlaşdırıla bilər. Aşağıda nəzərə ala biləcəyiniz populyar formatlar göstərilib:

| | Təsvir | Üstünlüklər | Çatışmazlıqlar |
|---|---|---|---|
| **Bir spiker** | Bir təqdimatçı danışır, nümayiş etdirir, və auditoriyanın suallarını cavablandırır. | Veb-seminar vasitələri barədə əlaqələndirmək və təlimatlandırmaq üçün azsayda şəxslər | ▪ Bir təqdimatçının “otağın qarşısında” avtoritet olmaq ehtimalı çoxdur, bu isə auditoriyada bəzilərini iştirak etmək və suallar vermək həvəsindən sala bilər. |
| **İntervyu Üslubu** | İntervyu götürən əvvəlcədən müəyyən olunmuş bir sıra suallar verir. | Bir çox səsləri eşitmək daha çox cəlb edir.<br>İntervyu götürənin ekspert(lər)ə sual verməsi faktı tez-tez auditoriyanı suallar verməyə həvəsləndirir. | ▪ Təlimatlandırmaq və əlaqələndirmək üçün çoxsayda şəxslər.<br>▪ Məşqi və faktiki veb-seminarı planlaşdırmaq daha çətin ola bilər. |
| **Moderatoru olan Panel Müzakirə** | Müzakirələri yönləndirən moderatorla birgə, xəttdə eyni vaxtda bir neçə şəxs | Müxtəlif səslər və perspektivlər təklif edir. | ▪ Təlimatlandırmaq və əlaqələndirmək üçün çoxsayda şəxslər.<br>▪ Məşqi və faktiki veb-seminarı planlaşdırmaq daha çətin ola bilər.<br>▪ Panelistləri bir-birilə müzakirə etməkdən saxlamaq çətin ola bilər. |
| **İnteraktiv** | Auditoriyanın üzvləri təlimatçının apardığı çalışmalarda və yönləndirdiyi söhbətlərdə tam iştirak edirlər | Yaxşı həyata keçirildiyi təqdirdə, iştirakçılar mövzu barədə dərin anlayış əldə edirlər, çünki onlar dialoq və çalışmalarla tam məşğul olurlar. | ▪ Yalnız kiçik qrupu əhatə edə bilər.<br>▪ Çox bacarıqlı, təcrübəli tyutor/aparıcının olmasını tələb edir. |

**Auditoriyanı cəlbetmə üstünlüyü**

Onlayn mühazirə hazırlayarkən doğru bacarıqlara malik olmaq çox önəmlidir, çünki siz izləyici və auditoriyanın diqqətini cəlb etməlisiniz. PowerPoint təqdimat daha yaxşı struktur tələb edir, beləliklə, izləyicilər bunun vasitəsilə mövzu və slaydlar arasında keçid edə ilir. Təqdimatçı (tyutor) də həmçinin əhəmiyyət daşıyır ki, bu, çox zaman göz-ardı edilir. Yumor, intonasiya, bədən dili, diksiya mühüm əhəmiyyət kəsb edir. Yadda saxlayın ki, onlayn mühazirədə izləyicilərin konsentrasiya ola bildikləri maksimum müddət 10-15 dəqiqədən çox deyil.

Təqdimatçı və izləyicilər arasında qarşılıqlı fəaliyyət auditoriyanı diqqətdə saxlamağa kömək edəcək. Təqdimat üçün proqram təminatı auditoriya ilə qarşılıqlı əlaqə yaratmaq üçün müxtəlif vasitələr təmin edir. Buna görə də, onlayn mühazirənizi interaktiv elementlər ilə dizayn etmək, məsələn, suallar vermək, təqdimat çərçivəsində (onlayn) sorğu keçirmək və (canlı) mühazirə zamanı müzakirə başlatmaq tövsiyə edilir. "Danışan baş" videonun nisbətən passiv şəkildə istifadəsi olmasına baxmayaraq, yaxşı təşkil olunar və yaxşı performansla birləşərsə, "virtual professor" təəccübləndirici şəkildə maraqlı ola bilər. Əgər cəlbedici və səmərəli onlayn mühazirə haqqında daha çox öyrənmək istəyirsinizsə, internetdə axtarış etdiyiniz zaman çoxlu məsləhətlər tapa bilərsiniz.

### Elektron öyrənmə kursunun qurulması

Elektron öyrənmə kursunun qurulması üçün marketdə çoxlu sayda proqram var. Elektron öyrənmə kursunun tərtibatı və qurulması üçün HELP Proqramı Articulate Storyline proqramı seçmişdir. Storyline proqramının bir çox üstünlükləri var.

- Onun Microsoft Office istifadə edən istifadəçilər üçün tanış interfeysi var.
- O, istifadəçilər tərəfindən ehtiyaclara uyğunlaşdırıla bilən şablonlar və İnteraktivliklər təklif edir.
- Onun onlayn güclü dəstək xidməti var.

## b) Kursun adaptasiya edilməsi (məzmun və format)

### *i. Milli tyutorun seçilməsi*

Milli tyutor icra mərhələsində mühüm rol oynayır, ondan model kursu pilot ölkənin hüquq sisteminə uyğunlaşdırmaqla məzmun üzərində işləmək, eləcə də kursu (qarışıq və ya distant) idarə etmək gözlənilir.

Milli tyutor İstinad Şərtləri əsasında HELP Katibliyinin və MTİ və ya VA-nın müştərək qərarı ilə təyin edilir. Milli tyutordan öz sahəsində ekspert olmaq və təlimçi kimi müəyyən təcrübəyə malik olmaq tələb edilir. Bundan əlavə, HELP Katibliyi ilə kommunikasiyanı asanlaşdırmaq üçün yaxşı səviyyədə ingilis dili biliyi tələb edilir. Milli tyutor faktiki olaraq, HELP Katibliyini müntəzəm şəkildə kursun həyata keçirilməsinin gedişatı ilə bağlı xəbərdar etməlidir.

Təyinat adaptasiya mərhələsindən əvvəl istənilən vaxt icra edilə bilər. Tyutor ilkin mərhələdə təyin olunarsa, o, İQ görüşlərinin birində iştirak etməklə məzmun hazırlama mərhələsinə cəlb edilə bilər. Bu cür iştirak tyutoru HELP Metodologiyası və öhdəliyi ilə tanış olmasına kömək edəcək.

İstənilən halda milli tyutor HELP Proqramı çərçivəsində təşkil olunan HELP Təlimçilər üçün Təlim sessiyalarından birində iştirak etməyə dəvət edilir. İdeal olaraq, sessiya adaptasiya mərhələsi başlamadan öncə keçirilir.

### Təlimçilər üçün Təlim

#### *Giriş*

HELP son bir neçə il ərzində əhəmiyyətli dərəcədə inkişaf etmişdir, partnyor ölklərin sayı 12-dən 47-yə çatmışdır və indi hədəf auditoriya vəkillər, eləcə də hakim və prokurorlardır. HELP çərçivəsində peyk layihələr işlənib-hazırlanmışdır, bunlardan bəziləri

- 28 ölkədə HELP, Aİ-nın Ədalət Mühakiməsi üzrə Baş Direktorluğu tərəfindən maliyyələşib
- Rusiya Federasiyasında HELP İnsan Hüquqlarına Etimad Fondu tərəfindən maliyyələşib
- Türkiyədə İfadə Azadlığı Layihəsi, Aİ və digərləri tərəfindən birgə
- maliyyələşib

Onlar özündə müxtəlif yeni kursların yaradılması və idarə edilməsini və çoxlu sayda HELP distant, üzbəüz və qarışıq öyrənmə kurslarını milli müstəvidə idarə etmək üçün bacarıqları və həvəsləri olan milli HELP təlimçiləri üçün yeni tələbat yaradılmasını birləşdirir.

Buna görə də, Təlimçilər üçün Təlim bu tələbatlara cavab vermək, milli təhsil institutlarının və vəkillər kollegiyalarının nümayəndələrinə HELP təlimçiləri olmaq üçün təlim keçmək və onları HELP Metodologiyası ilə tanış etmək üçün hazırlanmışdır.

HELP Təlimçilər üçün Təlim xüsusilə müxtəlif səriştələrə yiyələnməyə və HELP metodologiyasını tam anlaşılmasını təmin etməyə əhəmiyyət verir.




#### *Məqsəd*

Hədəf HELP tyutorlarına HELP metodologiyası və HELP öyrənmə platforması (Moodle) üzrə müvafiq təlimlə təmin edərək HELP distant, qarışıq və üzbəüz öyrənmə kurslarına uyğunlaşdırılmasını və **yüksək keyfiyyətdə çatdırılmasını** təmin etməkdir.

#### *Məqsədlər*

- ✓ iştirakçıları Strasburq məhkəməsinin ən son təcrübəsi ilə tanış etmək;
- ✓ Öyrənmə məqsədlərinin təyin edilməsi, ehtiyacların qiymətləndirilməsi, kursun milli hüquq sisteminə uyğunlaşdırılması və qiymətləndirmələrdə istifadə edilən HELP prinsip və metodlarına aydınlıq gətirmək;
- ✓ HELP elektron öyrənmə platforması - Moodle üzrə iştirakçılara təlim keçmək (səhifənin yaradımasından HELP elektron öyrənmə plaformasında mövcud resurs və müxtəlif fəaliyyətlərə kimi);
- ✓ milli kurslarda təlimçilər rolunu müzakirə etmək və HELP distant, qarışıq və üzbəüz öyrənmə kurslarının idarə edilməsi üçün iştirakçıların müvafiq səriştələrini inkişaf etdirmək;

- ✓ milli təhsil institutlarında və vəkillər assosiyasiyalarında HELP kurslarına rəhbərlik etmək üçün bacarıqları və həvəsi olan təlimçilərin milli şəbəkəsini yaratmaq;
- ✓ açıq dialoq və Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) və Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) məhkəmə təcrübəsi üzrə distant, qarışıq və üzbəüz öyrənmə kursları üzrə ən yaxşı təcrübələri paylaşmaq üçün məkan yaratmaq.

**KOMPETENSİYA 1** - HELP model tədris proqramı əsasında təlim ehtiyaclarının qiymətləndirilməsinin aparılmasından öyrənmə məqsədlərinin yaradılması, tədris proqramını milli sistemə uyğunlaşdırmaq və kursu qiymətləndirməyə kimi tədris proqramlarını tərtib etmək.

**KOMPETENSİYA 2** - HELP elektron öyrənmə platformasından (Moodle) və onun mövcud resurs və vasitələrindən istifadə etmək.

**KOMPETENSİYA 3** - fərdi və qrup şəklində öyrənmə proseslərini başa düşmək və asanlaşdırmaq.

Üz-bə-üz təlim (iki-üç gün)




Pilot distant kurs (dörd aya kimi)




Qarışıq kurs (altı aya kimi)



**Təlimçilər üçün Təlimin iştirakçıları**

İştirakçıların seçimi zamanı prioritet MTİ və VA daxilində səmərəli potensial şəxslərə verilir. Strasburqda kursun adətən Avropa Şurasına üzv olan 47 dövlətdən 30-60 iştirakçı cəlb olunur. Hədəf qrup hüquq mütəxəssisləri üçün təlimçi kimi təcrübəyə, hətta beynəlxalq təlim təcrübəsinə malik olan və ya onu əldə etməyə güclü motivasiyası olan MTİ və VA nümayəndələridir. Onlar ingilis dilində bilirlər və HELP tədris kurslarında moderatorluq etməyə həvəslidirlər.

Müvəffəq iştirakçılar HELP vebsaytında mövcud olan sertifikatlaşdırılmış HELP təlimçilərinin siyahısına əlavə edilir. Həm Avropa Şurasının ofisləri, həm də MTİ /VA-ları AİHK üzrə milli və beynəlxalq tədbirlər üçün bu bazadan təlimçilər seçmək imkanından xəbərdar edilir. Beynəlxalq və çoxmillətli əməkdaşlığı asanlaşdırmaq üçün təlimçilərin işlədiyi dillər, peşəkar profili və təcrübə keçdiyi ölkə haqqında məlumatlar da toplanılacaq.

2014 və 2015-ci ildə İllik Şəbəkə Konfranslarında toplanılan rəylər bu cür təlim tədbirlərinin yüksək səviyyədə dəstəkləndiyini göstərmişdir. Bu, milli təlimçilər üçün güclü **milli təşəbbüs** yaratmaq imkanını artırır.

**Təlimçilər üçün Təlimin elementləri**

HELP təlimçilər üçün təlim proqramı iştirakçılara HELP metodologiyası, model kurs materialları, elektron öyrənmə platformasında mövcud alətlər və resurslar və interaktiv təlim üsullarından istifadə edərək necə öz kurslarını yarada biləcəklərini göstərmək üçün hazırlanıb. Belə ki, təlim aşağıdakı elementlər üzərində qurulur:

## HİSSƏ 1 Açılış

| TƏLIMÇILƏR ÜÇÜN TƏLIM ELEMENTI | **HELP QARIŞIQ KURSU** |
|---|---|
| HELP TƏQDIMATI | **TƏQDIMATIN MƏQSƏDI PROQRAM, ONUN MISSIYASI HAQQINDA ILKIN MƏLUMAT VERMƏK VƏ MILLI DILDƏ MÖVCUD OLAN KURSLARI GÖSTƏRMƏKDIR.**<br><br>**TƏQDIMAT MÜXTƏLIF YOLLARLA TƏŞKIL OLUNA BILƏR:**<br><br>**ANIMASIYA VIDEO**<br>**VEB SƏHIFƏ VƏ ELEKTRON ÖYRƏNMƏ PLATFORMASI**<br>**PREZI VƏ YA PPT** |
| TƏLIMÇILƏR ÜÇÜN TƏLIMIN HƏDƏF VƏ MƏQSƏDLƏRI | Birinci üz-bə-üz (kick -off) təlim zamanı və hətta iştirakçıları dəvət etmədən öncə kursun məqsədlərini və öyrənənlər üçün nəzərdə tutulan öyrənmə məqsədlərini müzakirə edin. |

| | |
|---|---|
| İştirakçıların təqdim olunması, buzların əridilməsi və qrup yaratma tapşırıqları | Bu element iştirakçıların sual vermək üçün özlərini güvəndə hiss etmələlərinə və onlara hörmət ediləcəyinə əminlik yaratmağa kömək edir, həmçinin birinci və ya bəzən kurs arası görüşlərdə özlərini qrupda tanıtmağa imkan verir. |

**Hissə 2 Mövzuya giriş**

| Təlimçilər üçün Təlim elementi | **HELP qarışıq kursu** |
|---|---|
| Ekspert təqdimatı<br>Panel müzakirə<br>Diskussiya fəaliyyəti<br>Səhnələşdirilmiş Məhkəmə Prosesi hazırlayın | **Elementin məqsədi mövzu üzrə hərtərəfli mühazirə verməmək, əvəzində müxtəlif təqdimat formatları göstərməkdir. Seçilən mövzular üzrə ilkin bilik tələb edilir.** |

**Hissə 3 HELP qarışıq kurslarını tərtib etmək və idarə etmək üçün iştirakçıların müvafiq kompetensiyalarının inkişaf etdirilməsi**

| Təlimçilər üçün Təlim elementi | **HELP qarışıq kursu** |
|---|---|
| Moodle seminarı | **İştirakçılar təlimçiyə göstərilən əsas alətlər və mövcud resurslar ilə kurs səhifəsinin hazırlamaqla HELP elektron platforması ilə işləyərək praktiki bacarıqlar qazanır.** |
| Təlimçiləri kompetensiyaları mövzusunda seminar | **Qrupunun dinamikası, böyüklər üçün təlimin xüsusiyyətləri, təlim üsullarının (kiçik qrup müzakirələri, beyin fırtınası, buzz-qruplar, sıralama, rol oyunu, hadisənin öyrənilməsi, simulyasiya və debrifinq) ümumi olaraq anlaşılması. İştirakçılar öyrənmə pramidasını, təlim üsullarını və bilik, bacarıqlar və dəyərlər aarsındakı fərqlilikləri müzakirə edir. Onlara həmçinin tələbə yönümlü metodologiya təqdim olunur.** |
| HELP kursunun tərtib edilməsi mövzusunda seminar | **HELP model tədris proqramından istifadə etməklə təhsil proqramının yaradılmasının ümumi mənada anılaşılması. Təlimçi təlim ehtiyaclarının qiymətləndirilməsinin əhəmiyyətini, təlim ehtiyaclarının qiymətləndirilməsinin nəticələri əsasında necə öyrənmə məqsədləri və kursun ümumi strukturunun qurula biləcəyini göstərir. İştirakçılar SMART göstəricilərindən istifadə etməklə öyrənmə məqsədləri formalaşdırmağı öyrənir.** |

| | |
|---|---|
| Təlimçilər üçün təlimin iştirakçıları tərəfindən hazırlanan və həyata keçirilən öyrənmə sessiyaları | **Kurs və onun həyata keçirilməsi üçün hazırlığın tam modelləşdirilməsi. Bu hissə layihə yönümlü təhsil prinsipi əsasında tapşırıqdır. Məqsəd yeni biliyi real həyat situasiyalarına tətbiq etməkdir. O, həmçinin öyrənənlər arasında məşğuliyyət yaradır, proqramı onları təcrübələri ilə əlaqələndirir və məlumatları toplamaq, təhlil etmək və təqdim etmək, eləcə də başqaları ilə əməkdaşlıq etmək bacarıqlarını inkişaf etdirir. İlk təlim sessiyasında kursun qruplarından birinin yarımqruplarının hər biri digər kurs qrupunun yarımqruplarına rəhbərlik edəcək. Bir qrup ikinci qrup üçün yaradılan kursu təqdim edir. İkinci sessiyada əks yolla davam etdirilir: yarımqruplar ilk iki qrupa rəhbərlik edir. Burada onlar çarpaz getdiyi üçün onlar onlara rəhbərlik edən eyni qrupa rəhbərik etməyəcək.** |

**Hissə 4 Yekunlaşdırma**

| | |
|---|---|
| Təlimçilər üçün Təlim elementi Debrifinq | **HELP qarışıq kursu**<br>**Debrifinq sessiyasının məqsədi öz öyrənmə prosesin və təlim boyu rastlaşılan çətinliklər üzərində düşünmək və bunu fərdi bacarıqlar və öyrənmə məqsədləri ilə əlaqələndirməkdir** |
| HELP proqramının gələcəyi və mənim fərdi planım<br>Təlim alanlar tərəfindən doldurulan sorğu və təlimçilər tərəfindən qiymətləndirmə formaları | **Kursun qiymətləndirilməsi** |

| | | Gün 1 | Gün 2 | Gün 3 | Gün 4 | Gün 5 |
|---|---|---|---|---|---|---|
| *8.00–9.00* | | Səhər yeməyi | | | | |
| *9.00–9.30* | | **Rəsmi açılış. HELP Proqramına giriş** | | | | |
| *9.30-11.00* | | | **Məşğələ** | **Kursun tərtibatı** | **Öyrənmə sessiyası 2** | İştirakçıların yola düşməsi |
| *11.00–11.30* | | Fasilə | | | | |
| *11.30-13.00* | | **Qrup yaratmaq üzrə fəaliyyətlər:** *rəmzi məhkəmə və ya kazus həlli* | **Məşğələ** | **Kursun tərtibatı** | **Öyrənmə sessiyası 2** | İştirakçıların yola düşməsi |
| *13.00-14.30* | | Nahar | | | | |
| *14.30-16.00* | | **Mövzuya Giriş:** *əsas məruzəçinin təqdimatı və ya panel müzakirələr* | **Məşğələ** | **Öyrənmə sessiyası 1** | **Qiymətləndirmə.** *HELP Proqramının Sizin MTİ-yə tətbiqi / Özünüqiymətləndirmə və şəxsi iş planı* | |
| *16.00-16.30* | | Fasilə | | | | |
| *16.30-18.00* | İştirakçıların gəlişi, salamlama və qeydiyyat | **Mövzuya Giriş: lehinə və əleyhinə** *... debat fəaliyyəti* | **Məşğələ** | **Öyrənmə sessiyası 1** | **HELP gələcəkdə** *İdeyaların təqdimatı* | |
| *18.00–19.00* | | **Debrifinq** | | | | |
| *19.00-20.30* | Şam yeməyi | | | | | |

***Təlimçilər üçün Təlimin qiymətləndirilməsi***

Təlimçilər üçün təlimin qiymətləndirilməsinə aşağıdakı aspektlər daxil ola bilər:

1) Qalma, yemək, yer və nəqliyyat.
2) Kursun məqsədi, gözləntilər və təlim metodları.
3) Məzmun (Kurs sessiyaları).

Adətən iştirakçılar aşağıdakı sessiyaları ən mühüm və maraqlı hesab edir:
Öz təlim sessiyalarının hazırlanması
İştirakçılar tərəfindən üç saatlıq təlim sessiyası
Moodle Platforması
HELP Metodologiyası
İnsan Hüquqları təhsilinin prinsipləri və yanaşmaları

İştirakçılar aşağıdakıları daha az müvafiq hesab edir:

- Jurnalların təqdimatı
- Ekspertlər ilə plenar müzakirə
- həddən çox rəy prosesi.

İştirakçıların etdiyi şərhlər və tövsiyələr:

- *"Mən HELP Proqramında iştirakımı davam etdirmək istərdim"*
- *"İş saatlarını gün üzrə 6 saata azaldın"*
- *"İştirakçılar kursa başlamadan öncə onun dəqiq məqsəd və hədəfləri barədə yaxşı məlumatlandırılmalıdır"*
- *"Zəngin təcrübə üçün təşəkkür edirəm!"*
- *"Təlimçilərin diqqətini iştirakçıların öyrənməsinə yönəltməsi və bu prosesin qayğısına qalması xoşagələn məqamdır"*
- *"Maraqlıdır, təcrübəmi davam etdirmək istərdim"*
- *"Hər şey üçün təşəkkür edirəm!"*
- *"Komandanın yüksək peşəkarlığı məni heyran etdi"*
- *"Təlim olduqca səmərəli idi"*
- *"Moodle platforması üzrə təlim üçün daha çox vaxt ayrılmalıdır"*
- *"Biz daha çox HELP təlimi və həmçinin fikir və bacarıqlarımızı bölüşmək üçün yer istəyirik"*
- *"Peşəkar və interaktiv!"*

*Yoxlama siyahısı - addım-ba-addım*

1. Təlimçilər üçün təlimin tarixini qərarlaşdır
2. Sənədləri (keçiriləcək yer - "şəhərdən kənarda", 30 iştirakçı üçün bir konfrans salonu, 9:00-19:00 arası 10-12 iştirakçı üçün üçün kiçik otaq, çox yaxşı internet bağlantısı, 6 kompüter, proyektor, kofe fasilələri) Təlimçilər üçün təlimdən azı üç-dörd ay əvvəl göndərin.
3. Təlimçiləri dəvət et - Təlimçilər üçün təlimdən azı üç-dörd ay əvvəl
4. Təlimçilər ilə bir günlük hazırlıq görüşü - Təlimçilər üçün təlimdən azı iki ay əvvəl (məqsədlər, gözlənilən nəticə, Təlimçilər üçün təlim üçün seçilmiş HELP kursları, ekpertləri müəyyənləşdirmək, sessiyaların planı/ vəzifələrin bölüşdürülməsi)
5. İştirakçıları dəvət et - Təlimçilər üçün təlimdən 45 gün əvvəl
6. Ekspertləri dəvət et - Təlimçilər üçün təlimdən 45 gün əvvəl
7. Moodle platformasında gündəlik, giriş kursu, konsept sənədi ilə Təlimçilər üçün təlim səhifəsi
8. İştirakçıların Təlimçilər üçün təlimdə iştirakını təsdiq etmək, sistemdə qeydiyyat, Təlimçilər üçün təlimdən əvvəl tapşırıq - Təlimçilər üçün təlimdən azı iki həftə əvvəl
9. Təlimçilər ilə yerində hazırlıq görüşü - Təlimçilər üçün təlimdən bir gün əvvəl
10. İştirakçılar və təlimçilər tərəfindən kursun qiymətləndirilməsi, missiya hesabatı - Təlimçilər üçün təlimdən bir həftə sonra
11. Yekun tapşırıq üçün son tarix - Təlimçilər üçün təlimdən bir ay sonra
12. Təlimçilərin hesabatları üçün son tarix (gün-bə-gün, inkişaf etdirilən fikirlərin xülasəsi, gələcək üçün tövsiyələr) - Təlimçilər üçün təlimdən bir ay sonra
13. Təlimçilər üçün təlimin nəticəsi - Təlimçilər üçün təlimdən 1,5 ay sonra
14. Tam konsolidə edilmiş hesabat - Təlimçilər üçün təlimdən iki ay sonra
15. Sertifikatlar - Təlimçilər üçün təlimdən 2,5 ay sonra
16. Təkmilləşmə və ya "Mahiyyəti üzrə təlim" - il ərzində

### *ii. Milli dildə tərcümə*

Təxmin edilə bilən dil baryerinə görə hüquq mütəxəssisləri üçün təlimin milli dildə aparılması daha səmərəli ola bilər. Öyrənənlər ingilis dilini yüksək səviyyədə bilmirlərsə, onların kursda iştirakı çaşdırıcı ola və öyrənənlərin düzgün olmayan şəkildə tətbiqinə yol aça bilər. Bundan əlavə, öyrənənlərin böyük əksəriyyətinin gündəlik işlək dilləri milli dildir.

Müəyyən hallarda, hüquq mütəxəssisləri ingilis dilində çatdırılan təlimdən daha çox fayda götürəcəyi təqdirdə - xüsusilə çəkişmə mədsədləri üçün - materiallar tərcümə olunmaya bilər. Bundan əlavə, onlardan işlək dili ingilis dili olan müxtəlif ölkələrdən qarışıq hüquq mütəxəssislərini əhatə edən multimilli kurs başlatmaq üçün istifadə edilə bilər.

Milli dildə keçirilən distant/qarışıq kurslara gəldikdə isə, ingilis dilində olan model kurs pilot ölkənin milli dilinə tərcümə edilir. Praktiki baxımdan təlim materialları tərcümə üçün xidmət təminatçılarına göndərilir. İnteraktiv versiya ilə bağlı olaraq isə, iki sütundan təşkil olunan cədvəl Articulate proqramından çıxarılır və tərcüməçilərə göndərilir. Tərcüməni düzgün sütuna yerləşdirməklə, mətn avtomatik olaraq elektron öyrənmə dizayneri və ya HELP Katibliyi tərəfindən Articulate proqramına yüklənilə bilər.

Daha əvvəl qeyd edildiyi kimi, kursa videolar əlavə olunursa, onlar yalnız ingilis dilində mövcuddur. Videolar transkriptləri və alt yazıları milli dilə tərcüməni ehtiva edən tərcümə paketinə daxil edilir. Bundan sonra, onlar ayrı qutular və ya altyazılar kimi əlavə edilir.

Tərcümələr dəqiq olmadıqda və/və ya tələb olunan müddət ərzində çatdırılmadıqda müəyyən problemlər yarana bilər. Yüksək səviyyəli tərcüməni təmin etmək üçün xidmət etibarlı xidmət təminatçısından istənilməlidir. Yaxşı təcrübə öncədən xidmət təminatçısının hüquq sənədlərinin, xüsusilə insan hüquqları ilə bağlı tərcümələrdə keçmiş təcrübəsinin yoxlanılmasıdır. Tərcüməçilər həmçinin Avropa Şurası tərəfindən hazırlanan[31] köməkçi lüğətlər ilə yönləndirilə bilər.

Yüksək keyfiyyətli tərcümə təqdim etmək üçün sərf edilən vaxt orijinal mətnin keyfiyyəti və çətinliyi kimi müxtəlif amillərdən asılı olaraq dəyişə bilər. Keyfiyyət orijinal mətnin dilin daşıyıcısı tərəfindən tərtib edilib-edilmədiyindən və/və ya edilən keyfiyyət yoxlamasından asılı ola bilər. Mətnin çətinliyi ilə əlaqədar olaraq, tərcüməçilərə istinad sənədlər təqdim edildiyi zaman tərcümə rahat və daha keyfiyyətli ola bilər.

Tərcümələr təqdim edildikdən sonra materialları milli hüquq sisteminə uyğunluğu baxımından nəzərdən keçirməsi istənilən milli tyutor tərəfindən keyfiyyət yoxlaması aparılır.

### *iii. Kursun başladılması üçün hazırlıq prosesində məzmunun uyğunlaşdırılması*

#### Milli hüquq sisteminə uyğunlaşdırma

Daha əvvəl də qeyd edildiyi kimi, milli tyutorun vəzifəsi model kursu milli hüquq sisteminə uyğunlaşdırmaq olduğu üçün bu prosesdə mühüm rol oynayır. Tyutorun tapşırığının həcmin mövzudan asılı olaraq dəyişir və onun məqsədi model kursu hədəf auditoriyanın ehtiyaclarına uyğunlaşdırmaqdır.

Giriş kimi, milli tyutordan milli müstəvidə Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) implementasiyası üzrə təqdimat hazırlamaq istənilir. Ona yerli qanunvericilikdə AİHK-nın statusu və beynəlxalq sazişlərin hüquqi qüvvəsi daxil ola bilər (dualist və ya monist baxış tətbiq olunur).

[31] Avropa Şurası insan hüquqları üzrə milli implementasiya bölməsinin ingilis dilindən aşağıdakı dillərə tərcümə etdiyi sözlükləri dəstəkləyir. Azərbaycan, Bolqarıstan, Gürcüstan, Rumıniya, Rusiya, Serbiya, Ukrayna, Türkiyə. Onlar bölmənin veb saytından əldə edilə bilər: http://www.coe.int/t/dgi/hr-natimplement/documentation_en.asp

Bundan əlavə, milli tyutordan kurs ərzində mövcud təlim materiallarını redaktə etməsi və ya əlavə modul hazırlaması və ya qanunvericiliyə və milli məhkəmə təcrübəsinə istinadlar etməsi istənilir. Kursun əsas məzmununa əlavə olaraq, milli tyutordan İQ tərəfindən tərtib olunduğu kimi əlavə materialların siyahısına milli müstəvidə müvafiq olan materialları əlavə etməsi istənilir. Son olaraq, ondan tapşırıqları öyrənənlərin bilik səviyyəsinə və ehtiyaclarına uyğunlaşdırması istənilir.

### Auditoriyaya uyğunlaşdırma

Kursun məzmunu təkcə milli hüquq sisteminə deyil, həmçinin hədəf auditoriyaya uyğunlaşdırılmalıdır. Daha əvvəl də qeyd edildiyi kimi, kursun vəkil, hakim və ya prokurorlar üçün təşkil olunmasından asılı olaraq, ehtiyaclar və materialların uyğunluğu fərqli ola bilər. Təlimçinin vəzifəsi təlimin auditoriyanın ehtiyaclarına uyğunlaşdırılmasından əmin olmaqdır.

### Elektron öyrənmə: Təlim materiallarının HELP Moodle platformasına yüklənilməsi

Təlim materialları yekunlaşdırıldıqdan sonra, onlar milli tyutor tərəfindən HELP Moodle səhifəsinə yüklənilir. Kurs üçün ayrılmış spesifik səhifə HELP Katibliyi tərəfindən yaradılır və ora yalnız öyrənənlərin çıxış var. Kursun moderatorluğu ilə bağlı daha ətraflı məlumat bələdçi kitabın təyin olunmuş sessiyasında təmin olunacaq (Mərhələ 3; d; iv; səhifə 129).

Milli tyutor Təlimçilər üçün Təlim zamanı təlim materialları yükləmək və Moodle səhifəsini idarə etmək üzrə təlim keçir. Bundan əlavə, tyutor HELP Moddle platformasını necə idarə və istifadə etməklə bağlı HELP Katibliyi, eləcə də təlimat və müəyyən mövcud praktiki məşğələlərə müraciət edə bilər. Əlavə texniki dəstəyə ehtiyac yarana bilər, məsələn, kurs Təlimçilər üçün Təlimdən dərhal sonra başlatılmadığı və ya tyutor təlim ərzində görünməyən müəyyən problemlərə üzləşdiyi zaman.

Kursun moderatorluğunu yerinə yetirən şəxs kimi, milli tyurtor yükləmə üçün müddətlər təyin edə bilər. Bu o deməkdir ki, təlim materialları modul əsasında müntəzəm olaraq kurs başlamadan bütün təlim materialları yüklənilə bilər. Bütün materiallar bir dəfəyə yüklənərsə, onlar öyrənənlər üçün kurs müddətində əlçatan olacaq.

## Mərhələ 3: Kursu necə həyata keçirməli

### a) Ən müvafiq təlim metodlarının seçilməsi

Yeni kursun tərtibatı zamanı təlim metodlarını onların öyrənənlərin öyrənmə məqsədlərinə çatmaq üçün zəruri bilik, bacarıq və münasibətləri öyrənəcəyi optimal yollar olub-olmadığı üzərində aydın şəkildə düşünmədən tətbiq etmək çox asandır.

Təlim (indi universitet tədrisi kimi) çox zaman iki əsas təlim/tədris metodu ilə xarakterizə olunur: mühazirələr və problem və ya müzakirə əsaslı seminarlar/praktiki məşğələlər. (Ali təhsildə laboratoriya işləri, sahə işləri və layihələr və dissertasiyalar da göstərilə bilər; peşə hazırlığı kontekstində bunlar, səfərlər və hesabat-yazmaqla əvəz edilə bilər.)

Bələdçi kitabının bu bölməsinin əvvəlində müzakirə edildiyi kimi, əksər öyrənənlər hüquq təhsili ilə xatirələrinə əsaslanaraq təlimdən gözləntiləri aşağı ola bilər. Buna görə də, ənənəvi təhsildən uzaqlaşmaq üçün aşkar zərurət var, çünki:

- Fəal öyrənmə öyrənəni real həyata yaxınlaşdırır və sadəcə biliyin ötürülməsinə deyil, bacarıqların qazanılmasına və münasibətlərin dəyişilməsinə kömək edir.
- İndividual öyrənməyə və ya tələbə yönümlü yanaşmaya getdikcə maraq çoxalır.

Buna görə də, müvafiq təlim metodların müəyyən etmək üçün təlim hazırlayarkən ehtiyacları qiymətləndirmək, auditoriyanı tanımaq və çətinlikləri müəyyən etmək əhəmiyyətlidir.

Pedaqoqlar indi təlimdə xatırladılmalı iki əsas məqamı anlayır:

- İnsanların daha səmərəli şəkildə necə öyrənə biləcəklərinə dair ümumi prinsiplər.
- İnsanlar fərqlidir - fərdlər müxtəlif yollarla öyrənir.

Birinci məqam asan şəkildə qrafik formada təsvir edilir:

## DALE-nin TƏCRÜBƏ KONUSU




İkinci məqam- insanların müxtəlif yollarla *öyrənməsi* kursu hazırlayan təlimçilər üçün daha çox çətinlik yaradır. Yetkin şəxslər fərdi şəkildə müxtəlif öyrənmə üslublarına malikdir. Araşdırma göstərir ki, öyrənmənin üç forması var: audial, vizual və kinestetik.  Vizual öyrənənlər üçün şəkillər, qrafiklər və digər vizuallıqları təmin etmək üçün vacibdir. Audial öyrənənlər müzakirə, həm danışıq, həm də eşitmə vasitəsilə öyrənir.  Kinestetik öyrənələrin fəaliyyətə və rol oyunları və debatlardan faydalanmağa ehtiyacı var.

Yaxşı hal odur ki, əksər insanların bu formalardan birinə üstünlük verməsinə baxmayaraq, çoxu kombinasiyanı dəstəkləyir. Daha yaxşı hal isə uşağın üstünlük verdiyi öyrənmə formasından asılı olmayaraq, böyüklərə təlim keçmək uşaqları öyrətməkdən daha asandır. Böyüklərin öyrədilməsi ilə bağlı araşdırma (andraqoqika) göstərmişdir ki, böyüklər uşaqlardan fərqli şəkildə öyrənir. Andraqoqikanın əsasın qoyan Malcolm Knowles böyüklərin öyrənməsi ilə bağlı altı prinsip müəyyən etmişdir:

- Böyüklər daxili motivasiya və özünü yönləndirməyə malikdir
- Böyüklər həyat təcrübələrini və biliyi öyrənmə təcrübələri ilə əlaqələndirir
- Böyüklər məqsədyönlüdür

- Böyüklər münasibliyə əhəmiyyət verir
- Böyüklər praktikdir
- Böyüklər onlara hörmət edilməsini sevir.[32]

Yuxarıda deyilənləri nəzərə alaraq, böyüklərə təlim keçərkən müxtəlif tədris metodologiyalarına söykənən tədris üslubu öyrənənlərin təqdim edilən materialı qavramasını maksimallaşdıracaq. Bundan əlavə, öyrənənlərin öz təcrübələrinin kapitallaşdırılması və təlimin həm uyğun, həm də praktik olmasını təmin etmək təlimin uğurunu təmin etməyə kömək edəcək.

### b) Seçilən tədris metodunun Öyrənmə Məqsədləri ilə uyğunlaşdırılması

Təlimin hazırlanmasında (təqribən) son mərhələ müəyyən edilən öyrənmə məqsədlərini çatdırmaq üçün ən müvafiq metodların seçilməsdir - yəni, hansı təlim metodları öyrənənlərin müəyyən edilən öyrənmə məqsədlərinə çatmağa ən çox kömək edir (artıq seçilmiş qiymətləndirmə alətləri ilə sınaqdan keçirildiyi kimi)?

Öyrənmə məqsədlərinin, qiymətləndirmə alətlərinin və təlim metodlarının uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Seçim etmək üçün çoxlu sayda üsullar var. Aşağıdakı tədris və öyrənmə metodları cədvəli (Bourner, 1997 və Biggs, 2003 işlərindən götürülüb[33]) hətta distant təhsil və İT metodlarını diqqətə almadan, təlimin hazırlanmasında rast gəlinənləri göstərir:

| | **Öyrənmə məqsədləri** | | | | |
|---|---|---|---|---|---|
| | *Bilik* | *Biliyin hazırlanamsı, təhlili və tətbiqi* | *İdea və sübutun yaradılması* | *Şəxsi inkişaf* | *Öz öyrənmə prosesinin planlaşdırma və idarə etmə* |
| **Təlimçi yönümlü fəaliyyətlər** | Mühazirələr<br><br>Qonaq mühazirələri<br><br>Konseptual diagram<br><br>Səsli düşünmə ilə modelləşdir | Nümunə hadisələrin araşdırılması<br><br>Praktikalar<br><br>Laboratoriyalar<br><br>Nümayişlər<br><br>Eksperimentlər | Seminarlar<br><br>Beyin fırtınası<br><br>Laboratoriyalar<br><br>Praktikalar<br><br>Sahə işi<br><br>Müzakirələr | Rəy<br><br>Öyrənmə kontraktları<br><br>Rol oyunu<br><br>Mentorluq<br><br>Məşqçilik<br><br>Təcrübi | |

[32] Knowles M. (1984) *Andraqoqika Fəaliyyətdə* (San Fransisko: Jossey-Bass)
[33] Bourner T (1997) *"Təlim Nəticələri üçün Tədris Metodları" Təhsil + Təlim 39.9, 344-348; Biggs J.B (2003) Universitetdə keyfiyyətli təlim üçün tədris* (Bukinqem: Açıq Universitet Mətbuatı /Ali Təhsildə Tədqiqat Cəmiyyəti)

| | | | | | |
|---|---|---|---|---|---|
| | mə<br><br>Elektron səsvermə sistemləri (EVS) | Simulyasiyalar<br><br>Müzakirələr<br><br>Debat<br><br>Seminarlar və praktiki məşğələlər<br><br>Nəzarət<br><br>Kompüter vasitəçiliyi ilə müzakirə | Eksperimentlər<br><br>Nəzarət | öyrənmə | |
| **Tələbə yönümlü fəaliyyətlər** | İnformasiya axtarma tapşırıqları<br><br>İstiqamətlən dirilən xüsusi təhsil | Layihələr<br><br>Problem əsasında öyrənmə<br><br>Referatlar<br><br>İş əsasında öyrənmə<br><br>Qrup işi<br><br>Tələbə təqdimatları<br><br>Tələbənin rəhbərliyi əsasında seminarlar<br><br>Ədəbiyyatların araşdırılması<br><br>Həmkarın qiymətləndirilməsi<br><br>Tələbə mentorluğu<br><br>Həmkarın dəstəyi ilə öyrənmə<br><br>Özünü qiymətləndirmə | Sorğu əsasında öyrənmə<br><br>Tədqiqat layihələri<br><br>Dissertasiyalar<br><br>Qrup işi<br><br>Əlaqələr diaqramı<br><br>Problem həll etmə<br><br>Fənlərarası layihələr<br><br>Xidmət əsasında öyrənmə<br><br>Tələbə tərəfindən təşkil olunan tədbirlər | Reflektiv jurnallar<br><br>Özünü qiymətləndirmə | PDP<br><br>Təlim gündəlikləri<br><br>Layihələr<br><br>Müstəqil öyrənmə<br><br>Dissertasiyal ar<br><br>Stajkeçmələri<br><br>Portfelin inkişafı |

Bu cədvəl öyrənmə məqsədlərinin müəyyən edildiyi qayda ilə təlim metodunu uyğunlaşdırmaq üçün faydalıdır. Bununla belə, bu bələdçi kitabda təklif edilən model öyrənmə məqsədlərinin təkcə qiymətləndirmə ilə deyil, həmçinin təlim və öyrənmə fəaliyyətləri ilə diqqətli şəkildə uyğunlaşdırmağa çağırır. Yuxarıda təklif edildiyi kimi, qiymətləndirmə vasitələrinin daha erkən dizaynı təlim dizaynına daxil edilə bilən müxtəlif "tapşırıqlar" təklif edəcək. Məsələn:

| **Öyrənmənin məqsədləri** | **Qiymətləndirmə tapşırıqları** | **Tədris/öyrənmə tapşırıqları** |
|---|---|---|
| Bu kursun sonunda siz öyrənəcəksiniz: | | |
| yetkin şəxslərin təhsil təcrübəsində problemlərin praktik həll yollarını qiymətləndirməyi | Öyrənənin həll yolları təklif etməli olduğu praktik problemlə bağlı hadisənin öyrənilməsi<br><br>Öyrənənin məsələlər və təklif edilən həll yolları baxımından öz təcrübəsini tənqidi cəhətdən təhlil etdiyi iş | Praktiki kazusların müzakirəsi<br><br>Nəzarət altında staj keçmə |
| | | |
| doğru tarixi sübut əsasında Avropanın müxtəlif yerləri və müxtəlif tarixi dövrlər arasında doğru müqayisələr aparmaq | İki öyrənənin yer aldığı və öz arqumentlərini seminar həmkarlarına sübut etdiyi, səsə qoyduğu və öz arqumetlərini səsvermənin nəticəsi ilə və diskusiyadan öyrəndikləri əlavə məqamları bildirməklə yazılı şəkildə təqdim etdikləri **diskusiya işi**. | Mövzunu/müddəti əhatə edən mühazirə silsilələri<br><br>İlkin mənbələrdən istifadə etməklə müzakirə seminarı və icmalı təsvir edən ümumi ikinci dərəcəli mətn<br><br>Tövsiyə edilən oxu |

### c) Kursun başladılması

Hakimlər və prokurorlar üçün MTİ ilə və ya vəkillər üçün Vəkillər Assosiasiyası ilə əlaqələrin erkən mərhələdə qurulmalı olmasına baxmayaraq, HELP Katibliyi və Partnyor təşkilat ilə əməkdaşlıq kursun başladılmasından əvvəl hazırlıq mərhələsində qurulmalıdır. Aşağıdakı addımlar atılmalıdır

- Format, müddət və vaxt çərçivəsi haqqında qərar;
- Davamlı təlim çərçivəsində (tətbiq ediləndirsə) kreditlərin tanınması barədə qərar;
- Öyrənənlərin seçilməsi;
- Başlanğıc görüşünün təşkil edilməsi: tədbirin başladılması deməkdir, bu da təlimçinin öyrənənlər/kurs iştirakçıları ilə görüşməsi və kurs ilə bağlı ətraflı məlumatlar təmin etməsi üçün ilk imkandır.

### *i. Format, müddət və vaxt çərçivəsi*

Ehtiyacların qiymətləndirilməsi əsasında MTİ/VA milli tyutor ilə birlikdə kursun formatı, müddəti və vaxt çərçivəsi ilə bağlı razılığa gəlirlər. HELP Katibliyi kursun başladılması, onun təşkili və keçirilməsinə nəzarət haqqında xəbərdar olmalıdır.

Formatla bağlı razılığa gələn zaman Partnyor təşkilat kursun distant öyrənmə - yəni, öyrənənlərin yalnız başlanğıc tədbirdə görüşməsi və təlim materialları HELP Moodle platformasında əlçatan olan kursda iştirak etməsi - və ya qarışıq öyrənmə - yəni, mühazirələrdə iştirak edən və HELP Moodle səhifəsində əlçatan olan təlim materiallarını oxuyan öyrənənlər ilə distant öyrənmə və üzbəüz öyrənmənin kombinasiyası kimi başladılacağına qərar verməlidir.

Müddət və vaxt çərçivəsinə gəldikdə, modulların öyrənənlər üçün əlçatan edilib-edilməməsinə kursun başladılmasından əvvəl qərar verilməlidir. Başqa sözlə desək, təlim materiallarının əvvəlcədən yüklənib-yüklənməməsindən asılı olmayaraq, giriş nəzərdə tutulan nəşr tarixinədək məhdudlaşdırılır. Əvvəlki modullar kursun sonuna qədər və kursdan sonra onlayn əlçatan qalır, bütöv təlim paketi də həmçinin əlçatandır. Nəşr dövrü öyrənənlərin diqqət səviyyəsinə təsir edir, bu da kurs üç aydan artıq davam etdikdə, aşağı düşür.

Yaxşı təcrübə öyrənənləri onlardan gözlənilən vaxt haqqında əvvəlcədən - seçmə prosesi zamanı və ya ən geci başlanğıc görüşündə - məlumatlandırmaqdır. Öyrənənlərə sertifikat almaq üçün müəyyən edilən müddət ərzində yerinə yetirilməli öhdəliklər barədə əvvəlcədən məlumat verilməlidir. Məqsəd yenə də, gözlənilməz iş yükü səbəbi ilə iştirak səviyyəsini azaltmağın qarşısını almaqdır.

### *ii. Kreditlərin tanınması*

Öyrənənlərin öz iştiraklarını təsdiqləməsi ehtimalının olduğu ölkələrdə MTİ/VA uğurlu iştirak üçün bir sıra kreditlərin tanınması ilə bağlı razılığa gələ bilər. Kreditlərin sayını adətən təlim üçün ayrılmış saatlar əsasında partnyor təşkilat hesablayır.

Təcrübə göstərir ki, kreditlərin tanınması motivasiyanı və kursun tamamlanmasını artırır.

### *iii. İştiakçıların seçilməsi*

HELP distant/qarışıq kursu 25 seçilmiş hakim, vəkil və ya prokurordan ibarət qrup üçün başladılacaq. Kurs iştirakçıların tapşırıqlarını qiymətləndirən milli tyutor tərəfindən idarə edildiyi üçün 25 iştirakçıların maksimum idarə edilə bilən sayıdır. MTİ/VA daha çox iştirakçı cəlb etmək istədikləri halda ikinci tyutor təyin edilməlidir.

Milli məhkəmə təlimi sistemindən asılı olaraq bəzi ölkələrdə pilot qrup həm hakimlərdən, həm də dövlət prokurorlarından təşkil ediləcək. Digər ölkələrdə təlim ayrı-ayrı orqanlar tərəfindən təşkil edilir və hər iki müvafiq orqan təlimə qoşulmaq üçün razılığa gəlməlidir. Əksinə olaraq, vəkillər üçün təlim üçün yeganə məsul orqan adətən müvafiq peşəkar orqan, məsələn, VA-dır.

HELP Proqramı həm çoxmillətli, həm də peşələrarası kursları əhatə edir. Çoxmillətli HELP kursu müxtəlif ölkələrdən olan eyni kateqoriyalı hüquq peşəkarları üçün təşkil edilir. İşçi dil ingilis dili və ya bənzər ölkələri əhatə edən regional kurslarda, həmin ölkələrin ümumi dilidir. Çoxmillətli kursun başladılmasının

əlavə dəyəri ən yaxşı təcrübəni digər hüquqi sahədən olan peşəkarlar ilə mübadilə etmək imkanıdır. Nəticədə, xaraktercə kurs daha dinamik və beynəlxalq olur.

Peşələrarası HELP kursu əhəmiyyətli ortaq məsələləri hədəfə alan hüquq peşəkalarını və digər peşəkarları cəlb edir. Bu cür kursların başladılmamasına baxmayaraq, HELP peşələrarası aspektləri ehtiva edən mövzularla bağlı çox proqramlar hazırlamışdır. Bu cür imkan insan hüquqları təlimində *hüquq və digər sahə üzrə peşəkarlar arasında qarşılıqlı əlaqəyə* imkan verən 2015-ci il HELP Şəbəkəsi Konfransı[34] zamanı araşdırılmışdır.

Kursun xarakterindən asılı olmayaraq, iştirakçılar HELP Katibliyi ilə birlikdə MTİ/VA təfərindən seçilir. Seçim və prosedurlar üçün meyar əvvəlcədən hazırlanmalı və potensial iştirakçılara müraciət etməlidir. Adətən elan son müddət ərzində müraciət edə bilən hüquq peşəkarları arasında yayılır.

Seçim prosesi tamamlandıqdan sonra iştirakçılara başlanğıc görüş haqqında məlumat verilir və onlardan HELP Moodle platformasında hesab yaratmaq istənilir. İştirakçıların Proqram ilə tanış olaraq HELP vebsaytını və Moodle platformasını araşdıra bilməsi faktından başqa, hesabların mövcudluğu Moodle səhifəsində kursa sonrakı qeydiyyatı sadələşdirir.

### *iv. Başlanğıc görüşün təşkili*

Başlanğıc görüşü - HELP katibliyi, milli tyutor, MTİ/VA nümayəndəsi və kursdakı iştirakçılar ilə birinci görüşdür. Onun məqsədi iştirakçıları HELP Proqramı ilə tanış etmək və onları bütün müvafiq məlumatlar ilə təmin etməkdir. Bu, xüsusilə, distant kurs başladılan zaman böyük əhəmiyyət daşıyır, çünki bu, iştirakçılar üçün toplaşmaq və tyutor ilə şəxsən tanış olmaq üçün yeganə imkandır.

Başlanğıc görüşü bir günlük görüşdür və o, mümkün olarsa, pilot ölkələrdə MTİ/VA-nın binasında təşkil edilir. Tədbir kurs iştirakçılarının öz şəhərlərindən görüş yerinə səfər etməsi ehtiyacının mümkünlüyü faktına görə əvvəlcədən təşkil edilməlidir. Başlanğıc tədbiri pilot ölkənin milli dilində təşkil edildiyi üçün tərcümə xidməti adətən HELP Katibliyi və beynəxalq sözçünün müdaxiləsi üçün lazım ola bilər.

#### Başlanğıc görüşünün məzmunu

Əvvəldə qeyd edildiyi kimi başlanğıc görüşünün məqsədi iştirakçıları bütün praktik məlumatlar ilə təmin etmək və onlara şəxsən görüşmək imkanını verməkdir. Lakin başlanğıc görüşü həmçinin, bir və ya daha çox təqdimat vasitəsilə iştirakçıları kursun mövzusu ilə tanış etmək məqsədi də daşıyır.

Nəzərə alsaq ki, ilk görüşün gündəliyi mövzuya, pilot ölkənin ehtiyacına, sözçülərin əlçatanlığına və s. uyğun olaraq redaktə edilməlidir, o, aşağıdakı aspektləri əhatə etməlidir:

- qarşılanma;
- HELP Proqramına giriş;
- AİHK-nın milli səviyyədə həyata keçirilməsi;
- mövzu və AİHM-nin müvafiq presedent hüququ ilə bağlı təqdimat;
- kursun xülasəsi;

[34] http://www.coe.int/en/web/help/-/15519813

- İştirakçıların gözləntiləri və ehtiyacları.

Qarşılama adətən HELP Katibliyi ilə əməkdaşlığın sübutu kimi MTİ/VA-nın bir və ya daha çox nümayəndəsi tərəfindən təmin edilir. Sonra isə HELP Proqramı Katibliyin görüşə qoşulan üzvü tərəfindən təqdim edilir. Vaxt məhdudiyyətləri səbəbi ilə təqdimat HELP Şəbəkəsi, onun məqsədləri, fəaliyyətləri və metodologiyasının əsas aspektlərinə yönəlir. HELP veb-səhifəsi başlanğıc görüşü zamanı iştirakçılara iki məqsədlə göstərilir: birincisi, bu, onlara HELP haqqında daha çox məlumat əldə etməyə imkan verir, ikincisi o, iştirakçılara HELP Moodle platformasına keçməyi göstərmək üçün faydalıdır.

AİHK-in milli səviyyədə həyata keçirilməsi və AİHM-in müvafiq presedent hüququ haqqında təqdimatlar adətən, HELP Katibliyi və MTİ/VA tərəfindən birgə təyin edilmiş beynəlxalq və/və ya milli sözçülər tərəfindən təmin edilir. Sözçülərin seçilməsi haqqında ətraflı məlumat növbəti paraqrafda göstərilir.

Milli tyutor iştirakçıları kursun müddəti və vaxt çərçivəsi kimi praktik məlumatlar ilə təmin edir. Hissə 2, mərhələ 3, səh. 116-da qeyd edildiyi kimi başlanğıc görüşündən əvvəl razılaşdırılmış aspektlər təşkil edilir.

*Dəyirmi masa* vasitəsilə iştirakçıların gözləntiləri və xüsusi ehtiyacları haqqında məlumat toplamaq yaxşı təcrübədir. Daha sonra onlar kursun bitməsindən əvvəl yoxlanıla və iştirakçıların yekun rəyləri ilə müqayisə edilə bilər.

Əlavə 4-ə baxın: **Gündəlik**

### Sözçülərin seçilməsi

Sahə üzrə beynəlxalq və milli məşvərətçi başlanğıc görüşdə iştirak etməyə və hər bir təqdimatı keçirməyə dəvət edilir. Sözçünün seçilməsi uğurlu başlanğıc görüşünün əsas elementidir, çünki yüksək səviyyəli təqdimat iştirakçıları mövzuya cəlb edə və eyni zamanda onları kursun sonuna qədər iştirak etməyə həvəsləndirə bilər.

İşçi Qrupun üzvlərindən birini beynəlxalq sözçü kimi dəvət etmək yaxşı təcrübədir, çünki o, mövzu və kursun məzmunu ilə tanışdır. Alternativ olaraq, təqdimat AİHM-in Reyestr və ya Tədqiqatlar Departamentinin vəkili tərəfindən çatdırıla bilər.

Milli sözçü kursda iştirak edən hüquq peşəkarlarının kateqoriyasına yönələn milli hüquq normalarına diqqət yetirən təqdimat keçirir. Milli qanunvericilik və son milli presedent hüququna istinadlar iştirakçıların marağını oyatmaq üçün təmin edilir.

### Qarışıq kurs halında üzbəüz görüş

Kurrikulumdan qarışıq kursun başladılması üçün istifadə edildikdə, digər üzbəüz görüşlər başlanğıc görüşündən sonra keçirilir. Həmin görüşlər MTİ/VA tərəfindən təşkil edilir və ehtiyac olarsa, onlara milli sözçü ilə birlikdə milli tyutor qoşulur. Görüşlərin HELP Katibliyindən ayrı təşkil edilməsi tyutorun onu tarixlərə və hər bir görüşün məzmununa görə gündəmdə saxlamalı olması deməkdir, Katiblik isə onun təşkilində iştirak etmir.

## d) Təlimin keçirilməsi: necə və kim tərəfindən

### i. *İnsan Hüquqları təliminin keçirilməsi üçün HELP resurslarından istifadə edilən müxtəlif metodlar*

Distant öyrənmə

HELP metodologiyasına əməl edən distant öyrənmə kursları bütün materialların və fəaliyyətlərin milli HELP təlimçisi ilə HELP platformasında icra edildiyi onlayn kurslardır. HELP platformadan və HELP metodologiyasından istifadə etmək üçün milli təlimçilər hazırlayır. Onların vəzifəsi kursu milli hüquq normalarına və iştirakçıların ehtiyaclarına uyğunlaşdırmaq, iştirakçılar ilə platformada nəşr olunmuş kursun məzmunu və müxtəlif fəaliyyətlər kimi hər bir sessiyanı izləməkdir. Bu fəaliyyətlərə veb konfranslar, seminarlar, birgə sənədlər, çat sessiyaları, forumlardan istifadə və özünüqiymətləndirmə tapşırıqları, həmçinin təlimçinin həyata keçirdiyi tədqiqat işləri və qiymətləndirmə daxil ola bilər. Bu format iştirakçılar və təlimçilar arasında, eyni zamanda yuxarıdakı vasitələrlə öz fikirlərini və suallarını bölüşə bilən iştirakçılar arasında daha sıx qarşılıqlı fəaliyyətə imkan verir.

Distant təhsilin üstünlüyü materialların əlçatanlığı və iştirakçının öyrənmə tempinə və iş cədvəllərinə hörmətdir.

Müstəqil öyrənmə

Müstəqil öyrənmə resurslarına artıq sınaqdan keçirilmiş və müstəqil-öyrənmə bölməsinə daxil edilən distant təhsil kursları daxildir. Bu halda, kurs digər iştirakçılar arasında qarşılıqlı əlaqə yaratmaq üstünlüyünə malik olmasa da, platformada hesabı olan bütün istifadəçilər üçün əlçatan olur. İstənilən istifadəçi **yalnız özünüqiymətləndirmə** alətlərindən istifadə etməklə, öz sürətinə uyğun kurs keçə bilər.

Platformanın müstəqil öyrənmə bölməsinə həmçinin müxtəlif dillərdə olmaqla, AİHK-nin bəndləri üzrə bir sıra təlim materialları da daxildir. Məlumat kitabçaları, bir çox mövzular, eyni zamanda milli təlimçilərin göndərdiyi AİHK-nin müxtəlif məsələləri ilə bağlı təqdimatlar da mövcuddur.

Qarışıq-öyrənmə

Qarışıq-öyrənmədə həm onlayn distant təhsil, həm də daha ənənəvi olan üz-üzə təlim metodu istifadə olunur. Bu həm elektron-təhsil platformasının vaxta qənaət və giriş sadəliyi imkanlarından, həm də üz-üzə təlim və canlı qarşılıqlı ünsiyyətin üstünlüklərindən faydalanmağa şərait yaradır. Bu halda, distant-öyrənmədən üz-üzə təlim bölməsinə hazırlaşmaq məqsədilə, məsələn, məlumatın ilkin çatdırılma yolu, tapşırıq vermək və paylaşmaq üsulu kimi yararlanmaq olar.

### ii. *HELP katibliyinin rolu*

HELP katibliyi İnasn Hüquqları təlimlərini keçirən HELP Şəbəkəsi üzvlərinə, AİHK üzrə onlayn və ya qarışıq təlimlər təşkil etmək istədikləri halda dəstək göstərmək üçün nəzərdə tutulub. Bütün HELP materialları HELP saytında hesab yaratmış bütün hüquq mütəxəssisləri üçün pulsuz və əlçatan olmaqla onlayn formada mövcuddur. Milli təlim institutu və ya Vəkillər assosiasiyası mövcud mövzulardan istənilən biri ilə bağlı distant və ya qarışıq öyrənmə kursu təşkil etmək istəyərsə, HELP Katibliyi kursun aid olduğu təşkilatı yardım, təlim materialları, həmçinin öyrənmə mühiti ilə təmin edir. Mövcud kurslar və onların

hansı dillərə tərcümə olunduğu barədə daha çox məlumat əldə etmək üçün mövcud kursların **HELP kataloquna**[35] baxın.

HELP Katibliyi həmçinin HELP metodologiyasının Avropa Şurası tərəfindən həyata keçirilən hər bir əməkdaşlıq layihəsinə istinad etməsini, AİHK üzrə təlimin Avropa hüquq mütəxəssislərinə ahəngli şəkildə çatdırılmasını təmin edir.

HELP Katibliyi insan hüquqları təlimlərinə beynəlxalq təşkilatların (BMT qurumları, OHCHR, ATƏT, ODİHR və s.) və beynəlxalq səviyyədə müvafiq partnyorların (EJTN, CCBE və s.) da cəlb olunması üçün onlarla sinerji və əməkdaşlığın qurulmasını təmin edir.

### iii. Təlim müəssisəsinin rolu

Hüquq mütəxəssislərinin öz ölkələrində təlimi üzrə məsul təlim müəssisəsi onları İnsan Hüquqları və AİHK üzrə təlimləndirməlidir. HELP resurslarından istifadənin mümkünlüyü keyfiyyətli təlim materiallarından yararlanmaq fürsəti təqdim edir. Onlayn format mümkün qədər çox hüquq mütəxəssisinə təlim keçmək üçün sərfəli üsul irəli sürür.

MTİ-lər və VA-lar yerli təlimçilərin milli hüquq normalarına uyğunlaşdırılmasına yardım göstərməkdə məsuldur. Kurs mərhələli şəkildə ilk iştirakçı qrupu ilə sınaqdan keçirildikdən sonra onun həyata keçirilməsi, yenilənməsi və ölkədə digər hüquq mütəxəssislərinə əlavə yararlarının təmin edilməsi MTİ/VA üzərinə düşür.

### iv. Təlimçinin rolu

#### HELP model kursunun uyğunlaşdırılması

HELP kursunda təlimçinin rolu HELP model kursunun yerli hüquq normalarına uyğunlaşdırılmasından ibarətdir. Kurs sizin ölkənizdə dövlət dilində fəaliyyətə başladıqdan sonra, kurs materialı həmin dildə göndəriləcək. Bununla belə, material yerli hüquq normalarına və hədəf auditoriyaya uyğunlaşdırılmalıdır.

#### *Milli hüquq sisteminə uyğunlaşdırma*

HELP tələb edir ki, HELP kursunu başladan milli təlimçilər AİHK-in və kursa uyğun olan digər alətlərin milli səviyyədə necə şərh edildiyini göstərən ilk giriş sənədini hazırlasın. AİHK-nin yerli səviyyədə icrası iştirakçıların anlaması üçün əhəmiyyətli müqəddimədir. Əgər bu cür sənədlər artıq əvvəlcədən ölkənizdə keçirilən kurslar üçün tərtib olunubsa, bu sənədi təkrar istifadə edə biləcəksiniz.

Kursun ölkənizin yerli hüquq normalarına uyğunlaşdırılması model kursun götürülməsini və nəyin müvafiq və ən vacib olduğunun müəyyən edilməsini nəzərdə tutur. Müxtəlif ölkələr müxtəlif məsələlər ilə üzləşir. Model kursun məqsədi mümkün qədər çox mövzu əhatə etmək, AİHK nöqteyi nəzərindən rast gəlinən və əsasən AİHM-nin presedent hüququna əsaslanan bütün mümkün problemləri düşünməkdir. Əgər hər hansı məsələyə daha çox vaxt ayrılmalı olduğunu düşünürsünüzsə, onu ön plana çəkmək sizin rolunuzdur.

---

[35] https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=090000168065457b

Əməli olaraq, bunun üçün vacib məqamları kurs iştirakçılarının diqqətinə çatdırmalı və müvafiq əlavə materiallar göstərməlisiniz. Moodle platformasında əlavə sənədlər, presedent hüququ nümunələri, linklər, video və digər fəaliyyət və resurslar yükləmək imkanınız var.

### *Hədəf auditoriyaya uyğunlaşdırma*

Kurs yerli hüquq normalarına uyğunlaşdırıldıqdan sonra ikinci mərhələ hədəf auditoriyaya uyğunlaşdırmadır. Bunun üçün auditoriyanızı tanımalı və onların ehtiyaclarını bilməlisiniz.

Müxtəlif kateqoriyalara aid hüquq mütəxəssislərinin müxtəlif ehtiyacları mövcuddur, bu yalnız auditoriyaya ötürülən məlumatın növündə deyil, eyni zamanda məlumatın ötürülmə üsulu və bu zaman istifadə olunan alətlərdə nəzərə alınmalıdır.

Birinci məqamla bağlı qeyd olunmalıdır ki, kurs iştirakçılarınızın yoldaşı olaraq, müxtəlif növ məlumatı ötürərkən onlar üçün ən müvafiq məlumatı və əslində nəyi bilmək istədiklərini müəyyən edə biləcəksiniz. Bu, sizə diqqətinizi vacib məsələlər üzərində cəmləməyə imkan verəcək. Kursun uyğun və səmərəli olmasını təmin etmək vacibdir. İştirakçılar bu təlimə olan ehtiyacı və ötürülən məlumatı necə istifadə edəcəklərini dərk etməlidirlər.

İkinci məqama gəldikdə isə, kurs iştirakçılarına məlumatın müxtəlif yolla ötürülməsi də vacib məsələdir, belə ki, bu zaman heç də bütün iştirakçılar eyni öyrənmə metodlarına cavab vermir. Baş hüquq mütəxəssislərinə, yoxsa tələbələrə təlim keçdiyinizi nəzərə almalısınız. Bu iki müxtəlif nümunə üçün yanaşma xeyli fərqli olacaq. İstənilən halda, resurs və fəaliyyətlərin müxtəlifliyi hər zaman müsbətdir, səmərəli yanaşma isə uğurun açarıdır. Daha interaktiv təlim daha effektivdir. Buna görə də qarışıq-öyrənmə daha səmərəlidir. Məsələn, elektron öyrənmə platforması məlumatı ötürmək və üz-üzə təlim prosesinə hazırlıq məqsədilə istifadə oluna bilər. Səmərəli təlim təmin etmək üçün hədəf auditoriyanı tanımaq vacibdir.

Real və səmərəli təlim yalnız məlumat ötürmək deyil, eyni zamanda, iştirakçıların da bu biliyi istifadə etmək üçün lazımi səriştələrə yiyələndiyinə əmin olmaqdan və bu bacarıqları səmərəli istifadə etmələri üçün yanaşma formalaşdırmaqdan ibarətdir.

### Modulların nəşri[36]

Əvvəl qeyd olunduğu kimi, təlim materialları kurs yaradıldıqdan əvvəl və ya mütəmadi olaraq modullar üzrə yüklənə bilər. Bütün materiallar dərhal yükləndikdə, iştirakçılar kurs müddətində onları əldə edə biləcəklər.

Yerli tyutorun öhdəliyi bütün iştirakçıların hər bir modulu vaxtında əldə etdiyinə əmin olmaq (buraya kursun məzmunu, yerli hüquq normalarına uyğunlaşma, müvafiq presedent hüququ, əlavə resurslar, tapşırıqlar daxildir) və texniki problemlər yaranarsa, yardım göstərməkdən ibarətdir.

[36] Moodle ilə əlaqəli bütün suallar üçün pilləli təlimata və HELP platformasında mövcud olan dərsliklərə istinad edin. http://help.ppa.coe.int/

### *Kursun tərtibatı*

"Kursun tərtibatı" dedikdə onun elektron öyrənmə platforması olan Moodle-da necə təsvir və təqdim olunduğu nəzərdə tutulur.

Hər bir kurs şəkil və kurs başlığı ilə təmsil olunur. Aşağıda xəbər və müzakirə forumu əks olunub. Forumlardan istifadə üçün aşağıdakı bölməyə nəzər salın. Bu forumlar kurs üçün ümumi xarakter daşıyır, daha spesifik məsələləri müzakirə etmək üçün sonradan hər modul üzrə müzakirə forumu yerləşdirilə bilər.

Hər bir modul eyni üsulla, yəni modulun adı (Modul 1, Modul 2…), şəkli və bu şəklin aşağısında başlığı daxil olmaqla təsvir olunur. Kursun məzmunu isə aşağıdakı kimi ayrı-ayrı "yarlıqlar"da əks olunur:

- **Təqdimatlar**
- **Əlavə resurslar**
- **Faydalı linklər**
- **Videolar və multimedia**
- **Qiymətləndirmə**
- **Əlavə tapşırıqlar**




- Gözəl görünüş yarat
- Resursları istifadəçiyə rahat şəkildə təşkil et

### *SCORM paketini yükləmək*

SCORM paket (elektron öyrənmədən ibarət paket) interaktiv elektron öyrənmə kursunun istifadə etdiyi formatdır. Adətən, HELP katibliyi bunu kursun səhifəsinə və vebsaytın müstəqil-öyrənmə bölməsinə yerləşdirir. Bunun üçün "fəaliyyət və ya resurs əlavə et" bölməsində "SCORM" paketini seçmək kifayət edir.

### *Materialların idxal edilməsi*

Materiallaın bir kursdan digərinə idxal edilməsi nəinki mümkün, eyni zamanda asandır. Yenidən başladılma zərurəti yaranarsa, asanlıqla kurs materiallarının surətini çıxarmaq mümkündür.

### *Əlavə resurslar*

Xüsusilə yerli hüquq normalarına uyğunlaşdırma prosesində əlavə vəsaitlər əhəmiyyət daşıyır. Əlavə vəsaitlər vebsayt linkləri, əlavə oxular və dərs kitablarına istinadlardan ibarət ola bilər. Bunlara iştirakçıların əldə etməli olduqları bilik üçün böyük əhəmiyyət daşımasa da, faydalı olan vəsaitlər daxildir. Əlavə vəsaitlər mövzu üzrə mövcud olan bir çox resursları təqdim etməyin əlverişli üsuludur.

### *Videolar*

Videolardan iki üsulla istifadə etmək mümkündür. Müvafiq videolar üzrə linkləri kursa əlavə etməklə; Bu yolla ictimaiyyətə açıq və icazə tələb edən videolar istifadə oluna bilər. Videolar həmçinin kursun əsas tərkibində də yerləşdirilə bilər, lakin bu halda videonun növü nəzərə alınmalıdır. Avropa Şurası və ya HELP proqramından olan videolar kursun əsas tərkibində yerləşdirilə bilər. Şəxsi videolarınız və ya məxsusi olaraq, kurs üçün hazırlanmış videolar da bu yolla istifadə oluna bilər. İstifadə qaydaları barədə məlumatı Moodle bələdçisindən əldə edə bilərsiniz. 

### Forumlardan istifadə

Xəbərlər və Müzakirələr forumu kursun HELP Moodle platformasındakı səhifəsində əvvəlcədən yerləşdirilib. Bu forumlar eyni formada tərtib olunsa da, məzmun və əhatə dairəsi fərqlidir, lakin hər ikisinin yerli təlimçi tərəfindən idarə olunması nəzərdə tutulur.

### *Xəbərlər forumu*

Xəbərlər forumu iştirakçıları kurs üzrə bütün səmərəli məlumatla təmin etməyə istiqamətlənib, buna modulların nəşr tarixi, son tarixlər və s. daxildir.

### *Müzakirə forumu*

Bunun əksinə olaraq, Müzakirə forumu iştirakçılar arasında debat yaratmaq üçün məkandır. Yerli təlimçi İQ üzvünün təklif etdiyi mövzu əsasında, milli qanunvericilik və presedent hüququ barədə suallar verir. Forumun iştirakçıların fikirlərini sərbəst ifadə edə bildikləri məkan olmasını nəzərə alsaq, açıq sual formatından istifadə etmək tövsiyə olunur. Bundan savayı, iştirakçılar bilməlidirlər ki, yekun qiymətləndirmə onların cavablarına əsaslanmır və forum yalnız kurs iştirakçıları üçün əlçatandır.

Yerli təlimçi paylaşım edərək müzakirəni başlatdıqdan sonra bütün iştirakçılar mövcud paylaşıma cavab yaza, eyni zamanda yeni paylaşım edə bilərlər.

### *Wiki*

Moodle-da wiki fəaliyyəti birgə işçi sənədləri yaratmağa imkan verən vasitədir. Onlar qrup işində, məsələn Rəmzi Məhkəmənin yaradılmasında istifadə oluna bilərlər (aşağıdakı bölməyə baxın). HELP həmçinin wiki alətindən HELP distant öyrənmə kursunun yaradılmasına hədəflənmiş ekspertlərin işçi qrupunda kursun tədris planının hazırlanması üçün istifadə edir.

### *BBB veb konfrans aləti*

Moodle heç bir proqram yükləməyə ehtiyac olmadan, veb konfranslar təşkil etməyə imkan verir. Alət platformada yerləşdirilib və kurs daxilində istifadə oluna bilər. Bu əlverişli alət onlayn təqdimatlar

hazırlamağa, həmçinin istinad sənədləri və Power Point təqdimatlarını istifadə etməyə imkan verir. BBB bir-birindən uzaq məsafədə yaşayan iştirakçılar arasında müzakirə yaratmaq üçün istifadə oluna bilər. Məsələn, daha öncə bu, hüquqşünaslar üçün AİHM-dən əvvəl ərizələrdə qəbul kriteriyaları üzrə çoxmillətli kursun yaradılması tədbirində istifadə olunub. İstifadəsi asan olmaqla, heç bir əlavə qeydiyyat tələb etmədən üz-üzə ünsiyyəti əlverişli şəkildə əvəz edir. Fəaliyyət kurs səhifəsində yaradılacaq və bütün kurs iştirakçıları fəaliyyətin üzərinə basmaqla daxil ola biləcəklər.

BBB video konfrans danışıqlarının qeydə alınmasını mümkün edir. İştirakçılar tələb olunan vaxtda qoşula bilmədiyi halda, bu əlverişli üstünlükdür.

#### *Söhbət*

Həmçinin söhbət seansları da mövcuddur ki, bunlar BBB ilə eyni qaydada, lakin görüntüsüz həyata keçirilir. Forum ilə arasındakı fərq ondan ibarətdir ki, bütün iştirakçılar eyni anda bağlanaraq müzakirələr apara və öz fikirlərini ifadə edə bilərlər. Söhbətlərə əks əlaqə təmin edə bilən və müzakirələrin düzgün istiqamətdə aparılmasında yardım edən təlimçi vasitəçilik edir.

#### Tapşırıqlar

Məzmunun yaradılması mərhələsində İQ üzvləri presedentlər, esselər, çoxvariantlı və ya düzgün/yanlış sualları və s. kimi kurs ərzində istifadə olunan müxtəlif növ tapşırıqlar hazırlayır. Hər bir tapşırığı məzmun və mürəkkəbliyi mövzudan asılıdır və yerli təlimçi bunun tələbə və hədəf auditoriyanın ilkin biliyinə uyğunlaşdırılmasına görə məsuldur.

Bəzi tapşırıqların tərtibatına əsasən, Moodle iştirakçıları avtomatik əks əlaqə ilə təmin edir. Bu hallarda yerli təlimçi sənədlərə düzəliş etməli və ya qiymətləndirməli deyil, Moodle platformasında verilən statistik məlumatları təhlil etməlidir.

Bəzi tapşırıqlarda isə, əksinə, təlimçinin fərdi əks əlaqəsi lazımdır. Bu sertifikatlaşdırma baxımından yekun qiymətləndirməyə aid edilir. Yerli təlimçi kursda müvəffəqiyyətlə iştirak edərək yekun qiymətləndirmədən keçməklə, sertifikat almağa hüququ olanların siyahısını tərtib etməlidir.

#### *Test*

Adətən test çoxvariantlı suallardan və doğru/yanlış suallarından ibarət olur. Bütün cavablar əvvəlcədən təlimçi tərəfindən sistemə daxil edildiyi üçün bu növ fəaliyyət iştirakçıya sistemdən avtomatik cavab almağa imkan verir. Test hazırlayarkən təlimçi doğru və yanlış cavablar üçün avtomatik cavab daxil edir.

#### *Esse*

Esse sualları təlimçinin iştirakını zəruri edir, belə ki, iştrakçıların gördüyü iş təlimçi tərəfindən yoxlanılaraq qiymətləndirilir. Bu həm iştirakçının, həm də təlimçinin daha çox vaxtını aparır, lakin məsələn kazuslar vasitəsilə anlayışın qavranılmasının, və yaxud əldə olunmuş bacarıqların qiymətləndirilməsində böyük əhəmiyyətə malikdir.

#### *Özünüqiymətləndirmə*

Çoxvariantlı suallar və doğru/yanlış sualları özünü-qiymətləndirmənin bir növü hesab oluna bilər, belə ki, sistem iştirakçılara dərhal cavab verərək qiymətlərini bildirir. İnteraktiv e-öyrənmə paketini tərtib

edərkən "bilik yoxlanması" da kursa əlavə oluna bilər. Anlayış barədə məlumatlandıqdan dərhal sonra öz biliyini qiymətləndirə bilmək iştirakçı üçün də səmərəlidir.

### Qarışıq öyrənmə və üz-üzə təlimlər üzrə fəaliyyətlər: Rəmzi məhkəmələr

Nə üçün rəmzi məhkəmə?

Rəmzi məhkəmə real məhkəmə iclasının, daha geniş mənada, arqumentlərin hazırlanmasından hökmün çıxarılmasına qədər bütün məhkəməm prosesinin quraşdırılmış formasıdır.

Təlim tapşırığı olaraq rəmzi məhkəmə Britaniya və Amerika universitetlərindəki debat ənənələrinə söykənir, burada tələbələr professorları tərəfindən irəli sürülmüş quraşdırılmış məhkəmə işləri üzrə arqumentasiya və nitq bacarıqlarını təcrübədən keçirə bilirdilər. İndi olduğu kimi, o dövrlərdə də, professorlar daha çox hakim rolunu icra edirdilər. Bu gün bir çox hüquq firmaları və prokurorluqlar rəmzi məhkəmə elementlərindən məhkəmə dinləmələrini hazırlamaq üçün istifadə edir.

Rəmzi məhkəmələr təlim metodologiyası olaraq informal təhsil və qarışıq öyrənmənin meydana çıxması ilə hüquq məktəblərində və bir sıra təlim müəssisələrində təkcə tələbələrin biliyini qiymətləndirmək üçün deyil, eyni zamanda onların bir sıra vəsaitlərdən istifadə etməsinə təkan verərək populyarlıq qazanmaqdadır. Rəqabət mühitinin yaradılması bir çox hallarda öyrənənlərin diqqətini cəmləməsinə, məlumatı daha tez mənimsəməsinə, yadda saxlaması və təhlil etməsinə təkan verir. Bununla yanaşı, başlıca məqsəd qələbə üzərinə köklənməməli, təlim tapşırıq xarakteri daşımaqdan çıxmamalıdır. Rəmzi məhkəmələrin yalnız yarış xarakteri daşımasını təmin etməkdə təlimçinin rolu böyük əhəmiyyət kəsb edir. Pyer Kubertinin sözləri ilə desək, vacib olan iştirak etməkdir.

Rəmzi məhkəmələrin məqsədi prosesin təhlili, arqumentasiya, tənqidi düşünmə və natiqlik bacarıqlarının inkişaf etdirilməsinə yönəlib. Bu iştirakçılar üçün nəzəri biliklərini kontekst daxilində tətbiq etmək və hüquqi prinsipləri təcrübədən keçirmək üçün fürsətdir.

Rəmzi məhkəmələr tapşırıq kimi Anqlo-Sakson hüquq ənənələrinin məhsulu olduğundan, hazırlıq zamanı qanunvericilikdən götürülmüş müəyyən hissələrdən daha çox, məhkəmə təcrübəsinə nəzər salaraq, müvafiq standart və yanaşmaların tapılması vacib sayılır. Bu, mülki hüquq ölkələrinin iştirakçıları üçün çətin ola bilər; bununla belə, qlobal dünyada hüquqi ənənələr daima bir-biri ilə qarışır. Bunlar, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnda, Avropa Birliyi Ədalət Məhkəməsinin təcrübəsində müəyyən olunmuş və BMT-nin kvazi-məhkəmə orqanlarının təcrübəsində rast gəlinən standartları daxil edən insan hüquqları üzrə təlim zamanı xüsusi əhəmiyyət daşıyır. Təcrübə göstərir ki, mülki hüquq ölkələrindən olan bir çox hüquq mütəxəssisinin mövcud hüquqi təcrübələr üzərində arqumentlər yaratmaq, həmçinin müvafiq presedent hüququ əsasında hüquq normalarının şərh edilməsi bacarığı zəifdir. Bu mənada rəmzi məhkəmələr onlar üçün əlverişli vasitədir.

Rəmzi məhkəmələr müəyyən mövzu və ya sahə üzrə biliyin artırılması, həmçinin xüsusi hüquqi orqanlar, yerli və beynəlxalq məhkəmələr, kvazi-məhkəmə qurumları və s. ilə işləmə bacarığının artırılması

məqsədilə təşkil oluna bilər. Bu, həmçinin mürəkkəb hüquqi və siyasi anlayışların, hətta siyasi hadisələrin təhlilində də yararlı ola bilər.[37]

Tələbələr üçün ən tanınmış beynəlxalq məhkəmə müsabiqələrinə Beynəlxalq Ədliyyə Məhkəməsi məhkəmə prosesinin quraşdırılmasına əsaslanan Jessup Beynəlxalq məhkəmə müsabiqəsi, Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə prosesi əsasında quraşdırılmış Rene Cassin məhkəmə müsabiqəsi, kommersiya arbitraj məhkəmə işi əsasında quraşdırılmış Willem C.Vis Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi daxildir. Rəmzi məhkəmə müsabiqəsini ilk dəfə hazırlayarkən qeyd olunan müsabiqələrin veb səhifələrinə nəzər salmaq faydalı ola bilər.

<u>Harada istifadə etməli:</u>

Rəmzi məhkəmə hüquq məsləhətxanalarında və digər növ sinifdənkənar məşğələlərdə tez-tez istifadə olunan metodologiyadır. Bu, hüquq mütəxəssislərinin davamlı təlimində kursun yekun tapşırığı kimi istifadə edilə bilər. Rəmzi məhkəmələr bəzən yekun imtahan kimi də istifadə olunur, lakin formal qiymətləndirmə tələb olunarsa, məhdud imkanlara malikdir.

"Qarışıq" öyrənmə zamanı bu tapşırıq bilik və bacarıqları möhkəmləndirmək məqsədilə təlim kursunun modulları arasında üz-üzə sessiyalar ərzində, həmçinin kursun yekun tapşırıqlarından biri kimi istifadə oluna bilər. Tam distant öyrənmə kursunda bunun istifadəsi məhduddur, çünki bu zaman bütün qrup iştirakçıları eyni yerdə və eyni anda iştirak etməlidirlər.

<u>Necə təşkil etməli:</u>

Rəmzi məhkəmənin təşkili və formatı məqsədlərdən, maliyyə və insan resurslarından asılıdır. 2-3 gün davam edəcək və seçmə turlardan ibarət daha böyük tədbirlər üçün 4-5 nəfərlik komanda lazım gələ bilər. Bunun üçün könüllülərdən ibarət hakimlər, məhkəmə icraçıları və tabelçilərin iştirakı da vacibdir. Şifahi hissədə (məhkəmə dinləməsi) bir hakim kifayət etsə də (üç olmasına üstünlük verilir), qərəzsizlik baxımından yazılı hissələr bir neçə hakim tərəfindən qiymətləndirilməlidir. Kiçik fomatlarda bir təlimçi və asisstent kifayət edir.

*Məhkəmə işi və hazırlıq*

İstənilən rəmzi məhkəmənin əsas elementi rəmzi məhkəmə işidir. Real məhkəmə işinin uyğunlaşdırılması və ya tamamilə yenidən hazırlanmasından asılı olmayaraq, o, anlaşıqlı olmalıdır. Bu, o deməkdir ki, prosesin ayrı-ayrı hissələrində faktla bağlı ziddiyyət olmamalı, daxili məntiq hökm sürməlidir. İştirakçılar faktlardan və verilmiş uydurma (və ya real) qanunvericilik materiallarından lazımi məlumat əldə etməlidirlər və heç nə uydurmamalıdırlar. Əksər rəmzi məhkəmə qaydaları iştirakçılara verilmiş məhkəmə işinə daxil olanlardan başqa fakt və təfərrüatlar uydurmağı açıq şəkildə qadağan edir (bu faktların və hüquqi əməllərin şərhinə aid edilmir).

[37] 2015-ci il Jessup Rəmzi məhkəməsi Krımın 2014-cü ilin mayında Rusiya tərəfindən ilhaqı üzərində qurulmuşdur.

Məhkəmə işinin uzunluğu iştirakçılara verilən hazırlıq müddətindən asılıdır və adətən 15-30 səhifədən ibarət olur. Kazusun müzakirəsində öyrənənlər kazusu ilk dəfə sinifdə və ya onlayn tapşırıq əsnasında əldə edib, müzakirədən dərhal bir neçə dəqiqə sonra şifahi arqumentlərini irəli sürürlərsə, rəmzi məhkəmədə əsaslı hazırlıq lazımdır. Buna görə də, öyrənənlər yazılı arqumentlərini təqdim etməzdən ən azı 1 ay öncədən məhkəmə işi və qaydalarla tanış olmalıdırlar.

Qrupun ölçüsündən asılı olaraq, iştirakçılar individual (kiçik qruplar üçün) və ya komanda tapşırığı ala bilərlər. Hər iki halda, həm individual, həm də qrup prosesin bir və ya hər iki tərəfi üçün arqumentlər hazırlamaq tapşırığı ala bilər. İkinci halda daha çox vaxt lazım gəlsə də, öyrənmə baxımından təsiri əhəmiyyətli dərəcədə effektiv ola bilər.

*Hakimlər*

Bir çox hallarda rəmzi məhkəmədə könüllü iştirak edən "Hakimlər" üçün bir neçə tələb mövcuddur. Əsas tələb hüquq təhsilinin olması və rəmzi məhkəmənin əsaslandığı sahə ilə bağlı məlumatlı olmaqdır. Bununla belə, hakimlərin hazırlıq səviyyəsi yüksək olmalıdır. Onlar məhkəmə işinin detallarını, müvafiq qanunvericiliyi yaxşı bilməli, tərəflər üçün dəqiq suallar hazırlamalıdırlar. Bunu asanlaşdırmaq məqsədilə, hakimlər üçün adətən "hakimlik memorandumu" hazırlanır. Bu sənəd məhkəmə işi və qaldırılan problemlərin təəfərrüatlı və planlı təhlilini verir, referenslər, sitatlar, müvafiq hüquq normaları və təcrübələri misal gətirir, bununla da hakimlərin hazırlıq üçün vaxta qənaət etməsinə imkan verir. Bununla belə, hakimlər təlimatlar ilə məhdudlaşmamalı, bir qədər də özləri araşdırma aparmalıdırlar.

*Yazılı turlar*

Məhkəmə işi üzərində işləyərkən ilk mərhələ yazılı arqumentlərin hazırlanmasından ibarətdir. Komandaların (və ya fərdi iştirakçıların) münasibət bildirəcəkləri məsələlər ilə bağlı siyahı hazırlamaları məqsədəuyğundur. Buna icra tərəfinin hüquqi mövqeyi ilə yanaşı, "tərəflərə suallar" aid edilə bilər. Komanda işi zamanı təlimçinin rolu müstəsnadır.

Yazılı materillar hakimlər tərəfindən əvvəlcədən müəyyən olunmuş kriteriyalar əsasında qiymətləndirilir. Bir neçə komandanın iştirakı zamanı, onlardan bir neçəsi bu mərhələdə müsabiqəni tərk edə bilər. Daha kiçik yarışlarda isə bütün komandaları şifahi turlara keçirtmək və yekun nəticəni hesablayarkən yazılı ballarını nəzərə almaq daha məqsədyönlüdür.

*Şifahi turlar*

Bu, bütün rəmzi məhkəmələrin əsas "teatral" mərhələsidir. Burada öyrənənlər təkcə natiqlik bacarıqlarını təcrübədən keçirmir, eyni zamanda geniş həcmli hüquqi normaları, presedent hüququ və doktrinalarda yer alan prinsipləri tətbiq etmək fürsəti əldə edir (şifahi dinləmə qaydalarına misal olaraq Əlavəyə baxın). Təşkilatçılar sinif otağını məhkəmə zalı kimi quraşdırmalı, hakimlər paneli üçün kürsü, prosessual tərəflər üçün ayrı masalar, auditoriya üçün oturacaqlar və tabelçi təşkil etməlidirlər. Bir qayda olaraq, bir dinləmə 30-40 dəqiqə davam edir. Buraya komandaların təqdimatları və etirazlar daxildir.

Bu mərhələnin həlledici hissəsi qərar elan olunduqdan sonra, bütün komandaların hakimlərdən aldığı rəydir. Bu zaman iştirakçıların güclü və zəif cəhətləri qeyd olunur, özlərini inkişaf etdirmək üçün tövsiyələr verilir.

Rəmzi məhkəmə tapşırıqları kimi fəaliyyətlər üçün alətləri Avropa Şurasının İnsan Hüquqları təhsili üzrə Kompas[38] nəşrində əldə etmək mümkündür.

### Öyrənənlərə dəstəyin əhəmiyyəti

Öyrənənlərə dəstək göstərilməsi açıq və distant təhsil sisteminin əsas tərkib hissəsidir. Tələbə dəstək mexanizmlərinin keyfiyyət və əhatə dairəsi bütövlükdə açıq və distant təhsil proqramlarının keyfiyyətini müəyyənləşdirir. Bu, təhsil müəssisəsi tərəfindən əsasən iki yolla- texniki və insan dəstəyi yolu ilə həyata keçirilir. Texniki vəsaitlərə tədris materiallarının öyrədici tərtibatı, tədris təlimatları, öyrətmə vasitələri, müxtəlif növ anketlər, statistik təhlil metodları və s. misal göstərmək olar. İnsan resurslarına məsləhətçi və təlimatçılar daxildir ki, bunlar da tələbələri karyeraları boyunca mütəmadi dəstək və məsləhətlə təmin edir.

Sözsüz ki, 2-ci hissədə də qeyd olunduğu kimi ənənəvi təhsil sistemində də üz-üzə ünsiyyətin bir sıra mənfi cəhətləri üzə çıxa bilər. Yəni üz-üzə ünsiyyətdə linqvistik, psixoloji, fərdlərası, mədəni və ətraf mühitlə bağlı baryerlər meydana gələ bilər (4). Beləliklə, üz-üzə ünsiyyətin əsas tədris metodu olduğu ənənəvi təhsildə də, öyrənənə dəstək mexanizmləri faydalı ola bilər.

Elektron-öyrənmədə tələbəyə təlim və ya təhsil müəssisələri tərəfindən iki yolla dəstək göstərilir: öyrənənə dəstək və öyrənmə dəstəyi. Öyrənənə dəstək dedikdə, lazımi məlumatla təmin etmək və öyrənmə prosesinin idarəedilməsi ilə bağlı konsultasiya yolu ilə tələbələrə planlı yardım nəzərdə tutulur. E-öyrənmədə öyrənənə dəstək planlı şəkildə olub, aşağıdakı mərhələlərdən ibarətdir.

- İnformasiya mərhələsi
- Yönləndirmə mərhələsi
- Qeydiyyat mərhələsi
- Inteqrasiya mərhələsi
- Akkreditasiya Yardımı mərhələsi
- Gələcək təhsillə bağlı məsləhət mərhələsi

Öyrənmə dəstəyi dedikdə, faktiki öyrənmə prosesində təlim müəssisəsi tərəfindən göstərilən planlı yardım nəzərdə tutulur. Öyrənmə dəstəyi onlayn və oflayn formatda olmaqla, öyrənmə mərhələsində təmin edilir. Oflayn və onlayn öyrənmə prosesi e-öyrənmə məzmununun çatdırılması və e-poçt, söhbətlər, müzakirə forumları və s. vasitəsilə təşkil olunur. Bütün bu mexanizmlər yalnız tələbə və tyutor arasında deyil, eyni zamanda öyrənənlər arasında da qarşılıqlı ünsiyyətə imkan verir. Təcrübədə, e-öyrənmə proqramlarında bu, aşağıdakı yollarla həyata keçirilə bilər:

- Onlayn öyrənmə üsulları və oflayn öyrənmə platformaları vasitəsilə distant təhsil məzmununun çatdırılması.

[38] http://www.eycb.coe.int/compass/

- Müzakirə forumları. Kurs çərçivəsində fikir mübadiləsi aparmaq, məsələlər qaldırmaq, şərh bildirmək və s. üçün bütün tələbələr üçün müzakirə otaqları. Müzakirə otaqları vasitəçi və ya tyutor nəzarəti altında idarə olunmalıdır.
- E-poçt. Tyutor və tələbələrlə əlaqə saxlamaq üçün vasitə.
- Elektron dərslər. Tələbələrin öyrənmə məqsədlərini qarşılamağa imkan verən elektron sənədlər.
- Resurslar/Kitabxana. Tələbələrə öyrənmə prosesində yardım üçün əlavə resurslara elektron çıxış.
- Tələbə - özünüqiymətləndirmə. Müəyyən kurs daxilində tələbənin öz inkişafını izləməsi üçün elektron mexanizm. Bu tələbəyə irəliləyiş göstərib göstərmədiyini bilməyə imkan verir.
- Avtomatlaşdırılmış qiymətləndirmə. Bu elektron vasitə sertifikasiya mərhələsində yekun nəticə hazırlamağa imkan verir.
- Tyutor qiymətləndirməsi. Tapşırığın qiymətləndirilməsi və düzəliş edilməsi üçün tyutora göndərilməsini təmin edən vasitə.
- Tələbə portfelləri. Özünü onlayn həmkarlarına təqdim etmək, işlərini nümayiş etdirmək, kurs məlumatının alternativ mənbələrini həmkarlar ilə bölüşmək üçün hər tələbənin şəxsi ana səhifəsi.

Müvafiq və vahid tələbələrə dəstək xidməti adətən aşağıdakılardan ibarət olur:

- Qeydiyyatla bağlı TVS (tez-tez verilən suallar) bölməsi
- Texniki dəstək xidmətinə çıxış
- Qeydiyyatla bağlı dəstək
- Tyutorlarla əlaqə yaratmaq imkanı
- Digər tələbələrlə əlaqə yaratmaq imkanı
- Gələcək təhsil üzrə məsləhət
- Müzakirə forumları
- Elektron dərslər
- Tapşırıqlar üzrə əks-əlaqə
- Tyutor çıxışı

## Mərhələ 4: Kursu necə qiymətləndirməli və izləməni necə planlamalı



Bu bölmədə aşağıdakılar müzakirə olunacaq:

- təlimin səmərəli olub-olmadığını necə qiymətləndirməli
- öyrənənlərə keçirilən təlimin keyfiyyəti üzrə rəy bildirməkdə kömək etmək
- öyrənənlərin gələcəkdə təlimdən gözləntilərini müəyyənləşdirmək

Təlimin nə dərəcədə uğurlu olmasını qiymətləndirmək təlimin tərtibi və çatdırılmasında yekun həlledici addımdır.

Bu proses öyrənmə məqsədlərinin qarşılanıb-qarşılanmadığını qiymətləndirməkdən daha çoxunu ifadə edir: təlimin qiymətləndirilməsi gələcəkdə təlimin təkmilləşdirilməsi yollarını müəyyən etmək məqsədilə keçirilən təlimə açıq, dürüst və konstruktiv baxışdır.

Qiymətləndirmə təlimçi və öyrənənləri cəlb etməlidir. O, özündə həmçinin xarici elementi birləşdirə bilər (məsələn, xarici maliyyəşdirici və ya təşkilat daxilində audit xidmətləri).

Qiymətləndirmə əsasən *dəlillərə əsaslanır*. O, öz-özünü refleksiyada dürüstlük, nöqsanları müəyyən etməyə istəklilik və öyrənilən dərsləri gələcək təlimə daxil etməyə hazırlıq kimi bir sıra meyara cavab verməlidir.

Bu, "öyrənmə məqsədləri tam şəkildə qarşılanıbmı" sualından daha çoxunu ifadə etsə də, təlimin qiymətləndirilməsi üçün başlanğıc nöqtə kimi öyrənmə məqsədlərindən isifadə olunması barizdir. Öyrənmə məqsədlərini qarşılamaqla bağlı problemlər yaranarsa, bu bir və ya bir neçə əlaqəli amillərin hesabına yarana bilər: məsələn, öyrənmə məqsədləi çox çətin idi.

- məsələn, öyrənmə məqsədləri çox çətin idi.
- təlim üzərində qurulan qiymətləndirmə tapşırıqları öyrənmə məqsədlərini ölçməyə imkan vermirdi
- təlimin çatdırılma forması (yəni, metod seçimi) öyrənmə məqsədinin əldə edilməsini dəstəkləmirdi

### NƏ ÜÇÜN TƏLİMİ QIYMƏTLƏNDİRMƏLİ?

Burada 4 əsas səbəb var:

• Təlimçilərin səmərəliliyinin artırılması: qiymətləndirmə öyrənmə zamanı hədəflərimizə çatıb çatmadığımızı müəyyənləşdirməyə imkan verir.

• Cavabdeh olmaq: təlim zamanı xeyli vəsaitdən istifadə olunur. Onların səmərəli istifadə olunmasını təmin etməliyik.

• Təcrübələri bölüşmək: Qiymətləndirmə nəticələrinizi nəzərdən keçirməklə digərləri sizin uğurlarınızdan və səhvlərinizdən öyrənə bilər. Siz müəyyən öyrənənlər üzərində hansı praktikaların effektli və effektsiz olması ilə bağlı mövcud biliklərə öz töfhənizi verə bilərsiniz.

• Motivasiya tapmaq: Təlimlərinizin nəticə verdiyini gördükdə, siz və komandanız bundan qürur duyacaqsınız.

*ONHCR, İnsan Hüquqları üzrə Təlim Tədbirlərinin Qiymətləndirilməsi (2011), 19-*

- auditoriya öyrənmə məqsədlərini müvafiq hesab etmirdi

Qiymətləndirmə zamanı yarana biləcək iki fərqli məsələni aydınlaşdırmaq lazımdır:

**Təlimçilər** öyrənmə məqsədlərinin qarşılandığını bilməli (yəni, təlimin səmərəli olub-olmadığını) və öyrənənlərin gələcək təlim ehtiyaclarını müəyyən edə bilməlidir (yəni, öyrənmə məqsədinin qarşılanmadığını və ya qismən qarşılandığını, təlimin növbəti mərhələsində nəyin təmin edilməli olduğunu necə müəyyənləşdirməyi). Fərdi nöqteyi-nəzərdən (təlimçilərin də öyrənənlər kimi öz performanslarını inkişaf etdirməyə çalışdığı üçün) təlimçilər plenar və ya qrup müzakirələrində öyrənənlərin onların performansı haqqında düşündüklərini bilmək istəyəcək.

**Öyrənənlərə** həmçinin öyrənmə məqsədlərinə çatıb-çatmadıqlarını müəyyən etmək üçün kömək edilməlidir. Məqsədə çatılmayıbsa, uğurlu olmamağın *məsuliyyəti* təlimçilərin üzərinə düşə bilər, lakin öyrənən də müxtəlif formada məsuliyyət daşıyır - yəni o, məqsədlərin əldə edilməsindəki maneələri aradan qaldırmaq üçün yollar axtarmağa çalışmalıdır. (Başqa sözlə, öyrənən soruşmalıdır: bu məqsədlərin əldə edilməsinin hakim, polis əməkdaşı, həbsxana işçisi və s. kimi vəzifəmi müvafiq qaydada yerinə yetirmək üçün zəruri olduğunu nəzərə alaraq, çatışmazlığı aradan qaldırmaq üçün nə edə bilərəm).

Təlimin qiymətləndirilməsi iki əsas məqsədə xidmət edir: birincisi gələcək təlim ehtiyaclarını müəyyən etməyə kömək edir; ikincisi, təlimin çatdırılmasını təkmilləşdirməyə kömək edir.

### a. Öyrənənlərdən təlimçilərə rəy bildirməsi istənilir:

Öyrənmə dövrəsi bərabər şəkildə təlimçilərə də şamil olunur. Təlimçilər natiqlər və ya kiçik qrupların moderatoru kimi öz performansı üzərində düşünməyə təşviq edilməlidir: lakin indi öyrənənlərdən rəy qəbul edilir və bu, təlimin mühüm hissəsidir. Auditoriyaya rəy bildirməyə imkan yaratmamaq təlimdə peşəkar marağın olmadığını göstərir.

Səmərəli olması üçün öyrənənlərin təlimlə bağlı bildirdiyi rəy aşağıdakı prinsipləri qarşılamalıdır:

- öyrənənlərə rəyin nə üçün istənildiyi deyilməlidir: gələcək təlimin keyfiyyətini yaxşılaşdırmaq, eləcə də indi təqdim edilən təlimin uğurunu qiymətləndirmək.
- rəy anonim olmalıdır
- rəyin tamamlanması üçün adekvat vaxt təyin edilməlidir (kursun sonuna üstünlük verilir) - *heç vaxt* öyrənənlərdən sadəcə rəyi öz istədikləri vaxtda tamamlamağı və qaytarmağı istəməyin, çünki bu nadir hallarda baş verir.
- suallar **faydalı** cavabları əldə edə biləcək şəkildə hazırlanmalıdır
- soruşulan suallar həm təlimçilərin performansı və təlimin müvafiqliyi və ya uğuru ilə əlaqədar olmalıdır.

Təlimçilərə səmərəli şəkildə təlimin qiymətləndirilməsini aparmaq üçün hansı rəy lazımdır? Cavablar müxtəlif yollarla əldə edilə bilər: kurs qiymətləndirmə formaları, kursun son nəticəsi, kiçik qrup müzakirəsi və ya hətta qeyri-formal olaraq fasilələr vasitəsilə.

Öyrənənlər bu cür məsələlərə cavab vermək üçün dəvət olunmalıdır:

- Seçilmiş mövzulara öyrənənlərin marağı
- Öyrənənlərin peşəkar işi üçün mövzuların münasibliyi
- Təlimin təşkilati aspektləri (keçirildiyi yer, vaxtın planlaşdırılması və.)
- Paylanılan hazırlıq materiallarının dəyəri və keyfiyyəti
- Ekspert və ya təlimçilərin töhfələrinin (plenar sessiyalar baxımından) və kiçik qrup işinin (tyutorun rolu da daxil olmaqla) keyfiyyəti.
- Qəbul edilən təlim metodlarının spektri, müxtəlifliyi və uyğunluğu (plenar təqdimat və ya debat, kiçik qrup işi, səhnələşdirilmiş məhkəmə prosesi və s.)

Yazılı qiymətləndirmə formalarından istifadə edilərsə, suallara müxtəlif formalarda cavab verilə bilər: məsələn,

*Xətti şkala:* Öyrənənlər bir sıra bəndlər üçün öz cavabını göstərir: məsələn,

1-5 şkala üzrə (1=qeyri-kafi; 5=əla), zəhmət olmasa, qiymətləndirin:



- Danışığın təqdim edilməsi üsulu
- Təqdim edilən məlumatın məzmunu
- Materialın faydalılığı
- Dərsdən *əvvəl* mövzu üzrə biliyiniz
- *Hazırda* mövzu üzrə biliyiniz

*Ən uyğun cavabı seçin:* Bir (və ya daha çox) cavab ortaya çıxır: məsələn,

Təlimdə iştirakınızla bağlı ən mühm amil(lər) hansıdır?



[Vəziyyətinizə münasib olan bütün cavabları işarələyin]

- Mən faydalı nə isə öyrənəcəyimi hiss etdim
- Təlimin mövzusu mənim işimə uyğundur
- Menecerim mənə iştirak üçün təlimat verdi
- Həmkarlarım iştirak etdiklərini bildirdi
- Digər həmkarlarım ilə tanış olmaq üçün qatılmaq istədim

*Müxtəlif alternativlər arasından bir sualı seçin:* Bir cavab seçilir, məsələn:

Təlimin sizin üçün necə *münasib* olduğunu düşünürsünüz? Ən uyğun gələnini seçin:



- Mən dərhal yeni biliyimi praktikada tətbiq edə biləcəyəm
- Düşünürəm ki, yeni biliyimdən yaxın gələcəkdə istifadə edə biləcəyəm
- Yeni biliyimin yaxın gələcəkdə istifadə etmək üçün çox praktik olduğunu düşünmürəm

- Qazanılan biliyin mənim işim üçün birbaşa uyğunluğu yoxdur

*Məhdud sayda açıq cavablar istənilir:* Öyənəndən əsas təəsüratları soruşulur: məsələn,

Öyrəndiyiniz / hazırda işinizdə tətbiq edəcəyiniz üç ən əsas şeyi sıralayın?



1.
2.
3.

Hər sual toplusunun sonunda öyrənənlərə əlavə şərh yazmaq üçün yer saxlanılması vacibdir: bu, "əlavə şərhiniz varmı?" və ya "gələcək təlimin inkişaf etdirilməsi üçün hər hansı təklifiniz varmı?" kimi formul ilə ifadə edilə bilər (lakin yadda saxlayın ki, "kursun 1-ci bölməsinin təkmilləşdirilməsi üçün hər hansı təklifiniz varmı?" kimi sual daha spesifikdir və təlimçilər üçün daha faydalı rəy təmin edə bilər).

## b. Qiymətləndirmə: nəticələr

Səmərəli qiymətləndirmə təlim və öyrənənlər üçün nəticə çıxarılmasını təmin edir. Hər qrup ayrı şəkildə nəzərə alına bilər.

*Təlimçilər*

Təlimçilər tərəfindən təlimin qiymətləndirilməsi keçmiş səhvlərdən (və uğurlardan) öyrənmə üçün nəzərdə tutulur. Qiymətləndirmə tədbirin sonunda dərhal aparıla bilər (öyrənənlərin qiymətləndirmə ilə bağlı cavabları qısa zamanda toplana bildiyi halda), lakin onu sonrakı tarixə saxlamaq daha yaxşı ola bilər (lakin təlimdən sonra təlimçilərin təəssüratlarının itirilməsinə səbəb olacaq qədər vaxt keçməməlidir). "Sübut" müxtəlif formalarda ola bilər:

- Öyrənənlərdən alınan qiymətləndirmə formaları
- Təlimçilərin (və kənar ekspertlərin) öyənmə məqsədlərinin (və ya nə dərəcədə) əldə edilib-edilmədiyinə dair fikirləri
- Öyrənənlər özləri: onların münasibəti, iştirak səviyyəsi, qazanılan biliyi
- Təşkilati aspektlər (vaxt, keçirilən yer, kiçik-qrup otaqlarının mövcudluğu və s.)
- Proqram (təlim metodlarının müxtəlifliyi və balansı daxil olmaqla)
- Gələcək təlim ehtiyaclarının müəyyən edilməsi

Bunun üçün iki sual (yuxarıdakı təlim prosesinin ardından) müvafiqdir:



- *Nə yaxşı idi* ( və nə üçün);
- *Hansı təkmilləşmələr edilə bilər (və necə)*

Təlimçilər təlimdən qazanılan dərslərin mümkün olan genişləndirmə dərəcəsini nəzərə almalıdır. Bu aspekt çox zaman göz ardı edilir: təlimdə istifadə edilən insan, material və ekonomik resurslar ümumilikdə önəmlidir və bu resursların müsbət təsirini genişləndirmə yollarını tapmaq vacibdir.

Aşağıdakı haqqında düşün:

- Öyrənənlərdən təlimdən əldə edilmiş dərsləri (biliyi) paylaşması gözlənilir (və ya buna təşviq edilir)? Bu, təlimin xüsusi öyrənmə məqsədi ola bilər -bu halda, öyrənənlərin seçilməsi onların təlimçilər kimi potensialını əks etdirməlidir sualına xüsusi diqqət yetirə bilərsiniz *və* təlim proqramına öyrənənlər tərəfindən öz yerlərində təlimin planlaşdırılması və keçirilməsi sessiyaları daxil olmalıdır.
- Təlimdən sonra resurslar toplanıla və istifadə edilə bilər? Öyrənənləri təqdim olunan materiallara həmkarlarının çıxışını təmin etməyə dəvət edin. Ekspertlərin danışıqları yazıla (və ya çəkilə) və çoxaldıla bilər? Materiallar veb saytda yerləşdirilə bilər?
- İştirakçılardan gələcək təlim fəaliyyətlərində istifadə edilə bilən materialları təchiz etməsini istəməklə müəyyən formada resurs mərkəzi yaratmaq faydalı ola bilərmi?
- Öyrənənlər əlavə sualları yarandıqda və ya müəyyən məsələlər üçün aydınlaşdırmağa ehtiyac olduqda təlim komandası ilə əlaqə saxlamağa həvəsləndirilməlidirmi? Bu həmçinin təlimçilərə gələcək təlimdə nəzərə alınması tələb olunan məqamları müəyyən etməyə kömək edəcək.

Təlimçilər də həmçinin *təlim* üzrə fikirlərini və qazandığı dərsləri paylaşmaq istəyə bilər: xüsusilə, "nə yaxşı idi" və "nə yaxşı deyildi"- və hər iki halda, nə üçün. Xüsusən əgər təlim paketi başqaları tərəfindən ümumi istifadə üçün hazırlanırsa, proqramda, metodlarda və kiçik qrupda kazusun həlli tapşırığının seçimində dəqiqləşdirilmələrin aparılması məqsədəuyğun ola bilər: və yaxşısı budur ki, onları yenidən hazırlayarkən əvvəlki səhvlər təkrarlanmamağa çalışılsın.

*Öyrənənlər*

Öyrənənləri qiymətləndirmənin məqsədini anlamağa təşviq etmək daha çətindir. Təlim dövrəsi göstərir ki, öyrənmə strukturlaşdırılan və dəstəklənən prosesdir. Polis, məhkəmə və ya digər peşə təlimi kontekstində öyrənənlərə öz öyrəndikləri və performası üzərində düşünmək və gələcək fərdi və peşəkar inkişafını planlaşdırmaq öhdəliyinin olduğunu tanıtmaq mühüm əhəmiyyət kəsb edir. (Qeyd etmək lazımdır ki, professional inkişafın davam etdirilməsinin vacibliyini dərk edə bilməyən işçi mühitində münasibət dəyişikliyi tələb edildiyi halda, bu cür ideanın təkbaşına həyata keçirilməsi çətin ola bilər).

Bir sözlə, bütün təlimin başlıca məqsədi öyrənənlərin nəyi və necə öyəndiklərini anlamaq, öz öyrəndiklərini nəzərdən keçirmək, planlaşdırmaq və onun üçün məsuliyyət daşımaq potensialını yaxşılaşdırmaq, öyrənənləri daha səmərəli, müstəqil və özündən əmin, öz-özünü yönləndirə bilən tələbə olmağa kömək etməkdir. Beləliklə təlimçilər öyrənənlərə gələcək təlim ehtiyaclarını müəyyən etmək və dilə gətirməyə kömək etmək üçün təşviq edilməlidir. Bu məqsədlə, öyrənənlərə kömək etmək üçün müəyyən dəstək tələb olunur:

- **təlimin sonunda *cari* öyrənmə məqsədlərini qısa şəkildə nəzərdən keçirməklə onların nə dərəcədə əldə edildiyini** müəyyən edin. Əgər müəyyən öyrənmə məqsədləri reallaşdırılmayıbsa,

nəticədə artıq müəyyənləşdirilmiş *gələcək* təlim ehtiyacı var. Bu, həm təlimçi, *həm də* öyrənən tərəfindən necə qarşılanacaq?

- **gələcək təlim üçün idea və təkliflər ortaya çıxarmağa çalışın** - bu yolla, təlimçilər auditoriyanın gələcək təlim üçün nəyi müvafiq hesab etdiklərinə dair fikirə sahib ola bilər (beləliklə, yenidən təlimin spesifik aditoriyaların ehtiyaclarına uyğun hazırlandığına dair mesaj yaradılmasının əhəmiyyəti vurğulanır).

İnsan hüquqları təliminin qiymətləndirilməsi üzrə çoxlu sayda resurs bu ünvanda mövcuddur: http://www.ohchr.org/Documents/Publications/EvaluationHandbookPT18.pdf




Bütün modular dərc edildikdən və iştirakçılar yekun tapşırıqları təhvil verdikdən sonra, milli tyutor tərəfindən təlimin qısa müddətli təsiri qiymətləndirilir. Bu, HELP Moodle platformasına sorğu yükləməklə edilir, bu sorğu HELP Katibliyi tərəfindən milli dildə təqdim olunur və iştirakçılardan öz rəylərini göndərmələri istənilir.

Sorğu təlim materiallarının keyfiyyəti, milli tyutor tərəfindən moderatorluğun necə aparılması və öyrənənlərin gündəlik təcrübədə potensial tətbiqinə dair rəy toplamaq üçün nəzərdə tutulur. Təqdim edilənlər əsasında milli tyutordan öz rəyini də əlavə etməklə HELP Katibliyinə hesabat təqdim etməsi istənilir.

### c. İnsan hüquqları təliminin qiymətləndirilməsi üzrə HELP yanaşması

HELP Proqramı çərçivəsində model tədris proqramı ingilis dilində hazırlanan kimi onlar müəyyən pilot ölkələrdə sınaqdan keçirilir. Hər kurs tamamlandıqdan sonra hər iştirakçıya sorğu anketi göndərilir və toplanılan məlumatlar iştirakçıların real ehtiyaclarına uyğun olaraq kursun hansı hissənin inkişaf etdirilməsini və ya dəyişdirilməsini müəyyən etmək üçün təhlil edilir.

Hər kursun iştirakçılar qrupu daxilində fokus qrupun yaradılması üzərində MTİ/VA-lar ilə birlikdə işləmək təklif edilir. Hədəf qrupu eyni suallara təlimin tamamlanmasından 6 ay və 2 il sonra yenidən cavab verməli olacağı barədə əvvəlcədən xəbərdar ediləcək. O, peşə həyatında bilik və bacarıqların tətbiq edilməsi yolu ilə daha yaxşı idealların yaranmasına imkan verir.

Digər bir məlumat mənbəyi distant təhsil kursuna moderatorluq edən milli tyutor tərəfindən verilən rəydir.

Distant təhsildə təlimçinin vəzifəsi üz-bə-üz təlimdən bir qədər fərqlidir və xüsusi bacarıq və strategiyalar tələb edir: "distant təhsil təlimatçıları öncədən planlaşdırmalı, yüksək səviyyədə təşkilatçılığı bacarmalı

və öyrənənlər ilə yeni yollarla ünsiyyət qurmalıdır. Onlar tələbələr üçün əlçatan olmalı, müvafiq olduqda komandalarda işləməli və öyrənənlər ilə qarşılıqlı əlaqələr zamanı mentor və ya vasitəçi rolunu oynamalıdır. Son olaraq, onlar üz-bə-üz təlimlə müqayisədə üzərilərinə daha çox inzibati öhdəlik götürməli olduqlarını güman etməlidirlər".[39]

Tədrisin qiymətləndirilməsi üçün məlumatlar yalnız tələblərin müşahidə edə bildiyi tədris aspektlərinə ünvanlanan tələbə qiymətləndirilmələri ilə məhdudlaşdırılmamalıdır. Tədris layihəsi və məzmunun keyfiyyətinin həmkar tərəfindən nəzərdən keçirilməsi (özünü-qiyməlǝndirmə ilə yanaşı) kimi digər qiymətləndirmə metodları tədris səmərəliliyinin tam şəkildə anlaşılması və daha faydalı şəkildə qiymətlədirilməsinə kömək edə bilər.

Müzakirələrdə, üz-bə-üz fəaliyyətlərdə və ya debrifinqdə və sertifikatların təqdimatı mərasimində alınan qeyri-formal rəyə də mühüm əhəmiyyət verilir. Bəzi ölkələrdə qeyri-formal mübadilə yolu ilə rəy toplamaq daha asan olduğundan, bu cür rəyləri də nəzərə almaq vacibdir. 6-cı əlavəyə baxın: qiymətləndirmə anketi.

## d. HELP kurslarının qiymətləndirmə səviyyələri

### *i. İştirakçıların qiymətləndirilməsi*

Təlimçi tərəfindən idarə olunan distant öyrənmə kursunun iştirakçıları sertifikasiya prosesindən keçir (bəzi hallarda akkreditasiya). Bu məqsədlə, iştirakçıların qiymətləndirilməsi öyrənmə hədəflərinə müvafiq olaraq aparılmalıdır. Öyrənmə hədəflərinə çatmaq mümkün olubmu? Bu, qismən iştirakçıların bu qiymətləndirilməsinin nəticələrinə əsasən qiymətləndiriləcək. Testlər, kazuslar və digər tapşırıqlar model kursu ingilis dilində hazırlayan mütəxəssislərin işçi qrupu tərəfindən hazırlanır.

### *ii. İştirakçılar tərəfindən qiymətləndirmə*

Kursun sonunda iştirakçılardan kursun məzmunu və formatı ilə bağlı rəy bildirməklə təlimi qiymətləndirmək və öyrənmə məqsədlərinin qarşılanıb-qarşılanmaması ilə bağlı öz fikirlərini bildirmək istənilir. Bu rəy sorğuları tamamilə eynidir və HELP Katibliyinin təmin edilmiş rəylərə asanlıqla çıxış əldə etməsi üçün tərcihən, ingilis dilində yüklənilir.

### *iii. Hesabat*

Təlimçidən kurs, iştirakçıların təlimdə iştirakı, məzmun, kursun adaptasiyası və s. haqqında hesabat təqdim etmək tələb edilir. Əlavə 5-ə baxın: tyutorun distant öyrənmə kursu ilə bağlı hesabatı.

## e. Sertifikatlaşdırma və debrifinq görüşü

Milli tyutorun təmin etdiyi siyahı əsasında HELP Katibliyi kursda uğurla iştirak edənlərə sertifikat verir. HELP Sertifikatı Avropa Şurası və MTİ/VA tərəfindən birgə şəkildə verilir və hər ikisinin nümayəndəsi

[39] http://www.westga.edu/~distance/ojdla/summer72/tobin72.html

tərəfindən imzalanır. Sertifikatlar MTİ/VA-a göndərilir və sonra iştirakçılar arasında paylanır. Sertifikatlar həmçinin debrifinq görüşü təşkil edildiyi təqdirdə HELP Katibliyinin üzvü tərəfindən təqdim edilə bilər.

Pilot ölkədə kursun sonunda mükafatlandırma mərasimi kimi debrifinq görüşü təşkil edilir. Görüşün əlavə dəyəri HELP Katibliyinin iştirakçılardan rəy toplaması və gələcək fəaliyyətlərin təşkil edilməsi baxımından təlim ehtiyaclarının qiymətləndirilməsidir. Debrifinq görüşü adətən, eyni və ya başqa HELP distant/qarışıq kursu başlayan ölkələrdə eyni gündə təşkil edilir.

#### Sertifikatlaşdırma meyarı

Iştirakçılar kurs materiallarının hazırlanmasında iştirak edən İQ-un üzvləri tərəfindən müəyyən edilmiş meyara əsasən sertifikatlar ilə təltif edilir. Mövzuya və hədəf auditoriyaya yğun olaraq meyara daxil ola bilər (bu, hədəf auditoriyaya əsasən dəyişə bilər):

- AİHK ilə tanışlıq kursundan uğurla keçmək
- Kurs materiallarına əməl etməklə, kursu müntəzəm şəkildə izləmək
- Müzakirələrdə iştirak etmək
- Hər bir modul üçün təmin edilmiş tapşırıqlardan uğurla keçmək
- Yekun tapşırıqdan 60% keçmək

Uğurlu iştirakçıların siyahısının müəyyən edilməsi təlimçinin səlahiyyətinə buraxılır.

#### Sertifikatların təqdim edilməsi

HELP və milli institut tərəfindən birgə təqdim edilən sertifikatları çap etmək üçün HELP Katibliyi aşağıdakıları qəbul etməlidir:

- Uğurlu iştirakçıların siyahısı (ad, soyad)
- Partnyor təşkilatın adı və loqosu (.jpg formatı, yüksək əksetdirmə qabiliyyəti)
- Təlimin bitmə tarixi

Sertifikatların çap edilməsi üçün bir neçə həftə lazımdır və yuxarıda qeyd edilən məlumatlar debrifinq/sertifikatlaşdırma görüşündən bir ay əvvəl HELP Katibliyinə göndərilməlidir.

### f. Kursun yoxlanılması

Pilot mərhələnin məqsədi müxtəlif ölkələrdə kursu sınaqdan keçirmək, təlim materiallarının HELP Moodle platformasına köçürülməsindən və hər hansı istifadəçi üçün əlçatan edilməsindən əvvəl yoxlanılıb-yoxlanılmasının zəruriliyini yoxlamaqdır.

Mövcud kursların kurrikulumu milli təlimçilərin hesabatlarında vurğulandığı təqdirdə pilot mərhələdən sonra yoxlanılır. Bundan başqa, kurikkulum presedent hüququnun yenilənməsi zəruri olduqda müəyyən müddətdən sonra yoxlanıla bilər. Təlim materialları İQ-un üzvləri, HELP Redaktə Heyəti, HELP Məsləhət Heyəti və Avropa Şurasının müvafiq departamentləri tərəfindən yoxlanılır.

Rəylər HELP üçün materialları yenilənmiş saxlamaq və elektron öyrənmə kurslarının metodologiyasını inkişaf etdirmək üçün vacibdir.

### Təlimçinin rəyi

HELP təlimçisi HELP-i təlimin/kursun gedişatı barədə, o cümlədən aşağıdakı məqamlar haqqında ətraflı məlumatlar ilə təmin edir.

- İştirakçıların motivasiyası
- Müzakirə forumlarında iştirak
- Testlərin nəticələri
- Kursun formatı və müddəti və iştirakçıların necə reaksiya verməsi
- Kursun milli adaptasiyası, o cümlədən, milli hüquqi norma üçün prioritetlər, iştirakçıların seçilmiş qrupu üçün səmərəlilik…
- İştirakçıların rəyi və onların kursla bağlı təəssüratları

### İştirakçıların rəyi

Iştirakçılar mümkün olduqda debrifinq görüşü vasitəsilə və ya HELP Moodle platformasında hər bir distant öyrənmə kursunun sonunda əlçatan olan rəy sorğusundan istifadə etməklə bizi rəyləri ilə təmin edirlər.

Rəyin ingilis dilində əldə edilməsi HELP Katibliyi üçün dəyərlidir. Lakin, dil baryeri səbəbilə təlimçi üçün rəylərin milli dildə toplanması və kursun/təlimin sonunda yekun hesabatla həmin rəy barədə HELP Katibliyinə hesabat verməsi zəruridir.

### Milli təlim institutun rəyi

Təlim institutundan alınmış rəy çox dəyərlidir. Iştirakçılar kursu bəyəndimi? Kursda neçə nəfər qeydiyyatdan keçib? Başqa kurs başlayacaqsınızmı?

Həmçinin, təlim institutu HELP-ə təlimin onların ehtiyaclarına uyğun olub-olmaması və onun necə daha səmərəli edilməsi barədə məlumat verə bilər.

## g. Müstəqil öyrənmə materialı kimi kurrikulumun istifadəsi: Distant öyrənmədən müstəqil öyrənməyə

Müxtəlif ölkələrdə distant/qarışıq kursun başladılmasından və onun yoxlanılmasından sonra, təlim materialları HELP Moodle platformasının müstəqil təlim hissəsinə köçürülə bilər. Bu, nə deməkdir?

Müstəqil öyrənmə resurslarının HELP Moodle platformasında hesabı olan istənilən istifadəçi üçün əlçatan olunmasını görürük. Mövzuya marağı olan istənilən şəxsi materiallara onlayn, ödənişsiz çıxışı olacaq.

"Distant öyrənmə kursunu" "müstəqil öyrənmə resursundan" fərqləndirən əsas element odur ki, müstəqil öyrənmə resurslarına nəzarət edən milli təlimçi olmur və milli təlim institutu ilə birgə sertifikat verilmir, bu da hər hansı kreditin verilməməsi deməkdir.


HELP
Training
1
QUALITY
ECHR
NATIONAL
LAW

# HİSSƏ 3: YEKUN - HELP Şəbəkəsində necə fəal rol oynamaq olar

## HELP Şəbəkəsinin əhəmiyyəti: onun bir hissəsi olmaq

**Yeganə bərabər ümum-Avropa İnsan Hüquqları Təlim Şəbəkəsi** olan HELP Şəbəkəsi Avropa Şurasının 47 üzv dövlətinin Hakimlər və Prokurorlar üçün Milli Təlim İnstitutlarının və Vəkillər Assosiasiyalarının nümayəndələrindən ibarətdir.

HELP Şəbəkəsinə Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ ilə təfsir edilən AİHK standartları ilə bağlı hüquqşünasların ilkin və davamlı təliminin hazırlanmasını və həyata keçirilməsini təşviq etmək həvalə olunub. Şəbəkə bunu HELP-ə müvafiq və səmərəli təlim hazırlamağa imkan verən ən yaxşı təcrübənin bölüşdürülməsi vasitəsilə edir.

Müvafiq təlimin təmin edilməsi hüquq peşəkarlarının milli səviyyədə, gündəlik işlərində "refleks" kimi AİHK-nı tətbiq etmək imkanının möhkəmləndirilməsini təmin edir. AİHK-in tətbiq edilməsi sonunda bütün müvafiq sahələrdə avtomatik olacaq.

AİHK-nın milli qərarlarda tətbiq edilməsi hakimlər və prokurorlar üçün mühümdür. Bu, *həmçinin* milli səviyyədə razılaşdırılmış presedent hüququna səbəb olur. Hüquqşünaslar sistematik olaraq AİHK standartları haqqında düşünməli, lakin həmçinin, AİHM-ə təqdim edilmiş ərizələrdəki qəbuledilənlik meyarlarına necə riayət etməli olduqlarını bilməlidirlər. Bu, AİHK standartlarının daha yaxşı şəkildə həyata keçirilməsinə səbəb olmaqla, ərizələrin keyfiyyətinin artırılmasının təmin edilməsində mühüm rol oynayır.

HELP resursları platformada hesabı olan istənilən istifadəçi üçün ödənişsiz və çox dildə əlçatandır. Bu, 47 üzv dövlətdə hüquqşünaslar arasında AİHK üzrə biliyin yayılmasına töhfə verir. O, bunu hüquqşünaslar üçün beynəlxalq və milli təlim təşəbbüsləri arasında əlaqələndirmənin və bütövlüyün təkmilləşdirilməsi zamanı həyata keçirir.

> **"Təlimin mənimsənilməsinə münasibətdəki dəyişiklik daxildir"**

**HELP kurslarının MTİ/VA kurrikulumuna birləşdirilməsini inkişaf etdirmək üçün mümkün təşəbbüslər** arasında aşağıdakılar nəzərə alınmalıdır:

- AİHM barədə milli hakimiyyət orqanlarına düzgün şəkildə təlim keçilməsi ehtiyacı/maraqları barədə (məsələn, Liviyaya geri çəkilmə əməliyyatlarını keçirən sərhəd mühafizəçilərinə müvafiq təlimin keçirilməməsinin 4 saylı Protokolun 4-cü Maddəsini pozduğu barədə AİHM-nin *Hirsi*-nin işi ilə bağlı qərarda gəldiyi nəticə) və HELP resurslarının müvafiq qaydada daxil edilməsi ehtiyacı barədə **hər bir HELP kursunun başlanğıc görüşü münasibətilə daha çox maarifləndirmə**;

- HELP başlanğıc görüşlərindən əvvəl **MTİ/VA-ların** sözügedən kursun davamlı təhsil proqramlarına birləşdirmələrini və onu tədbir/sonrakı görüşün hazırlanmasına uyğun olaraq planlaşdırmalarını daha **rəsmi qaydada təmin etmək**;

- Avropa Şurasının hər bir Üzv Dövlətinin Ədliyyə Nazirliklərindəki müvafiq **siyasi/inzibati orqanları ilə əlaqələrin yaradılması/onların dəstəklənməsi ki,** bu, müvafiq MTİ/VA-ları HELP təlim resurslarını kurrikulumlarına birləşdirməyə təşviq etsin;

- HELP kurslarının MTİ/VA kurrikulumlarına birləşdirildiyi ölkələrdə, bu cür MTİ/VA-larının müxtəlif alətlər vasitəsilə (vebsayt, peşəkar təlim sərgiləri, qeydiyyat reklamı kampaniyaları) **HELP kurslarını göstərmələrinin və təşviq etmələrinin həvəsləndirilməsi**;

- MTİ/VA-ların HELP kurslarına birləşdirilməsi üçün stimulların yaradılması (məsələn, təlim kurrikulumları HELP materiallarını ehtiva edirsə, öz vebsaytlarında və bukletlərində göstərə biləcəkləri HELP/Avropa Şurası yarlığının yaradılması və verilməsi)

Həmçinin, daha geniş kontekstdə HELP Proqramı hüquqşünaslar üçün hüquqşünaslar tərəfindən keçirilən insan hüquqları təlimi üçün resurs kimi qəbul edilir. Hüquqşünaslar üçün (insan hüquqları) təlimi və ya təlim üçün maliyyə təklif edən çoxsaylı digər institutlar mövcuddur (bax aşağıda).

**Hüquqşünaslar üçün Xarici (İnsan Hüquqları) Təlim Təminatçıları**



Bununla belə, bu institutların əksəriyyəti insan hüquqlarına hər hansı xüsusi diqqət ayırmadan ümumi hüquqi təlim təmin edir. İnsan hüquqları təlimini təklif edən beynəlxalq təşkilatlar və ya QHT-lərdə bu, adətən HELP Proqramından daha az institusionallaşıb.

**Üstünlüklər**

- AİHM ilə sıx əlaqəsinə və Avropa Şurasının erdemli dairəsinin bir hissəsi olmasına görə etimadlılıq
- Uyğunlaşdırılmış yanaşma: hər bir ölkəyə uyğunlaşdırılmış və AİHK-in tez-tez rast gəlinən pozuntularını və cari problemləri ehtiva edən kurslar; başlanğıc görüşündən sonra iştirakçıların ehtiyaclarına uyğunlaşdırmaq imkanı; ümumi və xüsusi məlumatları birləşdirmək imkanı
- Hər yerdə əlçatan, üz-üzə təlimlərdə iştirak edə bilməyən şəxslər üçün uyğun olan, müasir təlim forması kimi onlayn təlimlər
- İnsan hüquqlarını proqramın bir hissəsi kimi tədris etmək əvəzinə onlar üzərində daha çox ixtisaslaşmaq
- Daha az təlim imkanları olan prokurorlar üçün təlimin təmin edilməsi
- Kommersiya xarakteri daşımır və ödənişsiz şəkildə əlçatandır
- Yüksək maarifləndirmə və yayılma imkanını təklif edən, info/focal point sistemi vasitəsilə gücləndirilən ÜmumAvropa şəbəkəsi
- Sertifikat almış milli tyutorlar vasitəsilə təlim
- İştirakçı institutlar üçün ağır inzibati prosedurların olmaması
- Ayrı-ayrı hüquq mütəxəssisləri ilə deyil, MTİ-lər və VA-lar ilə iş vasitəsilə çoxaltma təsiri
- İnsan hüquqları vəziyyətinin çətin olduğu ölkələrdə QHT-lər tərəfindən təklif edilən kurs iştirakçılarından daha çox Avropa Şurasının təlim kurslarının iştirakçıları üçün daha çox təhlükəsizliyin təmin edilməsi
- Müəyyən vaxt sonra mövcud kursların davamlılığına və yenilənməsinə imkan verən təsis edilmiş proqram
- Üç hədəf qrupun kombinasiyası: hakimlər, prokurorlar və vəkillər

*Məlumatlara asan çıxış*

## HELP platformasından istifadə etmənin faydaları

Təlim müəssisəsi kimi istər ilkin, istərsə də davamlı təlim olsun, hüquqşünaslar arasında insan hüquqlarını təşviq etmək sizin öhdəliyinizdədir. HELP bütün müəssisələr üçün əlçatan onlayn resursları istifadə etməyi və hüquqşünaslar üçün ehtiyacları olan resursları cəld, asan və bütün

dəstəklərdə, o cümlədən portativ cihazlarda tapmağı asanlanlaşdıran və əlçatımlı edən platforma təmin edir.

HELP elektron öyrənmə platformasında həmçinin asanlıqla hər bir ölkədən hər bir milli dildə təlim materialları yerləşdirilə bilər. Platforma təxminən 47 Üzv Dövlətdən resursları toplamaq və onları digər ölkələrdən olan hüquqşünaslar üçün əlçatan etmək üçün istifadə edilməlidir.

Forumlardan hüquqşünasların insan hüquqları ilə bağlı məsələləri müzakirə etmələri və fikirlərini mübadilə etmələri üçün istifadə edilə bilər.

## HELP sertifikatı

HELP hüquqşünaslara çatdırılan təlimin keyfiyyətini təmin etmək üçün müxtəlif sertifikatlar təmin edir. İştirakçıların HELP proqramı çərçivəsində keçdikləri kurslar üçün kredit almaq ehtimalı mövcuddur, bu da milli səviyyədə AİHK təliminin daxil edilməsinin yoludur.

### a) HELP sertifikatı almış təlimçilər

HELP təlimçilərinin sertifikatlaşdırılması milli təlimçilərin HELP metodologiyasına yiyələnməsini və HELP resurslarının səmərəli şəkildə istifadə edilməsini təmin edir. HELP sertifikatı almış təlimçilər aşağıdakı tələbləri yerinə yetirir:

- Strasburqda 3 günlük təlimdən keçmək
- AİHK standartlarını yaxşı bilmək (AİHK ilə tanışlıq üzrə HELP kursu)
- Metodologiyanın və HELP alətlərindən və resurslarından istifadəsinin qavranılmasını göstərmək üçün tapşırığı icra etmək

### b) Kurslar üçün HELP sertifikatları

HELP distant öyrənmə kurslarını iştirakçıların seçilmiş qrupu keçir və onlara HELP proqramının sertifikatını almış təlimçisi moderatorluq edir (HELP sertifikatı almış təlimçilərin siyahısı[40] onlayn şəkildə əlçatandır). Kursun sonunda qiymətləndirmə tyutora kursun hansı iştirakçılarının sertifikata layiq olduğunu müəyyən etməyə imkan verir. Bu, aşağıdakı meyarlara əsaslana bilər:

- Kursu müntəzəm olaraq keçmək
- Müzakirələrdə iştirak etmək
- Hər bir modul üçün təmin edilmiş tapşırıqlardan uğurla keçmək
- Yekun tapşırıqdan uğurla keçmək

İştirakçının sertifikat almağa hüququnun çatıb-çatmamasını müəyyən etmək təlimçinin və milli təlim institutunun səlahiyyətindədir.

[40] http://helpcoe.org/content/training-trainers

İştirakçılara HELP sertifikatları HELP və cəlb olunmuş milli təlim institutu tərəfindən birgə verilir. Milli təlim institutu tələb edərsə, HELP təlim üçün tələb edilən minimum öyrənmə saatlarını təmin edə bilər, bu da iştirakçıların müvafiq akkreditasiyasına səbəb ola bilər. Kreditlərin verilməsi milli təlim institutunun öhdəliyinə buraxılır.

### c) HELP "yarlığının" verilməsi

HELP-in məqsədlərindən biri insan hüquqları təlimini ilkin və davamlı təlimin bir hissəsi kimi daxil etməkdir. Bəzi təlim müəssisələri öz təlimlərini yaratmaq və onun üçün onun Avropa Şurası ilə təsdiqləndiyini göstərən HELP "yarlığı"nı əldə etmək istəyə bilərlər. Bu, təlim müəssisələri üçün çox faydalıdır və HELP Şəbəkəsi ilə birlikdə müəyyən edilmiş konkret meyarlara riayət etməklə yerinə yetirilə bilər.

**Uğur hekayəsi*:***

***Səmərəlilik: HELP Proqramı tyutor tərəfindən icra edilən yaxşı keyfiyyətli distant öyrənmə kursları yaratdığı üçün səmərəlidir. Təcrübə göstərir ki, HELP təlimindən keçən hüquqşünaslar təlim aldıqları hüquqi mövzu ilə bağlı bilik toplayır. Müstəqil öyrənmə kursları çoxsaylı hüquqşünaslara çatmaq potensialına sahibdir.***

## HELP-in 5 əsas üstünlüyü

HELP proqramının əvvəldə qeyd edilmiş əsas üstünlükləri onu AİHK biliyini artırmaq istəyən bütün hüquqşünaslar üçün dəyərli edir və milli təlim institutlarının hüquqşünaslar üçün AİHK təliminin hazırlamasının və inteqrasiya edilməsinin asan yolunu təmin edir.




# Odur ki, təşəbbüslərimizdə iştirak edin və şəbəkəmizə qoşulun!

## RESURSLAR VƏ ƏLAVƏLƏR

*Əlavə 1: **ToT üçün ssenarilər***

HUMAN RIGHTS EDUCATION FOR LEGAL PROFESSIONALS

# HELP TƏLİMÇİLƏRİ ÜÇÜN TƏLİM – SSENARİLƏR

*Hüquqşünaslar üçün İnsan Hüquqlarının Tədrisi üzrə Avropa Proqramı (HELP)*

## *Giriş sessiyasının ssenarisi*

| | |
|---|---|
| **Hədəf** | İştirakçıların bir-birini daha yaxşı tanımasına və təlim proqramında daha yaxından iştirak etməsinə köməklik göstərmək |
| **Məqsəd** | - ToT proqramı iştirakçılarının bir-birilərini daha yaxşı tanımasına köməklik göstərmək<br>- İştirakçıların bilik, təcrübə səviyyəsindən və işindən asılı olmayaraq təlimdə fəal iştirak etmələri üçün məhsuldar iş mühitini yaratmaq<br>- Fərdi gözləntiləri, qorxuları paylaşmaq və təlimə verilə biləcək mümkün töhfəni müzakirə etmək |
| **Gözlənilən nəticələr** | - İştirakçılar bir-biri ilə, ekspertlərlə və təlimçilərlə tanış olurlar<br>- İştirakçılar effektiv təlim yaradılmasında buzqıranların rolunu başa düşür, buzqıranların müxtəlif səviyyələrinin və növlərinin olduğunu bilirlər<br>- İştirakçılar müxtəlif tapşırıqlar hazırlaya və onları necə həll etmək lazım olduğunu bilirlər<br>- ToT iştirakçıları öz fikirlərini və rəylərini sərbəst şəkildə ifadə edə, bir-biri |

<table>
<tr><td></td><td>ilə müzakirələr apara və qrup işində iştirak edə bilirlər<br>- İştirakçıların gözləntiləri və baxışları ToT təlimçilərinə aydın olur, iştirakçılar proqrama necə töhfə verə biləcəklərini başa düşürlər</td></tr>
<tr><td>Addımba-addım təsvir</td><td>Giriş – 40 dəq.<br><br>1. Tapşırıq «Adların dairəsi» - 4 dəq. İştirakçılardan adlarını və gəldikləri regionu bildirmələri xahiş olunur<br><br>2. Tapşırıq "Molekullar" - 12 dəq. Aşağıda verilən xüsusiyyətlərdən asılı olaraq verilən mövzunu müzakirə etmək və ya verilən mövzu ilə bağlı fikir mübadiləsi aparmaq üçün mikro-qruplar (4-6 nəfər) yaradılır. Hər biri 4 dəqiqə davam edən 3 tur<br><br>Müzakirə ediləcək suallar:<br>- AİHK-in özünüzlə assosiasiya etdiyiniz maddəsi<br>- Ölüm cəzasının lehinə və ya əleyhinəsiniz və niyə<br>- Nə isə öyrənməli olduğum zaman mənin aşağıdakılara ehtiyacım olur…<br><br>Xüsusiyyətlər:<br>- Doğulduğu ay;<br>- Gözlərinin rəngi;<br>- Ovuc içinin uzunluğu<br><br>3. Tapşırıq “Qerb” – 25 dəq. Hər bir şəxsə üzərində boş gerb şəkli çəkilmiş vərəq verilir. “Qalxanın” üzərində dörd kvadrat var. İştirakçılardan xahiş olunur ki, həmin sahələrdə ailələri, peşə fəaliyyətləri, hobbiləri və HELP proqramı ilə assosiasiya etdikləri beş sözü yazsınlar. Onlar həmçinin özlərini təmsil edən sivmvolun şəklini çəkməli və ya devizi yazmalı, eləcə də öz adlarını qeyd etməlidirlər. Daha sonra iştirakçılar otaq boyunca hərəkət edərək digər iştirakçılara yazdıqları qeydlərlə bağlı istədikləri məlumatı verirlər.<br><br>4. Tapşırıq "Neçə iştirakçı tanıyırsan" - 4 dəq. Təlimçi iştirakçılardan aşağıdakıları etməyi xahiş edir:<br><br>- Təlimdə iştirak edənlərdən 5-nin adını bilirsinizsə əlinizi</td></tr>
</table>

| | |
|---|---|
| | qaldırın<br><br>- Təlimdə iştirak edənlərdən 10-nun adını bilirsinizsə əlinizi qaldırın<br><br>- Təlimdə iştirak edənlərdən 15-nin adını bilirsinizsə əlinizi qaldırın<br><br>Tapşırıq ən az bir iştirakçının bütün digər iştirakçıların adını söyləməsinə qədər davam edir.<br><br>**Gözləntilər – 30 dəq.**<br><br>İştirakçılara 3-rəngli yapışqanlı kağızlar (post-it) paylanır və onların üzərində iştirakçılar aşağıdakıları yazmalıdırlar:<br><br>1. Mən bu təlimdən nəyi gözləyirəm?<br><br>2. Bu təlim zamanı nəyi öyrənmək istərdim?<br><br>3. Mənim təlimin proqramına töhfəm nə olacaq?<br><br>İştirakçılar fərdi qaydada apardıqları işin nəticələrini A1 formatlı üç vərəqə köçürür və onları hər biri 4-5 nəfərdən ibarət olan qruplarda müzakirə edirlər. |
| **Materiallar, məkan, resurslar** | A4 kağız, yapışqanlı rəngli kağızlar (post-it), markerlər |
| **Nəticələr** | *Tapşırığı yerinə yetirdikdən sonra doldurmaq lazımdır* |
| **Qiymətlən-dirmə** | *Tapşırığı yerinə yetirdikdən sonra doldurmaq lazımdır* |

# “Qəbuledilənlik meyarları”[41] sessiyasının ssenarisi

| | |
|---|---|
| **Hədəf** | İştirakçıların “AİHM-ə verilən şikayətlərin qəbuledilənlik meyarlar” mövzusu üzrə bacarıqlarının, biliklərinin və dəyərlərinin artırılması |
| **Məqsədlər** | • İştirakçıların təlim ilə bağlı ehtiyaclarının, gözləntilərinin və bilik səviyyəsinin qiymətləndirilməsi, tədris ilə bağlı boşluqların müəyyən edilməsi<br>• Qəbuledilənlik tələbləri ilə bağlı məlumatın verilməsi<br>• Mövzu ilə bağlı ən mürəkkəb və son məlumatların vurğulanması<br>• Iştirakçıların hüquqi təhlil ilə bağlı bacarıqlarının artırılması<br>• İştirakçıların işlə bağlı müvafiq arqumentləri ifadə etmək bacarığının artırılması<br>• Özünü-planlama vərdişlərinin təkmilləşdirilməsi<br>• HELP tədris platforması üzrə mövcud olan resursların aşkar edilməsi |
| **Gözlənilən nəticələr** | Kursdan sonra iştirakçılar bu və ya digər işin qəbuledilənlik meyarlarına uyğun olub-olmadığınl müəyyən edə biləcəklər |
| **Addımba-**<br>**Addım təsvir** | Üz-üzə sessiya № 1 (45 dəq)<br>5 dəq. İştirakçıların təqdimatı, təlim ehtiyaclarının qiymətləndirilməsi (Suallar dairəsi tapşırığı) – *Irina və Tatyana*<br>5 dəq. İştirakçıların gözləntiləri və sorğunun nəticələrinin müzakirəsi (Flipçart). – *Irina və Tatyana*<br>10 dəq. Beyin fırtınası «Qəbuledilənlik meyarlarının siyahısı” flipçartda yazılır + yoxlamanın sonunda AİHM-ə qəbuledilənlik meyarları ilə bağlı video göstərilir – *bütün təlimçilər*<br>5 dəq. Mühazirə: «Ölkədaxili hüquqi müdafiə vasitələrinin tükəndirilməsi: Rusiyaya qarşı işlər” – *Vladimir*<br>5 dəq. Mühazirə: «Biz nədən şikayət edirik?» və «AİHM dördüncü instansiya |

[41] ToT iştirakçıları tərəfindən hazırlanıb və icra edilib (Qrup A3)

<table>
<tr><td></td><td>məhkəməsi deyil» - Aleksandr<br><br>10 dəq. Yeni müraciət forması: qaydalar və tez-tez yol verilən səhvlər» - Irina<br><br>5 dəq. Sessiyanın məsafədən olan hissəsi ilə bağlı məlumat: materialları, əlavə resursları, forum və kommunikasiyaları haradan və necə tapmaq olar, iş qrafiki – bütün təlimçilər<br><br>Məsafədən tədris hissəsi.<br><br>1 saat 10 dəq Kazuslar<br><br>Üz-üzə sessiya № 2 (65 dəq)<br><br>5 dəq. Sessiyanın gedişatı ilə bağlı ümumi məlumat + iki qrupa bölünmə.<br><br>10 dəq. Kazusun müzakirəsi –qruplarda arqumentlərin hazırlanması<br><br>10 dəq. Qrup təqdimatı “Şikayət qəbuledilən deyil”<br><br>10 dəq.  Qrup təqdimatı “Şikayət qəbulediləndir”<br><br>15 dəq. Təlimçilərin şərhləri– bütün təlimçilər<br><br>10 dəq. Üç saatlıq sessiya ilə bağlı müzakirə (texnika – bəyəndim … Mən bunu təkmilləşdirərdim…) – Tatyana<br><br>5 dəq. Yekunlaşdırma</td></tr>
<tr><td>Materiallar, məkan, resurslar</td><td>o E-tədris platformasında HELP nümunə kursu<br>o yeni müraciət forması<br>o “qəbuledilənlik meyarları”  videosu<br>o Sorğu nəticələri ilə bağlı hazırlanmış flipçart “Gözləntilər”<br>o Ərizəçilərin tez-tez yol verdikləri səhvlərlə bağlı hazırlanmış flipçart<br>o iki otaq (biri kompüterlərlə təchiz olunmuş)<br>o 12-13 stul<br>o Markerlər<br>o Kompüterlər<br>o Proyektor<br>o İnternet<br>o A4 kağız, qələmlər<br>o Su<br>o gülümsəmələr<br>Gün, vaxt: 9 oktyabr 2015, 14.30- 18.00 (kofe-fasiləsi - 30 dəqiqə)<br>(Qrup A3): Təlimçilər Aydarov Vladimir, Qrigoryeva Tatyana, Şerbakova İrina,</td></tr>
</table>

| | |
|---|---|
| | Tsvetov Aleksandr |
| **Nəticələr** | *Sessiyanın müddəti HELPproqramının nümunə kurrikulumundan tam istifadə etməyə imkan vermir. HELP proqramının təlim ehtiyaclarının qiymətləndirilməsindən istifadə etməklə müəyyən qrupun təlim ehtiyacları müəyyən edilib və iştirakçıların təlim ehtiyacları və gözləntiləri əsasında ən maraqlı mövzular seçilib.*<br><br>*Qısa müddət ərzində diqqəti aşağıda verilmiş ən aktual mövzulara yönəltmək mümkün olub:*<br><br>*- Ölkədaxili hüquqi vasitələrin tükəndirilməsi: Rusiyaya qarşı işlərlə bağlı kazuslar;*<br><br>*- Verilən şikayətlərdə tez-tez rast gəlinən səhvlər;*<br><br>*-Yeni qaydalar/yeni formulyar.*<br><br>*Məsafədən tədris hissəsində iştirakçılar HELP tədris proqramında qəbuledilənlik meyarları ilə bağlı mövcud olan resurslarla və məlumatlarla fərdi qaydada işləmişlər. Bundan əlavə onlar ikinci üzbəüz sessiyada kazus qismində istifadə olunan işlə bağlı məlumatı diqqətlə oxumuşlar.*<br><br>*Yekun hissəsində iştirakçılar aid olduqları qrupun mövqeyindən asılı olaraq "lehinə"və"əleyhinə" arqumentlərini təqdim etmişlər.*<br><br>*Sessiyanın sonunda iştirakçıların məzmun və formatla bağlı rəyi nəzərə alına bilər ki, gələcək təlimləri yaxşılaşdırmaq məqsədilə istifadə edilsin.*<br><br>*İştirakçılar AHİM-ə uğurlu müraciətlər hazırlaya bilmək üçün yeni ərizə forması və əməl olunması labüd olan tələblərlə bağlı minimal biliklər əldə etmişlər* |
| **Qiymətləndir-mə** | *Sessiya ümumilikdə yaxşı hazırlanmışdı və mütəşəkkil idi. Təlimçilər həmişə vaxta (reqlamentə) əməl edirdilər.*<br>*Təlimçilər AİHM-in presedent hüququna bələd idilər və məzmunla bağlı rəy bildirə bilirdilər*<br>*İkinci sessiya zamanı verilən tapşırıqlar təlimçilər arasında aydın şəkildə bölüşdürülməmişdi*<br>*Təlimçilər müxtəlif üsul və metodlarla bağlı məlumatlı idilər və qəbuledilənlik meyarları ilə bağlı mini HELP kursları zamanı onlardan müvəffəqiyyətlə istifadə edirdilər (kiçik qruplarda müzakirə, təqdimat, beyin fırtınası, məsafədən müstəqil öyrənmə, debatlar (eyni işlə bağlı iki fərqli mövqe).* |

# “Cahal Birləşmiş Krallığa qarşı”[42] işi ilə bağlı səhnələşdirilmiş məhkəmə

| | |
|---|---|
| **Hədəf** | AİHM-ə verilmiş həqiqi işin timsalında “mini səhnələşdirilmiş məhkəmə” “ekspres səhnələşdirilmiş məhkəmə” təlim metodlarının tədrisi |
| **Məqsədlər** | • AİHM-nin seçilmiş presedent hüququ ilə bağlı biliklərin aşılanması, tənqidi düşüncə tərzinə malik olma və məntiqi arqumentlər irəli sürmə bacarıqlarının artırılması<br>• ToT nöqteyi-nəzərindən ədalət və insan ləyaqəti hissinin yetişdirilməsi<br>• Yaxşı buz qıran və qrup yaradan üsul kimi kimi tətbiq oluna bilən və eyni zamanda məzmunun dərinliyinə varan tapşırıqları göstərmək |
| **Gözlənilən nəticələr** | Təlim tapşırıqlarını başa düşmək, öz tapşırıqlarını hazırlamağı və təcrübədə tətbiq etməyi bacarmaq |
| **Addım-ba-addım təsvir** | 120 dəq<br>Compass-da təlimatları və paylama materiallarını tapın |
| **Materiallar, məkan, resurslar** | • Rol kartlarının surətləri<br>• Qeydlər götürmək üçün kağız və qələmlər<br>• Təlimçi üçün məlumat kartı<br>• Üç şəxsdən ibarət bütün qrupların bir-birilərindən ayrı oturmaları üçün kifayət qədər geniş sahə |
| **Nəticələr** | *İştirakçılar təlim sessiyaları zamanı və həmçinin yekun tapşırıqları üçün öz səhnələşdirilmiş məhkəmələrini hazırlayıb keçirə bilmişlər* |
| **Qiymətləndir-mə** | *ToT-un bu hissəsinə iştirakçılar tərəfindən 5 mümkün baldan 4.8 verilmişdir.* |

[42] Compass

*Əlavə 2: Şablonlar: Gündəlik*

# AVROPA ŞURASI

**PILOT DISTANT ÖYRƏNMƏ KURSUNUN BAŞLANĞIC GÖRÜŞÜ**

***[KURSUN BAŞLIĞI]***

# GÜNDƏLIK

**[məkan], [tarix]**

[Ünvan]

Avropa Şurasının Hüquqşünaslar üçün İnsan Hüquqlarının Tədrisi üzrə (HELP*)* Avropa Proqramı

tərəfindən

Partnyor MTİ və ya VA

ilə əməkdaşlıq çərçivəsində

təşkil edilib:

9.30 - 09.45 İştirakçıların gəlişi və qeydiyyatı

09.45 - 10.15 Açılış nitqi
*[HELP təlimçisinin adı], HELP təlimçisi*
*[Milli təlim institutunun Rəhbərinin adı]*

10.15 - 10.45 HELP Proqramına giriş: şəbəkə, məqsədlər, fəaliyyətlər və metodologiyalar.
*[Katibliyin üzvünün adı], HELP bölməsi, İnsan Hüquqları Siyasəti və Əməkdaşlıq Departmenti, İnsan Hüquqları Direktoratı, Avropa Şurası*

10.45 - 11.45 HUDOC və presedent hüququ üzrə digər axtarış alətləri
*[Təqdimatçının adı], Hüquqşünas, Presedent Hüquqi Məlumatı və Nəşrlər Bölməsi, Avropa İnsan Hüquqları Məhkəməsi*

11.45 - 12.00 *Fasilə*

12.00 - 12.30 [sözügedən mövzu] ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun icmalı
*[Təqdimatçının adı], Hüquqşunas, Avropa İnsan Hüquqları Məhkəməsi*

12.30 - 13.15 [kursun mövzusu] üzrə kursun icmalı
*[Focal və ya İnfo Pointin adı], [ölkə] üzrə HELP Proqramının əlaqələndirici şəxsi.*

13.15 - 14.15 *Nahar fasiləsi*

14.15 - 15.15 Kurs iştirakçılarının gözləntiləri və ehtiyacları haqqında açıq müzakirə; HELP platforması ilə dəstək.

Yekun nitqlər

### *Əlavə 3: Tyutor tərəfindən distant öyrənmə kursu haqqında hesabat*

[*Tarix, məkan*]

# Hesabat [*kursun adı, tyutorun adı*]

Məsafədən tədris təlimçilərinin hesabatına aşağıdakı elementlər daxil edilməlidir:

| **Model kurrikulumun iştirakçıların ehtiyaclarına uyğunlaşdırılması** |
|---|
| • *Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) həyata keçirilməsi və tətbiqi ilə bağlı təlim materiallarının hazırlanması*<br>• *AİHK-ın milli səviyyədə tətbiqi ilə bağlı xəbərlər / məlumatlar* |

| Təlim ehtiyaclarının qiymətləndirilməsi |
| --- |
| • *Təlim iştirakçılarının kursun inkişafı ilə bağlı xüsusi ehtiyaclarına cavab vermək üçün qiymətləndirmələr və gələcək fəaliyyətlərin hazırlanmasını həyata keçirməklə onlarla əlaqə saxlayın.*<br>• *Mümkün olan zaman keçmiş iştirakçıların yeni əldə etdikləri bilikləri və təlimin onların peşəkar fəaliyyətindəki təsirini qiymətləndirmək üçün onlarla əlaqə saxlayın.*<br>• *Avropa Şurasını müntəzəm olaraq kursun inkişafı ilə bağlı xəbərdar saxlayın;*<br>• *İştirakçıların rəylərini əldə etmək üçün Moodle platformasında Distant Öyrənmə seminarının sonu haqqında sorğunu yükləyin;*<br>• *Avropa Şurasına kursun keyfiyyət təhlilini təqdim edin;*<br>• *Avropa Şurasına iştirakçılardan əldə edilmiş qeyri-rəsmi rəylər haqqında məlumat verin.* |

| HELP elektron öyrənmə platforması |
| --- |
| • *İştirakçıların kursa qeydiyyatı HELP vebsaytının ehtiyat bölməsindədir*<br>• *Zəruri olan bütün məlumatları əldə etmək və onları kursun son müddətləri barədə xəbərdar etmək üçün iştirakçılar ilə əlaqə saxlayın;*<br>• *Elektron öyrənmə kursu zamanı* ***zəruri*** *sənədlərin və təlim materiallarının HELP vebsaytına yüklənməsi;*<br>• *İştirakçılar üçün bütün müvafiq xəbərlərin və məlumatların çapı;*<br>• *Xüsusilə kurs iştirakçılarına yönəlmiş AİHK mövzularını, suallarını və mesajları HELP vebsaytı forumuna göndərmək, onlar arasında müzakirələri və şəbəkəni stimullaşdırmaq və canlandırmaq: hər iki həftədən bir ən azı bir yeni müzakirə dərc edilməlidir. Tez-tez verilən sualların qeydiyyatını aparmaqla, onlayn forum vasitəsilə ünvanlanmış sualların vaxtında cavablandırılmasını təmin etmək;* |

| Kursun icrası və nəticələri |
| --- |
| • *Başlanğıc seminarı zamanı münasib müzakirələri başlatmaq və təcrübə mübadiləri apartmaq;*<br>• *Kursun uğurunu qiymətləndirmək və problemləri müəyyən etmək*<br>• *Nəticələrin təkmilləşdirilməsi yollarını müəyyən etmək* |

## *Əlavə 4: HELP qiymətləndirmə anketi*

Məsafədən tədris kursunun sonu – Anket

Kurs ..........................................................................................................................................

Tarix ............................................................................................................................................

Anketin məqsədləri:

Kursun məzmunu və tyutorun rolu barədə rəy əldə etmək

Gələcək məsafədən-tədris kurslarının keyfiyyətini artırmaq

1. **PEŞƏNIZ NƏDIR?**

- Birinci instansiya Məhkəməsinin Hakimi
- Apellyasiya Məhkəməsinin Hakimi
- Ali Məhkəmənin/Konstitusiya Məhkəməsinin Hakimi
- Prokuror
- Hüquqşünas
- Digər

2. **KURSA VERDIYINIZ ÜMUMI QIYMƏT NƏDIR?**

- Əla
- Yaxşı
- Kafi
- Adekvat
- Zəif

**3. ZƏHMƏT OLMASA AŞAĞIDAKILARA ÜMUMI QIYMƏT VERIN:**

| | Tamamilə razıyam | Razıyam | Neytralam | Razı deyiləm | Tamamilə razı deyiləm |
|---|---|---|---|---|---|
| 1. Əhatə edilən mövzular mənə uyğun idi və gündəlik işimdə faydalı olacaq. | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2. Kurs insan hüquqlarının milli səviyyədə tətbiq edilməsi ilə bağlı praktiki biliyimi inkişaf etdirdi. | | | | | |
| 3. Tyutor mənimlə qarşılıqlı ünsiyyətdə idi və kursda iştirakımı təşviq edirdi. | | | | | |
| 4. Tyutor kursun mövzusu ilə bağlı kifayət qədər səriştəli idi. | | | | | |
| 5. Təlim üçün ayrılmış vaxt kifayət qədər idi. | | | | | |
| 6. Hüquqi tərcümələrin keyfiyyəti adekvat idi. | | | | | |
| 7. Distant öyrənmə kursu üçün istifadə edilmiş vasitələr (forum, seminar, viki, videolar ...) adekvat və interaktiv idilər. | | | | | |
| 8. Tədqiqat işləri milli hüquq normasına uyğunlaşdırılmışdır. | | | | | |
| 9. Mən başqa bir HELP distant öyrənmə kursunu götürməyi düşünəcəyəm və/və ya onu həmkarıma tövsiyə edəcəyəm. | | | | | |

**IV. Ümumiyyətlə kurs barədə rəy və şərhləri toplamaqdan məmnun olardıq. Kursun strukturu və məzmunu ilə bağlı şərhlərinizi aşağıda əlavə edin.**

………………………………………………………………………………………………………………………………………………

………………………………………………………………………………………………………………………………………………

………………………………………………………………………………………………………………………………………………

………………………………………………………………………………………………………………………………………………

………………………………………………………………………………………………………………………………………………

………………………………………………………………………………………………………………………………………………

………………………………………………………………………………………………………………………………………………

Anketi cavablandırmaq üçün vaxt ayırdığınız üçün təşəkkür edirik!